AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 11

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2022

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2022, №11

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2022

www. filologiyameseleleri.com

DİLÇİLİK

Dos.**QULİYEVA ESMİRA ALLAHVERDİ QIZI**
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrası
Səməd Vurğun, 167

QƏDİM İNAMLAR, ETNİK ANLAYIŞLAR VƏ MƏİŞƏTLƏ BAĞLI TOPONİMLƏRDƏ PARALELLİK

XÜLASƏ

Türk mənşəli toponimik vahidlər hüdudları çox geniş olan böyük bir ərazidə yayılmışdır. Toponimik vahidlərin yayılması türk xalqlarının özlərinin qeyri-məhdud bir ərazidə məskunlaşması prosesinin nəticəsi kimi meydana çıxmışdır. Tarixi mənbələrdə göstərildiyinə görə türk xalqları hələ eramızın ilk yüzilliklərində hüdudları Şərqdə Çinə, Hindistana, Cənubda Əfqanıstana, İrana, Şimalda Ural dağlarına, Qərbdə qədim Bizans imperiyasına kimi uzanan bir ərazidə yaşamışlar. Bunlar isə öz növbəsində daxili miqrasiyaların daim fəaliyyətdə olması na real şərait yaratmışdır. Beləliklə, daxili miqrasiyalar böyük hadisələr olmadan da fəaliyyət göstərmişdir. Bütün bu cəhətləri nəzərə almaqla toponimlərin areal paralelliyini etnik anlayış və sosial-məişət amilləri əsasında ümumiləşdirmək olar. Geniş ərazi boyunca yayılmış və məskunlaşmış türk xalrlarının arasında yeni adət və ənənələrlə , başqa xalqlarla münasibətdən doğan sosial amillərlə, həmçinin digər məişət fərqləri ilə əlaqədar baş verən differensiallaşma prosesləri belə ilkin etnik anlayışların üstünü pərdələyə bilməmişdir. Türk xalqlarının qədim birliyinin öyrənilməsi, üzə çıxarılması baxımından inamlar və etnik anlayışlarla bağlı olan paralelliyin tədqiqi çox qiymətli mənbələrdən birini təşkil edir.

***Açar sözlər*:** *toponimik vahidlər, monoteizm və politeizm, etnik anlayış, totem anlayışı*

Türk mənşəli toponimik vahidlər hüdudları çox geniş olan böyük bir ərazidə yayılmışdır. Toponimik vahidlərin yayılması türk xalqlarının özlərinin qeyri-məhdud bir ərazidə məskunlaşması prosesinin nəticəsi kimi meydana çıxmışdır. Tarixi mənbələrdə göstərildiyinə görə türk xalqları hələ eramızın ilk yüzilliklərində hüdudları Şərqdə Çinə, Hindistana, Cənubda Əfqanıstana, İrana, Şimalda Ural dağlarına, Qərbdə qədim Bizans imperiyasına kimi uzanan bir ərazidə yaşamışlar (1). Şübhəsiz, bu qədər geniş bir ərazidə məskunlaşan türk xalqları sosial cəhətdən oturaq həyat tərzi keçirə bilməzdilər.Çünki onların öz sərhədlərini daim genişləndirməsi yeni-yeni ərazilərin fəth olunması sayəsində başa gəlirdi. Nəticədə miqrasiyala-

rın, yerdəyişmələrin, köçmələrin sayı daim çoxalırdı. Bu miqrasiya və yerdəyişmələrdə isə qəbilələrin, tayfaların, tirələrin və ya hər hansı bir yaşayış məntəqəsinin üzvləri fəal iştirakçılara çevrilirdi. Onların ötüb keçdiyi ərazilərdə istər-istəməz xalqın etnik təfəkkürü, adəti, məşğuliyyəti, məişəti, həmçinin, əvvəllər məskun olduğu əraziyə məxsus adların izləri mühafizə edilirdi. Beləliklə, bir-birindən məsafəcə həm yaxın və həm də uzaq yerlərdə eyni yaşayış məskəninin adları görünməyə başlayırdı. Orda yaşamış əhalinin milli-etnik mənşəyi, sosial şəraiti, cografi-təbii mühiti barədə bilavasitə həmin adların öyrənilməsi nəticəsində məlumat əldə etmək mümkün olur. Aydındır ki, yer adlarının yaranmasını ancaq ilkin dövrlərin sərhəd genişlənməsi prosesi ilə məhdudlaşdırmaq olmaz. Çünki həmin proses başa çatdıqdan sonra və hətta sərhədlərin kiçildiyi dövrdə belə bir çox həll edilməli daxili sosial problemlər mövcud olmuşdur. Bunlar isə öz növbəsində daxili miqrasiyaların daim fəaliyyətdə olmasına real şərait yaratmışdır. Beləliklə, daxili miqrasiyalar böyük hadisələr olmadan da fəaliyyət göstərmişdir. Yer adlarının yayılmasında isə belə bir fəaliyyətin çox mühüm və müstəsna əhəmiyyətini qeyd etməmək mümkün deyildir.

Yer adlarının istər sərhəd genişlənməsi və istərsə də daxili miqrasiyalarla bağlı olan yayılmasında bir neçə ümumi cəhətin mövcudluğu səciyyəvidir. Bunlar yer adlarında qədim təfəkkür izlərinin, həmçinin, sosial şəraitin əks olunması qanunauyğunluqlarından ibarətdir. Bu iki cəhət insanın həyatı, əməli fəaliyyəti və qədim inamları ilə daha sıx bağlıdır. Onlar yer adlarının ayrı-ayrı ərazilərdə yayılması prosesində iştirak edir və əsas təsiredici amillərdən birinə çevrilir. Bütün bu cəhətləri nəzərə almaqla toponimlərin areal paralelliyini etnik anlayış və sosial-məişət amilləri əsasında ümumiləşdirmək olar.

1. Teonim anlayışlı toponimlərin paralelliyi

Toponim vahidlərdəki teonim anlayışında həm ucalıq, böyüklük və həm də ilahi qüvvə səviyyəli inamlar əks olunur. İlahi qüvvə anlayışı uca, əlçatmaz tanrı anlayışı ilə ümumiləşdiyi halda, totem anlayışı təbiətdə mövcud olan əqidə və hadisələrlə məhdudlaşır. Ona görə də onların arasında sitayiş və inam münasibəti ilə səciyyələnən bir fərq əmələ gəlir. Bu fərqlər, əslində, monoteizm və politeizm anlayışları üzrə qarşılaşır. Bununla belə, onların müəyyən inamla bağlı əlaqəsini də inkar etmək olmaz. Yer adlarında həm monoteizm, həm də politeizm inamları ilə bağlı anlayışlar özünəməxsus şəkildə əks olunur.

Qədim türk xalqlarında ilahi qüvvə anlayışı, başlıca olaraq, ***tanrı*** sözü ilə bildirilir. Bu anlayışın özü isə kök atributu ilə müəyyənləşir və konkretləşir. Belə ki, ***tanrı*** sözündəki ilahi anlayışı özünün həqiqi mənasını bilavasitə ***kök tanrı*** ifadəsində tapır. A.N.Qumilyov belə hesab edir ki, mavi mənası bildirən ***kök*** sözündə işıqlıq anlayışı əks olunur. İşıqlıq anlayışı isə insanların təbiətlə bağlılığının ən əsas cəhətlərindən birini təşkil edir (2).Qədim türklərdə ən yüksək varlığın ***tanrı*** adı ilə tanınmasını M.Adilov da təqdir edir.Orxon-Yenisey abidələrində bu söz həm Allah,

həm də Göy mənasında işlənmişdir. Sonrakı dinlərin bütün cidd-cəhdlərinə baxmayaraq, xalq dilində ***tanrı*** teonimi həmişə allah, xuda teonimlərinə nisbətən daha işlək olmuşdur .

Türk dillərinə məxsus qədim örnəklərdə tanrı (təkri) sözünün Göy, Allah, ilahi qüvvə və hakim, ağa kimi mənaları verilir . Bunların içərisində Göy və Allah ilahi qüvvə və hakim, ağa kimi mənaları verilir .

Türk xalqlarının yazılı mənbələrindən biri olan "Kitabi-Dədə Qorqud" dastanlarında tanrı sözünün böyüklüyünü, əlçatmazlığını, ülviyyətini göstərmək üçün *kök* sözünün məna paraleli funksiyası daşıyan "uca" sözündən də istifadə edilir:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən, görümlü tanrı.
Ol öydügüm uca tanrı
Dost oluban mədət versin (3)

Türk xalqlarının tanrı inamında xüsusi atribut kimi işlənən kök (göy) sözü müəyyən toponimik vahidlərdə də öz əksini tapır. Türk xalqlarının məskunlaşdığı ayrı-ayrı ərazilərdə kök (göy) ilə bağlı teonim paralelliyinin meydana gəlməsi qədim ilahi inamın özünün geniş areal boyunca yayılmasını göstərən faktlardan biri kimi xüsusi maraq doğurur.

2. Totem anlayışlı toponimlərin paralelliyi

Totem anlayışı qədim türk qəbilə və tayfaları üçün ən səciyyəvi xüsusiyyətlərdən biridir. Şübhəsiz, totemlər tanrı inamları səviyyəsində olmasa da, qədim türklərin müqəddəs hesab etdikləri varlıqlar kimi onların həyatında çox mühüm rol oynamışdır. Türk xalqlarında başlıca totemlər heyvanlara, quşlara və bəhəli ağaclara olan müqəddəslik inamları ilə əlaqədar olaraq meydana gəlmişdir. Bu inamlar, həmçinin türk xalqlarının məskunlaşdığı ayrı-ayrı ərazilərdəki toponimik vahidlərdə öz əksini tapır. Bunları nəzərə alaraq totem anlayışlı toponimik vahidlərin özlərini də heyvan, quş və bitki onqonları üzrə qruplaşdırmaq olar (4):

a) Heyvan onqonları bildirən toponimlər. Qədim türk tayfa və qəbilələrinin heyvan onqonları içərisində qurd/canavar, inək /sığır, öküz adları xüsusi yer tutmuşdur. Qədim mənbələrdə qurd sözü ilə yanaşı, canavar mənasında börü sözünə də təsadüf edilir. İnək söü müasir oğuz, sığır isə daha çox qıpçaq türk dilləri üçün səciyyəvidir. İnək və sığır sözləri Azərbaycan toponimiyasında müştərək olaraq yer adları tərkibində işlənir: ***İnəkboğan (Gədəbəy), Sığırlı (Kürdəmir) və s.***

b) Quş onqonları bildirən toponimlər. Türk mənşəli toponimlər sistemində quş onqonlarının da mühüm rolu vardır. Qədim türklərdə quş onqonları , həmçinin ayrı-ayrı qəbilə və tayfaların damğası - fərqləndirici nişanı kimi qəbul olunmuşdur (5).Quş onqonları ilə əlaqədar aşağıdakı yer adlarını göstərmək olar: ***Laçın (Laçın), Laçınlar (Şuşa), Laçın (Kəlbəcər), Göyərçin (Şuşa), Toğanlı (Xanlar), Qarğay (Zaqatala), Qarğabazar (Füzuli), Quşçu (Kürdəmir), Aşağı Quşçu (Tovuz), Dəli Quşçu (Zərdab)*** və s.

c) Bitki onqonları bildirən toponimlər. Bitki və ağacların türkxalqlarında müqəddəslik rəmzi bildirən totem kimi qəbul olunması motivlərinə "Kitabi-Dədə Qorqud" dastanlarında da rast gəlmək olur. Azərbaycan toponimiyasında ağac adlarının əsasında bir sıra yer adlarının yaranmasında , xüsusilə qoz, əzgil, nar, badam, fındıq, armud, alça, əzgil , söyüd, çinar kimi ağac adları başlıca yer tutur: ***Qozağacı (Dəvəçi), Qozlar (Xanlar), Qozlu (Laçın), Əzgilli (Beyləqan), Əzgilli (Zaqatala), Nardaran (Bakı), Narbağı (Lənkəran), Narlıq (Sabirabad), Badamlı (Şahbuz), Armudlu (Kəlbəcər), Alçalı (Salyan), Çinarlı (Qax), Söyüdlü (Gədəbəy), Söyüdlər (İKürdəmir)*** və s.

3. Sosial-etnik anlayışlı toponimlərin paralelliyi

Toponimlərin mühüm bir qisminin formalaşmasında sosial-etnik anlayışlı vahidlər iştirak edir.Türk xalqlarının məskunlaşdığı ərazilərdə , həmçinin Azərbaycanda etnik anlayış bildirən çoxlu adlar mövcuddur. Bunların müəyyən qismi mənşəcə türkdilli adlar sırasına daxil deyildir. Belə adlar türk xalqalrının yayıldığı ərazilərdə , demək olar ki, bütöv bir areal təşkil etmir. Ona görə də onlar öz mövcudluğu etibarilə ada xarakteri daşıyır. Türkdilli etnik adlar isə daha geniş arealı əhatə edir. Ümumilikdə qədim türk qəbiləvə tayfa birliklərinə əsasən hunlarla, qıpçaqlarla, oğuzlarla bağlı etnik qruplar daxildir. Qəbilə və tayfa adlarınını müxtəlif areallarda yayılması bir sıra paralel toponimik vahidlərin meydana gəlməsində də mühüm rol oynamışdır.

4. Say anlayışlı toponimlərin paralelliyi

Etnik anlayışlarla əlaqədar aparılan tədqiqatların nəticələrindən məlum olur ki, sayların da bəziləri qədim xalqlarda sakramental (müqəddəs) xarakter daşımışdır. Türk xalqlarının adətən üç, yedii, qırx saylarının müqəddəs rəqəm kimi işləndiyi müşahidə edilir (6). Bu sayların müqəddəs rəqəm kimi işlənməsi xüsusən şifahi xalq ədəbiyyatında özünə geniş yer tapır. Nağıllarda, dastanlarda, bayatılarda tez-tez işlədilən üç gün-üç gecə, yeddi gün-yeddi gecə, qırx gün-qırx gecə üçbaşlı əjdaha, yeddibaşlı div, qırx arşın quyu və s. ifadələr qədim inamlarla bağlı olduğunu göstərən mühüm faktlardır. Azərbaycan ərazisində 3, 5 və 30 rəqəmi əsasında yaranan aşağıdakı yer adlarına rast gəlmək olur: ***Üçgün (Quba), Üçoğlan (Ağdam), Üçtəpə (Xanlar), Üçtəpə (Cəlilabad), Beşdəli (Zəngilan), Beştalı (Salyan), Otuz iki (İmişli), Otuzikilər (Bərdə)*** və s.

Göründüyü kimi qədim inamlar və etnik anlayışlar toponimik vahidlərdə zəngin iz qoymuşdur. Türk xalqlarının məskun olduğu müxtəlif areallarda da həmin anlayışların yer adlarında da əks olunması təsadüfi deyildir. Geniş arealda yayılmış türk xalqlarının toponim paralelliyində əks olunan etnik anlayışlar həmin xalqları təşkil edən qədim qəbilə və tayfa birləşmələrinin ümumi həyat tərzi, əmək fəaliyyəti, dünyagörüşü və inamları haqqında aydın təsəvvür yaratmaq baxımından olduqca əhəmiyyətlidir. Geniş ərazi boyunca yayılmış və məskunlaşmış türk

xalrlarının arasında yeni adət və ənənələrlə , başqa xalqlarla münasibətdən doğan sosial amillərlə, həmçinin digər məişət fərqləri ilə əlaqədar baş verən differensiallaşma prosesləri belə ilkin etnik anlayışların üstünü pərdələyə bilməmişdir. Türk xalqlarının qədim birliyinin öyrənilməsi, üzə çıxarılması baxımından inamlar və etnik anlayışlarla bağlı olan paralelliyin tədqiqi çox qiymətli mənbələrdən birini təşkil edir.

Параллелизм в топонимах, связанных с древними верованиями, этническими представлениями и бытом

РЕЗЮМЕ

Топонимические единицы тюркского происхождения распространены на большой территории с очень широкими границами. Распространение топонимических единиц появилось в результате процесса расселения самих тюркских народов на неограниченной территории. Согласно историческим источникам, тюркские народы жили на территории, границы которой простирались в первые века до Китая на востоке, Индии, Афганистана, Ирана на юге, Уральских гор на севере и древней Византийской империи на западе. нашей эпохи. Это, в свою очередь, создало реальные условия для постоянной активности внутренних миграций. Таким образом, внутренние миграции функционировали без крупных событий. Учитывая все эти аспекты, ареальный параллелизм топонимов можно обобщить на основе этнического понимания и социально-экономических факторов. Процессы дифференциации, происходившие среди тюркских народов, охватившие широкий ареал и закрепившиеся в связи с новыми обычаями и традициями, социальными факторами, возникающими из отношений с другими народами, а также другими бытовыми различиями, не могли скрыть исходных этнических представлений. В плане изучения и раскрытия древнего единства тюркских народов изучение параллелизма, связанного с верованиями и этническими представлениями, является одним из наиболее ценных источников.

Ключевые слова: топонимические единицы, монотеизм и политеизм, этническая концепция, тотемная концепция.

Parallelism in toponyms associated with ancient beliefs, ethnic representations and everyday life

SUMMARY

Toponymic units of Turkic origin are spread over a large area with very wide boundaries. The spread of toponymic units appeared as a result of the process of settlement of the Turkic peoples themselves in an unlimited territory. According to the historical sources, the Turkic peoples lived in an area whose borders extended to China in the East, India, Afghanistan, Iran in the South, the Ural Mountains in the North, and the ancient Byzantine Empire in the West in the first centuries of our era.

These, in turn, created real conditions for internal migrations to be constantly active. Thus, internal migrations functioned without major events. Considering all these aspects, the areal parallelism of toponyms can be summarized on the basis of ethnic understanding and socio-economic factors. The processes of differentiation that took place among the Turkic peoples spread over a wide area and settled in connection with new customs and traditions, social factors arising from relations with other peoples, as well as other domestic differences could not hide the initial ethnic concepts. In terms of studying and uncovering the ancient unity of the Turkic peoples, the study of parallelism related to beliefs and ethnic concepts is one of the most valuable sources.

Key words: toponymic units, monotheism and polytheism, ethnic concept, totem concept.

İstifadə olunmuş ədəbiyyat

1. З.И.Ямпольский.Древняя Албания Ш-I веков до н.э. Баку, 1962;М.И.Артамонов История Хазар, Л.1962; Л.Н.Гумилев Древние тюрки, М.1967.
2. M.Adilov. Azərbaycan teonimikası. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı, 1986, s.276
3. “Kitabi-Dədə Qorqud”. Bakı, 1978, s.26,87
4. M.Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983, s. 22
5. Фазлуллах Рашид-ад-дин. Огузнаме. Баку, 1987, с. 64-67
6. R.J.Xəlilov. Saylar, 1978.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent L.V.Qocayeva tərəfindən çapa tövsiyə olunmuşdur

Dosent D.Ə.NAĞIYEVA
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrası
email:d_nagiyeva@mail.ru

SİNTAKTİK VASİTƏLƏR

XÜLASƏ

Mətn dilçiliyinin əsas problemlərindən biri mətn düzəldən vasitələrin müəyyənləşməsidir. Leksik, morfoloji və sintaktik münasibətlər vasitəsilə həyata keçirilən bu proses — mətnin yaradılması həmin əlaqələndirici vasitələrdən çox asılıdır.

Bədii mətn elə bir xüsusi kontekstual struktur ilə xarakterizə olunur ki, bu çox funksional — məzmun və struktur — forma elementləri onun tərkibində öz əksini tapır.

Mətndə informasiyanın rəngarəngliyi, həcmi onun tərkibindəki cümlənin sayı ilə düz gəlməyə bilər. Bəzən bir cümlə bir neçə informasiya verə bildiyi halda, bəzən bir informasiya da bir neçə cümlə tələb edir. Beləliklə, mətn daxilində informasiya və sintaktik vahid paralelliyi həmişə gözlənilmir.

Mətnin sintaktik hüdudlarını müəyyən etmək, onun komponentlərinin konstruktiv çərçivə daxilində əlaqəsini açmaq üçün mətni əlaqələndirən vasitələrə diqqət yetirmək gərəkdir.

Mətn dilçiliyində mətn yaradan dil vasitələrini üç qrupa bölürlər: 1) leksik vasitələr 2) morfoloji vasitələr 3) sintaktik vasitələr.

Açar sözlər: bədii mətn, kontekstual struktur, sintaktik münasibətlər, leksik vasitələr, morfoloji vasitələr, sintaktik vasitələr

Latınca textum — əlaqə, birləşmə mənasını verən mətn anlayışı dilçilikdə müxtəlif cür izah olunur. Məsələn, professor K.Abdullayev mətnə cümlənin məna nöqteyi-nəzərindən nisbi qeyri-bitkinliyini, müəyyən semantik çatışmazlığını aradan qaldıran kommunikativ bir kompleks kimi baxır.” Bu kompleks tam məna bitkinliyi nümayiş etdirir və semantik informasiyanın ötürülməsi və qəbul edilməsi prosesində əsas faktor, məsələn, cümlə kimi sintaktik iyerarxik sistemə daxil olur. Başqa sözlə desək, digər linqivistik koteqoriyalarla onun arasında konkret qarşılıqlı münasibətlər zənciri qurulur. Və əslində daha yüksəkdə duran sintaktik vahid kimi aparır. Çünki o, cümləyə münasibətdə həm struktur, həm də semantik planlarda daha geniş şaxəli mürəkkəblik nümayiş etdirir” (4: 56) struktur və semantik baxımdan daha “geniş şaxəli mürəkkəblik nümayiş etdirən” mətnin komponentləri arasında sintaktik

vasitələr (söz sırası, mətni təşkil edən cümlələrin düzümü) də diqqətdən yayınmamalıdır.

Mətndə qrammatik-semantik və üslubi funksiyaları yerinə yetirən, reallaşdıran sintaktik vasitə-söz sırası mətn quruculuğu işində dəqiqlik tələb edən proseslərdən biridir. Bu prinsip həm də mətnin üslubunu müəyyənləşdirən vasitə kimi qeyd olunmalıdır. Cümlə üzvlərinin düzümü, onların növbəti cümlənin komponentləri ilə məntiqi-semantik və formal-qrammatik baxımdan əlaqələnməsi mətninn ümumi bədii mənzərəsini də səciyyələndirir.

Yazıçılar mətndə söz sırası üsulunu öz fərdi üslublar fonunda müəyyənləşdirirlər.

Söz sırası ilə yanaşı sintaktik paralelizmi, inversiyanı (söz sırasının pozulması faktını) və ellipsis hadisəsini də göstərmək olar. Bədii mətnin formalaşmasında həlledici rola malik olan bu sintaktik vasitələr həm də intonasiya kimi mühüm dil faktının spesifikliyini də qabardır.

"İ.A.Melçukun fikrincə, baza və yaxud mütləq söz sırası universal olaraq bütün dillərə tətbiq oluna bilən parametr deyil. O, bir sıra polisintetik dilləri tədqiq edərək həmin anlayışın bəzi dillər üçün heç bir əhəmiyyət kəsb etmədiyi qənaətinə gəlir. Qeyd etmək lazımdır ki, hələ Qrinberq hər hansı bir söz sırasının mütləq olmasının əsas meyarlarından birini daha çox işlənmə məqamı ilə bağlayırdı. M.M.Quximan isə həmin amili söz sırasının praqmatik məqamından ibarət olduğunu və bunun nəzəri olaraq mətndə maksimal tezliklə üst-üstə düşməyə də bildiyini qəbul edir.

Buradan belə bir nəticəyə gəlmək olar ki, söz sırasının yalnız bir tipologiyasına (mübtəda ilə xəbər, yaxud mübtəda və tamamlıq anlayışları əsasında) xüsusi diqqət heç də əsaslı deyil. Bəzən bu və ya digər tip söz sırasının üstünlüyünü mətnin strukturu, budaq cümlələrin mətnyaradıcı rolu ilə əlaqələndirirlər, həmçinin mətnin növü, yaxud janrının təsiri də qeyd edilir.

Ümumiyyətlə, söz sırasının tədqiqi sahəsində gələcək inkişaf bu dil hadisəsinin çıxış nöqtəsi kimi deyil, müəyyən mətn yaradıcı funksiyaları həyata keçirən formal vasitə kimi nəzərdən keçirilməsi ilə əlaqələndirilir" (8:12).

Cavanşir başa düşdü ki, onun qarşısında dayanan adını eşidib üzünü görmədiyi Həcərdi, Şəmistan ağanın qızı Həcər. Özünü ələ aldı. Sözün düzü bu tayfadan qorxurdu. Eşitmişdi ki, onların qızları da, kişiləri də qan çanağıdır. Onlara yaxınlaşan da peşman olur, uzaqlaşan da. Onu da eşitmişdi ki, bu tayfanın adamlarının gözü bir şeyi tutdumu əl çəkən deyillər. Ona görə cığırdan çıxıb aralanmaq istədi. Amma qız yolu kəsdi (İ. Şıxlı).

Bu mətndə giriş cümlə (Cavanşir başa düşdü ki, onun qarşısında dayanan adını eşidib üzünü görmədiyi Həcərdi) Tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Sonrakı cümlələrlə müqayisədə daha çox informasiya yükü də bu komponentin üzərinə düşüb. Çünki sonrakı cümlələr (1. Özünü ələ aldı. 2. Sözün düzü bu tayfadan qorxurdu. 3. Eşitmişdi ki, onların qızları da, kişiləri də qan çanağıdır. 4. Onlara yaxınlaşan da peşman olur, uzaqlaşan da. 5. Onu da eşitmişdi ki, bu tayfanın adamlarının gözü bir şeyi tutdumu əl çəkən deyillər. 6. Ona görə də cığırdan çıxıb

aralanmaq istədi. 7. Amma qız yolu kəsdi.) giriş cümlədəki hökmün — adını eşidib üzünü görmədiyi Həcərin onun qarşısında dayanması — informasiyasının bir faktı — Həcər və onun ailəsi ilə bağlı məlumatları çatdırır. Cümlələrdə məntiqi ardıcıllıq, məna — məzmun və forma qanunauyğunluğu gözlənilib. Öz-özlüyündə fərqli funksional yük daşıyan bu cümlələr geniş, keçid, bazis və yekun cümlələr tipinə bölünürlər. Fikir, düşüncə sistemliliyi, intensivliyi tələb edən bu sintaktik quruluşda sözlərin sırası mətnin məzmunu ilə vəhdətdə götürülüb.

Lakin, bəzən elə mətnlərə də rast gəlinir ki, söz sırası sintaktik — məntiqi əlaqə prinsipinin pozulması şəraitində müşahidə olunur. Məsələn, Elçinin misal göstərəcəyimiz aşağıdakı mətninə diqqət etsək, görərik ki, əslində bir neçə cümlədən ibarət mətn süni yolla (durğu işarələrinin yerində qoyulmaması və s.) bir, iki cümlədən ibarət olur. Söz sırasının qeyri-təbii şəkildə pozulması, qarışdırılması, bitkinlik sərhəddinə diqqət yetirilməməsi artıq yazıçı dilinin və üslubunun qüsuru kimi özünü göstərir: Camaat min cürə əfsanə danışırdı, dünyanın sirli işlərindən danışırdı, hətta bir dəfə Qəmərbanu kimi ağıllı bir arvad qotur bir tülkünü yanında gəzdirən İsfahan lotusunu üç gün, üç gecə sarayda saxlayıb yedizdirib-içirtmişdi ki, uşaqsızlıq dərdinə əlac eləyəcək; Sofi belə söhbətlərin və belə işlərin heç birinə inanmırdı, cadugər dərvişlərin, sehrbaz seyidlərin, gümüşdən qızıl düzəldən kimyagərlərin hamısına lotu kimi baxırdı və o cümlədən yuxu yozanlara da inanmırdı. Sofi torpaq adamı idi və hər şeyi olduğu kimi görürdü (Elçin).

Burada "Camaat min cürə əfsanə danışırdı, dünyanın sirli işlərindən danışırdı — bitkinliyinə süni yolla "calaq" edilmiş "hətta bir dəfə Qəmərbanu kimi ağıllı bir arvad qotur bir tülkünü yanında gəzdirən İsfahan lotusunu üç gün, üç gecə sarayda saxlayıb yedizdirib — içirtmişdi ki, uşaqsızlıq dərdinə əlac eləyəcək" — kimi sintaktik və qrammatik cəhətdən uyğunsuz bir cümlə tipinə rast gəlinir. Deməli, söz sırası düzgün təyin edilməmiş, mətn yaratma işi uğursuz olmuşdur. Mətnə bir mürəkkəb cümlədən ibarət struktur kimi yanaşsaq, yenə sintaktik və qrammatik balansın pozulduğunu görəcəyik. Hər iki komponenti müstəqil yaxud əsas və asılı tərəflər prinsipi ilə də cümlələri, aid olduğu mürəkkəb cümlələri müəyyənləşdirəndə məzmun formanı, forma məzmunu tamamlamır. Məsələn, bir cümlənin tərkibində müstəqil mövqeyi olan "hətta bir dəfə Qəmərbanu kimi ağıllı bir arvad qotur bir tülkünü yanında gəzdirən İsfahan lotusunu üç gün, üç gecə sarayda saxlayıb yedizdirib-içizdirmişdi ki, uşaqsızlıq dərdinə əlac eləyəcək;" komponentin sonunda nöqtə-vergül işarəsinin qoyulması aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə növünün əlaməti kimi əks olunur. Ancaq növbəti komponent (Sofi belə söhbətlərin və belə işlərin heç birinə inanmırdı, cadugər dərvişlərin, sehrbaz seyidlərin, gümüşdən qızıl düzəldən kimyagərlərin hamısına lotu kimi baxırdı və o cümlədən yuxu yozanlara da inanmırdı) tələb olunan aydınlaşdırma funksiyasını, xüsusilə sintaktik funksiyanı yerinə yetirə bilmir. Qəmərbanu avadın İsfahanlıdan uşaqsızlıq dərdinə əlac etmək nicatını gözləməsini Sofinin inamsızlığı məlumatını ifadə edən cümlələr aydınlaşdıra bilmir.

Yalnız sonuncu komponent (Sofi torpaq adamı idi və hər şeyi olduğu kimi görürdü.) aydınlaşdırma mənasını əks etdirə bilir, yəni məzmun və nöqtə-vergüllə işarələnən — forma əlaməti vasitəsilə tələb olunan funksiyanı yerinə yetirir.

Yazıçının növbəti mətn parçasında söz sırasını dəqiq nizamlaması onun (söz sırasının) mikromətnin komponentlərini əlaqələndirən əsas sintaktik vasitə olduğunu sübut edir. Dilin daxili qanunları əsasında formalaşan söz sırası modeli mühüm sintaktik vasitə kimi mətnyaratma işində aktuallığını həmişə saxlayıb. Nümunə kimi təqdim edəcəyimiz mətndə də hadisə, təsvir və təhkiyə dolğunluğu məhz haqqında bəhs etdiyimiz sintaktik vasitə — söz sırasının dəqiq tənzimlənməsi hesabına mümkün olub. Mətnin formal — struktur mənzərəsində qulağa, bədii-estetik qavrama yad gələn qüsurlu fakt müşahidə olunmur: Bir azdan adamlarla dolacaq küçələr bomboş idi. Səhərə yaxın narınca çiskinləmişdi və küçələrin tozu yatmış, təmizlənmişdi. Sübh tezdən ayağa qalxmış çəkməçilər, səbzəçilər, qəssablar, dəmirçilər, kababçılar əllərinə naz süpürgə alıb dükanlarının qabağını süpürürdü, yerə su çiləyirdi və əyinlərində uzun gecə köynəyi olan iki nəfərin bir-birinin ardınca küçə ilə qaçdıqlarını görəndə əllərini saxlayıb qaçanlara baxırdılar, qaçanlar gözdən itəndən sonra, yenə başlarını aşağı salıb öz işləri ilə məşğul olurdular (Elçin).

Həmcins üzvlərin daha çox işləndiyi bu mikromətndə cümlə üzvlərinin bütün növlərindən istifadə edilib. Söz sırasının mükəmməlliyi ilk növbədə mətnin qrammatik quruluşu ilə bağlı olan bir dil faktıdır. Bu sintaktik fakt mətndə məntiqi vurğunu da təşkil edir.

Söz sırası bədii mətnin bütün növ və janrlarında eyni tələb daxilində müəyyənləşmir. Aydındır ki, dialoq və monoloqlardakı söz sırası, təhkiyə və ya şeir mətni daxilində eyni cür ola bilməz:

— Elə bu?

— Bağışla, əziyyət verdim, — deyə Qənim ayağa durmaq istədikdə, Əbu Bəkr onun çiynindən basdı.

— Otur...İndi ki, haqq-hesaba gəlmisən... otur...

— Lazım deyil, Əbu Bəkr, qoy rədd olsun! — deyə İlyas qəzəbini gizlədə bilmədi.

— Yo-ox, İlyas, sən qarışma. Yerində otur. — Əbu Bəkr qabağına kağız, qələm, mürəkkəb gətirdi.

— Bu nədi, məni mühakimə edirsən? — deyə Qənim heyrətləndi.

— Hüququmuz eynidi, — deyə Əbu Bəkr cavab verdi. — Bəs sən qazısan ki, burda İlyası mühakimə edirdin? Sənin nə ixtiyarın var mənə özündən uydurduğun qəbzə möhür vurdurursan? Otur yerində, gör mənim sənə sözüm nədi (O.Salamzadə).

Mətndəki dialoqların qəzəb, hiddət, etiraz ifadə edən məzmunu, mövzuya işarəedici məna çalarları məhz dialoq tempinə müvafiq seçilmiş sözlərin uyğun ahəngdarlıq və intonasiya ilə sıralanması zərurətini meydana çıxarır. “Söz sırası da intonasiya kimi cümlə strukturunun və onun invariantlarının əmələ gəlməsini təmin edən dil vasitəsidir. Tədqiqat göstərir ki, SB-nin cümlələrində adi söz sırası aşağıdakı

kimidir: SB-nin birinci cümləsi söyləmin çıxış nöqtəsi (əsası) — sonuncu cümlə söyləmin nüvəsidir. Mənanın açımı söyləmin çıxış nöqtəsindən söyləmin nüvəsinə doğru gedir. Bəzən inversiya nəticəsində mətnin cümlələrində söyləmin çıxış nöqtəsi və nüvəsi öz mövqelərini dəyişirlər. Birinci qrup söz sırasını — normal söz sırasını V. Matezius "Çex dilində söz sırasının əsas funksiyası "əsərində "obyektiv", ikincini isə "subyektiv sıra" adlandırmışdı" (33: 117).

Beləliklə, mətnin struktur təşkilində mətn komponentlərini əlaqələndirən vasitələrin növ və çeşidlərini nəzərdən keçirdik. Məlum oldu ki, mətn sisteminin tamlığı, bütövlüyü və mükəmməlliyi məhz bu vasitələrdən asılıdır.

Cümlədən daha böyük vahid olan mətnin sözlərdən, söz birləşmələri və cümlələrdən ibarət tərkibi düzgün təşkil olunduqda uğurlu bədii mətn faktı danılmaz olur.

Mətn komponentlərinin leksik-qrammatik və sintaktik vasitələrlə əlaqələnməsi nəzəriyyəsi mətn dilçiliyinin mühüm qənaəti kimi aktuallığını da qoruyub saxlayır.

Nümunədə mətnin hissələrini əlaqələndirən leksik vasitələri (əvəzlikləri) göstərilmişdir: Cəfərli olduqca insaflı, düz adamdı. Əslində onun kəhər at təki uzunsov üzündən, üzünü oraq təki kəsən qara şırımdan, danışanda nazik dodağının qulağının dibinə çəkilməyindən bilinirdi ki, bu, dediyindən dönməz adamdı. Ancaq, ürəyiyumşaqdı. Bu, bəlkə onun gedib gördüyü yerlərdən, dava vuruşmalardan, bir də indi daşıdığı işlə uyuşmadığındandı.

Biz görürdük ki, bizim müdirimiz əsgər ailələrinə baxan bir də idarənin müdiri yox, əri, oğlu cəbhədə, orduda olan kişisiz evlərin, ailələrin başçısı, yiyəsidir. O, hamını, Vəslidən, Şəkər xaladan və Yetərdən, Sürəyya bacıdan və Afərimdən, on iki uşaqlı motorçu arvadından və Xasının colma-cocuğu, toyuq-cücəsindən xır olan fağır övrətindən belə hamını bir gözdə görür. Bütün sovetliklərə, kəndlərə, balacana, ucqar obalara belə qayğısını əsirgəmir. Elə ki üstəlik kömək pulu gəldi, onu bölüşdürmək, ayırmaq düşdü, onda özü bircə-bircə siyahı tutdururdu (S.Əhmədli).

Mətndə modal sözləri, bağlayıcı və ədatlar göstərilmiş, onların yerinə yetirdiyi morfoloji əlaqə funksiyasını qeyd edilmişdir: Hə, Tellinin, Şəkərin özcə qardaşı qızının bu sualı təkcə onu, Afərimi yox, gəbənin ortasını boş qoyub, qıraqlarda bardaş qurub oturmuş uşaqları, Afərimin körpələrini, səssiz, lal-dinməz Zərəfşanı, onun qızı Güllücəni, başda, masanın o yanında yer tutmuş Niyazı də maraqlandırırdı. Həm də təkcə uşaqlar yox, bütün qəsəbə, tanıyıb-bilənlər də bu barədə düşünürdü. Axı bunlarınkı necə tuta bilərdi? Əlbəttə, o gecə, o ayaqda Güllücə də, Afərimin balaları da orasını düşünürdü. Axı bunlarınkı necə tuta bilər? Biri — Yetər Allahın dilsiz — ağızsız yazıq bəndəsi. Suyu üfürə-üfürə içir. O biri, Şəkər, yaxşıdı ki, dillənməsin, ağzını açdı, qulaqlarını tut. Bu bir şeytan, şeytana papış tikən, it oynadan, aləmi sarqıya qoyan, o da bir düz yolun yolçusu... Bəs axı, Yetər səhəri dua ilə açıb, axşamı dua-namazla sovan, eldə-obada ən mömin, ən dindar adamdı, arvaddı. Bəs Şəkərin başdan ayağa, təpədən dırnağa küfr işləri, əməlləri hara, onun sidq ürəklə gördüyü savab, ibadət hara! (S.Əhmədli).

Mətnin struktur təşkilində mətn komponentlərini əlaqələndirən sintaktik vasitələri müəyyənləşdirilmişdir: İlyasın olduğu ordu düzənliyə çatanda piyadalar bir – birindən azacıq aralı min-min bölünmüşdülər. Sağda və solda, sıldırım yamaclarda Azərbaycan ordusunun böyük suvari dəstələri toplaşmışdı. Bütün gün, gecə səhərə qədər davam etdi hazırlıq. Ilyas başındakı atlılarla bir hissədən o biri hissənin mövqeyinə çapa-çapa hazırlığın gedişini, əmrlərinin icrasını yoxlayan Atabəyin dözümlülüyünə, çevikliyinə heyran qalmışdı. Fəqət, onun üçün düzəldilmiş əlvan çadırdan bayıra çıxmırdı Sultan Arslan şah (O.Salamzadə).

РЕЗЮМЕ

Синтактические средства

Ключевые слова: художественный текст, контекстная структура, синтаксические отношения, лексические средства, морфологические средства, синтаксические средства.

Одна из основных проблем лингвистики текста - определение средств составления текста. Этот процесс, который осуществляется через лексические, морфологические и синтаксические отношения - создание текста - зависит от этих средств связи.

Художественный текст характеризуется такой особой контекстной структурой, что в нем отражены эти очень функциональные - содержательные и структурные - элементы формы.

Разнообразие и объем информации в тексте может не соответствовать количеству содержащихся в нем предложений. Иногда предложение может содержать более одного фрагмента информации, но иногда для одного фрагмента информации требуется несколько предложений. Таким образом, не всегда ожидается информационный параллелизм и синтаксическое единство в тексте.

Необходимо обратить внимание на способы связывания текста, чтобы определить синтаксические границы текста, выявить связь его компонентов в конструктивных рамках.

В лингвистике текста средства создания языка делятся на три группы: 1) лексические средства 2) морфологические средства 3) синтаксические средства.

SUMMARY

Syntactic means

Keywords: artistic text, contextual structure, syntactic relations, lexical means, morphological means, syntactic means.

One of the main problems of linguistics of the text is the definition of the means of text composition. This process, which takes place through lexical, morphological

and syntactic relations - the creation of the text - depends on these means of communication.

The artistic text is characterized by such a special contextual structure that it reflects these very functional - content and structural - elements of the form.

The diversity and volume of information in the text may not correspond to the number of sentences contained in it. Sometimes a sentence may contain more than one piece of information, but sometimes one piece of information requires more than one sentence. Thus, information parallelism and syntactic unity in the text are not always expected.

It is necessary to pay attention to the methods of linking the text, to determine the syntactic boundaries of the text, to find the link of its components in constructive frameworks.

In linguistics, the means of creating a language are divided into three groups: 1) lexical means 2) morphological means 3) syntactic means.

İstifadə olunmuş ədəbiyyat:

1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: ADU, 1998, 215s
2. Allahverdiyeva F. Mürəkkəb sintaktik bütövün komponentləri arasında sintaktik əlaqə vasitələri. Bakı: 2010
3. Cavadov Ə. Mətn və cümlədə sözlərin sırası. Azərbaycan EA-nın xəbərləri. Ədəbiyyat, Dil və incəsənət seriyası, 1978, N4.
4. Əlizadə Z. Müasir Azərbaycan dilində modal sözlər. Bakı: Maarif, 1965, 187 s.
5. Musayev M. Türk ədəbi dillərində mürəkkəb cümlə sintaksisi. Bakı: Kitab aləmi, 2001, 403 s.
6. Novruzova N. Mətn sintaksisi. Bakı: Təhsil, 2002, 183 s.
7. Vəliyev K. Azərbaycan dilinin poetikm sintaksisi. Bakı: ADU, 1981,189 s.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: f.ü.f.d., dosent, Leyla Vəliqızı
tərəfindən çapa tövsiyə olunmuşdur

ШАФИГА МУТАЛЛИМ КЫЗЫ МАГЕРРАМОВА
Азербайджанский Технический Университет,
доцент кафедры гуманитарных наук
проспект Гусейна Джавида, 25.
e-mail: shafiga@inbox.ru

ТЕРМИНЫ В САТИРИЧЕСКИХ СТИХОТВОРЕНИЯХ М.А.САБИРА

Известно, что особенности языка художественных произведений связаны с индивидуальностью и слогом конкретного писателя, поэта. И состав используемых автором языковых средств, и способы их употребления обусловлены совокупностью определенных факторов: мировоззрение автора, тематика его произведений, излюбленные литературные жанры, оригинальность его творческого метода и т.д. В художественных произведениях в определённых стилистических целях используются разнообразные языковые средства (просторечие, жаргонизмы, диалектизмы, экзотизмы, термины и т.д.), выступающие не только в языке авторского повествования, но и в речи персонажей в качестве ярких средств выразительности.

1. Как верно отмечает А.И.Ефимов, «Индивидуальное своеобразие языка художественных произведений выдающихся писателей не может не отражаться на общем развитии средств литературного выражения, ибо в литературе вырабатываются и творчески развиваются определённые традиции отбора и употребления языковых средств» (1,7).

В число таких выдающихся мастеров слова входит великий азербайджанский поэт – сатирик и мыслитель, основоположник новой литературной школы в азербайджанской литературе XX в. Мирза Алекпер Сабир (1862-1911). Ещё при жизни Сабир оказал сильное и решающее влияние на литературное развитие не только Азербайджана, но и ряда стран Ближнего Востока. В настоящей статье систематизируются и рассматриваются термины, используемые в произведениях Сабира в различных стилистических целях.

«В лингвистике… естественно возникает проблема функционирования терминов в художественной литературе, которая может исследоваться в стилистическом, конкретно историческом, структурно-семантическом и других планах. В настоящее время эта проблема сохраняет свою актуальность в силу того, что миграция терминов в иные сферы не только продолжается, но и значительно усиливается» (5, 5).

Художественно-образное употребление терминов служит созданию экспрессивности и эмоциональности, а также связано с намерением автора

выразить свое отношение к описываемым событиям, выделить какие - то определённые качества объекта.

В настоящей статье термины в качестве объекта исследования выбраны неслучайно. На примере терминов можно проследить, как они используются Сабиром в его сатирических произведениях и как они «вживаются» в ткань художественного произведения.

Проф. Р.Дж. Магеррамова, посвятившая изучению творчества Сабира ряд ценных научных трудов, пишет: "Хотя Сабир специально и не занимался терминотворчеством, однако лексический состав сатирических стихотворений поэта насыщен терминами различных областей науки. Несомненно, это было результатом закономерного исторического процесса терминотворчества в азербайджанском литературном языке. Роль Сабира в этом процессе заключалась в том, что он использовал в своих произведениях такие термины, применение которых ещё не было регламентировано в художественной речи. Смело можно утверждать, что большая часть терминов, созданных в азербайджанском литературном языке в начале XX века, вошла в художественные произведения, а оттуда и в общенародную разговорную речь именно через посредство сатирических стихотворений Сабира" (3, 36-37).

При анализе терминов, используемых Сабиром в его сатирических произведениях, за основу берётся способ классификации, при котором термины распределяются по конкретным областям знаний. При этом принимается во внимание тот факт, что в художественном тексте термины употребляются в номинативно-описательной и художественно-образной функциях. Стилистическое употребление термина связано с намерением Сабира выразить своё отношение к событиям, героям, выделить какие –то их определённые качества, свойства и т.д. Термины, употребляющиеся в сатирических стихотворениях Сабира, разделены по конкретным тематическим группам:

1. Географические термины

В сатирических стихотворениях Сабира в прямом и переносном значениях употребляются географические термины, обозначающие различные явления природы, природные объекты и т.д.: yağış, qar, bulud, duman, ildırım (yıldırım), şaxta, boran, tufan, göy gurultusu, vulkan (yanğılı vulkan), zəlzələ, daşqın, sel, dalğa, ləpə и др., например: Dalğalı tufan görürəm, qorxmuram; Qarlı dağlarda soyuqdan ölənin canı gora; Gahi-yağışı, gahi müsəllam danırsan; Gahi buludu, ərşi-müəllam danırsan; Şiddəti – seylan ilə boran tökür; Bir koma yox, daldalana bilmirəm и др.

Географические термины мастерски используются Сабиром в целях сатирического обличения, острой иронии и намёка: Qara buludlar oynaşır, indi nədir əlacımız? Çulğalayır bizi duman, mən deyən oldu, olmadı?; Etdikləri sədaqət bir-bir olur da peyda; Açdıqları bulaqlar cari olur sərapa; Hər bir səyahətində sel tək axıtdı sərvət и др.

Как видно, в приведенных примерах географические термины – bulud, duman, sel, bulaq и др. – употреблены Сабиром в переносном значении в качестве сатирического средства выразительности.

Следует отметить, что наряду с географическими терминами Сабир употребляет и различные топонимы, связанные с: а) Азербайджаном: Azərbaycan, Bakı, Badkubə, Qax, Qazax, Şəki, Şuşa, Şirvan, Gəncə, Səlyan, Cülfa, Naxçıvan, Ordubad, Zəngəzur, Lənkəran и др.;

б) с территорией Ирана: İran, Tehran, Təbriz, Xoy, Marağa, Mərənd и др.

Примечательно, что в стихотворении "Asudəlik bu saət yerdən göyə cəhanda" Сабир с особой иронией и юмором перечисляет в сатирических целях названия различных городов и селений Ирана:

Var isə vardır ancaq İranda hər məkanda,
Təbrizdə, Sərabda, Xalxalda, Xançobanda,
Qeyrətli Şahsevəndə, anda, hər zamanda
Tehranda, əncüməndə, kabnetdə, parlamanda.

в) с востоком, Средней Азией: Xoqənd, Səmərqənd, İraq, Nəcəf, Buxara, Yəmən;

г) с различными странами, городами: Mancuriya, Almaniya, Yaponiya; Port Artur, Məsko, Qazan, Ades, Berlin, Vyana и др.

2. Педагогические и лингвистические термины

Прежде чем перейти непосредственно к рассмотрению педагогических и лингвистических терминов, считаем необходимым подчеркнуть следующий немаловажный факт: большинство сатирических стихотворений Сабира, как известно, посвящено борьбе за свободу, науку, просвещение, образование, преодоление невежества, отсталости, мракобесия. В своих стихотворениях Сабир ратовал за прогресс во всех областях духовной жизни общества, приобщение раскрепощённой женщины к культурной жизни, протестовал против реакции и произвола. Многие его стихотворения в высокохудожественной образной форме преследуют дидактические и нравственные цели и связаны непосредственно с темой обучения и воспитания, школы и учителей: «Bilməm nə görübdür bizim oğlan oxumaqdan", "Ata nəsihəti", "Təhsili-elm", "Vay-vay, nə yaman müşkülə düşdü işim, allah!", "Leyli-Məcnun", "Bu boyda, bu boyda...", "Arzu", "Oxutmuram, əl çəkin", "Neçin məktəbə rəğbətim olmayır", "Vah! Bu imiş dərsi-üsuli-cədid", "Təşəkkür", "Uçitellər", "Cavablar cavabı" и др.

Отдельные строфы, иногда даже целые фрагменты таких стихотворений, как "Uşaqlara", "Hər nə versən ver, məbadə vermə bir dirhəm zəkat", "Əl 'Əman sərkəşt olub...", "Sər-hesab", "Haəhl olana mətləbi andırmaq olurmu?", "Müəllimlər siyezdi", "Girmə bu meydana, a molla!", "Məktub", "Əhvalpürsanlıq yaxud qonşuma" также посвящены злободневным вопросам и проблемам учебы, школы, науки, просвещения, образования.

В сатирических стихотворениях Сабира, посвящённых науке, учёбе, школе, встречаются названия различных предметов и связанные с ними термины: hesab, həndəsə, kəmiyyət, miqdar, ədəd, cəmləmək и др. Как показали наши наблюдения, значительную часть педагогических терминов составляют слова, связанные с учебным процессом: təhsil, tədris, onverset (искажённое слово университет – Ш.М.), diplom, а также названия школьных принадлежностей: kitab, dəftər, pero, qarandaş, təbaşir, kağız. Особо следует выделить слова *mədrəsə, üsuli-cədid, mirzə, molla, hücrə, çubuq, fələqqə*, связанные со старым стилем обучения.

Термины типа *əql, zəka, fikir, elm, ədəb, kamal, əxlaq, idrak, təfəkkür, şüur, irz, həya, fəhm, məzhəb, etiqad, fərəh, xəyal* употребляются в сатире Сабира в педагогическо- психологическом смысле. Такие слова, как *xəyanət, vicdan, hiylə, biclik, din, iman, huş, idrak, etiqad, əql, röya, əxlaq, insaf, zəka* и др. нередко используются в философском значении. Особо следует выделить лингвистические термины, широко употребляющиеся в стихотворениях Сабира: *dil, imla, yazı, ibarə, söz, cümlə, nitq, ifadə, əlifba, qələt* «ошибка».

Отметим сразу, что в современном азербайджанском языке слово *qələt* употребляется только в разговорной речи в составе грубого выражения *"qələt eləmək"*. Некоторые слова являются искажёнными словами из русского языка: uçtellər (учителя), syezd (съезд), kabnetdə (в кабинете) Сабир умышленно искажает и использует их в целях сатиры.

3. Общественно –политическая лексика

Как известно, общественно-политическая лексика имеет специфический характер. В отличие от терминов, она имеет более широкую сферу функционирования и употребления. Безусловно, общественно-политическая лексика занимает огромные пласты языка и имеет весьма широкие функциональные полномочия. Её развитие неразрывно связано с конкретными историко-политическими этапами формирования общества, различными социально-экономическими ситуациями в стране, со становлением и совершенствованием художественной литературы и т.д.

Сложившаяся в тот период общественно-политическая и экономическая ситуация в Азербайджане заметно влияла на языковые процессы, формировала векторы развития языка как социального явления. И в этом плане общественно-политическая лексика, ярко отражённая в сатире Сабира, представляет большой интерес. Так, многие стихотворения Сабира посвящены общественным и политическим темам ("Millət necə tarac olur, olsun, nə işim var?!", "Bakı fə' lələrinə", "Tərpənmə, amandır, bala, qəflətdən ayılma", "Millət şərqisi", "Ey vay ki, heysiyyəti – millət götürüldü", "Arif çalışır ki, millət azad olsun", "Millət deyir ki", "Dilənçi deyir ki" и др. В этих стихотворениях встречается значительное количество общественно-политических терминов: məclis, məclisi-milli, məçlişi-İran, parlaman (парламент – Ш.М.), kabinet, duma,

diplomatiya, hürriyyət, saslım, demokrat, şura, məşrutə, şüar, natiq, politika, siyasət, siyasi iş, ümurəti-siyasi, konsul, hüquq, seçki, qlasnı (гласный – Ш.М.) seçkisi и др.

Как видно из приведённых примеров, здесь имеются изафетные словосочетания məclisi-milli –милли меджлис, məclisi – İran – меджлис Ирана, ümurəti – siyasi – политические приказы.

В стихотворениях Сабира эти термины так мастерски употребляются в сочетании со словами и выражениями общенародного языка, что их содержание легко раскрывается.

Отметим также, что для создания комического и сатирического эффекта Сабир мастерски использовал в своих стихотворениях не только общественно-политические термины, но и названия тех газет и журналов, которые освещали на своих страницах вопросы политики, просвещения, образования и т.д.: Dəbistan, Bəhlul, Zənbur, Kəşkül, Molla Nəsrəddin, İşıq, Ülfət, Bürhani-tərəqqi həmiyyət, İrşad, Təkamül, Nicat, Səda, Həyat.

4. Публицистическая и литературоведческая терминология

Как уже указывалось выше, в стихотворениях Сабира ставились самые актуальные вопросы просвещения, образования, культуры. В связи с этим в его стихотворениях широко употребляется публицистическая и литературоведческая терминология. Как верно отмечает Г.А. Солганик, «Публицистику часто называют летописью современности, т.к. она отражает текущую историю и обращена к актуальным проблемам современного общества в различных сферах человеческой деятельности – политической, социальной, бытовой, экономической и культурной» (7, 203).

Рассмотрим конкретные примеры: maarif, mədəniyyət, tərəqqi, mətbuat, qəzetə-cəridə, jurnal-məcmuə, mətbəə, nəşr, mühərrir, qəzetçilər, müxbir, yazı, yazanlar-qələm əhli .

Интересны и литературоведческие термины, используемые в стихотворениях Сабира: şair – şüxəndan-yazıçı, şer, faciə, məsxərə-komediya, rübai, məqalə, məzmun, rəvayət, dastan, misra, bənd, nüsxə, nağıl, ləqəb, tənqid, sərlövhə, surət, qiraətxanə.

5. Исторические термины

В сатирических стихотворениях Сабира, посвященных таким историческим событиям, как русская революция 1905 года, революции в Иране и Турции, рабоче (–) крестьянские движения и т.д., широко употребляются исторические термины.

Как показали наши наблюдения, исторические термины употребляются в стихотворениях Сабира обычно в их общем значении, без строгой дифференциации смежных научных сфер.

Исторические термины, употребляющиеся в стихотворениях Сабира, можно условно разделить на различные группы в зависимости от выражаемых ими значений и выполняемых ими функций:

а) ***термины, обозначающие социальную принадлежность:*** bəy, xan, ağa, mülkədar, kətxuda, qolçomaq, ərbab, pristav, fəhlə, kəndli, əkinçi, rəncbər, dehqan, muzdur, rəyyət и др.;

б) ***термины, связанные с общественным строем:*** padşah, şah, hökmdar, vəzir, sərdar, paşa, təxt, tac, fərman, zülm, əsarət, zindan, divan и др.;

в) ***военные термины:*** müharibə, döyüş, vuruş, yürüş, düşmən, ordu, atlı, piyadə, sərkərdə, başçı, üsyan, talan, silah и др.;

г) ***термины обозначающие названия различных исторических явлений, местностей, племён:*** dəvayi-Səlib, Qaraqoyun, Qəsri-Şirin, Cami-Cəm, rəyəti-Key, təxti-Qubad и др.

6. Политэкономические термины

Как известно, в начале XX века в азербайджанском литературном языке, в частности, в языке печати, наблюдается заметное увеличение политэкономических терминов, что тесно связано с развитием общественной мысли в Азербайджане. В этой связи проф. Р.Дж. Магеррамова пишет: «В это время появились десятки терминов по политической экономии как в журнале «Молла Насреддин», так и в других журналах с политической, общественной и научной тематикой (3,46).

Таким образом, исследование терминов в сатирических стихотворениях Сабира позволило прийти к следующим выводам:

1) в сатирических стихотворениях Сабира термины выполняют как номинативную, так и художественную функцию, и в результате этого широко используются функционально- семантические синонимы терминов; (qurultay – siyezd, məcmuə - jurnal);

2) Сабир мастерски использует термины как средства создания особого колорита, речевой и портретной характеристики персонажей, комического и сатирического эффекта;

Новые производные слова в русском языке образуются тремя основными способами:

А) морфологический способ (с помощью словообразовательных морфем – приставок,суффиксов и др.);
Б) сращение словосочетания в одно слово;
В) переход из одной части речи в другую.

А) Морфологический способ словообразования

Морфологический способ (образование новых слов с помощью словообразовательных морфем) – самый распространённый в современном русском языке.

При морфологическом способе образования в производной основе можно выделить производящую основу (основу слова, от которого образовано производное слово) и словообразовательную морфему (приставку, суффикс, постфикс и т.д.).

Ключевые слова: словообразование,русский язык,морфологический способ,разновидность,словарный запас.

Например:

1. Существительное *силач* (основа *силач*-) образовано от существительного *сила* (основа *сил*-) с помощью словообразовательного суффикса -*ач*. Это суффиксальный способ словообразования. Графически образование слова силач можно обозначить следующим образом:

сил-ач*□ ← *сил-а (***сил-*** – производящая основа; ***-ач*** – словообразовательный суффикс; суффиксальный способ).

2. Глагол *шагнуть* (основа *шагну*-) образован от глагола *шагать* (основа *шага*-) с помощью суффикса -*ну*-. Это суффиксальный способ словообразования. При образовании глагола *шагнуть* производящая основа *шага*-усекается – *шаг*/*а*-. Графически образование слова *шагнуть* можно обозначить следующим образом:

шаг-ну**-ть* ← ***шаг/а**-ть* (шаг/а-*** – производящая основа; ***-ну-*** – словообразовательный суффикс; суффиксальный способ).

3. Наречие *невдалеке* (основа *невдалеке*) образовано от наречия *вдалеке* (основа *вдалеке*) с помощью приставки *не-*. Это префиксальный способ словообразования. Графически образование слова невдалеке можно обозначить следующим образом:

не-вдалеке ← ***вдалеке*** (***вдалеке-*** – производящая основа; ***не-*** – словообразовательная приставка; приставочный способ).

4. Наречие *по-флотски* (основа *по-флотски*) образовано от прилагательного *флотский* (основа *флотск-*) с помощью приставки *по-* и суффикса *-и*. Это приставочно-суффиксальный способ образования. Графически образование слова *по-флотски* можно обозначить следующим образом:

по-флотск-и ← ***флотск**-ий* (***флотск-*** – производящая основа; ***по-*** – словообразовательная приставка, ***-и*** – словообразовательный суффикс; приставочно-суффиксальный способ).

Морфологический способ словообразования включает в себя несколько разновидностей.

Основные разновидности морфологического способа словообразования

Способ словообразования	Примеры
1. Приставочный	***В-ли**-ть* ← ***ли**-ть*; ***не-глубок**-ий* ← ***глубок**-ий*; ***бес-порядок***□ ← ***порядок***□; ***на-завтра*** ← ***завтра***.
2. Суффиксальный	***Прыг-ну**-ть* ← ***прыг/а**-ть*; ***киевлянин***□ ← ***Киев***; ***горяч-о*** ← ***горяч**-ий*.
3. Нулевая суффиксация	***Рассказ***-Ø□ ← ***рассказ/а**-ть*; ***зелень***-Ø*□ ← ***зелён**-ый*.
4. Приставочно-суффиксальный	***Без-вер-и*[j]**-е* ← ***вер**-а*; ***при-школь-н**-ый* ← ***школ**-а*.
5. Сложение	***Лес-о-степь***□ ← ***лес***□, ***степь***□; ***овощ-е-хранилищ***-е ← ***овощ***□, ***хранилищ**-е*.

* Знаком Ø принято обозначать нулевой суффикс, т.е. значимое отсутствие суффикса при словообразовании способом нулевой фиксации.

Б) Сращение словосочетания в одно слово

Это способ словообразования, при котором происходит соединение, слияние двух или более слов в одно без каких-либо изменений в их морфемном составе и без участия соединительных гласных.

Быстрорастворимый, вечнозелёный.

Образованные этим способом слова во всех своих формах полностью тождественны синонимичному словосочетанию.

Ср.: ***быстрорастворимый*** *кофе – кофе,* ***быстро растворимый*** *в воде*.

В) Переход из одной части речи в другую

Суть способа – образование новых слов в результате перехода из одной части речи в другую. В современном русском языке так могут образовываться существительные (из прилагательных и причастий).

Рулевой, командующий, мороженое, гостиная.

Морфологический способ является основным способом словообразования в русском языке.

Аффиксация — это образование новых слов путём присоединения к производящей основе или производящему слову тех или иных словообразовательных аффиксов.

1. *Суффиксальный способ* — это образование новых слов путём присоединения к производящей основе суффиксов: *гордый — гордость, глаз — глаз-н-ой.*

2. Приставочный способ — это образование новых слов путём присоединения к производящему слову приставок: *группа — под-группа, грузить — разгрузить.*

3. *Приставочно-суффиксальный способ* — это образование новых слов путём одновременного присоединения к производящей основе приставки и суффикса: *берёза — под-берёзовик, окно — под-окон-ник.*

Следует отличать слова, образованные одновременным присоединением приставки и суффикса, от слов, в которых приставка и суффикс добавлялись постепенно, на разных этапах словообразования, например: *оружие - вооружить* (способ образования морфологический, приставочно-суффиксальный); *вооружить* —► *вооружение* (способ образования морфологический, суффиксальный); *люди —нелюдимый* (приставочно-суффиксальный способ образования); *нелюдимый —нелюдимость* (суффиксальный способ образования) и т. д.

4. *Бессуффиксный способ* — это образование имён существительных от основ глаголов и прилагательных, при котором производящая основа без присоединения каких-либо суффиксов становится основой существитель-

ного: *выходить — выходу, заплывать — заплыв^, зелёный — зелень^, сухой — сушъ^.*

5. *Сложение* — это способ образования новых слов соединением двух и более основ или слов. В зависимости от того, что объединяется при образовании новой лексической единицы, различаются способы сложения слов и сложения основ.

При сложении слов образуются составные слова, которые пишутся через дефис: *выставка-продажа, диван-кровать, плащ-палатка.*

При сложении основ образуются сложные слитные слова. Основы могут соединяться при помощи соединительных гласных *-о-, -е- (чернозём, сталевар)* или без помощи соединительных гласных *(завуч, спецкор).* При соединении основ без соединительных гласных образуется сложносокращённое слово — *аббревиатура* (от лат. abbreviare — сокращённо излагать). В зависимости от характера сокращённых основ выделяются следующие типы аббревиатур:

Приставочный. Приставка добавляется ко всему производящему слову и не может изменить часть речи: лететь – перелететь, залететь, вылететь, влететь, прилететь, долететь.

С помощью приставок образуются и другие части речи: группа – подгруппа (сущ.), громкий – негромкий (прилагат.), громко – негромко (наречие).

Суффиксальный. Суффикс добавляется к производящей основе и является единственной морфемой, способной изменить часть речи. Этим способом могут образовываться слова как одной и той же части речи, так и разных. Например: учить – учитель – с помощью суф. *ТЕЛЬ* от глагола образовано существительное. Учитель – учительница – с помощью суффикса *НИЦ* от существительного образовано другое существительное. Слово может быть образовано с помощью нулевого суффикса: перелететь – перелёт.

Постфиксальный. Постфикс, как и приставка, добавляется ко всему производящему слову и не меняет части речи. Например: умывать – умываться (постфикс *СЯ*), какой – какой-то (постфикс *ТО*).

Приставочно - суффиксальный: локоть – подлокотник (прист. *ПОД*, суф.*НИК*); борода – *без*бородый (прист. *БЕЗ*, нулевой суффикс).

Приставочно – постфиксальный: бежать – *раз*бежаться (приставка *РАЗ*, постфикс *СЯ*).

Суффиксально – постфиксальный: гордый – гордиться (суф. *И*, постфикс *СЯ*); труд – трудить*ся*.

СУФФИКСИАЛЬНОГО ОБРАЗОВАНИЯ РУССКИХ ДИМИНУТИВОВ ОТ СУЩЕСТВИТЕЛЬНЫХ

Диминутивы обозначают уменьшительные свойства какого-либо предмета или явления. Но вместе с тем диминутивы выражают определейный спектр эмоций говорящего. В данном исследовании мы будем считать диминутивами как суффиксальные производные со значением уменьшенного размера, ослабленного проявления признака или действия, которое может сопровождаться определенными оценочно-эмоциональными или экспрессивными семами.

Экспрессивные суффиксы присоединяются к основе имени существительного по определенной схеме, которую можем распределить на:

1) первая степень оценки: слона + уменьшительно-ласкательный суффикс;

2) вторая степень оценки: основа предшествующей уменьшительной формы + ласкательный суффикс.

Вторая степень оценки слова будет эмоциональной, Например, ***мама — мамочка - мамулечка; сын - сынок - сынулька*** и т.п.

Вторая степень оценки экспрессивного напряжения лова зачастую выражается в удвоении либо же утроении суффиксов субъективной оценки. В частности, ***красотуличка, Сашуленька, бабуленька*** и т.д.

Проанализируем, какие именно суффиксы в русском языке образуют диминутивы. Так, для существительных мужского рода для придания уменьшительного эффекта добавляют продуктивные суффиксы:

1**) *-ок. -ек, -ёк. Например:*** конёк, волчок, кулачок, зятёк, голосок, поясок, паучок, волосок, сочок и т. д. ***К данным суффиксам также причисляют уменьшительно-ласкательные суффиксы -шок и -шек:*** хлебушек. краешек, корешок, малышок.

2) ***безударный суффикс -ик. Например:*** котик, носик, глазик, ротик, домик, сушик, гвоздик.

К.С. Аксаков отмечает, что большинство существительных имеют парные формы с суффиксами -ок и -ик. Вместе с тем существует ряд имен существительных, для которых двойные уменьшительно-ласкательные образования будут невозможны. К таким словам относят те, у которых основа заканчивается на г, к, х. Например, ***шаг - шажок, плуг- плужок, сок - сочок, друг - дружок, пух - пушок.*** Основа, которая заканчивается на шипящие буквы, наоборот, имеет только форму с суффиксом -ик: ***ключик, мячик, дождик, чижик.*** 3) -чик. Данный суффикс является своего рода ответвлением суффикса -ик. Например: ***стульчик, ключик, пальчик, карманчик, балаганчик, караванчик, обрывчик, рукавчик и т.п.*** 4) -ец. Данный продуктивный суффикс, в отличие от вышеназванных, ярче проявляет различные оттенки эмоций, как-то ласку, жалость, смирение, унизительность, презрение,

пренебрежение и другие. пример, ***красавец, молодец, уродец, хлебец, морозец*** и т. д. Эти формы слов также не могут возводиться во вторую степень субъективной оценки.

5) -очек, -ёчек. Данные суффиксы являются экспрессивными суффиксами второй степени с ласкательным оттенком. Например, ***горшочек, мочек, песочек, мешочек, поясочек, голосочек, волосочек, чаёчек.***

Кроме продуктивных суффиксов существительные мужского рода в русском языке имени непродуктивные. ***Например,*** *суффиксы -анёк, -енёк* |**(кумаиек***),* **суффикс** *-ышек (воробышек, колышек).*

Для имен существительных женского рода в русском языке диминутивы образуются с помощью таких продуктивных суффиксов:

1) -к. Например, волосинка, сардинка, морковка, картонка, малинка;

2) -инк. В частности, песчинка, тростинка, снежинка;

3) -енк. К примеру, вишенка, соси . неженка.

4) -онк. Данный суффикс зичпо vio содержи! пренебрежительность, иронию. Например, **душонка.**

Список Литературы

1.Аксаков, К.С.Опыт русской грамматики. - М.: Наука, 1982. - 710 с.

2.Берт, Г. Яма. - М.: Амфора, 2004. - 324 с.

3.Виноградов, В. В. Русский язык (грамматическое учение о слове) - М.: Высшая школа, 1972. - 614 с

4.Дрюон, М. Железный король. - М.: Эксмо, 2009. - 44S с.

5.Макин, А. Французское завещание. - М: Иностранная литература, 1996. - 343 с.

6.Шахматов, А. А. Очерк современного русского литературного языка. ~М.: Учпедгиз,1991.288с .

KH.SHelebieva

MORPHOLOGICAL METHOD FOR FORMATION OF WORDS IN THE MODERN RUSSIAN LANGUA

Summary

The morphological method is the main way of word formation in the Russian language.

Affixation is the formation of new words by attaching certain word-building affixes to the generating base or generating word.

1. The suffix method is the formation of new words by adding suffixes to the generating base: proud - pride, eye - eye-n-oh.

2. The prefix method is the formation of new words by attaching prefixes to the generating word: group - sub-group, load - unload.

3. The prefix-suffix method is the formation of new words by simultaneously attaching a prefix and a suffix to the generating base: birch - under-birch, window - under-window-nick.

Diminutives denote the diminutive properties of an object or phenomenon. But at the same time, diminutives express a certain spectrum of the speaker's emotions. In this study, we will consider diminutives as suffixal derivatives with the meaning of a reduced size, a weakened manifestation of a feature or action, which may be accompanied by certain evaluative-emotional or expressive semes.

Key words: word creation, Russian language, morphological method, different appearance, vocabulary

X.ÇƏLƏBIYEVA

MÜASIR RUS DILINDƏ MORFOLOJI YOLLA SÖZ YARADICILIĞI

Morfoloji üsul rus dilində söz əmələ gəlməsinin əsas yoludur.

Affiksasiya yaradan əsasa və ya yaradan sözə müəyyən sözyaradıcı affikslər əlavə etməklə yeni sözlərin əmələ gəlməsidir.

1. şəkilçi üsulu yaradan əsasa şəkilçilər əlavə etməklə yeni sözlərin əmələ gəlməsidir: məğrur - qürur, göz - göz-n-oh.

2. Prefiks üsulu yaradan sözə prefikslər qoşaraq yeni sözlərin əmələ gəlməsidir: qrup - alt qrup, yük - boşalt.

3. Prefiks-şəkilçi üsulu yaradan əsasa prefiks və şəkilçinin eyni vaxtda qoşularaq yeni sözlərin əmələ gəlməsidir: ağcaqayın - ağcaqayın altında, pəncərə - pəncərənin altında-nik.

Küçültmələr obyektin və ya hadisənin kiçildici xüsusiyyətlərini bildirir. Ancaq eyni zamanda, kiçildicilər natiqin emosiyalarının müəyyən spektrini ifadə edir. Biz bu araşdırmada kiçildilmiş ölçü mənasında olan, xüsusiyyət və ya hərəkətin zəifləmiş təzahürü olan, müəyyən qiymətləndirici-emosional və ya ifadəli semalar ilə müşayiət oluna bilən şəkilçi törəmələr kimi kiçildiciləri nəzərdən keçirəcəyik.

Açar sözlər:söz yaradıcılığı,rus dili,morfoloji üsul,müxtəlif görünüşlü,lüğət fondu.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Рецензент:доктор философия по филологии, доцент Вафа Бунядзаде

AĞAYEVA RƏŞİDƏ RƏŞİD QIZI
Azərbaycan Dillər Universiteti
aghayevarashida@gmail.com

İNGİLİS DİLİNDƏ NƏZAKƏT KATEQORİYASINDA GENDER ASPEKTİ

Hal-hazırda gender cəmiyyət tərəfindən kişi və qadın rollarında, psixi və emosional xüsusiyyətlərində, nitq davranışında fərqlərin yaradılmasının davamlı prosesi kimi başa düşülür. Eyni zamanda gender rolları və normaları universal məzmun daşımır. Gender anlayışı bir cəmiyyətdən digərinə fərqli olaraq əhəmiyyətli dərəcədə dəyişir. Kişilər və qadınlar təhsil və peşə sahəsində getdikcə daha çox bərabərləşirlər. Dil insanlara öz şəxsiyyətini və cinsini ifadə etməyə kömək etdiyi üçün güman etmək olar ki, insanların kişi və qadın xüsusiyyətləri haqqında təsəvvürləri dəyişdikcə, onların nitqi də dəyişir. Ünsiyyətdə fərqli cins nümayəndələrinin linqvistik vasitələrdən istifadə fərqi, anadangəlmə bioloji fərqlər, sosiallaşma prosesləri, cəmiyyətdə hakimiyyətin qeyri-bərabər paylanması ilə izah olunur. İnsanların ənənəvi tərbiyəsi və sosiallaşması dəyişmiş, nəticədə bəzi gender anlayışları da dəyişmişdir. Ona görə də biz diskurs səviyyəsində ingilisdilli mədəniyyətlərdə müxtəlif cinsə mənsub nümayəndələrin nəzakət kateqoriyasını ifadə edən linqvistik vasitələrdən istifadəsini təhlil edirik. Nəzakət kateqoriyasını həm müsbət, həm də mənfi ifadə edən müxtəlif linqvistik formalara malik müxtəlif nitq aktlarının tədqiqi belə qənaətə gəlməyə əsas verir ki, "qadın" və "kişi" dili adlanan dil arasında kəskin bölgü getdikcə aradan qalxır. Qadınlar getdikcə daha çox kişi ünsiyyət tərzinə müraciət edirlər. Onlar daha sadə olmağa meyllidirlər, mürəkkəb strukturları azaldırlar, imperativ əhval-ruhiyyədən daha tez-tez istifadə edirlər. Qadınlar nitqlərinin düzgünlüyünə çox güçlü əhəmiyyət vermirlər. Eyni zamanda, kişilər ünsiyyət prosesində hisslərini göstərməyə meyllidirlər, əks cinslə ünsiyyətdə daha nəzakətli olmağa çalışırlar. Kişilərin və qadınların davranışındakı bu cür dəyişikliklər onların kommunikativ davranışlarına da təsir göstərir. Bununla belə, qeyd etmək lazımdır ki, qadın və kişilərin nitq davranışında nəzakət normalarına uyğunluğu baxımından müəyyən fərqlər qalmaqdadır və eyni zamanda yeniləri də yaranmaqdadır.

Açar sözlər: *gender, nəzakət, dil, nitq, ünsiyyət*

Dünya mədəniyyətlərində insanların davranışı çox vaxt onların hansı cinsin nümayəndəsi olmasından asılı olaraq müəyyən edilir. Bu o deməkdir ki, kişi və qadın cəmiyyət tərəfindən qoyulmuş müəyyən sosial münasibətlərə riayət etməlidirlər. Gender insan həyatının bütün sahələrində öz əksini tapır və dil də buna istisna deyil. Gender münasibətləri cəmiyyətin sosial təşkilinin mühüm elementidir, onun sistem

xüsusiyyətlərini əks etdirir və insanlar arasında münasibətləri müəyyən edir. 20-ci əsrin ikinci yarısında genderin sosial-mədəni xüsusiyyətləri ilə dilin əlaqəsinin öyrənilməsinə həsr olunmuş əsərlər meydana çıxmağa başladı. Bu problemə maraq bir sıra əvvəlki illərin tədqiqatlarının nəticəsində yarandı ki, burada həmsöhbətin cinsindən asılı olaraq bəzi dillərdə leksik, morfoloji və sintaktik fərqlər aşkar edilmişdir. Bu, kişi və qadın dilində spesifik xüsusiyyətlərin olması haqqında danışmağa imkan verdi. Bu cür kəşflər linqvistik fikrin yeni mərhələyə keçidi üçün təkan rolunu oynadı və cinsin linqvistik təmsilçiliyinin hərtərəfli öyrənilməsini zəruri etdi. Dildə cinsi fərqlərə həm leksik, həm də sintaktik səviyyədə rast gəlinir. Məsələn, R.Lakoff hesab edir ki, qadınlar, ədəbsiz söz ehtiyatına, jarqon və sərt danışıq tərzinə daha çox meylli olan kişilərdən fərqli olaraq, etiket sualları, sadə cümlələr, qəsdən şişirdilmiş, yumşaldılmış ifadələrlə dolu, başqa sözlə desək avtoritet rolu oynamadan, "gücsüz dil"də danışırlar. R Lakoff hesab edir ki, bu cür nitq fərqləri adətən qadınların tabe olunan sosial mövqeyi ilə izah olunur və bu, sosial qorunmazlıq hissinə səbəb olur. (61). Lakin müasir bədii ədəbiyyatda bu fikri təsdiq edən nümunələr tapmaq kifayət qədər çətindir. Hazırda qadınlar öz mövqelərinə daha arxayındırlar ki, bu da onların nitqində də özünü göstərir. Məsələn:

"I'm sorry if I sounded like a pompous ass in there It was just such a-"

"No You were perfectly right, Edward Why on earth should they have chosen me?"

"Honey, you'd probably make a great ambassador or ambassadress, or "

"I [Mary] still can't believe it"

"You 're really excited about this, aren 't you? "

"Of course I am Wouldn't you be?

"It is a great honor, honey I'm sure it's not one they would offer lightly"

(S Sheldon Windmills of the Gods)

Ərlə arvadın bu söhbəti onu göstərir ki, ailədə ənənəvi olaraq arxa planda olan qadın indi bərabər mövqe qazanır, fikirlərini düz və inamla ifadə edir. Kişi isə əksinə, müxtəlif üsullarla nitqini bir az daha yumşaltmağa çalışır ki, qadının hisslərinə toxunmasın. Fikrimizcə, qadın və kişi nitqini açıq şəkildə stereotipləşdirmək, hər hansı bir xüsusiyyəti adətən kişi və ya qadına xas əlamət kimi qəbul etmək mümkün deyil, çünki kişi və qadınların dil formalarının seçiminə müxtəlif ünsiyyət faktorları təsir edir. Hal-hazırda gender cəmiyyət tərəfindən kişi və qadın rollarında, psixi və emosional xüsusiyyətlərində, nitq davranışında fərqlərin yaradılmasının davamlı prosesi kimi başa düşülür. Eyni zamanda gender rolları və normaları universal məzmun daşımır və bir cəmiyyətdən digərinə fərqli olaraq əhəmiyyətli dərəcədə dəyişir. Kişilər və qadınlar təhsil və peşə sahəsində getdikcə daha çox bərabərləşirlər. Dil insanlara öz şəxsiyyətini və cinsini ifadə etməyə kömək etdiyi üçün güman etmək olar ki, insanların kişi və qadın xüsusiyyətləri haqqında təsəvvürləri dəyişdikcə, onların nitqi də dəyişir. Ünsiyyətdə fərqli cins nümayəndələrinin linqvistik vasitələrdən istifadə fərqi, anadangəlmə bioloji fərqlər,

sosiallaşma prosesləri, cəmiyyətdə hakimiyyətin qeyri-bərabər paylanması ilə izah olunur. İnsanların ənənəvi tərbiyəsi və sosiallaşması dəyişmiş, nəticədə bəzi gender anlayışları da dəyişmişdir. Ona görə də biz diskurs səviyyəsində ingilisdilli mədəniyyətlərdə müxtəlif cinsə mənsub nümayəndələrin nəzakət kateqoriyasını ifadə edən linqvistik vasitələrdən istifadəsini təhlil edirik. 20-ci əsrdə sənaye və texnoloji tərəqqi sayəsində kişi və qadın davranışının əxlaq normalarının yaxınlaşması müşahidə olunur. Sənayeləşmə gender fərqlərinin funksional əhəmiyyətini bərabərləşdirdi. Qadın müəyyən sosial azadlıq və özünü cəmiyyətdə kişi ilə bərabərhüquqlu hiss etmək imkanı əldə edir, passiv müşahidəçi funksiyasından imtina edərək, onda öz sosial rolunu iddia etməyə başlayır. Bu, daha çox sosial-mədəni modifikasiyalarla, uşaqların tərbiyəsində baş verən dəyişikliklərlə bağlıdır. Bununla belə, insanın şüurunda hələ də "gender stereotipləri" mövcuddur ki, bu da onun əks cinsin nümayəndələrini özündən tamamilə fərqli qəbul etməsinə gətirib çıxarır. Bu gender münasibətləri çox vaxt sosial normalar kimi çıxış edir. Qadınların əks cinslə bərabər mövqe tutmaq və əvvəllər bütövlükdə kişilərə məxsus olan sahələrdə uğur qazanmaq istəyi ona gətirib çıxarır ki, onların davranışı dəyişir və çox vaxt onlar üçün nəzakətsiz, qeyri-adi kimi qəbul edilir. Qadınlar fikirlərini ifadə etməkdə daha sadə olmağa, birbaşa sözünü deməyə başlayır, beləliklə, nitq etiketi qaydaları dəyişir, dil formalarının seçimində və nəzakət kateqoriyasının ifadə konstruksiyalarında transformasiyalar baş verir. Əvvəllər hesab edilirdi ki, qadınlar kişilərdən daha tez-tez üzr istəyirlər, bununla da əks cinsin tabeliyində olma mövqelərini, özünə inamsızlığı nümayiş etdirirlər. Müasir bədii ədəbiyyatdan seçilmiş bir sıra nümunələri nəzərdən keçirərək, aşağıdakı nəticələrə gələ bilərik. Qadınlar üzrxahlıq işarələrindən "pardon", "excuse me", "sorry", "apologize" kişilərə nisbətən daha az istifadə olunur. Qadınların nitqində bu nəzakət işarələrindən istifadə sayı 40,9%, kişilərdə isə 59% təşkil edir.

Why haven't you called? ' she asked, coolly, yet with a slight touch of concern

'I'm sorry Ifell asleep What time is it[7]' He rubbed his eyes and focused on his watch

'Eleven I wish you would call '

'I did call No one answered '

'When?'

'Between eight and nine Where were yo?'

She did not answered She waited 'Are you coming home ? '

'No I need to work all night '

'I expected you home, Mitch And at least you could've done was call

Dinner is still on the stove '

'I'm sorry I'm up to my ears in deadlines and I lost track of time / apologize' (J Grisham The Firm)

Bu misalda kişi bir neçə dəfə üzr istəyir, qadın isə nitq hərəkətlərini yumşaltmağa çalışmır, kişinin təklif etdiyi bəhanəyə baxmayaraq, kifayət qədər sərt davranır. “Thank you”, “thanks”, “grateful” kimi təşəkkür markerləri qadın nitqi üçün daha xarakterikdir (təşəkkür işarələrini ehtiva edən nitq aktlarının ümumi sayının 58% -i).

"Thanhs for coming,' she said into his face 'I've been waiting for four hours I knew of no other way tofind you '

Mitch nodded and smiled as if to say, 'It's okay You did the right thing' (J. Grisham The Firm)

"Would he like us to transfer it to a money market account? It's not drawing any interest sitting here, and I could".

"No He wants it right where it is," Tracy assured him "Okay "

"Thank you so much, Lester You're a darhn' " (S Sheldon If Tomorrow Comes)

“Please” ifadəsi olan istəklər qadınlara nisbətən kişilərdə daha çox eşidilir (kişilərin nitqində bu markerdən istifadənin sayı 52%, qadınlarda 47,6%).

The older man, Dennis Trevor, was saying, "Would you open your luggage, please?" It was not a question but an order (S Sheldon If Tomorrow Comes)

1980-ci illərdə dilçilər P Brown, F Crosby, N Lind modallığın tədqiqində maraqlı müşahidələr apardılar. Qadınların keçmiş zamanda modal fellərdən, natiqə müxtəlif dərəcədə etimad ifadə edən giriş sözlərindən və ifadələrdən, özlərinin və ya başqa fikrə istinadlardan daha çox istifadə etdiyi müşahidə edilmişdir. Bununla belə, müasir bədii ədəbiyyatın təhlili göstərir ki, kişi və qadınların bu cür ifadə olunan fikri yumşaltmaq üçün nəzakət markerlərindən istifadəsində, ciddi fərq yoxdur. Kişi nitqində modal fellərin istifadə faizi təxminən 51,16%, qadınlarda - 46,3%, modal sözlərə gəldikdə isə, onlar kişi nitqində daha çox rast gəlinir (60,7%). Bu, kişilərin qarşısındakı insanın hisslərini incitməmək, ifadələrini yumşaltmaq və ifadənin birbaşa icrası ilə mümkün olmayan qarşıya qoyulmuş kommunikativ məqsədə çatmaq istəyi ilə izah olunur.

'I'd like to talk about the accident,' Mitch said

'You can ask I may not answer '

What caused the explosion?'

'I don't know Perhaps an air compressor Perhaps some fuel We are not certain ' (J Grisham The Firm)

Misaldan görünür ki, kişi dəqiq nəticə çıxarmaq istəmir, öz ifadəsinə əmin deyil və buna görə də öz fərziyyələrini “perhaps” sözü ilə yumşaldır. Kişi və qadınların nitqində modal sözlərdən və feillərdən istifadə əsasən bir funksiyaya - onların nitq aktının həmsöhbətə təsirini yumşaltmağa xidmət edir. 20-ci əsrin birinci yarısı ədəbiyyatında ayırıcı suallar qeyri-müəyyənliklə əlaqələndirildiyi üçün qadın nitqinin xarakterik xüsusiyyəti kimi qəbul edilir (3). Müasir ingilis bədii ədəbiyyatından götürülmüş nümunələri təhlil etdikdən sonra belə bir nəticəyə gəlirik

ki, ayırıcı sualları qadın nitqinin xarakterik xüsusiyyəti deyil. Müəyyən vəziyyətlərdə kişilər ifadələrini yumşaltmaq və ya qarşısındakını söhbətə cəlb etmək üçün daha tez-tez onlara müraciət edirlər (təhlil edilmiş ifadələrin ümumi sayının 74% -i ayırıcı suallardır). Qadınlar isə onlardan həmsöhbətdən daha nəzakətlə məlumat tələb etmək və ya əmin olmadıqları məlumatları təsdiqləmək üçün istifadə edirlər: *He rose to his feet and showed her to the door "You must understand, Miss Whitney, that if there were the slightest danger of anyone's being caught, I would not be involved in this I have my reputation to protect ". "I promise you I won't say anything about it," Tracy said coldly. He grinned "There's really nothing you could say, my dear, is there? I mean, who would believe you? I am Conrad Morgan ". As they reached the front entrance of the store, Morgan said, "You will let* me *know if you change your mind, won't you? The best time to telephone me is after six o'clock in the evening I'll wait for your call". "Don't," Tracy said curtly, and she walked out into the approaching night. When she reached her room, she was still trembling (S Sheldon If Tomorrow Comes).*

Misaldakı birinci halda, cənab Morqan ifadəsinin mənasını yumşaltmaq üçün ayırıcı suala müraciət edir. O, əla reputasiyaya malikdir və əsərin qəhrəmanına heç kim inanmayacaq, hətta o, nəsə deməyə cəsarət etsə belə. Kişi tərbiyəlidir və təhdidlərə əl atmır. Misaldakı ikinci halda, disjunktiv sual verən cənab Morqan cavaba ehtiyac duymur, qızın ona zəng edəcəyinə əmindir, sadəcə olaraq daha nəzakətli formada lazımi məlumatları verir.

Finally Lennie called "Hi" Lucky said, holding her breath, hoping he was going to say — I'm sorry, I've behaved like a jerk, I'm on my way out there, and we '11 get through this together. "Lucky, what the hell is all this about my contract? " he asked bluntly. "I thought you would be pleased", she replied "Panther is releasing you from all future commitment. You can tear your contract up". He didn 't sound as pleased as she'd hoped. "Oh, really ", he said "It's what you wanted, isn 't it? ". "Sure " (J Collins Lady Boss).

Yuxarıda verilmiş nümunədə, Lucky təsdiq almaq üçün bu sualı verir, eyni zamanda, cümlənin belə bir quruluşu həmsöhbətin qeyri-qənaətbəxş cavabına baxmayaraq, sualda sərt intonasiyadan qaçmaq imkanı verir.

Nəzakət kateqoriyasını həm müsbət, həm də mənfi ifadə edən müxtəlif linqvistik formalara malik müxtəlif nitq aktlarının tədqiqi belə qənaətə gəlməyə əsas verir ki, "qadın" və "kişi" dili adlanan dil arasında kəskin bölgü getdikcə aradan qalxır. Qadınlar getdikcə daha çox kişi ünsiyyət tərzinə müraciət edirlər, daha sadə olmağa meyllidirlər, mürəkkəb strukturları azaldırlar, imperativ əhval-ruhiyyədən daha tez-tez istifadə edirlər, nitqlərinin düzgünlüyünə çox güçlü əhəmiyyət vermirlər. Eyni zamanda, kişilər ünsiyyət prosesində hisslərini göstərməyə meyllidirlər, əks cinslə ünsiyyətdə daha nəzakətli olmağa çalışırlar. Kişilərin və qadınların davranışındakı bu cür dəyişikliklər onların kommunikativ davranışlarına da təsir göstərir. Bununla belə, qeyd etmək lazımdır ki, qadın və kişilərin nitq davranışında

nəzakət normalarına uyğunluğu baxımından müəyyən fərqlər qalmaqdadır və eyni zamanda yeniləri də yaranmaqdadır.

Ədəbiyyat

1. Braun, F. Politeness in language - studies in its history, theory and practice - Watts, R.J., Ide, S., Ehlich, K. / F. Braun // Linguistics. - 1993. - Vol.31 (4). - P. 770-772.
2. Brown, R., Levinson S. Politeness: Some Universals in Language Usage. Cambridge / R. Brown. - 1978. - P. 28-39.
3. Lakoff, R Language and Women's Place / R Lakoff-New York Harper & Row, 1975 PP 45 -79

Р.Р.АГАЕВА

ГЕНДЕРНЫЙ АСПЕКТ В КАТЕГОРИИ ВЕЖЛИВОСТИ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В настоящее время гендер понимается обществом как непрерывный процесс создания различий мужских и женских ролей, психических и эмоциональных характеристик, речевого поведения. В то же время гендерные роли и нормы не имеют универсального содержания. Понятие гендера значительно варьируется от одного общества к другому. Мужчины и женщины становятся все более и более равными в образовании и профессии. Поскольку язык помогает людям выразить свою идентичность и пол, можно с уверенностью предположить, что по мере изменения восприятия людьми мужских и женских характеристик меняется и их речь. Различие в использовании языковых средств представителями разных полов в общении объясняется врожденными биологическими различиями, процессами социализации, неравным распределением власти в обществе. Изменились традиционное образование и социализация людей, и, как следствие, изменились и некоторые гендерные представления. Поэтому на уровне дискурса мы анализируем использование языковых средств, выражающих категорию вежливости, представителями разных полов в англоязычных культурах. Изучение различных речевых актов с разными языковыми формами, выражающими категорию вежливости как положительно, так и отрицательно, приводит к выводу, что резкое разделение между так называемым «женским» и «мужским» языком постепенно стирается. Женщины все чаще обращаются к мужским стилям общения. Они стремятся быть проще, сокращают сложные конструкции, чаще используют повелительное наклонение. Женщины не придают большого значения правильности своей речи. В то же время мужчины склонны проявлять свои чувства в процессе общения, стараются быть более вежливыми при общении с противоположным полом. Такие изменения в поведении мужчин и женщин влияют и на их коммуникативное поведение.

Однако следует отметить, что некоторые различия в речевом поведении мужчин и женщин в плане соблюдения норм вежливости все же существуют, и в то же время появляются новые.

Ключевые слова: *гендер, вежливость, язык, речь, коммуникация*

R.R.AQAYEVA

GENDER ASPECT IN CATEGORY OF POLITENESS IN ENGLISH LANGUAGE

SUMMARY

Currently, gender is understood by society as a continuous process of creating differences in male and female roles, mental and emotional characteristics, speech behavior. At the same time, gender roles and norms do not have a universal content. The concept of gender varies considerably from one society to another. Men and women are becoming more and more equal in education and occupation. Because language helps people express their identity and gender, it is safe to assume that as people's perceptions of male and female characteristics change, so does their speech. The difference in the use of linguistic means by representatives of different sexes in communication is explained by innate biological differences, socialization processes, and unequal distribution of power in society. The traditional education and socialization of people have changed, and as a result, some gender concepts have also changed. Therefore, at the discourse level, we analyze the use of linguistic means expressing the category of politeness by representatives of different genders in English-speaking cultures. The study of various speech acts with different linguistic forms that express the category of politeness both positively and negatively leads to the conclusion that the sharp division between the so-called "female" and "male" language is gradually disappearing. Women are increasingly turning to male communication styles. They tend to be simpler, reduce complex structures, use the imperative mood more often. Women do not attach great importance to the correctness of their speech. At the same time, men tend to show their feelings in the process of communication, they try to be more polite when communicating with the opposite sex. Such changes in the behavior of men and women also affect their communicative behavior. However, it should be noted that there are still some differences in the speech behavior of men and women in terms of compliance with the norms of politeness, and at the same time new ones are emerging.

Key words: *gender, politeness, language, speech, communication*

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: fil.f.d. Aynur Fazil qızı Məmmədzadə tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ ƏSƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru,dosent
ADU
Rəşid Behbudov 134
e-mail: Lalyasad@gmail.com

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ LEKSİK BACARIQLARIN FORMALAŞDIRILMASINDA DİL MATERİALLARINDAN İSTİFADƏ METODİKASI

XÜLASƏ

Qeyd etmək lazımdır ki, leksikanın tədrisi ən mürəkkəb və aktual məsələlərdəndir. Xarici dildə şifahi nitqin leksik aspektinin öyrədilməsi zamanı tələbələrin rast gəldikləri çətinliklərin böyük əksəriyyəti tədris edilən xarici dil və tələbələrin ana dili sistemləri arasında olan fərqlərlə bağlıdır. Məhz bu səbəbdən xarici dilin tədrisi prosesində iki dilin leksik sistemlərində olan dil faktları ilə bağlı fərqliliklərə xüsusi diqqət yetirilməlidir. Dillər arasında olan fərqlər müqayisəli yolla müəyyənləşdirilə bilər. Müqayisəli tədqiqat metodunun əhəmiyyəti və dil vahidlərinin müqayisəli təhlilinin zəruriliyi görkəmli dilçi və metodist-alimlər tərəfindən sübuta yetirilmişdir. Onları maraqlandıran əsas məsələ aparılan müqayisəli təhlil əsasında müvafiq dil və nitq vahidlərinin tam mənimsənilməsi üçün səmərəli təlim üsullarının yaradılmasıdır. Verbal kommunikasiya zamanı mətn vasitəsilə göndərilən informasiyanın bir hissəsi həmin mətndə eksplisit, yəni gözə görünən şəkildə özünü büruzə verir. Həmin informasiyanın böyük bir hissəsi isə mətndə qalır, yəni implisit şəkildə verilir və mətnin başa düşülməsi qəbul edənin öhdəsinə buraxılır.Xarici dillərin tədrisində leksikanın tədrisinə ayrılan vaxt səmərəli şəkildə bölünməlidir. Belə ki, dərsin əvvəlində tələbələri fəallaşdırmaq, onları müxtəlif, əvvəlcədən nəzərdə tutulmuş fəaliyyət növlərinə cəlb etmək məqsədilə onlara nitq fəaliyyətlərini aktivləşdirən sualların verilməsi tövsiyə edilir. Növbəti mərhələlərdə yerinə yetirilən tapşırıqlar üç mərhələli iş sistemində həyata keçirilməlidir. Burada bu fəaliyyət növlərinin yerinə yetirilməsi tövsiyə edilir: açar sözlərin təqdim edilməsi, mətndə olan qrammatik strukturların tələbələrə təqdim edilməsi və təklif edilən çalışma və tapşırıqların mərhələli şəkildə yerinə yetirilməsi. İxtisas fakültələrində təhsil alan və dili professional məqsədlərlə öyrənən tələbələr onlara bu və ya digər tapşırığın yerinə yetirilməsinə ayrılan vaxt müddətindən səmərəli şəkildə istifadə etməyi və onu düzgün şəkildə bölməyi tədricən öyrənməlidirlər. Bu leksikanın tədrisi prosesinin səmərəliliyini təmin edir. Müntəzəm olaraq, öyrənilən xarici dildən kommunikativ məqsədlərlə istifadə etməklə dilin kommunikativ-yönümlü tədrisini təşkil etmək mümkündür. Kommunikativ-yönümlü təlim öyrənilən xarici dilin yalnız sinif şəraitində deyil, həm də sinifdənkənar şəraitdə istifadə edilməsini nəzərdə tutur.

Açar sözlər: dil, leksika, metod, texnologiya , nitq

Qeyd edildiyi kimi, hər hansı xarici dili öyrənən tələbələrə həmin dildə leksik vərdişlərin öyrədilməsi məsələsi xarici dillərin tədrisi metodikasının ən mürəkkəb, aktual problemlərindən biri hesab edilir. Dil mühiti olmadığı şəraitdə dilöyrənənlər öyrənilən dildə müxtəlif layihələrin həyata keçirilməsində fəal şəkildə iştirak etməli, audio və videokasetlərdən geniş şəkildə istifadə etməli, kitab, jurnal, qəzet oxumalı, dil daşıyıcısı olan həmyaşıdları ilə internet vasitəsilə ünsiyyət yaratmalı, dildaşıyıcılarının mədəniyyəti ilə tanış olmalıdırlar. Təlim prosesinin bu cür təşkil edilməsi dilöyrənənlərə şifahi nitq vərdişlərinin səmərəli şəkildə inkişaf etdirilməsi və nəticə etibarilə, uğurlu nailiyyətlərin əldə edilməsini təmin edir. Belə ki, xarici dil üzrə təlim-tərbiyə prosesinin intensivləşdirilməsinin ehtiyaclarından biri xarici dil fənni üzrə işin vahid sisteminin yaradılmasıdır.Müəllimlərin təcrübəsində göstərilir ki, istənilən proqram mövzusunun öyrənilməsi sinifdənxaric iş üzrə də davam etdirilə bilər. Xarici dildə təhsilalanların dərsdənkənar ünsiyyəti dilin onlar tərəfindən təbii motivasiyaedici formada istifadəsini şərtləndirir. Bu mühüm motivasiyaedici vasitə kimi nitq təcrübəsi və dilə yiyələnmə baxımından olduqca vacibdir. Bu işlər öyrənilən materialı genişləndirir, onu tamamlayır, dilöyrənənlərdə ünsiyyət bacarığını formalaşdırır, eləcə də, bacarıq və vərdişlərin gələcəkdə təkmilləşdiriməsinə kömək edir. Müəllimlər üçün, təcrübi, ümumtəhsil və tərbiyəvi tapşırıqların həllinə daha çox kömək edən və bununla yanaşı, vaxta qənaət edən, çətin olmayan tədbirlərin seçilməsi məqsədəuyğundur. Bu zaman nitq nümunələri motivasiyaedici situasiyaların yaradılmasına kömək edir, kollektivin maraqlarına cavab verir, təlim-tərbiyə prosesi ilə vəhdət təşkil edir. Bu işin təşkil edilməsi ilə bağlı dərketmə və sosial- mədəni bacarığın formalaşması ona görə vacibdir ki, təlimin orta mərhələsindən başlayaraq, dilöyrənənlər öz mövqelərini ifadə etməyi bacarsınlar. Burada təlimin əsas motivi maraqdır.Fəaliyyətə marağın artması müxtəlif mənbələrdən qaynaqlanır.Məlum olduğu kimi, xarici dillərin tədrisinin baş verdiyi sosial mühitin dəyişməsi bilavasitə dilin öyrənilməsi məqsədlərinin dəyişməsi ilə müşayiət edilir. Şifahi nitq vərdişlərini şərtləndirən amilləri araşdırarkən, ilk növbədə dilçilik, sosiolinqvistikanın inkişafı və iqtisadi xarakterli dəyişiklikləri qeyd etmək lazımdır. Kommunikativ kompetensiya müxtəlif mədəniyyətləri təmsil edən insanların kommunikasiya prosesində fəal iştirakçı qismində iştirak etmək, birbirilə adekvat şəkildə ünsiyyət qurmaq qabiliyyəti kimi başa düşülür. Adekvatlıq eyni zamanda beynəlxalq səviyyədə qəbul edilmiş verbal və qeyri-verbal normalara riayət etməyi nəzərdə tutur. Bu gün xarici dillərin öyrənib-öyrədilməsinin əsas məqsədi həmin dildən ünsiyyət vasitəsi kimi istifadə etmək bacarığına yiyələnməkdən ibarətdir. Leksik bacarıq və vərdişlərin aşılanması xarici dillərin tədrisi metodikasının aktual problemlərindən biridir. Xarici dildə nitqin səlisliyi bilavasitə həmin dildə leksik vərdişlərin formalaşdırılması səviyyəsindən asılıdır. Bu da öz növbəsində, xarici dildə olan sözlərin bir tərəfdən anlayışlarla, digər tərəfdən isə həmin dildə başqa sözlərlə olan əlaqələrinin möhkəmləndirilməsini nəzərdə tutur.Tələbələrin ana dilində və tədris edilən xarici dildə leksik vahidlərin istifadə edilməsi normalarının üst-üstə düşməməsi söz birləşmələri səviyyəsində interferensiyaya gətirib çıxarır. Bu da nitq prosesində sözlərin birləşmə normalarının tələbələrə məqsədyönlü şəkildə aşılanmasını tələb edir. Bu proses iki dildə

nitq ekvivalentlərinin uyğun gəlməməsi amilini, onların arasında olan fərqləri nəzərə almaqla həyata keçirilməlidir. Əksər hallarda söz birləşmələri səviyyəsində interferensiyaya səbəb olan məhz bu uyğunsuzluqlardır. Öyrənilən dildə leksik vahidləri nitqdə istifadə etmək bacarığının formalaşdırılması üçün zəruri olan şərtlərdən biri söz və söz birləşmələrinin metodik tipologiyasının yaradılmasıdır. Müasir dövrdə xarici dilin tədrisində çalışmalar sistemini seçərkən onların əsas bacarıqlar olan dinləyib-anlama, yazı, oxu və danışıq bacarıqlarını yüksək səviyyədə inkişaf etdirmək potensialının olması nəzərə alınmalıdır.Təlim situasiyaları onlarda real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq səciyyələndirilir. Bu göstəricini əsas tutaraq məhz real modellər olan şərti-real situasiyalar təbii situasiyalara ən yaxın hesab edilə və diskursiv kompetensiyanın aşağı kurs tələbələrinə aşılamaq məqsədilə uğurla istifadə edilə bilər. Problemli situasiyalarda baş verən proseslər dilöyrənənlərin xarici dildə nitqinin fəallaşdırılması, mənimsənilmiş linqvistik materialların aktuallaşdırılması və şifahi nitqin əsasını təşkil edən potensial fəaliyyətin həyata keçirilməsi üçün və beləliklə, dilöyrənənlərdə şifahi nitqin inkişaf etdirilməsi üçün səmərəli şəraitin yaradılmasını tələb edir. İxtisas dilindən ünsiyyət məqsədilə istifadə etməyə qadir olan mütəxəssislərin hazırlanması ali məktəblər, xüsusilə də ali ixtisas məktəblərinin qarşısında duran əsas vəzifəsidir. Bu gün ali təhsil qarşısında duran ən önəmli vəzifələrdən biri müasir dövrün tələblərinə uyğun olan xarici dil müəllimlərinin hazırlanmasıdır. Mütəxəssislərin günün tələblərinə cavab verən şəkildə hazırlanması, xarici, o cümlədən ingilis dili müəllimləri, tərcüməçi və dilçilərin yüksək peşə keyfiyyətlərinə yiyələnməsi bu gün mühüm əhəmiyyətə malikdir. Qloballaşma dövründə əsas ünsiyyət dili statusunu qazanmış ingilis, alman, fransız dilini öyrənən insanların sayı gündən-günə artmaqdadır.Müasir dünyada əsas ünsiyyət dilləri olan ingilis, alman, fransız dillərinin yüksək səviyyədə mənimsənilməsi ölkəmizin orta və ali təhsil müəssisələri qarşısında qoyulan əsas tələblərdən biridir. İxtisas dilindən kommunikasiya məqsədilə istifadə etmək qabiliyyətinin tələbələrə aşılanması məqsədilə ali məktəblərin dil fakültələrində tədris prosesinin kommunikativ-yönümlü şəkildə təşkil edilməsi olduqca vacibdir. Müəllimin öhdəsinə düşən vəzifə isə hər bir tələbəyə xarici dilin praktiki cəhətdən mənimsənilməsi üçün şərait yaratmaqdan, onlara öz fəallığını və yaradıcılığını göstərməyə imkan verən metodları secməkdən ibarətdir. Müəllimin vəzifəsi tələbələrin kommunikativ bacarıqlarını yaratmaq, xarici dilin tədrisi prosesində idrak fəaliyyətini sistemləşdirməkdir. Fərdi inkişafla bağlı yaradıcı gücü, bacarıqları və istedadları istifadə etməkdə real imkanları gerçəkləşdirməyin vacib üsullarından biri də dilöyrənənlərlə bu işlərin aparılmasıdır. Müasir məktəblərin inkişafının bugünki mərhələsində bu işlər təhsil sisteminin vacib bir elementi kimi çıxış edir. Bu islahatlar nəticəsində əldə edilən qərarlar olduqca vacibdir. Bu işlərin dərs proqramları ilə düzgün şəkildə əlaqələndirilməsi tədrisin səmərəliliyini daha da artırır. Müəyyən bir fənn ilə bağlı işlərin planlaşdırılması və aparılmasında fəaliyyətlərin hər birinin məktəbin təhsil sisteminə uyğunlaşdırılmasının vacibliyi nəzərə alınmalıdır. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər isə bütün tələbələri fəallaşdırır, tələbə və müəllim arasında psixoloji mühit yaranır, hər iki tərəfin qarşılıqlı əməkdaşlığı təmin olunur. Bunun nəticəsində zəif dilöyrənənlərdə öz

gücünə inam yaranır, güclülər isə öz yoldaşlarına kömək edirlər. Bu zaman onlarda kommunikativ bacarıqlar yaranır, tənqidi təfəkkür inkişaf edir. Müasir təlim metodu olaraq, interaktiv metod ingilis dilinin tədrisi prosesini xeyli intensivləşdirir fəallığın artmasına zəmin yaradır və təlimin inkişaf prosesini gücləndirir.Tədris prosesində interaktiv təlim metodundan istifadə zamanı dərsin strukturunda motivasiya, problemin qoyulması, tədqiqatın təşkili, məlumatın mübadiləsi, məlumatın təşkili, nəticənin çıxarılması, tətbiq edilməsi nəzərə alınmalıdır. Belə təlim prosesində dərs müxtəlif formalarda-fərdi, cütlərlə, qruplarla iş şəklində effektli üsullarla aparılır. İnteraktiv təlim metoduun mühüm xüsusiyyəti dərs prosesində öyrədici, ümumiləşdirici, yaradıcı olaraq müxtəlif səpkili problemlərin təşkili, düşünməyə yönəltmə, dərketmə, tələbələrdə aldıqları biliklər əsasında təhlil etmə qabiliyyətlərini inkişaf etdirmək və formalaşdırmaqdır. İnteraktiv təlim metodunun istifadə edilməsi tələbəni dərsin fəal iştirakçısı etməyə, idrak fəallığını yaratmağa və inkişaf etdirməyə imkan verir. Bu fəaliyyət zamanı tələbələr daha çox psixoloji gərginlikdən azad, canlı ünsiyyət prosesində isə interaktiv fəaliyyətdə olurlar. Bu zaman yeni metod və texnologiyalar vasitəsi ilə dilöyrənənlərin yalnız şifahi nitqi deyil, həmçinin onlarda məntiqi, tənqidi, yaradıcı təfəkkür də inkişaf etdirilir. Xarici dillərin müasir metodlar vasitəsi ilə öyrədilməsi istedadlı tələbələrin inkişafı üçün əlverişli şərait yaradır. Belə dərslərdə yalnız istedadlı dilöyrənənlər deyil, həm də zəiflər fəal iştirakçıya çevrilir. Təlim prosesinin inkişaf etdirilməsi üçün dilöyrənənlərin maraq və meyilləri nəzərə alınmalıdır. Yalnız bu yolla onlarda xarici dilə qarşı maraq oyatmaq olar. Təlim prosesində onlarda motivasiya yaratmaq, dil öyrənmək həvəsi yaratmaq mühüm şərt kimi meydana çıxır. Bu isə fəal təlim metodlarından dərsdə daha çox istifadə olunmasını tələb edir. İşlərin təşkili zamanı birgə fəaliyyətə ciddi hazırlıq işi aparılır ki, bu da təbii ki, dilöyrənənlərdən daha mürəkkəb və kompleks bacarıqları özündə birləşdirən intellektual fəaliyyət tələb edir. Burada kooperativ tədris üsulundan istifadə bu və ya digər qrupa daxil olan təhsilalanlara tədris materialını özünün anladığı səviyyədə mənimsəməyə imkan verir. Hesab edirik ki, bu fəal şüurlu fəaliyyətə, biliklərin daha möhkəm mənimsənilməsinə, eləcə də, yeni informasiya axtarışına olduqca böyük stimul verməklə çox mühüm amul kimi çıxış edir. Bundan başqa, təcrübi bacarıq və vərdişlər formalaşdırmaq xarici dilin tədrisində bir sıra istiqamətlərin həyata keçirilməsi ilə reallaşır. Xarici dili ixtisas kimi tədris edən müəllimin dilin mənimsənilməsinin psixoloji qanunauyğunluqlarını bilməsi tədris prosesində meydana çıxan çətinliklərin qarşısının alınması və onların aradan qaldırılması yollarının işlənməsinə kömək edir. Beləliklə, dilöyrənənlərdə ingilis dilində şifahi nitq bacarıqları formalaşdıraraq mütləq müvafiq linqvistik materialların və nitq modellərinin dilin normalarına uyğun kommunikasiya prosesində işlədilməsinə xüsusi diqqət yetirilməlidir. İngilis dili dərslərində təlim situasiyalarından geniş şəkildə istifadə etməklə orta və ali məktəblərdə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür. Dilöyrənənlərə təqdim edilən situasiyalar real ünsiyyət situasiyalarına yaxın olmalı və konkret kommunikativ situasiyalarda tələbələrin bilavasitə "iştirak etmə effekti"ni təmin etməlidir. İngilis dilində dilöyrənənlərə təqdim olunan situasiyalar onları maksimum dərəcədə fəallaşdıraraq

öyrənilən xarici dildə şifahi nitq ünsiyyətinə qoşulmalarına həvəsləndirilməlidir [1, s.143]. Onu da yadda saxlamaq lazımdır ki, müəyyən dil materiallarının səmərəli şəkildə aktivləşdirməsinə səbəb ola bilən zəruri şərtlərdən biri mənimsənilməli olan linqvistik materialların və nitq modellərinin dilöyrənənlərin kommunikativ baxımdan tələbatlarına uyğun olmasıdır. Xarici dildə şifahi nitqin inkişaf etdirilməsi yalnız kommunikativ situasiyaların olması zamanı mümkündür. Tədris olunan linqvistik materialların hər hansı konkret situasiya ilə əlaqəli şəkildə istifadə etmək bacarığının formalaşmasına dair tələblər şifahi nitqin tədrisində situativ-modelləşdirmə istiqamətləndirilməsi prinsipi ilə tam şəkildə üst-üstə düşür [2, s.57]. Şifahi nitqin aşılanmasına kommunikativ yanaşma dilöyrənənlərə tədris edilən xarici dil sahəsində biliklərin hazır şəkildə təqdim edilməsi deyil, əldə edilmiş bilik və bacarıqların təbii kommunikativ fəaliyyəti prosesində təkmilləşdirilməsini nəzərdə tutur.. Hər hansı mətnin tərkibində olan semantik informasiya şifahi nitqin inkişaf etdirilməsi üçün stimul ola bilər. Eyni zamanda mətndə olan linqvistik xarakterli informasiya kommunikasiyanın adekvat linqvistik vasitələrdə və nitq modellərindən istifadə etməklə həyata keçirilməsinə xidmət edir.Dil daşıyıcılarının yaşadıqları mühitdə rast gəldikləri və onların nitq davranışlarının nümunələri kimi qəbul edilə bilən kommunikativ situasiyalar əsasında təsvir edilən kontekstual situasiya auditoriya şəraitində analoji nitq situasiyalarının yaradılması üçün bir model hesab edilə bilər. Həmin situasiyaların yaradılması mənimsənilməli olan dil materialları və nitq modellərinin kommunikasiya prosesində istifadə edilməsi məqsədini ortaya qoyur. Oxu zamanı əldə edilmiş informasiya müzakirə obyektinə dair müəyyən fikirlərin və yanaşmaların yaradılmasına səbəb olaraq, dilöyrənənlərdə şifahi nitq vərdişlərinin səmərəli şəkildə inkişaf etdirilməsini təmin edir. Fikrimizcə, orta və ali məktəblərdə təhsil alan dilöyrənənlərin şifahi nitq fəaliyyətinin stimullaşdırılması yolları müəyyən edilərkən, üstünlük real kommunikasiya situasiyalarının modelləri tələbinə cavab verən kontekstual situasiyaya verilməlidir. İstiqamətlərin qarşılıqlı təsiri xarici dil üzrə həyata keçirilən işlər zamanı şəxsiyyətin müvafiq inkişafını təmin edir. Yerinə yetirilən işlər zamanı onun infrastrukturu məqsədləri ilə səsləşməlidir. Tədrisin ümumtəhsil, təcrübi, inkişafetdirici və tərbiyəvi məqsədləri bir-birilə qarşılıqlı əlaqədə olduqda, bir-birini məntiqi surətdə tamamladıqda dərs prosesi daha da mükəmməl olmağa doğru dəyişə bilir. Belə işlər xarici dillərin tədrisinin uğurla həyata keçirilməsində kifayət qədər mühüm rola malikdir. Bu həm dil bacarıqları, həm də özünü və başqalarını qiymətləndirmə baxımından olduqca əhəmiyyətlidir[3, s. 400]. Beləliklə, kontekstual situasiya orta və ali məktəbdə təhsilalanların verbal fəallığını stimullaşdıran bir vasitə hesab edilə bilər. Kontekstual situasiya həm də hər hansı xarici dilin öyrədilməsində əsas məqsəd olan tədris edilən dildə şifahi nitqə yiyələnmək üçün səmərəli şəraitin yaradılmasını təmin edən vasitələrdəndir.

ƏDƏBİYYAT

1. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, pp. 136-143
2. Bailey K.M. and D. Nunan (Eds.) Voices from the language classroom. Cambridge:

Cambridge University Press, 1996, 451p.
3. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

L. ASADOVA

THE METHODOLOGY OF USING LINGUISTIC MATERIALS IN DEVELOPING LEXICAL SKILLS IN ENGLISH LANGUAGE TEACHING

SUMMARY

The article deals with the opportunities of using linguistic materials in developing lexical skills in English. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. In communicative output, the students' main goal is to complete a task, such as obtaining information, developing a travel plan, or creating a video. The learner can hardly understand anything at all, unless the speaker is talking about things the learner is observing, or unless the language being learned is closely related to some other language the learner knows. Through comprehension activities the student can internalize some vocabulary and some grammatical structures, which will help the learner to understand more, when he or she knows enough to actually converse in a simple way. In stage one there is very little real speaking ability, apart from some words and sentences that can be built on the comprehension exercises. In real communication situations the learner has to depend on memorized survival phrases to meet the most immediate needs. Comprehension is shared meaning between parties in a communication transaction. This is the first step in the listening process. The second challenge is being able to discern breaks. Retaining is the second step in the listening process. Memory is essential to the listening process because the information retained when a person is involved in the listening process is how meaning from words is created. Because everyone has different memories, the speaker and the listener may attach different meanings to the same statement. Listening is an interaction between speaker and listener. It adds action to a normally passive process. Individuals in conflict often contradict each other. This may include a distortion of the speaker's argument to gain a competitive advantage. On the other hand, if one finds that the other party understands, an atmosphere of cooperation can be created. Communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process.

Key words: language, lexic, method, technology, speech

Л. АСАДОВА

МЕТОДОЛОГИЯ ИСПОЛЬЗОВАНИЯ ЛИНГВИСТИЧЕСКИХ МАТЕРИАЛОВ НА ФОРМИРОВАНИИ ЛЕКСИЧЕСКИХ НАВЫКОВ В ПРЕПАДАВАНИЕ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В данной статье рассматриваются использования лингвистических материалов на формировании лексических навыков на английском языке. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Сегодня существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами.Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Как известно, при обучении иноязычно-речевой коммуникации, основные трудности составляют различия в системах контактирующих языков. Проблема обучения комбинированию элементов лексики изучаемого языка в процессе речевой коммуникации органически входит в более общую проблему обучения иноязычно-речевой коммуникации, так как комбинаторика, наряду со знаниями и совокупностью навыков, рассматривается в качестве одного из компонентов речевого умения. Чтение литературы на изучаемом языке способствует развитию устной речи, обогащает словарный запас, знакомит с культурой и литературой страны изучаемого языка, развивает аналитическое мышление. Поэтому уроки домашнего чтения необходимы в учебном процессе. Эти уроки очень ценны: во первых, учащийся соприкасается современным живым языком, а не условно –учебным; во-вторых, есть возможность высказать свое мнение и дать оценку и свои мысли произведению, персонажам. Но чтобы чтение было интересным и в тоже время развивающим речевые навыки, необходимо проводить работу над текстом, как перед чтением отрывка, так и после, чтобы помочь учащимся понять текст и активизировать новые языковые явления.

Ключевые слова: язык, лексика, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

VƏFA MƏLİKOVA
ADU
Rəşid Behbudov 134
e-mail: v.melikova.79@mail.ru

LAYİHƏ ƏSASLI DİL TƏLİMİNİN XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ TƏTBİQİ YOLLARI

XÜLASƏ

Müasir dövrdə xarici dili tədris edən müəllim ilk növbədə dilöyrənənlərin tədris edilən xarici dildə kommunikativ səriştəsinin formalaşdırılması üçün səmərəli şəraitin yaradılmasını təmin edə bilən və bu istiqamətdə hərtərəfli yardım edən şəxs olmalıdır. Bununla əlaqədar olaraq, xarici dil müəllimlərinin bu sahədə bilik, bacarıq və vərdişləri günün tələblərinə cavab verməlidir.

Hesab edirik ki, müvəffəqiyyət müəllimin işi təşkil etmək qabiliyyətindən asılıdır. Buna görə də layihə əsaslı işlərin təşkili zamanı heç bir şeyə laqeyd qalmaq olmaz. Bu zaman hər şeyi nəzərə almaq lazımdır. Bəzən xarici dilin öyrənilməsində ünsiyyətə deyil, dil haqqında bilik və məlumatların öyrənilməsinə üstünlük verilir. Bu da dilin normativ şəkildə istifadə edilməsi deyil, dilin sistem şəkildə mənimsənilməsini əsas məqsədə çevirir. Eyni zamanda qeyd edilməlidir ki, qloballaşma dövründə xarici dilin tədrisinin qarşısında qoyulan tələblərə uyğun olaraq, dilöyrənənlər şifahi nitq vərdişlərinə yiyələnməlidirlər. Müvafiq olaraq, orta və ali məktəblərdə xarici dilin, o cümlədən də ingilis dilinin tədrisi prosesində mənimsənilməli olan hər bir dil və nitq vahidi kommunikativ cəhətdən məna kəsb etməli və onların nə dərəcədə əhəmiyyətli olduğu məhz bu baxımdan qiymətləndirilməlidir. Layihə metodu özünün ən sadə formasında istənilən mövzunu könüllü surətdə araşdıran və həmin araşdırmaların nəticələrini daha geniş oxucu kütləsinə çatdıran bir qrup dilöyrənənlə bağlı olur. Bu zaman onlar tərəfindən həyata keçirilən layihələr bir neçə gündən bir neçə ayadək davam edə bilər. Bəzi hallarda bu cür layihələr daha irəli gedərək ciddi işgüzar layihələrədək inkişaf etdirilə bilər. Layihə metodu barədə nə bilirik və niyə bu metod xarici dillərin tədrisi metodikası ilə əlaqədar mütərəqqi yanaşma kimi xarakterizə edilməlidir? Layihə metodunun tətbiqi zamanı ideyalar müxtəlif sahələri əhatə edə bilər. Layihənin ideyası müəllim tərəfindən dilöyrənənlərə təqdim edilə bilər.Layihə metodunun həyata keçirilməsi zamanı konkret qaydalar mövcud olmasa da,bütün layihələr bəzi ümumi mərhələlərə malikdir. Həmin mərhələlərə problemin və ya məsələnin müəyyənləşdirilməsi, ilkin araşdırmalar, tapşırıqların müəyyənləşdirilməsi və planlaşdırılması, mövzu ilə əlaqədar araşdırmaların aparılması, layihələrin yerinə yetirilməsi, yekun variantın işlənib hazırlanması, layihənin qiymətləndirilməsi şamil edilə bilər.

Açar sözlər: kommunikasiya, innovasiya, metod, texnologiya , nitq

Onu da qeyd edək ki, oxu və yazı dilöyrənənlərdə sərbəst öyrənmə üçün əlverişlidir. Sərbəst öyrənmə daha sakit fəaliyyətlər sırasına daxildir. Amma qiymətləndirmə zamanı zəif qiymətləndirmə olmamalıdır. Bəzən bizim öyrənməyə münasibətlərimizi ifadə etmək üçün nisbi sakitliyə ehtiyacımız olur. Əlbəttə, dil laboratoriyaları, dinləmə və öyrənmə mərkəzləri və fərdi kompüter terminalları tələbəyönümlü tədrisdə sərbəst şəkildə işləyən tələbələr üçün idealdır. Bunlar mümkün olmayan yerdə müəllimlər sərbəst öyrənmənin vacibliyini unutmamalı, cütlərlə və qrup işlərində bunları nəzərə almalıdırlar. Orta məktəblərdə xarici dillərin tədrisinin qurulması üçün əsas cəhət məqsədlərin müəyyən edilməsi, həmçinin, onların işlənib hazırlanması zamanı təkcə dilin öyrənilməsi barədə ideyalar deyil, geniş mənada daha effektiv olan müvafiq təlimin məzmununun təkmilləşdirilməsindən ibarətdir. Layihə metodu təhsilalanların müstəqil fəaliyyətinə əsaslanmaqla bu və ya digər problemin və ya məsələnin müəyyən zaman kəsiyində fərdi, iki nəfərlə və ya qrup şəklində həllini nəzərdə tutur. Bu metod qrup şəklində öyrənmə metodları ilə (ingilis dilində " collaborative or cooperative learning") üzvi şəkildə uzlaşır. Layihə metodu həmişə bu və ya digər problemin həllini nəzərdə tutur. Problemlərin həlli, bir tərəfdən, müxtəklif metodlardan, tədris vasitələrindən istifadəni, digər tərəfdən də, bilik və bacarıqları inteqrasiya etməyin zəruriliyini, elm, texnika, texnologiya, yaradıcılıq sahələrinə aid bilikləri əlaqələndirməyin zəruriliyini ehtiva edir. Başqa sözlə, əgər həll olunması qarşıya məqsəd kimi qoyulmuş problem nəzəri problemdirsə, onda onun konkret həlli praktikidirsə, istifadəyə hazır (dərs prosesində ,məktəbdə, real həyatda) konkret nəticəsi olmalıdır.

Layihə metoduna pedaqoji texnologiya kimi yanaşdıqda isə texnologiya tədqiqat, axtarış, problem, eləcə də, yaradıcılıq metodlarının məcmusu kimi başa düşülməlidir. Metod dedikdə, qarşıya qoyulmuş məqsədə nail olmaq üçün müəyyən üsulun ümumi modeli, mümkün üsullar sistemi, eləcə də, şüurlu fəaliyyətin müəyyən texnologiyası başa düşülməlidir. Bu səbəbdən, fəaliyyətin nəticəsi olan layihə anlayışı ilə şüurlu fəaliyyətin metodu olan layihə anlayışlarını fərqləndirmək lazımdır. Fəaliyyət zamanı dilöyrənənlər bir-birlərini qrup çərçivəsində qiymətləndirir (qrup qiymətləndirməsi). Həmçinin, onlar öz sinif yoldaşları tərəfindən də qiymətləndirilirlər (həmyaşıdlar tərəfindən qiymətləndirmə). Əlavə olaraq, şagirdlər tərtib etdikləri layihələri öz məktəbli yoldaşlarına da təqdim etməklə onlar tərəfindən də qiymətləndirilirlər.

Mümkün hallarda valideynlər də öz uşaqlarının fəaliyyətlərini qiymətləndirə və fikirlərini söyləyə bilərlər.Fəaliyyətlər dinamik tədrisi və öyrənməni təmin etdiyindən və qabaqcadan planlaşdırılmış, təbii dil materiallarından istifadəni nəzərdə tutduğundan xarici dillərin tədrisi metodikası sahəsində öz töhvəsini verə bilər. Bu işlərin müstəqil fəaliyyət göstərmək və ideya irəli sürmək bacarıqlarını inkişaf etdirdiyini nəzərə alsaq, onun ingilis dilinin tədrisi sahəsinə tətbiqini əminliklə tövsiyə edə bilərik. Xarici dillərin tədrisi prosesində müxtəlif mövzuda fəaliyyətləri həyata keçirməklə şagirdlərin gələcəkdə müstəqil və savadlı qlobal vətəndaşlar kimi yetişdirilməsini təmin etmək olar. Bu baxımdan, video və audio vasitələrin ingilis dilinin tədrisi prosesinə tətbiqi şagirdlərdə böyük maraq və həvəs yaratdığından, həmçinin, onlarda bir-birilə əsl kommunikativ dil

funksiyalarından istifadə etməklə əlaqə qurmaq potensialı aşıladığından xarici dillərin tədrisinə tərbiqi vacibdir. Layihə metodu tədqiq olunması tələb olunan problemlərin mövcudluğunu nəzərdə tutur.

Bundan başqa, layihə metodu şagird və ya tələbələr tərəfindən fərdi və ya qrup şəklində mütəşəkkil axtarış, tədqiqat fəaliyyəti olmaqla təkcə bu və ya digər nəticənin əldə olunmasını deyil, həm də, həmin nəticənin əldə olunma prosesinin düzgün şəkildə təşkilini tələb edir.Bu proses şagird və tələbələri birgə şüurlu fəaliyyətə təhrik edən situasiyaların yaradılması üçün texnoloji cəhətdən kifayət qədər işlənib hazırlanmalıdır. Həmçinin, qrup şəklində adi iş əməkdaşlıq texnologiyasından prinsipial şəkildə fərqləndiyi kimi, bu və ya digər layihə üzərində iş də layihə metodundan, başqa sözlə, müəyyən nəticələrin əldə olunması üçün şagird və tələbələrin müstəqil fəaliyyətinin təşkili üsullarından fərqlənir.

Orta məktəblərdə layihə metodunun həyata keçirilməsinin hazırlıq mərhələsi alman pedaqoqları tərəfindən "Freie Arbeit" (sərbəst iş) adlandırılmışdır. Sərbəst iş layihə metodunun ayrılmaz hissəsi olmaqla şagirdlərin məktəb proqramı çərçivəsində müstıqil fəaliyyətini özündə birləşdirir.Layihə metodu ilə sərbəst işin vəhdəti danılmazdır. "Müstəqil iş" və " layihə" metodu ilə tədris məfhumlarının təhlili onların üç istiqamətdə vəhdət təşkil etdiyindən xəbər verir: məzmun, metodiki və sosial.

Dil insanların bir-birilə ünsiyyət qurması üçün ən vacib amil, fikir və mədəniyyət mübadiləsi üçün bir vasitə, məhsuldar və sosial fəaliyyətlərdə bizim hər birimiz üçün vacibdir. Hər bir xalqın dili onun tarixini, xarakterini, düşüncə tərzini və bədii yaradıcılığını əks etdirir. Dilin insanlar arasında ünsiyyət yaratmaq üçün ən vacib vasitələrdən biri olması, xalqın tarixini, düşüncə tərzini əks etdirməsi fikri hər zaman vurğulanmışdır.Ona görə də dilin daha yaxşı formada öyrənilməsini təmin etmək üçün orta məktəblərdə həyata keçirilən fəaliyyətlərlə yanaşı, bununla bağlı işlərin də təşkil edilməsi olduqca səmərəli üsul hesab olunur. Məzmun cəhətdən müstəqil iş daha çox müəllim tərəfindən qoyulan tapşırıqların yerinə yetirilməsinə yönəlir. Planlaşdırma və qərar qəbul etmə imkanlarının mərhələli açılışı, müvafiq bilik və bacarıqların mənimsənilməsi şüurlu münasibətlərin yaranmasına səbəb olur. Bununla isə layihə metodu ilə tədris prosesində fəal iştirak etmək imkanı yaranır. Bu zaman şagirddə tədqiqatçı mövqeyi formalaşır və o özünün müstəqil kəşfinin dərketmə subyekti rolunu oynayır.

Metodiki nöqteyi – nəzərdən müstəqil iş planlaşdırmanın fırdi keyfiyyətlərinə yiyələnmənin ilkin mərhələsi kimi çıxış edir.Materialların mənimsənilməsində mərhələ kimi çıxış edir. Materialların mənimsənilməsində mərhələli təlimlər, metod və vasitələrin rəngarəngliyi, uğurlu fəaliyyət, müəyyən müsbət nəticə əldə etdikdən sonra sevinc hissləri və digər amillər uzunmüddətli və şəbəkə formasında əldə olunan biliklərin əsas məğzini təşkil edir.Sosial sferada müstəqil iş fərdin sosial mühitdəki mövqeyini möhkəmləndirir.-Şagird və ya tələbənin qoyulan tapşırıqla mümkün qədər daha dərindən tanış olmaq istəyi və problem yarandıqda birbaşa müəllimə deyil, əvvəlcə şagird yoldaşına müraciət etmək arzusu layihə metodunun ayrılmaz hissəsidir.

Layihə metodundan istifadənin əsas tələblərinə bunları aid etmək olar:

1. Biliklərin inteqrasiyasını, yaradıcı axtarışı tələb edən problem və tapşırıqların mövcudluğu;

2. Güman edilən nəticələrin praktiki, nəzəri, dərketmə nöqteyi – nəzərindən əhəmiyyətliliyi;

3. Şagird və tələbərin müstəqil (fətdi, ikinəfərlə,qrup şəklində) fəaliyyəti;

4. Layihənin məzmununun strukturlaşdırılması (nətəcələri mərhələlərlə göstərməklə);

5. Fəaliyyətin müəyyən ardıcıllığını nəzərdə tutan tədqiqat metodlarından istifadə;

6. Problemin əsas məğzinin və ondan irəli gələn tədqiqat vəzifələrinin (birgə tədqiat metodunun gedişində " beyin həmləsi, "dəyirmi stol metodlarından istifadə) müəyyənləşdirilməsi;

7. Onların həllinə dair fərziyyənin irəli sürülməsi;

8. Tədqiqatın metodlarının müzakirə edilməsi (statik, eksperiment, müşahidə və s.);

9. Əldə olunan yekun nəticələrin müəyyən formaya salınması (təqdimat, müdafiə, yaradıcı hesabat, baxış və s);

10. Əldə olunan nəticələrin toplanması, sistemləşdirilməsi və analizi;

11. Yekun nəticələrin müəyyənləşdirilməsi, nəticələrin müəyyən formaya salınması, onların tədqimatı;

12. Mülahizələr, yeni tədqiqat problemlərinin irəli sürülməsi.

Layihə metodu və tədqiqat metodunun praktikaya tətbiq olunması müəllimin mövqeyinin dəyişməsinə də rəvac verir. Belə ki, müəllim hazır biliklərin daşıyıcısı funksiyasından özünün şagird və tələbələrinin dərketmə, tədqiqetmə fəaliyyətinin təşkilatçısıma çevrilir. Sinifdəki və ya auditoriyadakı psixoloji ab-hava dəyişir [1,s.29].

Müəllim özünün təlim-tərbiyə işinin orientasiyasını rəngarəng və müxtəlif, eləcə də, tədqiqat, axtarış və yaradıcı xarakterli fəaliyyətə dəyişməli olur.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu və ya digər layihənin uğurlu olub olmaması bütovlükdə işin, eləcə də, işin müxtəlif mərhələlərinin düzgün şəkildə təşkil olunmasından asılıdır. Bu və ya digər layihənin strukturunun müəyyənləşdirilməsinə dair ümumi yanaşmaya xüsusi diqqət yetirilməlidir.Bunun üçün bunları nəzərə almaq lazımdır: hər bir layihəni həmişə mövzu seçimi, onun tipi, layihədə iştirak edəcək şagirdlərin sayının müəyyənləşdirilməsi ilə başlamaq zəruridir. Daha sonra müəllim seçilmiş mövzu çərçivəsində araşdırılmalı olan problemlərin mümkün həll variantlarını fikirləşib tapmalıdır. Müəllim müvafiq suallar verməklə, situasiyalar yaratmaqla dlöyrənənlər tərəfindən mövzu ilə bağlı problemlərin aşkara çıxarılmasına stimul vermiş olur. Burada sonradan kollektiv şəkildə müzakirə olunmaq şərtilə beyin həmləsindən istifadə etmək faydalı olardı. Qarşıya qoyulmuş vəzifələrin qruplar arasında bölüşdürülməsi, mümkün tədqiqat metodlarının müzakirəsi, informasiya axtarışı, yaradıcı tapşırıqların yerinə yetirilməsi mühüm əhəmiyyət kəsb edir. Şagird və tələbələrin fərdi və ya qrup halında olmaqla yaradıcı, tədqiqi müstəqil işi təşkil olunmalıdır. Qruplarla əldə olunmuş nəticələrə dair mərhələlərarası müzakirələr keçirilməlidir. Şagird və ya tələbələrin cəlb olunduğu layihələr kollektiv müzakirə edilməli, qiymətləndirilməli, eləcə də, yekunlaşdırılmalıdır [2, s.300].

Şagirdlər əldə etdikləri nəzəri bilikləri təcrübəyə necə tətbiq etmək barədə dolğun təsəvvürə malik olmalıdırlar. Beləliklə, sərbəst təlim-tərbiyə ideyasından nəşət tapmış layihə metodunun hal-hazırki ideyası təhsil sistemini inteqrasiya olunmuş, tamamilə işlənmiş və struktur komponentlər sisteminə çevirməyi prioritet vəzifə kimi qarşıya qoymaqdadır. Layihə metodunun əsasını şagirdlərin dərketmə bacarıqlarının inkişaf etdirilməsi, bilik və bacarıqların müstəqil şəkildə əlaqələndirilməsi, informasiya məkanına inteqrasiya bacarıqlarının inkişaf etdirilməsi, əldə olunmuş məlumatların müstəqil şəkildə təhlil edilməsi, müstəqil şəkildə fərziyyə irəli sürə bilmək, qərarlar qəbul edə bilmək (mövcud problemlərin həlli istiqamətlərinin və metodlarının müəyyənləşdirilməsi) qabiliyyətinin möhkəmləndirilməsi, tənqidi təfəkkürün, yaradıcı, eləcə də tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi kimi faktorlar təşkil edir. Bu yanaşma tədrisə qrup şəklində yanaşma (cooperative learning) prinsipi ilə üzvi şəkildə əlaqəlidir. Çünki, bu və ya digər layihə üzərində birgə iş həyata keçirilərkən (əgər bu fərdi layihə deyilsə) müxtəlif hazırlıq səviyyəsinə malik dilöyrənənlər bir araya gəlir və çoxt vaxt məlum olur ki, həmin şagirdlərin bir qismi yaradıcı, tədqiqat və axtarış fəaliyyətini həyata keçirmək üçün kifayət qədər biliyə malik olduqları halda digər qismi isə buna tamamilə hazır deyil. Bu səbəbdən, layihə metodunun tətbiqi ilə əlaqədar pedaqoji problem meydana çıxır. Bütün şagirdlərin layihə üzərində fəal şüurlu fəaliyyətini necə təmin etməli? Bu problemin həlli ilə əlaqədar Amerika alimləri ingilis dilində "cooperative learning" adlandırdıqları birgə tədris üsulunu təklif edirlər. Kooperativ tədris üsulundan istifadə bu və ya digər qrupa daxil olan şagirdə tədris materialını özünün anladığı səviyyədə mənimsəməyə imkan verir. Bu da, şagirdlərin müstəqil rola malik olmaqla layihə metodu çərçəvəsində sonrakı bərabər və fəal fəaliyyətini təmin edir. Ayrı-ayrı fərdlərin ugurundan isə ümumilikdə bu və ya digər layihənin uğuru çox asılıdır.

Hesab edirik ki, bu fəal şüurlu fəaliyyətə, biliklərin daha möhkəm mənimsənilməsinə, eləcə də, yeni informasiya axtarışına olduqca böyük stimul verməklə çox mühüm amul kimi çıxış edir[3, s.48]. Layihə metodu həmişə bir tərəfdən müxtəlif metodlardan, tədris vasitələrindən istifadə, digər tərəfdən isə müxtəlif sahələrə dair bilik və bacarıqların inteqrasiya olunmasını nəzərdə tutan bu və ya digər problemin həllini özündə birləşdirir. Yerinə yetirilmiş layihələrin nəticələri nəzərə çarpan və aydın olmalıdır.

Ədəbiyyat

1. Besse H. The Pedagogic Authenticity of a Text / The Teaching of Listening comprehension, ELT Document Special. London: The British Council, 1981, p. 20-29
2. Brown H.D. Principles of language learning and teaching. Longman Publication, 2000, 352 p.
3. Ferris D.R.Response to student writing: Implications for second language students. Mahwah, NJ: Lawrence Erlbaum Associates.2003, 498p.

В. Меликова

Проектный метод и ее пути использование к процессу преподавание в иностранных языках

Резюме

В данной статье рассматриваются проектный метод и ее использование. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. В условиях, когда обучение иностранному языку приобретает особое значение, к преподавателю предъявляются достаточно высокие требования, в соответствии с которыми речь его должна быть максимально приближена к речи лингвистически образованного носителя языка, что предполагает, в частности, умение экспромтного речевого общения на иностранному языке в любой ситуации. Совершенно очевидно, что изучающие язык должны быть коммуникативно компетентными. С другой стороны, коммуникативная модель использования языка в целях речевого общения, предполагает формирование умения понимать и продуктивно использовать язык в устной и письменной речи. Здесь мы должны говорить о компетенции. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль проектного метода. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Мы можем сказать, что педагог должен выступать в одной из ролей, присущих педагогу иностранного языка , - в качестве советчика, направлять и помогать студентам сделать правильный выбор. Итак, одной из самых важных и актуальных проблем современной методики является информирование студентов профессиональных изучающих английский язык, о культуре, вербальных и невербальных нормах поведения носителей изучаемого ими языка. Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов.

Ключевые слова: коммуникация, инновация, метод, технология, речь

V. Malikova

Project- based method and its ways of use in foreign language teaching process

Summary

The article deals with the project- based method and its use in English. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of projects should be goal-oriented systematic. It will make the process more effective. In communication, the learners' main purpose is to complete a task, such as obtaining information, developing a travel plan, or creating a video. To complete the task, they may use the language that the instructor has just presented, but they also may draw on any other vocabulary, grammar, and communication strategies that they know. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. It is important that teachers know and understand the minimum expected outcomes, or end-of-year benchmark standards, for comprehension development at each grade level, especially in the early years. This information becomes an essential roadmap for teachers to use in assessing each student's level of comprehension development. With this knowledge, you can plan instruction that best fits the needs of every child and that lays the groundwork for appropriate "next steps" in comprehension development. Of course, in the classroom you will discover students are at different places in their comprehension development, and you will need to plan small-group sessions each day for students having common needs. In this way, you can help all students continue learning in a systematic fashion.

Key words: communication, innovation, method, technology, speech

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

SƏİDƏ ABBASOVA
Dosent, f.ü.f.d.
Bakı Dövlət Universiteti

ÜNSIYYƏT MƏDƏNIYYƏTININ FORMALAŞDIRILMASI

Acar sözlər: kommunikasiya, dil, danışıq, proses, ünsiyyət, informasiya, nitq, münasibət, əlaqə, insan.

Ключевые слова: язык, разговор, общение, этикет, информация, человек, культура, деятельность, связь, речь.

Keywords: language, process, information, human, conversation, speech, communication, culture, activity, ethical.

Ünsiyyət ərəb sözüdür, ünsiyyət sözündən yaranıb. Ünsiyyət - insanların birliyi, cəmi, həm də ünsiyyətdə yalnız sadəcə əlaqəlilik-cəmlik deyil, mahiyyətində insanilik dayanan münasibət əlaqəliliyi nəzərdə tutulur. Onun dərəcəsi, necə təzahür etməsi ünsiyyət mədəniyyətində ehtiva olunur. Bu baxımdan social ünsiyyət vərdişlərinə yiyələnən hər bir şəxs ünsiyyət mədəniyyəti səviyyəsinə görə bir-birindən fərqlənir. Ünsiyyət mədəniyyəti bütün yüksək insani keyfiyyətlərin əməli görünüşüdür. İnsanlar bir-biri ilə əsasən nitq (dil) vasitəsilə əlaqə qururlar. Eyni zamanda davranış, bir-birinə diqqət və simpatiya, hərəkət tərzi də ünsiyyətin qurulmasında əhəmiyyətə malikdir.

Ünsiyyət mədəniyyəti – qarşılıqlı anlaşma və əlaqədə, münasibət və fəaliyyətdə yüksək insaniliyi, əxlaqi-etik normaları gözləməyi, nitqin məzmunlu və gözəl, təsirli olmasına nail olmağı tələb edir.

Ünsiyyət zamanı problemlər hansı halda yaranır? O halda ki, qarşılıqlı münasibətlərdə səmimilik, anlaşma aradan qalxır, hirslilik və danlaqlar, hədə-qorxu gəlmək, idarə etməyə çalışmaq, yalan, qışqırıq, təhqir, təmənnalı tələbat, üstünlük meylləri, bir-birini eşitməmək kimi hallar üstünlük təşkil edir. Bu zaman da problemlər yaranır.

Ünsiyyət mədəniyyəti insanın ziyalılığını, davranış və rəftar səviyyəsini, insansevərliyini göstərən və mənsub olduğu xalqın, dövlətin ləyaqət atributunu kənar aləmdə meydana çıxaran keyfiyyətdir.

Ünsiyyət eyni zamanda şəxsiyyətin formalaşmasına da müəyyən tərzdə istiqamət verir. Belə ki, ünsiyyət sayəsində insan keyfiyyətcə dəyişir, onun hərtərəfli, ahəngdar inkişafı mümkün olur, o müəyyən ictimai vəzifəni yerinə yetirir, sosial rolu ifa edir, zəruri rəftar və davranış normalarına, fəaliyyət vərdişlərinə yiyələnir və bununla ətraf aləmə təsir göstərir.

Son zamanlar fərdi azadlıq dediyimiz məthunun çərçivəsi o qədər genişlənib ki, insanlar özünü inkişaf etmiş düşündükcə, başqaları ilə əlaqəsi də eyni zamanda

zəifləməyə başlayıb. İnsanlar bir-birinə ya güvənmir, ya etibar etmir, ya çəkinir, qorxur, bir sözlə uzaq durmağa çalışırlar. Hətta, dinimiz islam dininin əsas özəyi də odur ki, insanlar daimi bir-birilə gözəl əlaqədə, xoş rəftarda və sıx ünsiyyətdə olsunlar. Çünki, insanı digər canlılardan fərqləndirən ən mühüm xüsusiyyət ünsiyyəti şüurumuzla mükəmməl şəkildə ifadə etməyimizdir. Ünsiyyət zamanı həm alıcı, həm də ötürücü tərəflər mövcud olduğu üçün biz həm dinləməyi, həm də fikrimizi düzgün çatdırmağı, bacarmalıyıq. Tolstoyun yaxşı bir sözü var: "Xoşbəxt o insandır ki, özü başa düşdüyü kimi başqasını da başa salır".

Hər bir ünsiyyətdə qarşılıqlı hörmət, dinləməyi bacarmaq və səbrli olmaq ən əsasdır. Bunların hamısı yerində olsa, əlbəttə ki, ünsiyyət də uğurlu olacaq.

İnsanın daima kütlə halında yaşaması tarixi və sosioloji araşdırmalarla sübuta yetirilib. Insanı digər canlılardan ayıran ağlı, düşünmə qabiliyyəti və düşündüklərini ətrafdakılara çatdıra bilməsi, yəni ünsiyyət qura bilməsidir. Ünsiyyət insanların yaşaya bilmələri üçün ən vacib vasitələrdən başlıcasıdır. Ünsiyyətin əsas məqsədi insanlararası əlaqələrin yaranmasını və inkişafını təmin etməkdir. Ünsiyyətin məqsəd və vəzifəsi "insanlar arasında məlumat alış-verişini təmin edən ortaqlıq yaratmaqdır.

İnsan şüurlu surətdə kommunikasiya prosesinə qoşulur, informasiyanın öturulməsi üçün işarələr sistemindən bilərəkdən məqsədəuyğun şəkildə faydalanır. Bununla yanaşı kommunikativ prosesin tərəfi onun, yəni işarələr sisteminin obyektə münasibətini və mənasını tam anlayır. İnsanlar arasındakı ünsiyyət fərdi-sosial təcrübə öyrənilmədən uğurla gerçəkləşmir: cəmiyyətin hər bir üzvü tədricən ötürücü işarələr sistemini anlayır və digər fərdlərlə kontaktda onlardan istifadə vərdişlərinə yiyələnir. İnsan həm də kommunikasiya prosesində keçmişə və gələcəyə istinad edir, mücərrəd anlayışlardan və tipik obrazlardan faydalanır. İnsanlar arasında ünsiyyətin müxtəlif formaları mövcuddur, xüsusilə fərdlərarası və kütləvi ünsiyyət növləri seçilir. Fərdlərarası ünsiyyətin xüsusiyyətləri, ilk növbədə, adamların qarşılıqlı fəaliyyəti, emosional konteksti ilə müəyyənləşir. Həmin kontekstə emosional təzahürlərin bütün növləri, yəni effektlər, emosiyalar, duyğular daxildir. Bu təzahürlərin intensivliyi müxtəlif ola bilər və daha çox fərdlərarası münasibətlərin spesifikasından asılıdır. Istənilən hər hansı bir ünsiyyət forması kimi şəxslərarası ünsiyyətin də həyata keçirilməsi üçün informasiyanın verilməsi, qəbulu və işlənməsi məqsədilə imkan yaradılması vacibdir. Verilən informasiya imkan daxilində birmənalı olmalıdır; informasiyanı müvafiq adamlara çatdırmaq vacibdir; son dərəcə vacib informasiyanı rahatlıq naminə, yaxud sistem çərçivəsində çətinlikdən uzaqlaşmaq üçün gizlətmək və ya hər hansı şəkildə ixtisar etmək lazım deyil; başqalarının bizim hərəkətlərimizi necə başa düşdüyü, davranışımıza necə reaksiya verdiyi barədə mümkün qədər çox şey öyrənmək lazımdır.

Hər bir xalqın yaratdığı maddi və mənəvi sərvətlər o xalqın milli mədəniyyəti sayılır. Milli mədəniyyətdə hər bir xalqin özünəməxsus təfəkkür tərzi, ,mənəvi dəyərləri,özünü və həyatı dərk etmə-anlamasi,bədii-estetik duyumu,dünyagörüşü öz

əksini tapır. Bu silsilədə dilin özünəməxsus yeri və rolu vardır. Dil-mədəni,əxlaqi,dini,estetik normaların saxlanması və gələcək nəsillərə ötürülməsində aparıcı və əsas vasitədir.

Azərbaycan dili özünün səlisliyi ilə elə bir səviyyədədir ki,bu dilin daşıyıcıları ondan faydalanmaq vərdişlərinə yiyələnməli,dilimizin,mədəniyyətimizin qoruyu-cusu və yaradicisi olmalıdırlar. Öz dilini mükəmməl bilməyəni,onun incəliklərini dərindən mənimsəməyəni yüksək mədəniyyətli adam hesab etmirlər. [1. s 9]

Öz dilini yaxşı bilməyən,onun inkişafina,yayılmasına,daha da kamilləşməsinə calışmayan xalq isə mədəni millətlər arasında ola bilməz.Hər bir xalq sayı ilə deyil,yaratdigi maddi və mənəvi sərvətlərin kəmiyyət və keyfiyyətinə görə tanınır.

Dil anlaşma,fikir mübadiləsi aparma,təsir göstərmə vasitəsidir.Nitq isə dilin şıfahi və ya yazılı formada işlədilməsidir.Nitq dil üzərində qurulur.Dilin əsas vəzifələrindən biri,bəlkə də birincisi bizi əhatə edən cisim və hadisələrin adlarını bildirməsidir.Cism və adları sözlər şəklində təzahür tapır ki,onların iştirakı olma-dan fikir formalaşdırmaq,cümlə qurmaq,yəni nitqə gəlmək mümkün deyil.

Dili olmayan xalqin varlıgından,onun qurdugu cəmiyyətdən,dövlət quruluşun-dan xəbər tutmaq olmaz. Dil vasitəsi ilə ünsiyyət,xüsusi şəkildə nizamlanmış səs kompleksini tələffüz etməkdən ibarətdir.(M.Adilov).

Səs kompleksləri dedikdə isə dil vahidləri,yəni,sözlər nəzərdə tutulur.Təbii ki,ünsiyyət məqsədi ilə sözlər nitqdə öz mənalarına görə secilib daxil edilir və yal-niz bundan sonra kommunikativ tələb ödənmiş olur.İnsan düşunəndə də,danishanda da dil vahidlərinə müraciət edir,informasiya mübadiləsi aparır. [2. s 91]

Odur ki,dil ən başlıca kommunikativ vasitə olaraq qalır.Digər vasitələr yalniz köməkci vasitələr kimi nitqin zənginləşməsinə xidmət edirlər.

Alimlər müəyyənləşdirmişlər ki,insanin vaxtinin 70%-ni kommunika-siya(ünsiyyət) təşkil edir.Ünsiyyət yalniz dil vasitəsi ilə deyil,qeyri-verbal vasitə-lərlə də gercəkləşə bilir.Bu zaman insanlar məna problemi ilə üzləşir və onu həll etməyə calışırlar.Danışmaq,dinləmək,yazmaq və oxumaq yəqin ki, insanların birgə fəaliyyətini təmin edən və onlara böyük bir məlumat ehtiyatı toplamaga və ötürməyə imkan verən ən vacib bacarıqlardır.

Kommunikasiya fikir və məlumatların ikitərəfli mübadilə prosesi olaraq qarşılıqlı anlaşmaya gətirib cıxarır.

Həqiqətən, “kommunikasiya” termini latın sözü olub, “ümumi” və ya “hamı ilə paylaşılan” mənalarını bildlrir.Qarşılıqlı anlaşma əldə olunmadısa,deməli, kommunikasiya baş verməyib.Kommunikasiyanin ugurlu olmasina əmin olmaq ücün əks əlaqə olmalıdır.

Inkarolunmaz həqiqət budur ki,yaşadıgımiz kommunikasiya əsrində danışıqlar insan həyatının,beynəlxalq ünsiyyətin,ümumiyyətlə insan fəaliyyətinin bütün sferalarini əhatə edir.Bu zaman danışıq yardımcı vasitə yox,insanin konkret fəaliyyətindən asılı olaraq formalaşan məqsədyönlü və süurlu prosesdir. [3. S 17]

Ünsiyyət tələbati sosial tələbatdir,insanin tələbatlari icərisində xüsusi yer tutur.Məsələn,körpənin hər bir tələbatı inkişaf prosesində onun ücün başqa adama, insanla təmasa,onunla ünsiyyət tələbatına cevrilir. Ünsiyyət tələbatı sonraki yaş dövrlərində də uşaq şəxsiyyətinin inkişafinda xüsusi rol oynayir.Yeniyetmə ictimai-əxlaqi münasibət normalarini ünsiyyət prosesində mənimsəyir. Ünsiyyət müxtəlif vasitələrlə həyata kecirilir.Onlar arasında nitq (mübahisə, polemika, sual, replika vəs.) xüsusi yer tutur.Ünsiyyətin ekspressiv mimik vasitələri də mövcud-dur.Məsələn, təbəssüm,baxiş.mimika,əl,qol hərəkətləri və s.

Ünsiyyət prosesində insanlar yalnız gərəkli informasiya ehtiyaclarını ödə-məklə kifayətlənmir.Eyni zamanda duygu və düşüncələrini realizə edirlər.Əslində sirf fərdi fəaliyyət kimi başa düşülən ünsiyyət toplumdaxili qarşılıqlı anlaşmaya şərait yaradan yeganə şüurlu və məqsədyönlü fəaliyyətdir.Ünsiyyət insanin yaşam tərzi olmaqla yanaşı,həm də həyati ehtiyaclarından biridir.Elmi ədəbiyyatda kommunikasiya,danışıqlar,mubahisə,müzakirə kimi proseslər arasinda ortaq cəhət onların hamısının birbaşa ünsiyyət aktı olması ilə izah oluna bilər [4. S 8]

Ancaq bunlar arasinda fərqi acıqlamaq xeyli cətindir.Şərti olaraq razılaşa bilərik ki, danışıqlar ünsiyyətin və kommunikasiyanin bir formasıdır.

Kommunikasiya zamanı insanlar arasında qarşılıqlı anlaşma baş tutur.Ünsüyyətin bir forması olan kommunikasiya termini daha cox istifadə olunur.

Psixoloqlar L.S.Viqotskiy və A.A.Leontyevaya görə kommunikasiya obyekt və subyekt arasnda informasiya mübadiləsini nəzərdə tutur.

Biz şərti olaraq kommunikasiya və ünsiyyəti eyniləşdirsək, o zaman onlar arasinda meydana çıxan bu funksiyalara diqqət cəkməliyik:

a) Ünsiyyət həm praktik, həm də mənəvi bir proses kimi nəzərdə tutulursa, kommunikasiya daha cox informasiya ötürülməsinə xidmət edir.

b) Ünsiyyət subyeklər arasinda dialoq şəklində qarşılıqlı təmas formasıdır.Kommunikasiya isə bir subyektin digər subyektə(və ya subyektlərə) birtərəfli münasibətidir, yəni monoloqdur.

Haqqinda fikir formalaşdırmaga çalışdıgımız kommunikasiya və ünsiyyət terminlərinin yaxın anlamda olması inkarolunmaz faktdır. Bunlarin hec birinə daha cox üstünlük verilə bilməz.

Ünsiyyət,istər müzakirə (diskusiya), istərsə də mübahisə zamanı tərəflər yüksək dərəcədə intizamlı davranışla, bir-birinə qarşılıqlı hörmətlə hadisələrin məcradan cıxmamasına nəzarət edirlər.Ortaq nəticənin əldə olunması konstruktiv müzakirə nəticəsində mümkün oldugundan ünsiyyət aktının iştirakcıları müzakirə olunan hər bir məsələ ətrafinda ilk öncə dərin düşünməlidirlər.Ən azi ona görə ki, “birisi ilə mübahisə edəndə calışmaq lazımdır ki, sözlər ipək kimi yumşaq, dəlillər isə möhkəm olsun.Rəqibi susdurmaq yox, inandırmaq daha faydalidir” (İngilis publisisti Corc Vilks).

Əgər biz müzakirəni "disskusiya" kimi qəbul ediriksə, onda mübahisə "polemika" kimi qiymətləndirilə bilər.Bu zaman tərəflərin problemə münasibəti ziddiyyətli ola bilər.

Xatırladaq ki, ünsiyyət prosesində bəzən hec nəyə məhəl qoymadan qarşı tərəfi öz iradəsinə tabe etmək cəhdində olanlar da var.Xüsusilə status məsələsi bu vəziyyətin ortaya cıxmasına səbəb olur.Təbii ki, nitq mədəniyyəti və etiket daxilində bu vəziyyətdən cixmaq mümkündür.Əks halda Mişel Montenin dediyi "Nadan adamlarla səmimi mübahisə etmək mümkün deyildir" sözləri öz təsdiqini tapır.

Ünsiyyət zamanı mübahisə edərkən hər kəs bilməlidir ki, yalnız özünə məlum olan problem ətrafinda mübahisəyə qatılmalıdır. Özünün bilmədiyini başqasına sübut etməyə cəhd göstərmək dogru deyiidir.

Ünsiyyətin baş tutması məqsədin əıdə olunacagına əminlik yaratsa da, danışan və dinləyənin cəhdləri axıracan eyni məcraya yönəlməlidir.Biz ideal formada iki şəxs arasında ünsiyyət prosesini nəzərdə tuturuq. Real həyatda isə coxtərəfli ünsiyyət məqamları daha aparıcıdır. Təbii ki, belə olduqda qarşılıqlı anlaşma xeyli cətinləşir.Bu isə mövqelərin carpazlaşması deməkdir, yəni artıq mübahisədir.

Yadda saxlamaq lazımdır ki, mübahisəyə qatılan tərəflər hec də özləri hiss etmədən bir-biri ilə fikir mübadiləsi edir, düşüncələrini bölüşür, yeni ideyalar irəli sürür və nəticədə öz maraqlarını ön plana cıxarmaga calışırlar.Qarşı tərəf də öz mövqelərini əldən verməmək cəhdi ilə mübahisəni davam etdirir. Lakin sonsuz mübahisə etmək mümkün deyil və bu gec-tez anlaşma ilə nəticələnməlidir. Bunun ücün də danışan tərəflərin qarşılıqlı kompromisə, yəni güzəştə getmələri gərəkdir.

Ünsiyyətin özünəməxsus ardıcıllıgı var.Realda bu ardıcıllıq birbaşa nitq funksiyalarının ardıcıllıgıdır. Birinci mərhələdə insanlar bir-biri ilə informasiya mübadiləsi aparir (nitqin informativ funksiyası)., ikinci mərhələdə qarşılıqlı fəaliyyət nümayiş etdirirlər (nitqin kommunikativ funksiyası).,ücüncü mərhələdə isə insanın insanı dərk etməsi prosesi (nitqin dərketmə funksiyası) baş verir. Mübahisə (polemika) isə danışan şəxslərin müzakirə olunan mövzuya biganə olmamalarının əsas göstəricisidir.

İnsanlar arasında ünsiyyət daim inkişafda olan, zaman kecdikcə zənginləşən və əslində dəyişməz qalan bir anlayışdır. İnsanların gündəlik həyatda yaşadıgı məqamlara adekvat münasibəti daha cox kommunikativ davranışında özünü göstərir. Ünsiyyətin ceşidli formalari məqsədyönlü fəaliyyət prosesi kimi bilavasitə informasiya mübadiləsi aparılmasına xidmət edir. Bu zaman öz fikirlərini müsahibinə sistemli və məntiqli bir şəkildə, ardıcıllıqla catdırmaq, nitqin predmetinə daxil olan hər bir problemin mahiyyətini duymaq, nəticəni proqnozlaşdırmaq bacarıgı, məqamı dəyərləndirmək, verbal və qeyri-verbal ünsiyyət vasitələrindən bəhrələnməklə təsir göstərmək xüsusiyyətləri, nitq mədəniyyəti, etiket qaydaları və ünsiyyət texnologiyasını dərindən bilmək gərəkdir. [5. S 550]

Həqiqətən də fikri catdırmaq problemi, hətta bunun ücün tələb olunan işarələr sistemi(dil) mövcud olduqda da, xeyli cətindir.

Yaşadıgımız Yer planetində mövcud olan dövlətlərdə cox müxtəlif xalqlar (millətlər) yaşayır. Milli müxtəliflik şəraitində danışıqların təbiətini az da olsa öyrənmək arzusunda olan tədqiqatcılar hələ ki, bu istiqamətdə dəqiq nəticəyə gələ bilməyiblər. Sadəcə olaraq hər kəs "milli danışıq üslubu" anlayışının milli mədəniyyət, milli xarakter, milli dəyərlər, düşüncə özəllikləri, dərketmə, davranış tərzi, qarşı tərəfin fikrinə reaksiya, qeyri-verbal ünsiyyət elementlərinə münasibət toplusundan formalaşdıgını qəbul edirlər.

Danışıqların aparılmasında milli üslub problemi və insan tiplərinin bu prosesdə rolu birbaşa psixoloji əhəmiyyətlidir. Cünki danışıqların özü də mədəniyyətdir.

Danışıq və ünsiyyət prosesinin prosesinin cox vacib tərəflərindən biri də dinləmə mədəniyyətidir. Plutarx yazirdi: "Dinləməyi öyrənsən, hətta ən pis danışıqdan da faydalana bilərsən". Ünsiyyət ən azı iki tərəfin arasında məqamın tələbinə uygun qurulan məqsədyönıü informasiya mübadiləsidir və insanın fəaliyyət formalarindan biridir. Əhəmiyyətinə vardıgımız hər bir səs, yəni danışıq bizim ücün informasiya mənbəyi rolunda cıxış edirsə, bu artıq dinləməyə sövq edir.

Dinləmədə həmcinin tərəflərin bir-birinə olan münasibəti, yəni həmfikirliliyi, daxili rəgbət və ya ikrah hissi və s. Öz əksini tapir. Elm sübut etmişdir ki, insanların ünsiyyətinin dörddə ücü danışmagın və dinləməyin payına düşür.

Məşhur filosof Leybnis yazırdı: "Mən lap qatı düşmənimi də dinləməyə hazıram,təki ondan nəsə öyrənə bilim".

Dinləmə problemi əslində qarşılıqlı anlaşmanın problemlərinin start nöqtəsində durur. Etiket qaydaları ünsiyyət prosesində qeyri-verbal vasitələrdən istifadə olunmasına cox dəqiqliklə yanaşmagı tələb edir. Onu da qeyd etməliyik ki, ünsiyyət prosesində hər hansı formada ideal dinləmə qeyri-mümkündür. Ən azı ona görə ki, danışıqların (ünsiyyətin) iştirakçıları müxtəlif subyektlər kimi bir sıra fərdi keyfiyyətləri ilə (temperament, intellektual səviyyə, psixoloji durum, vərdişlər, yaş, cins və s.) səciyyələnirlər.

Ünsiyyət zamanı danışanın ali məqsədi odur ki, dinləyici onu istədiyi kimi, düzgün başa düşsün. Əlbəttə dinləyici də öz növbəsində ona ünvanlanan məlumatın düzgün başa düşüldüyünə əmin olmalıdır və bunu yoxlamalıdır.

Bəzən elə olur ki, dinləyicinin günahı üzündən söhbət tam başqa məcraya yönəlir. Bu isə qarşılıqlı anlaşmanın alınmadıgı, məqsədin yarımcıq qalması deməkdir.

Danışıq zamanı verbal və qeyri-verbal ünsiyyət vasitələrindən, əsasən də jestlərdən istifadə daha cox diqqəti cəkir.Qaşların çatılması, yanagın qızarması, çiyinlərin sıxılması və digər əl,qol, bədən hərəkətləri, duruş (poza) və s. Danışanın dinləyiciyə sözlərsiz demək istədiklərini və istəmədiklərini, daxili gərginliyini, hiss və həyəcanını çatdırmaga qadirdir.

Qeyri-verbal ünsiyyət vasitələri öz müsbət rolunu yalnız bacarıqla istifadə olunduqda oynaya bilər. Ən adi ugursuz bir jest qarşılıqlı anlaşmaya sərf olunan zəhmətin üstündən xətt çəkə bilər. Razılaşmalıyıq ki, müxtəlif məqamlarda jestlər və mimika sözləri təmamilə əvəz edə bilər.

Qeyd edək ki, jestlər coxmənalılıga meyllidirlər.Məhz bunun nəticəsidir ki,ünsiyyətə qatılan tərəflər bəzən bu incəliklərdən öz məqsədləri ücün bəhrələnirlər.

Danışıq, ünsiyyət və kommunikasiya vərdişlərinin öyrənilməsini aktuallaşdıran əsas amillər sırasında yaşadıgımız dövrün,sözün əsl mənasında "danışıqlar əsri" kimi qəbul edilməsidir. Etiraf etməliyik ki, bu səbəbdən hər birimiz "danışan adam" (homo loquens) dövrünün insanlarıyıq. Eımi texniki tərəqqi, güclü informasiya sistemləri, yeni və müasir texnologiyalar da, cox təəssüf ki, insanları danışmaq problemindən xilas etməkdə acizdir. Hər birimizə ilahidən verilən danışmaq qabiliyyəti ən etibarlı vasitə kimi həyatın bütün dolanbaclarında bizi müşaiyət edir və insanlıq zirvəsinə ucaldır. Danışıq insan fəaliyyətinin bütün sferalarini əhatə edir. Bu zaman danışıq yardımcı vasitə yox, insanın konkret fəaliyyətindən asılı olaraq formalaşan məqsədyönlü və şüurlu prosesdir. Bu prosesdə insanın nitq mədəniyyəti mühüm rol oynayır.İnsanın nitqinə əsasən onun mənəvi və intellektual inkişaf səviyyəsi, daxili mədəniyyəti haqqında fikir söyləmək mümkündür.

Nitq mədəniyyəti – düzgün danışmaq, həmcinin söz və ifadələrdən ünsiyyət vəziyyəti və məqsədlərinə uygun istifadə etmək bacarıgıdır. [6. S 10]

Bundan başqa nitq mədəniyyəti həm ünsiyyət vasitəsi olaraq dilə və onun normalarına əsaslanır, həm də dilin möhtəşəmliyini və gözəlliyini yaradır.

Bu baxımdan nitq mədəniyyəti fıkır,düşüncə mədəniyyəti, kommunikasiya bacarıgı və xalqın mədəni səviyyəsinin göstəricisi kimi cıxış edir.

Nitq ən universal kommunikasiya vasitəsidir.Cünki onun köməyi ilə məlumat ötürüldüyü zaman xəbərin mənası ən az şəkildə itir. O bir dil vasitəsi ilə formalaşan və formalaşdırılan düşüncənin (iradənin,hisslərin ifadəsi) verilməsi və ya alınmasının aktiv,məqsədyönlü bir prosesi kimi müəyyən edilə bilən nitq fəaliyyətində həyata kecirilir.

Nitq kommunikasiyası – məlumatın dil vasitəsilə ötürülməsi və qavranılmasını özündə ehtiva edən bir fəaliyyətdir.

Nitq kommunikasiyası şifahi və yazılı nitq,oxu və dinləmə yolu ilə həyata kecirilir.Şifahi və yazılı nitq mətnin istehsalında (məlumatın ötürülməsi prosesi), dinləmə və oxu isə- mətnin və daşıdıgı informasiyanın qavranılmasında iştirak edir.

Nitq fəaliyyətinin bu növləri nitq kommunikasiyasının əsasını təşkil edir.Onun effektliyi və uguru insanın bu növ nitq fəaliyyətinin vərdişıərinə nə dərəcədə yiyələnməsindən asılıdır.

Kommunikasiya prosesində nitq fəaliyyəti müxtəlif formalarda təqdim olunur. İndiki zamanda düşüncələrini aydın və qrammatik cəhətdən düzgün şəkildə ifadə

etmək,mövqeyini əsaslandırmaq,dinləyiciyə təsir etmək,onu inandırmaq və kommunikasiyaya cəlb etmək bacarığı hec də az əhəmiyyət kəsb etmir [7. S 56]

Dildə səlisliyi özündə cəmləşdirən nitq ünsiyyəti bir sıra peşə nümayəndələrinin :iş adamları, siyasətcilər,hüquqşünaslar,jurnalistlər, müəllimlər və s-nin peşə yararlığını xarakterizə edir.Napaleon demişdir: "Danışa bilməyən,danışıq qabiliyyəti olmayan insan özünə karyera qura bilməz."

Ünsiyyət prosesində dinləyici informasiyanı sadəcə qəbul etməməli,o, mimikası,jesti, replikaları və s. ilə də müsahibinə həmrəy oldugunu və ya olmadıgını, etirazını danışana anlatmalıdır. Bu cür əks-əlaqə nitqin təsirini duymaq,lazım gələrsə onun istiqamətini dəyişmək, söhbəti qısaltmaq və ya genişləndirmək və sairədə danışana kömək edir.

Müsahibin nitqi sona kimi səbrlə, təmkinlə dinlənilməlidir.Ona bəzi hallarda müdaxilə edilə bilər: danışan bəhs etdiyi mövzudan uzaqlaşdıqda, məlum olan əşya və ya hadisə barədə danışıldıqda, bəhs olunan məsələ ilə baglı dolaşıqlıga yol verildiyində, müsahibin nitqini qüvvətləndirmək və ya fikrini təsdiq ya da təqdir etməyə ehtiyac duyulduqda, hər hansı bir məsələ barədə uzun-uzadı danışıldıqda.

Müsahibin nitqinə müdaxilə bütün hallarda hörmət və nəzakət çərçivəsindən kənara çıxmamalıdır.Dinləmə zamanı üz-gözünü turşutmaq, narazı halda başını yelləmək və s. Danışanı çaşdıra,fikrini yayındıra bilər.Danışanın nitqi bunun ücün əlverişli məqamlarda ,yəni fasilə vaxtı kəsilə bilər.

Eyni dildə danışan hər bir fərdin öz danışıq tərzi, öz ifadə üsulu var. Lakin dilin müqəddəsliyini qorumaq, onun ədəbi dil kimi daha da püxtələşməsi və səlişləsməsi naminə istər yazılı, istərsə də şifahi ünsiyyət prosesində hər kəs ədəbi dilin müəyyən edilmiş normalarından kənara çıxmamalıdır və bu normalara əməl etmək hamının şərəfli vəzifəsidir.

Ə D Ə B İ Y Y A T S İ Y A H I S I

1. Abbasova S,Seyidova S.,Məmmədova N.,Cavadov Ə. "Azərbaycan dili və nitq mədəniyyəti"
   Bakı 2017 . 232 səh. [1.s 9], [2.s 91], [6.s 10], [7.s 56]
2. Cəfərov V. "Danışıqların aparılması texnologiyası" Baki 2018. 184 səh. [3.s 17]
3. Məmmədov K.,Tagıyeva T., Abasova S. "İşgüzar yazışmalar və etiket" Baki 2019. 121 səh.[4.s 8]
4. Babayev A. "Azərbaycan dili və nitq mədəniyyəti" Bakı 2013. 572 səh. [5.s 550]
5. Abdullayev A. "Nitq mədəniyyəti və natiqlik məharəti haqqında" Bakı 1965. 146 səh.
6. Cəfərov V. "Diplomatik etiket və nitq mədəniyyəti" Bakı 2016. 178 səh.
7. Hacıyeva İ. "Nitq mədəniyyəti" Bakı 2011. 289 səh.
8. Mərdanova S., Abbasova S. "Azərbaycan dili və nitq mədəniyyəti" (dərs vəsaiti)

Bakı 2016. 291 səh.
9. Seyidova S. "Nitq mədəniyyəti" Bakı 2019. 235 səh.
10. Şiriyev F. "Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika" Bakı 2014. 340 səh.

Ünsiyyət mədəniyyətinin formalaşdırılması

SƏİDƏ ABBASOVA

X Ü L A S Ə

Ünsiyyət – insan fəaliyyəti və münasibətlərinin əsası və mühüm vasitəsidir. Məqalədə ünsiyyət mədəniyyətinin formalaşdırılması, fərdlərarası münasibətlərdə dil,nitq, danışıq, ünsiyyət və kommunikasiya məsələləri, Onların arasında olan əlaqə araşdırılmışdır. Aydındır ki,dil anlaşma,fikir mübadiləsi aparma,təsir göstərmə vasitəsidir. Nitq isə dilin şifahi və yaxud yazılı formada işlədilməsidir.Dilin əsas vəzifələrindən biri məhz insanlar arasinda əlaqə yaratması, cəmiyyətdə ünsiyyət vasitəsi olmasıdır. Ünsiyyət yalnız dil vasitəsi ilə deyil, qeyri-verbal vasitələrlə də gercəkləşə bilər. Danışıq,ünsiyyət insanların birgə fəaliyyətini təmin edir.Həmcinin məlumat torlamaq və onu ötürmək imkanı verən vacib şərtlərdəndir. Kommunikasiya fikir və məlumatlarin ikitərəfli mübadilə prosesi olaraq qarşılıqlı anlaşmaya gətirib cıxarır.Yaşadıgımız kommunikasiya dövründə danışıqlar insan həyatının bütün sferalarını əhatə edir. Danışıq- tərəflərin maraqları üzərində baş tutan prosesdir.Bu prosesin əsas elementi ünsiyyətdir.Ünsiyyətin həyata kecirilməsində əsas vasitə nitqdir.Nitq ən universal kommunikasiya vasitəsidir. Nitq kommunikaiyası şifahi və yazılı nitq, oxu və dinləmə yolu ilə həyata kecirilir. Ünsiyyətin effektliyi insanın nitq fəaliyyəti vərdişlərinə nə dərəcədə yiyələnməsindən asılıdır. Ünsiyyət prosesində dinləyici mimikası,jestləri, replikaları və s. İlə müsahibinə həmrəy oldugunu və ya etirazını bildirməlidir. Bu cür əks-əlaqə nitqin təsirini artırır.Ünsiyyət zamanı müsahibin nitqi sona qədər dinlənilməlidir.

Ümumiyyətlə, kommunikasiya,danışıqlar, mübahisə, müzakirə kimi proseslər arasında əsas ortaq cəhət onların hamısının ünsiyyət aktı olmasidir.

Ünsiyyət mədəniyyəti – qarşılıqlı anlaşma və əlaqədə, münasibət və fəaliyyətdə yüksək insaniliyi, əxlaqi – etik normaları gözləməyi tələb edir. Məqalədə bu sahələr ətraflı tədqiq olunmuşdur.

Формирование культуры общения.

Дос. С.В.АББАСОВА

Резюме.

Общение является основой и важной частью человеческой деятельности и взаимоотношений. В статье изучаются проблемы формирования культуры общения. Главная функция языка - это создать связь между людьми и быть средством коммуникации. Коммуникация может осуществляться не только языковыми, но и невербальными способами. Разговор и общение обеспечивает взаимную деятельность людей. Также даёт возможность собирать и передать информацию. Коммуникация является двусторонним обменом сведений и приводит к взаимному согласию сторон. В эпоху общения, в котором мы живём коммуникация охватывает все стороны человеческой жизни. Разговор - это процесс который осуществляется по особым правилам. Главным элементом этого процесса является общение. Речь-главный инструмент реализации общения в жизни. Речь самый универсальный способ коммуникации. Коммуникационная речь производится устном, письменном виде, путём чтения или слушания. Эффективность общения зависит от осваивания человека речевых навыков. Во время общения слушатель должен мимикаами, жестами и репликами предъявит своё согласие или же возражения собеседнику. Такая реакция дополняет эффект речи. Во время общения речь собеседника должна слушаться до конца. Основной и общий аспект между коммуникацией, разговором и обсуждением, это то что, они все являются актом общения.

Культура общения требует высокой человечности, морально – этических норм во взаимопонимании и общении, отношении и действий. В статье было подробно объяснено все эти аспекты.

Dos.S.V.ABBASOVA

Formation of communication culture.

Summary

The main function of language is to create a connection between people and be a means of communication. Communication can be carried out not only in linguistic, but also non-verbal ways. Conversation and communication ensures mutual activity of people. It also makes it possible to collect and transmit information. Communication is a two-way exchange of information and leads to mutual agreement of the parties. In the era of communication in which we live, communication covers all aspects of human life. Conversation is a process that follows special rules. The main element of this process is communication. Speech is the main tool for realizing communication in life. Speech is the most versatile way

of communication. Communication speech is made orally, in writing, by reading or listening. The effectiveness of communication depends on the person's mastering of speech skills. During communication, the listener must, by means of facial expressions, gestures and remarks, show his consent or objections to the interlocutor. This reaction complements the effect of speech. During communication, the speech of the interlocutor must be obeyed to the end. The main and common aspect between communication, conversation and discussion is that they are an act of communication.

Communication culture reguires high humanity, moral and ethical norms in mutual inderstanding and communication, attitude and action.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Dosent Sultan Seyidova
tərəfindən çapa tövsiyə olunmuşdur

MİRİYEVA AYNUR FÜZULI QIZI
Xarici Dillər Mərkəzi,
ADPU
miriyeva575@gmai.com
https://orcidşorg/000-0033155-464X

ORTA MƏKTƏBLƏRİN İBTİDAİ MƏRHƏLƏSİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ OYUNLARDAN İSTİFADƏYƏ YÖNƏLMİŞ ÇALIŞMALAR

Xülasə

Kiçik yaşlı məktəblilərin tədrisində ən çətin vəzifələrdən biri də onlarda xarici dil (ingilis dili) öyrənməyə maraq oyatmaqdır. Yalnız müəllimin pedaqoji məharəti və onun tədris prosesinə yaradıcı yanaşması bilik və idrak prosesini uşaqlar üçün maraqlı və səmərəli edə bilər.

Motivasiya fənnin müvəffəqiyyətlə mənimsənilməsi üçün vacib amildir: müəllim tərəfindən xarici motivasiyanın ifadəsi dərsdə şagirdlər üçün zəruridir - bu, qiymətləndirmə, tərif, dəstək, rəqabət anı və s. ola bilər. Uşaqlarda daxili motivasiyanın stimullaşdırılması səbəb olur. onların daha çox öyrənmək istəyinə, fəal olmaq sevincinə, öyrənilən materiala maraq və s. səbəb olur. Bütün bunlara oyun texnologiyalarından istifadə etməklə nail olmaq olar.

Oyunlardan istifadəyə yönəldilmiş çalışmalar şagirdlər üçün çox faydalıdır. Onlar şagirdlərə yeni sözlərdən istifadə edərək fikirlərini ifadə etməkdə sərbəst olduqları əyləncəli, rahat mühit təklif edir. Çalışmalar dil və kommunikasiya bacarıqlarının inkişaf etdirilməsinin ən effektiv üsuludur.

Açar sözlər: *oyun tipli çalışmalar, oyunlardan istifadə, ibtidai mərhələç, öyrənmə səviyyəsi* , *çoxseçimli çalışmalar, qrammatik elementlər*

Giriş. Sinifdəki bütün uşaqlar tamamilə fərqlidirlər və onlar öyrənmə səviyyəsinə, qruplarda xarici dildə ünsiyyət qurma qabiliyyətinə, dili mənimsəmə və eləcə də intellektual bacarıqlarına görə fərqlənə bilirlər. Hər bir uşağın öz maraqları, öz xüsusiyyətləri var. Uşaqların fərqli xasiyyətlərə sahib olduğunu xatırlamaq çox vacibdir: bəziləri utancaq, bəziləri aqressiv, digərləri çox narahatdırlar. Bütün bu fərqləri nəzərə almaq və hər bir uşağı daha uyğun çalışma, tapşırıq və ya rollara uyğunlaşdırmaq lazımdır.

Uşaqların nitqi oyun fəaliyyətlərində asanlıqla təzahür edir, çünki bu, nitq bacarıqlarını tələb edən təbii bir fəaliyyətdir. Bütün kommunikativ-linqvistik söz oyunları və oyun çalışmaları eyni zamanda maarifləndirici, inkişaf etdirici və əyləncəlidir. Oyunların və çalışmaların məqsədi dərsi darıxdırıcı hadisədən maraqlı macəraya çevirmək, uşaqlarda obrazlı-sensor təfəkkürü və yaddaş, diqqət, qavrayış kimi ümumi təhsil bacarıqlarını inkişaf etdirmək, inqvistik intuisiyanın

formalaşması və lüğətin zənginləşdirilməsidir. Təklif olunan oyunlar və oyun çalışmaları fərdi və kollektiv icra üçün nəzərdə tutulub və müəllim tərəfindən öz mülahizəsinə əsasən seçilir. Onlar konkret didaktik məqsəd və vəzifələrdən, həmçinin sinfin hazırlıq səviyyəsindən asılı olaraq tam istifadə oluna bilər və yaxud qismən dəyişdirilə və əlavə oluna bilər.

1980-ci illərdən, kommunikativ tapşırıq termini ikinci xarici dil tədrisində pedaqoji vahid kimi təqdim edildikdən sonra alimlər fərqli təlim paradiqmalarından irəli gələn yazılı fəaliyyətin iki növünü qeyd etmişlər: çalışmalar və tapşırıqlar. Çalışmalar əsasən forma yönümlü dilin istifadəsini tələb edən fəaliyyətlərdir. Beləliklə, çalışma anlayışı öyrənilən dilin linqvistik xüsusiyyətlərini (lüğət, qrammatika, imla qaydaları) öyrənmək və ya dərk etmək üçün bəzi forma ilə əlaqələndirilir.

İstənilən məktəbdə xarici dildə nitq fəaliyyətinə yiyələnmək müxtəlif çaşmaların yerinə yetirilməsi prosesində mümkündür. Çalışma dedikdə Şalitov S. F. "xüsusi olaraq tədris şəraitində təşkil edilmiş bir və ya bir sıra əməliyyatların, yaxud nitq və ya dil xarakterli hərəkətlərin təkrarən yerinə yetirilməsini başa düşür." [13-222 c.].

E.P.Şuninin fikrinə görə xarici dilin tədrisinin əsas məzmunu maarifləndirici çalışmalar təşkil edir. [14– 191 c.] Çalışmalar müstəqil iş zamanı şagirdlərin və müəllimlərin dərsdə bir-biri ilə fəaliyyətini təşkil edən əsas üsullardan biridir. Çalışma kommunikativ aktın kiçik ssenarisidir, hansında ki, danışanın, dinləyicinin, həmçinin oxucunun hərəkətləri proqramlaşdırılmışdır. Xarici dillərin tədrisi üçün çalışmaların əsas növlərini inkişaf etdirmək üçün ilk cəhdi akademik İ.V. Rəhmanov etmişdir. O, üç növ qeyd etdi:

a) dil və nitq çalışmaları;
b) mətnlə bağlı olan və olmayan çalışmalar;
c) tərcümə və qeyri-tərcümə çalışmaları.

Maraqlı çalışmalar şagirdlərin dili öyrənmək üçün ilkin istəklərini gücləndirməyə və dərs prosesində həvəslərini davam etdirməyə çox kömək edir. Bu nöqteyi-nəzərdən, çalışmalar vasitəsilə dil öyrənmək aydın və məqsədyönlü prosesdir.

Tanınmış metodist B. A. Lapidus çalışmaların təsnifatını aşağıdakı kimi təklif edir:

a) sırf təlim çalışmaları;
b) elementar birləşmiş çalışmalar;
c) kombinə edilmiş çalışmalar [2- s.186-190]

Şifahi çalışmalar arasında G.V. Rogova tanınma və yaradıcılıq çalışmalarını təklif edir. Tanınma çalışmaları şagirdlərin yerinə yetirməsi üçün ən asan çalışma növüdür. Yaradıcı çalışmalar isə ən çətinidir. Məslən, verilmiş söz və funksiyalardan istifadə edərək dialoqun yazılması; var (there is, there are) ifadələrindən istifadə edərək iki şəklin müqayisəsi.

Dil öyrənmənin bir neçə fərqli aspekti var. Bu aspektlər yeddi kateqoriyada təsnif edilə bilər: lüğət, qrammatika, oxuma, dinləmə, yazma, tələffüz və

danışma. Lüğət fəaliyyətləri öyrənənlərə söz ehtiyatı yaratmağa və onların mənalarını mənimsəməyə kömək edir. Qrammatik fəaliyyətlər öyrənənlərə dilin struktur qaydalarını öyrənməyə kömək edir. Oxu fəaliyyətləri şagirdlərə yazılı materialları anlamağa kömək edir. Dinləmə fəaliyyətləri öyrənənlərə eşitdiklərini anlamağa və dinləmə bacarıqlarını təkmilləşdirməyə kömək edir. Yazı, tələffüz və nitq fəaliyyətləri öyrənənlərə bu bacarıqları inkişaf etdirməyə kömək edir. Bu dil öyrənmə fəaliyyətlərinin hər birini dəstəkləmək üçün mövcud dil öyrənmə sistemləri müxtəlif müxtəlif növ çalışmalardan istifadə edir. Çalışmalar öyrənilən məlumatları möhkəmləndirmək və əvvəllər keçilmiş materialı təkrarlamaq üçün əsas üsuldur.

Çalışmaların 7 növü var:

1. Çoxseçimli çalışmalar düzgün cavabın seçilməli olduğu sual şəklində olur. Bu, qrammatika, dinləmə və oxumaq üçün geniş istifadə olunan dil öyrənmə çalışmalarıdır. Suallar və cavablar mətn və ya şəkillər formasında ifadə edilə bilər.
2. Uyğunlaşdırma çalışmaları tələb edir ki, şagirdlər eyni lüğət anlayışına malik olan və ya bir-birinə zidd olan iki uyğun elementi, məsələn, antonimləri tapsın.

Bu növ çalışmalardan müxtəlif səviyyəli şagirdlər üçün lüğətin öyrənilməsi zamanı geniş istifadə edilir.

Uyğunlaşdırma çalışmalarına nümunələr:

a. müvafiq şəkilləri sözlərə uyğunlaşdırma.
b. müvafiq sözləri tələffüzə uyğunlaşdırma.
c. müvafiq tərifləri sözlərə uyğunlaşdırma.

3. Permutasiya çalışmaları tələb edir ki, şagirdlər elementləri müəyyən qaydada çeşidləsin. Elementlər hərflər, sözlər, hadisələr (video kliplər) və ifadələr və ya cümlələr ola bilər.
4. Şagirdlərdən sualdakı boşluqları doldurmasını tələb edən çalışmalardan adətən qrammatik strukturları öyrənmək, oxumaq və dinləmə bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunur.
5. Cavab verin növlü çalışmalar şagirdlərdən cavabları hazırlamağı və onları yazmağı tələb edir. Məsələn, audio klip təqdim oluna bilər və öyrənənlər eşitdiklərini – sözləri, cümlələri, dialoqları, mahnını və ya hekayəni yazmalıdırlar.
6. Orfoqrafiya çalışmaları öyrənənlərdən sözü düzgün yazmağı tələb edir. Bu çalışmalardan lüğəti mənimsəmək və ya səhv yazılmış sözləri müyyən etməklə düzgün yazılışı öyrənmək üçün istifadə olunur.
7. Kateqoriya çalışmaları şagirdlərdən əşyaları (məsələn, sözləri) növlərinə görə qruplara yerləşdirməyi tələb edir. Bu çalışmalardan lüğətləri mənimsəməyə kömək etmək üçün geniş istifadə olunur (məsələn sayıla bilən və sayıla bilməyən isimlər).

8. Tərcümə çalışmaları də geniş yayılmış çalışma növüdür. Tərcümə xarici dildən ana dilinə və ya əksinə həyata keçirilə bilər. Şagirdlərin ana dili ilə xarici dil arasındakı oxşarlıqları və fərqləri anlaması vacibdir, çünki bu biliklərin köməyi ilə ingilis dilini daha asan əldə edə biləcəklər. Xarici dil dərslərində tərcümə üzrə çalışmaların rolu çoxdur: birincisi, bu, şagirdləri L1 və L2 arasındakı oxşarlıqları və fərqləri görməyə təşviq edir, ikincisi, öyrənilən dili və şagirdlərin ana dilini müqayisə etməklə dilin öyrənilməsi zamanı yaranan çətinliklərin əksəriyyətini üzə çıxarır.

G. Roqovaya görə çalışmaları aşağıdakı xüsusiyyətlərə bölmək olar{15 s 351}:

- şagirdlərdən tələb etdikləri fəaliyyətə görə (təlim və nitq);
- yerinə yetirildiyi yerə görə (sinif və ev çalışmaları);
- formasına görə (şifahi və yazılı)

Çalışmalar əsas dil bacarıqlarına görə də bölünə bilər:

- tələffüzü inkişaf etdirmək üçün çalışmalar;
- lüğətin mənimsənilməsi üçün çalışmalar;
- nitqin inkişafı üçün çalışmalar;
- oxumağı inkişaf etdirmək üçün çalışmalar;
- qrammatik çalışmalar.

1. Tələffüz çalışmaları şagirdlərə düzgün tələffüzə yiyələnmək üçün kömək etməldir. Bu səbəbə görə şagirdlərin səsləri, vurğu və ya melodiyanı ayırd etmək bacarığını inkişaf etdirmək üçün nəzərdə tutulmuş çalışmalar da daxil olmaqla, xüsusi çalışmalar təmin edilməlidir. Belə tədqiqatlar üçün qeydlərdən və lent yazılarından istifadə edilməlidir.
2. Lüğət çalışmaları şagirdlərin danışıq və yazı zamanı sözlərdən istifadə vərdişlərini və bacarıqlarını mənimsəməyə, sözləri və ifadələri daha asan yadda saxlamağa, onları dinləmə və oxuma zamanı tanımağa kömək etməlidir. Əksər lüğət məşqləri kommunikativ xarakter daşımalıdır. Lüğət çalışmalarının istifadəsi dörd əsas dil bacarıqlarının hər birini inkişaf etdirmək imkanını verir:
   1) Dinləmə bacarığı: imla və ya səs ilə həyata keçirilə bilən boşluqların doldurulması kimi çalışmalar var.
   2) Yazı bacarığı: mövcud təlimlərin əksəriyyəti sözlər və ya tam cümlələr yazmağı tələb edir.
   3) Oxu bacarığı: oxumaq lüğəti kontekstdə öyrənmək üçün mükəmməl bir yoldur.
   4) Danışıq bacarığı: öyrənilənin yadda saxlanılmasına əmin olmağın ən yaxşı yolu ondan istifadə etməkdir. Sözləri təkrarlamağı və ya öz cümlələrinizi tərtib etməyi və onları yüksək səslə təkrarlamağı tələb edən çalışmalar var.
3. Çalışmalar bütün mərhələlərdə nitqin inkişafı üçün şagirdləri öyrənilən material çərçivəsində söhbət aparmağa, dialoq qurmağa hazırlamalıdır. Bu, şagirdlərin öyrəndikləri sözlərdən və cümlə şablonlarından müxtəlif kombinasiyalarda, təqdim olunan vəziyyətdən, fikirlərini ifadə etmək zərurətindən asılı olaraq

istifadə etmələri şərti ilə mümkündür. Danışıq inkişafı üçün nəzərdə tutulmuş çalışmalar şagirdləri sinif ehtiyacları üçün dərslərdə xarici dildən istifadə etməyə; şagirdlərin maraq dairəsində olan fənlər və onları əhatə edən obyekt haqqında danışmağa; oxuduqlarını və eşitdiklərini müzakirə etməyə hazırlamalıdır.

4. Oxumağı inkişaf etdirmək üçün olan çalışmalar şagirdlərə mətni oxumaq və anlamaq üçün lazım olan bütün bacarıqları əldə etməyə kömək etməlidir.
5. Qrammatik çalışmalar şagirdlərdə danışıq, oxu və yazı zamanı öyrənilməli olan qrammatik elementlərdən istifadə vərdişlərini və bacarıqlarını inkişaf etdirməlidir. Qrammatikanın tədrisi əsasən cümlə nümunələri və bu nümunələrdən müxtəlif şifahi və yazılı çalışmalarda geniş istifadə edilməklə həyata keçirilə bilər.

Oyun tipli çalışmalar dil öyrənməyin ən maraqlı və ən sevimli üsuludur. Oyun tipli çalışmalardan şagirdlərin diqqətini inkişaf etdirmək və tədris materialının məzmununun mənimsəmə keyfiyyətini artırmaq üçün istifadə olunur.

1. Scrabble:

Scrabble ingilis dili dərslərində oynanılan klassik lövhə oyundur. Bu oyunda oyunçular təsadüfi seçilmiş məktublardan sözlər tərtib etməli və sonra strateji olaraq xal qazanmaq üçün bu sözləri lövhəyə yazmalıdırlar. Bu oyun şagirdlərə ingilis dili lüğətinini və orfoqrafiyasını öyrənməyə imkan verir. Bundan əlavə, bu oyundan digər xarici dilləri öyrənərkən və danışarkən istifadə oluna bilər.

2. KLOO

KLOO dil öyrənmə vasitəsi kimi hazırlanmış, mükafat qazanmış kart oyunudur. Bu rəqabətli kart oyununda şagirdlər xarici dillərdə cümlələr qurmaq üçün çalışırlar. Bu oyunda şagirdlər öz lüğətlərini inkişaf etdirir, həmçinin düzgün tələffüzü öyrənirlər. Kloo kart oyunu rəqabətli və əyləncəli oyundur.

3. Sinonimlər və antonimlərə aid çalışmalar.

Sinonimləri (eyni mənalı sözlər) və antonimləri (əks, əks mənalı sözlər) öyrənmək üçün müxtəlif növ oyunlar var. Bu cür oyunlar içərisində sözləri öyrənməyin ən geniş yayılmış növü sözlərin siyahısını hazırlamaq və öyrənəndən onların hər birinə uyğun antonim yazmağı xahiş etməkdir (məsələn qara-ağ, uzun-qısa, nazik sürətli-yavaş.{4. 315-321.}

Oyunlardan istifadəyə yönəldilmiş çalışmalar şagirdlər üçün çox faydalıdır. Onlar şagirdlərə yeni sözlərdən istifadə edərək fikirlərini ifadə etməkdə sərbəst olduqları əyləncəli, rahat mühit təklif edir. Çalışmalar dil və kommunikasiya bacarıqlarının inkişaf etdirilməsinin ən effektiv üsuludur.

Pedaqoji məqsədlərdən, təşkili üsullarından, dil biliklərinin səviyyəsindən asılı olaraq bir neçə növ oyun qrupu fərqləndirilir. Məsələn, rol oyunları, qramatik oyunlar, lüğət oyunları, orfoqrafiya oyunları, tələffüz oyunları, mimika-jest və diskussiya oyunları. Həmçinin pedaqoji təcrübə müddətində aparılan müşahidələrlə belə bir nəticəyə gəlmək olar ki, müasir dövürdə kiçik məktəblilər xarici dil

oyunlarına böyük maraq göstərirlər və oyunlar vasitəsi ilə şagirdlər üçün şən, əyləncəli, motivasiya edici ingilis dili öyrənmə mühiti yaratmaq olar.

Həyatın müxtəlif aspektlərində öyrənmə prosesini təkmilləşdirmək üçün oyunlardan istifadə ideyası yeni deyil. İnternetin və çoxsaylı rəqəmsal cihazların yayılması ilə, oyunların təhsil sahəsində tətbiqi daha geniş yayılmağa başladı. Növbəti illərdə təhsilimizdə ingilis dili dərslərində oyunlardan istifadənin əhəmiyyətli dərəcədə artması gözlənilir, daha nəzərəçarpacaq dərəcədə ingilis dili xarici dil kimi bütün dünyada geniş şəkildə öyrəniləcək.

ƏDƏBİYYAT

Azərbaycan dili

1. Azərbaycan müəllimi.- 2010.- 15 oktyabr.- 15 s.
2. Tədris metodları 2006 190 s.
3. Vygotsky L.S. Oyun və uşağın psixoloji inkişafındakı rolu. 1966 - 45 s.

İngilis dili

4. Avedon, M.E.and B.S.Brian. 1971. Learning through Games. The Study of Games. New York: John Wiley & Sons, Inc: p. 315-321.
5. Byrne, D. 1995. Games. Teaching Oral English. Harlow: Longman Group UK Limited: p. 101-103.
6. G.I.Gibbs. 2005. Handbook of games and stimulation exercises. p.143
7. Hadfield, J. 1990. An Collection of Games and activities for Low to Mid-Intermediate students of English Intermediate Communication Games. p. 102-104
8. Hansen, M. 1994. The use of games for vocabulary presentation and revision. Vol 36 No 1, January, March 1998. Available at http://www.Esldepot.com/section.php/4/0. Consulted in December 2010.
9. McCallum G.P. 1980.101Word Games Oxford: Oxford University Press. p.74
10. Silvers, S. M. 1992. Games for the classroom and english speaking club. Washington: English teaching forum. (First International Conference on Foreign Language Teaching and Applied Linguistics. May 5-7 2011. Sarajevo)
11. Stronin, M.F. Educational games in the English lesson / M.F. Stronin. - M.: Education, 2001. p.370.
12. Using games in an EFL class for children. By: YinYong Meiand Jang. Yu Jing, Daejin university ElT Research paper, Fall. 2000. p.145-167

Rus dili

13. Шатилов С.Ф. Методика обучения немецкому языку в средней школе. - М.: Просвещение, 1986. - 222 с.
14. Шубин Э.П. Основные принципы методики обучения иностранным языкам. – М.: Учпедгиз, 1963. – 191 с.

15. Рогова Г.В. Методика обучения английскому языку (на английском языке): Учеб. Пособие для студентов пед. ин-тов по спец. Иностр. Яз. – 2 –е изд., перераб. и доп. – М.: «Просвещение», 1983. – 351 с.

Мириева Айнур

УПРАЖНЕНИЯ ПО ИСПОЛЬЗОВАНИЮ ИГР В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ НА НАЧАЛЬНОЙ СТУПЕНИ СРЕДНИХ ШКОЛ

Резюме

Одна из самых сложных задач в обучении младших школьников – пробудить у них интерес к изучению иностранного языка (английского). Только педагогическое мастерство педагога и его творческий подход к процессу обучения могут сделать процесс познания и познания интересным и эффективным для детей.

Мотивация является важным фактором успешного освоения предмета: выражение внешней мотивации учителем необходимо учащимся на уроке - это может быть оценка, похвала, поддержка, момент соревнования и др. Стимулирование внутренней мотивации у детей приводит к их желанию узнать больше, радости от активности, интересу к изучаемому материалу и т. д. причины. Всего этого можно добиться с помощью игровых технологий.

Исследования, ориентированные на использование игр, очень полезны для учащихся. Они предлагают учащимся веселую, непринужденную обстановку, где они могут свободно выражать себя, используя новые слова. Учеба является наиболее эффективным способом развития языковых и коммуникативных навыков.

Ключевые слова: *игровые занятия, использование игр, начальный этап, уровень обучения ,многовариантные исследования, грамматические элементы*

Mirieva Aynur

EXERCISES ON THE USE OF GAMES IN THE TEACHING OF ENGLISH LANGUAGE AT THE PRIMARY STAGE OF SECONDARY SCHOOLS

Summary

One of the most difficult tasks in teaching young schoolchildren is to arouse their interest in learning a foreign language (English). Only the pedagogical skill of the teacher and his creative approach to the teaching process can make the process of knowledge and cognition interesting and effective for children.

Motivation is an important factor for successful mastering of the subject: the expression of external motivation by the teacher is necessary for students in the lesson - it can be evaluation, praise, support, a moment of competition, etc.

Stimulating internal motivation in children leads to their desire to learn more, the joy of being active, interest in the material being studied, etc. causes. All this can be achieved using game technologies.

Studies focused on the use of games are very useful for students. They offer students a fun, relaxed environment where they are free to express themselves using new words. Studies are the most effective way of developing language and communication skills.

Key words: *game-type studies, use of games, primary stage ,learning level multiple-choice studies, grammatical elements*

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru Fəridə Şükürova tərəfindən çapa tövsiyə olunmuşdur

NAĞIYEVA GÜNEL İZZƏDDIN QIZI
ADU
İngilis dilinin leksikologiyası və üslubiyyatı-1 kafedrası
Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
gunel.yusifova@yahoo.com

ŞİFAHİ VƏ YAZILI NİTQDƏ ATALAR SÖZLƏRİNİN STRUKTURU

Xülasə

Atalar sözləri istənilən xalqın yaradıcılığında mühüm yer tutur. O, filologiyada hansısa xüsusi bir anlayışı ifadə etmək üçün işlədillir. Situasiyadan asılı olaraq əsl yerində işlənən bir ifadə, söz atalar sözü kimi dillərə düşür. Atalar sözləri fikri canlı, mənalı, obrazlı və konkret tərzdə ifadə etmək üçün işlədilir. Ancaq bütün bunlar əslində atalar sözlərinin nə demək olduğunu dəqiq əks etdirmir. Çünki hər şeydən əvvəl, məsələn, zərbi-məsəllər də eyni xüsusiyyətlərə malikdir, yəni "konkret və tipik şəraitdə deyilir, əsl yerində işlənir, dillərə düşür, fikri canlı, mənalı, obrazlı və konkret tərzdə ifadə edir". Digər tərəfdən, "konkret və tipik şəraitdə deyilən, əsl yerində işlənən" hər hansı bir sözün necə atalar sözü ola biləcəyi də şübhə doğurur.

Keçən əsrin 60-cı illərində atalar sözlərinə münasibət sovet dilçilərini frazeologiya xüsusunda iki düşərgəyə bölmüşdü: məhdud münasibət tərəfdarları və geniş münasibət tərəfdarları. Onlardan birinci qrupa daxil olanlar atalar sözlərinin dil statusunu qəbul etmir, ikincilər isə onların frazeoloji vahid olduğunu qəbul edirdilər. Həmin münasibət bu gün də özünü göstərir. Frazeologiyadan bəhs edən tədqiqatçılar atalar sözlərinin frazeoloji birləşmələr bəhsinə daxil edilib-edilməməsi haqqında bir-birini inkar edən mövqe tuturlar. Belə ki, bir sıra dilçilər atalar sözlərini frazeologiyanın tərkib hissəsi hesab etmir, digərləri bu məsələyə tərəddüdlə yanaşırlar.

Açar sözlər: atalar sözləri, məna, obraz, idiom, struktur, milli

A.V.Kunin atalar sözləri və idiomatik məna daşıyan digər cümlə tipli ifadələri "kommunikativ frazeoloji vahidlər" adlandırır [1, s.48]. Onun fikrinə görə, *"frazeologizmlərə elə atalar sözü və məsəllər daxil olur ki, leksik tərkibləri daimidir, bütöv məna ifadə edir, nominativ səciyyəlidir, cümlələrin tərkibində mürəkkəb bir üzv kimi çıxış edir"* [1, s.48].

Çox halda atalar sözü və zərbi-məsəllər eyniləşdirilir və ya mahiyyətcə eyni birləşmələr kimi götürülür, bəzən isə onların struktur əlamətləri haqqında ziddiyyətli fikirlər söylənilir. Məsələn, G.Məmmədova və K.Məmmədova əvvəlcə göstərirlər ki, atalar sözləri "mənalarına və strukturlarına görə predikativ xarakterlidir, cümlənin struktur əlamətlərindən seçilmir" və eyni zamanda yazırlar ki, *"Atalar sözü və məsəllərin hamısı struktur və funksiyaca eyni deyildir. Bu cəhətdən onları iki qrupa*

ayırmaq olar: 1) nominativ funksiyalı atalar sözü və məsəllər; 2) kommunikativ funksiyalı atalar sözü və məsəllər…

Kommunikativ funksiyalı atalar sözü və məsəllər cümlənin bütün tələblərini ödəyir. Bunlar xalis sintaktik vahidlərdir. Nominativ funksiyalı atalar sözü və məsəllər öz xüsusiyyətinə görə frazeologizmlərə yaxındır" [3, s.47].

Atalar sözləri ilə zərbi-məsəllər haqqında struktur baxımından ümumi fikir söyləmək düzgün olmaz. Belə ki, zərbi-məsəllər quruluşuna görə söz birləşməsi və cümlə şəklində ola bildiyi halda, bütün atalar sözləri yalnız cümlə şəklində təzahür edir. İlk baxışda predikativliyi nəzərdən yayınan *El gücü – sel gücü* (yəni: "El gücü sel gücü kimidir" / "El gücü sel gücüdür") qəbilindən atalar sözləri də əslində cümlə strukturu şəklində olur: belə konstruksiyalarda predikativlik gizli tərzdə mövcud olur. Deməli, ümumiyyətlə "nominativ funksiyalı atalar sözü" ola bilməz və buna görə də yuxarıdakı müəlliflərin tezisi yerli-dibli səhvdir.

Biz M.M.Mirzəliyevanın *"frazeologiyanın inkişaf yolu sözdən cümləyə doğru uzanan xətt üzrə gedən frazeologizmləşmə prosesi ilə bağlıdır"* [4, s.11] fikri ilə bu mənada razılaşırıq ki, ümumiyyətlə frazeologiya "söz + söz" modelindən cümləyə qədər olan strukturları əhatə edir, ancaq özünün sonrakı inkişafında mətnə doğru da uzanır. Bu prosesdə atalar sözləri cümlə formasında olan sintaktik birləşmələr sinfinə aid edilir.

V.A.Qordlevski ümumiyyətlə, atalar sözlərinin dildə rol və əhəmiyyətindən bəhs edərək obrazlı şəkildə göstərir ki, xalq müdrikliyinin rəmzi olan bu ifadələr ana südü ilə birlikdə qana daxil olur və həyatın hər hansı sahəsindən söhbət gedərkən bunlardan istifadə edilir. *"Osmanlı üçün və ya ümumiyyətlə hər hansı bir türk üçün atalar sözü babalardan qalma ən qiymətli irsdir. Bunlara "atalar sözü" deməklə türklər bu sözlərə həm də öz münasibətlərini bildirmiş olurlar. Bu hələ azdır: türklərin nəzərində din necə müqəddəsdirsə, atalar sözü də eləcə müqəddəsdir"* [5, s.267].

Alimin bu sözləri dildə atalar sözünün nə qədər mühüm rol oynadığını və xalqın nəzərində bunların əhəmiyyətini çox düzgün göstərir. Burada həm də "atalar sözü" termininin izahı verilmişdir: məhz atalardan qalma müqəddəs bir miras, bir irs olduğundan bunlar belə bir adla əzizlənmiş, qorunmuş olur.

Böyüklər (atalar) deyən hər bir söz bir sırğa olub qulaqdan asılmalı, yadda qalmalı olur. Çünki "atalar sözü hikmətdir", kəlamdır, dəyərlidir. *"Hər bir atalar sözünün arxasında bütöv bir mədəni informasiya durur. Hər bir atalar sözü müəyyən təcrübənin yalnız bir fraqmentidir, əlbəttə, bütöv bir fraqmentidir"* [5, s.139].

Atalar sözlərinin böyük əksəriyyəti hər bir xalqın ən qədim və nəfis mətnli yazılı abidələrində qeydə alınmışdır. Eyni zamanda göstərmək lazımdır ki, heç də bütün xalqların yazılı irsi özünün qədimliyi ilə fərqlənməsə də, qədim yazılı mənbələri məlum olmayan xalqların da dillərində kifayət qədər atalar sözləri yaradılmış və müasir dövrə gəlib çatmışdır. Ola bilsin, bu ona işarə edir ki, zəngin atalar sözləri olan belə xalqların da vaxtilə qədim kitabları mövcud olmuş, sonrakı

tarixi şəraitlərdə bu mənbələr məhv olub sıradan çıxsa da, onların mətnindən yayılmış hikmətli ifadələr şifahi dildə yaşamaqda davam etmişdir. Əlbəttə, belə atalar sözlərinə folklor aforizmi də demək olar.

Digər tərəfdən, müşahidələr göstərir ki, qədim yazılı mənbələrdə özünə yer tutmuş hikmətamiz cümlələrin heç də hamısı atalar sözü kimi toplanmamış, nəhayət, atalar sözü kimi qeydiyyata salınmış frazeologizmlərin bir qrupunda müəyyən tarixi leksik-morfoloji dəyişmələr də baş vermişdir. Ancaq atalar sözlərində belə dəyişikliklərin baş verməsi heç də hansısa bir zaman parçası içində deyil, uzun tarixi prosesdə gerçəkləşir. Bir qayda olaraq, bütöv-bütöv nəsillərin yaşadığı tarixi mərhələdə belə vahidlər struktur və komponent baxımından dəyişməz şəkildə işlədilir və yalnız mərhələlər bir-birini əvəz etdikcə insanlar onlarda hansısa dəyişiklik edir və bunu yaşadıqları dövrdə özləri də hiss etmirlər. Bu gün yalnız müasir dillərdəki atalar sözlərini onların yüzillər bundan qabaq yazıda təsbit olunmuş formaları ilə müqayisə etdikdə baş vermiş bu və ya digər transformasiyanı müəyyənləşdirmək mümkün olur.

Atalar sözləri öz mənşəyinə görə aşağıdakı qruplara bölünür:

a) əsl, sırf milli atalar sözləri, məsələn:

New Lords, new laws; Fretting cares make gray hairs; A man is as old as he feels, and a woman as old as she looks; A wise man changes his mind, a fool never; A living dog is better than a dead lion. Hamı gedir, quş gətirir, şaqqulu bayquş gətirir; Hər oxuyan Molla Pənah olmaz; Yatma tülkü daldasında, qoy yesin aslan səni; İki qoçun başı bir qazanda qaynamaz; İgid odur, atdan düşə atlana, igid odur, hər əzaba qatlana və s.

b) alınma atalar sözləri, məsələn:

Hər Məcnun öz Leylasını tərifləyər (ərəb mənşəlidir); Divarın da qulaqları var (ərəb mənşəlidir); Moskva birdən birə tikilməmişdir (rus mənşəlidir) və s.

Bu cür atalar sözlərinin tərkibində bəzən onların yad mənşəli olduğuna işarə edən hansısa bir leksik vahid iştirak edir. Məsələn, yuxarıdakı nümunədə *Moskva* bu cür işarə funksiyasını yerinə yetirir.

c) beynəlxalq mahiyyətli atalar sözləri, məsələn, müq. et:

No bees no honey; no work, no money – İşləməyən dişləməz;

The dogs bark, but caravan goes on – İt hürər, karvan keçər;

Murder will out (hərfən: "Qətl kənara çıxacaq" yəni: "Qətli nə qədər gizlətsən də, üstü açılacaq") – *Cidanı çuvalda gizlətməzlər;*

Dog does not eat dog (hərfən: "İt iti yeməz") – *İt itin ayağını basmaz;*

Roll my log and I'll roll yours (hərfən: "Sən mənim şalbanımı fırlat, mən də sənincini fırladaram") – *Əl əli yuyar, əl də üzü;*

It is not lost that comes at last – Gec olsun, güc olsun;

Don't cross the bridges before you come to then – Çaya çatmamış hoppanma;

He who pays the piper calls the tune –pulu verən zurnanı çalar və s. [6, s.94].

Belə atalar sözlərinin üç və daha artıq dildə eyni məzmunda, eyni anlam

mənalı qarşılığı olur.

B. Dominguez müxtəlif xalqların atalar sözlərindəki oxşarlığa və bənzərliyə çox heyrətlənirdi. Müəllif atalar sözlərini öz kitabında mövzular üzrə qruplaşdırır, lakin tərtib işində əlifba sırasına əsaslanmağı elmi iş hesab etmirdi. Onun bu sahədə xidmətləri haqqında çoxlu elmi və kütləvi tədqiqat əsərləri yazılmışdır [7, s.128].

B. Dominguez öz tədqiqatını bilavasitə atalar sözlərinin leksikasına həsr etmişdir. Müəllif rus atalar sözünün leksikasını iki böyük qrupda cəmləşdirir: ümumxalq rus dili leksikası və dialekt leksikası. O habelə atalar sözünün lüğət tərkibində alınma sözlərin olduğunu təbii bir hal sayır və rus dilindəki bu vəziyyəti rusların vaxtilə Şərq və Qərblə apardığı ticarətlə izah edir. Bu əsərdə diqqəti cəlb edən bir cəhət də budur ki, burada "yalnız atalar sözlərinə məxsus olan sözdüzəltmə vasitələrindən" geniş bəhs olunur [7, s.18].

Dilin leksik sistemində atalar sözünün yeri, mövqeyi məsələsi də dilçi-tədqiqatçıları çox məşğul edir. Bu sahədə H. Haasın əsərləri diqqəti cəlb edir. *"Bir frazeoloji anlayış kimi atalar sözü… öz yerini tapmalıdır",* – deyən müəllif göstərir ki, atalar sözünü frazeoloji vahidlərin tərkibinə daxil etmək daha məqsədəuyğundur [8, s.319]. Çünki bunlar da "hər bir nitq aktı zamanı ayrı-ayrı sözlərdən təşkil olunmur, hazır şəkildə nitqə daxil edilirlər.

Atalar sözlərinin leksikasından bəhs edən A.S.Aksomitov onların üç əsas leksik qrupdan təşkil olunduğunu müəyyənləşdirir. Birinci qrupa belorus dilinin əsas lüğət fondu və lüğət tərkibinə daxil olan sözlər aid edilir ki, bu sözlər müasir dildə də eyni mənada işlədilir. İkinci qrupa elə sözlər aid edilmişdir ki, bu sözlər atalar sözünə bir aforistik məna gətirməklə yanaşı, fərdi şəkildə və obrazlılıq məqsədi ilə də işlədilir. Üçüncü qrupa *"frazeoloji-bağlı mənası olan və metaforik işlənən" sözlər daxil edilir. Bu kimi sözlər "yalnız müəyyən qrup və ya məhdud qrup sözlərlə birlikdə işlənib sabit birləşmələr təşkil edir"* [9, s.17].

İstər şifahi, istərsə də yazılı nitqdə yeri gəldikcə atalar sözlərindən çox istifadə olunur. Bu isə onların nitqdə funksional mövqeyini sözlər qədər gücləndirir, onların işlənmə tezliyini yüksəldir. Buna baxmayaraq, atalar sözlərini frazeoloji qovuşmalar, frazeoloji vəhdətlər və idiomatik ifadələrlə bir tutmaq olmaz. Çünki onlar, bir tərəfdən, variasiya oluna bilir, digər tərəfdən isə, frazeoloji qovuşmalar, frazeoloji vəhdətlər və idiomlar cümlədə yalnız bir sözü əvəz edə bildikləri halda, atalar sözləri bu xüsusiyyətdən xalidir. Onlar normal şəraitdə hansısa bir sadə cümlənin təşkilində iştirak etmir, əksinə, mətndə özü ayrıca bir cümlə kimi (hətta ayrıca bir mikro-mətn kimi) işlədilir və bununla da cümlənin deyil, mətnin komponentlərindən biri rolunu oynayır.

Atalar sözləri adlanan konstruksiyalar empirik baxımdan nitq axınında çox asanlıqla müəyyən olunur, seçilir və diqqəti cəlb edir. Nitqin adresatı, həqiqi frazeoloji vahidlə rastlaşanda, müəyyən dərəcədə şoka məruz qalır. Bu şok deyimin yüksək kommunikativ effekti ilə bağlıdır. Xarici dildə isə həmin şok anlaşılmazlıqla bağlıdır. Deyimi təşkil edən işarələr bəllidir, lakin leksik kompleksin mənası qaranlıq

qalır. Belə hallarda biz başa düşürük ki, bütövün mənası onu təşkil edən işarələrin cəminə bərabər deyil. Burada iki hal mümkündür. Birinci halda bütövü təşkil edən leksik işarələrin etimoloji mənaları həmin bütövün qlobal mənasını işıqlandırır, bu iki semantik quruluş arasında əlaqə mövcuddur, deməli, qlobal mənanın motivasiyası var. İkinci halda isə bütövün mənası onu təşkil edən leksik işarələrin mənası ilə heç cürə əlaqələnmir. Deməli, bu cür komplekslər sırf şərti işarə səciyyəsinə malikdir. Əslində bu iki hal təbii dillərə xas olan dərin onomasioloji prosesin əksidir. İşarələr yarananda onlar müəyyən dərəcədə motivasiyaya malik olurlar, işləndikcə isə daxili forma pozulur, etimoloji məna unudulur. Elə ona görə dili bəzən məcazlar qəbiristanlığı adlandırırlar.

Atalar sözləri həm funksional, həm məna, həm də struktur baxımdan dil vahidlərindən fərqlənir. Onlar dil vahidlərindən fərqli olaraq həqiqi struktur və semantik müstəqilliyə malikdir. Folklor, şifahi xalq ədəbiyyatı məhsulu olaraq, atalar sözləri mənşə etibarilə nitq vahididir və mənasını ifadə etmək üçün heç bir sistemlə əlaqəyə ehtiyac duymur. Geniş yanaşma nümayəndələri atalar sözlərinin nitqdə eyni formada və eyni məzmunda müntəzəm işlənməsini, nitqdə bərpa olunmasını əsas götürərək onları frazeoloji vahid və, beləliklə də, dil vahidi hesab edirlər.

Frajeoloji birləşmələr məsələn, atalar sözü və məsəllər xalqın hərtərəfli həyatı və məişəti, təfəkkür tərzi, əmək fəaliyyəti, tarixi ilə sıx bağlı olduğundan onların mövzu dairəsi çox genişdir. Hər bir el nümunəsi müəyyən məqsədlə yarandığı kimi, müəyyən ideya da təlqin edir. Şifahi xalq ədəbiyyatının hər bir nümunəsi xalqın təxəyyülünün, təfəkkürünün məhsulu olduğu kimi atalar sözləri və məsəllər də həyat təcrübəsi nəticəsində meydana çıxır. Məsələn, bəzi ingilis atalar sözü və məsəllərində ictimai bərabərsizlik, siniflər arasındakı əksliklər, varlı-yoxsul, aclıq-toxluq məsələsi aydın surətdə əks olunur:

Frajeoloji birləşmələrin tədrisi zamanı bir sıra problemlər qarşıya çıxır. Belə ki, dillər yalnız qrammatik quruluşuna görə deyil, eyni zamanda semantik quruluşuna görə də fərqlənir. Semantik quruluş dedikdə sözlər, sərbəst və sabit söz birləşmələri nəzərdə tutulur. Məlumdur ki, hər bir dilin semantik aspektlərinin öz inkişaf yolu vardır. Dilin semantik quruluşu tərcümə ilə sıx bağlıdır. Danılmaz fakdır ki, heç də mənbə dildəki bütün sözlərin qarşılığını tərcümə edilən dildə tapmaq asan olmur. Bəzən hər iki dildə eyni məna verdiyi düşünülən söz cümlə daxilində fərqli məna verə bilir. Nümunə,

/Hunger will break through a stonewall// – /Aclıq adamı hər şeyə vadar edər//.

Bu atalar sözünün başqa bir variantı da var:

/Hunger breaks stone walls// – /Ac qılınca çapar//; /Ac özünü oda vurar//.

/Iniquity is the cause of all troubles// – Biri yetər, biri baxar, onda qiyamət qopar//

/Need knows no law// – /Ehtiyac heç bir qanun tanımır; Ac qurd balasını da yeyər//

/Hunger is the best relish (or sauce)// – /Aclıqdan darı çörəyi halvadan şirin

olar//

Atalar sözləri xalq ədəbiyyatının ən qüvvətli və zəngin janrlarından biridir. Atalar sözlərinin mənşəyi, kimin tərəfindən və nə zaman deyildiyi konkret olaraq məlum olmasa da, hər bir atalar sözünün müəyyən dövrün məhsulu olduğu və müəyyən bir hadisə ilə əlaqədar yarandığı aydındır. Demək olar ki, bütün atalar sözləri həyati hadisələrlə yaranır və zaman keçdikcə, daha doğrusu, öz mənşəyindən uzaqlaşdıqca abstraktlaşır, ümumiləşir və öz həqiqi mənasını tamamilə itirir.

A.İ.Fyodorov yazır: *"Atalar sözləri bütöv mənaya malik olub struktur etibarı ilə cümlə kimi təşkil olunub və cümlə sistemindən təkcə strukturca yox, həm də mənaca fərqlidir. Atalar sözləri mənaca ikiplanlıdır; bir tərəfdən o həqiqi mənanı daşıyır, digər tərəfdən məcazi məna, sözlərin mənasına uyğun olmayan fiqurativ məna daşıyır"* [10, s. 57].

Bəzən elə də olur ki, mənbə dildə olan sözün qarşlığını hədəf dildə tapmaq çətin olur, yaxud heç tapmaq olmur. Qarşılığı tapılmayan sözlər *ekvivalentsiz leksika* adlnır. Bundan əlavə, çoxmənalı sözlər də vardır ki, bu cür sözlərin bir neçə referenti, yaxud mənası olur. Tərcümə zamanı çoxmənalılıq kontekst və situasiya vasitəsilə aradan qaldırılır. Söz müxtəlif kontekstlərdə müxtəlif məna verir. Qeyd olunan istənilən kontekstdə əsas mənbə söz hesab edilir və həmin konketsdə işlədilən sözün hansı mənada işlədilməsini bilmək üçün həmin kontekstin mənasını tam anlamaq lazımdır. Məsələn,

/As you sow you will mow// – /Nə əkərsən, onu da biçərsən//;

/Truth is always bitter// – /Həqiqət həmişə acı olur//;

/Set a beggar on horseback and he will ride to the devil// – /Donuzu masanın arxasına oturt, o ayaqlarını masanın üstünə qoyar//.

Ənənəvi tərcümə nəzəriyyəsində *dar* (narrow, microcontext) və *geniş* (broad, macrocontex) kontekstlər müəyyən edilir. Dar kontekstli sözün işləndiyi dar linqvistik mühit, yəni söz birləşməsi, yaxud cümlə nəzərdə tutulur. Həmin söz birləşməsi, yaxud cümlənin tərkibində sözün hansı məna verdiyi anlaşılır və əsas götürülür. Məsələn,

Don't cast pearls before swine – Eşşək nə bilir zəfəran-plov nədir;

To cut pearls before swine;

Don't put the cart before the horse;

To put the cart before the horse – İşi tərsinə, baş-ayaq görmə.

Dar kontekstdən fərqli olaraq geniş kontekstdə işlədilən söz cümlənin mənasından kənara çıxır və tekstual (textual) səciyyə daşıyır. Bu cür kontekstlərdə işlədilən sözün mənası cümlədə deyil, mətn, yaxud diskurs daxilində dəqiqləşir. Geniş kontekstin hüdüdlarını müəyyən etmək mümkün deyil, mənanı tam anlamaq üçün mütləq bütöv abzası, yaxud bir neçə cümləni, yaxud tam şəkildə mətni oxumaq lazımdır. Qeyd etmək lazımdır ki, leksik-semantik kontekst bəzən tərcümədə ekvivalent sözü seçməyə kifayət etmir.

ƏDƏBİYYAT

1. Кунин А.В. Основные понятия русской фразеологии как лингвистической дисциплины, М., 1964.
2. Кунин А.В. Фразеология современного английского языка. М., 1972.
3. Məmmədova G., Məmmədova K. İngilis dilinin frazeologiyasında atalar sözləri və onların semantik xüsusiyyətləri // Filologiya məsələləri. 2007, № 1, s. 45-51.
4. Mirzəliyeva M.M. Türk dilləri frazeologiyasının nəzəri problemləri: Fil. elm. dok. … dis. avtoref. Bakı, 1996, 40 s.
5. Гордлевский В.А. Из истории османской пословицы и поговорки // Избранные сочинения. Том II. М.: ИВЛХ, 1961, 322 с.
6. Valiyeva N.Ch. Azerbaijani-English-Russian phraseological dictionary. Baku: 2006, 460 p.
7. Dominguez B. E. The function of proverbs in discourse. Berlin: Mouton de Gruyter, 2010, 220 p.
8. Haas H. Proverb familiarity in the United States: Cross-regional comparisons of the paremiological minimum. //Journal of American Folklore, 2008. p.319-347.
9. Аксомитов А.С. Лексика белорусских пословиц XIX века в связи с общей фразеологией: Автореф. дис. … канд. филол. наук. М., 1958, 50 с.
10. Федоров А.И.Семантическая основа образных средств языка. Новосибирск, 1969, 230 с.

Gunel Izzaddin Nagiyeva

THE STRUCTURE OF PROVERBS IN ORAL AND WRITTEN SPEECH

Summary

Key words: proverbs, meaning, image, idiom, structure, national

Proverbs occupy an important place in the creativity of any nation. It is used in philology to express a specific concept. Depending on the situation, an expression that is used in its original place, the word falls into languages as a proverb. Proverbs are used to express an idea in a lively, meaningful, figurative and concrete way. But all this does not accurately reflect what proverbs actually mean. Because above all, for example, proverbs have the same characteristics, i.e. "they are said in concrete and typical circumstances, they are used in the real place, they fall into languages, and they express the idea in a lively, meaningful, figurative and concrete way." On the other hand, it is questionable how any word "said in concrete and typical circumstances, used in the real place" can be a proverb.

In the 60s of the last century, the attitude towards the words of ancestors divided Soviet linguists into two camps in terms of phraseology: supporters of a limited attitude and supporters of a broad attitude. Among them, those included in the first group did not accept the linguistic status of proverbs, while the second accepted that they were a phraseological unit. That attitude is still evident today.

Researchers dealing with phraseology take mutually contradictory positions on whether or not proverbs should be included in the discussion of phraseological combinations. Thus, a number of linguists do not consider proverbs to be part of phraseology, while others approach this issue with hesitation.

Гюнель Иззаддин Нагиева

СТРУКТУРА ПОСЛОВИЦ В УСТНОЙ И ПИСЬМЕННОЙ РЕЧИ

Резюме

Ключевые слова: пословицы, значение, образ, фразеологизм, структура, национальный

Пословицы занимают важное место в творчестве любого народа. Он используется в филологии для выражения определенного понятия. В зависимости от ситуации, выражение, которое употребляется на своем исходном месте, слово попадает в языки как пословица. Пословицы используются для выражения мысли в живой, осмысленной, образной и конкретной форме. Но все это не совсем точно отражает то, что на самом деле означают пословицы. Потому что прежде всего, например, пословицы обладают теми же характеристиками, т. конкретный путь». С другой стороны, сомнительно, как любое слово «сказанное в конкретных и типичных обстоятельствах, употребленное в реальном месте» может быть пословицей.

В 60-е годы прошлого века отношение к словам предков разделило советских языковедов на два лагеря по фразеологическому признаку: сторонников ограниченного отношения и сторонников широкого отношения. Среди них входящие в первую группу не признавали языковой статус пословиц, а вторые признавали, что они являются фразеологическими единицами. Такое отношение заметно и сегодня. Исследователи, занимающиеся фразеологией, занимают взаимопротиворечивые позиции относительно того, следует ли включать пословицы в обсуждение фразеологических сочетаний. Так, одни языковеды не считают пословицы частью фразеологии, а другие подходят к этому вопросу с колебаниями.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: fil.f.d., dos. Lalə Çingiz qızı Məcidova
tərəfindən çapa tövsiyə olunmuşdur

TƏRANƏ NƏCƏFOVA
ADU
Rəşid Behbudov 134
e-mail: najafovatarana35@gmail.com

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI SOSİAL ŞƏBƏKƏLƏRDƏN İSTİFADƏ METODİKASI

XÜLASƏ

Müasir universitet tələbəsi ünsiyyətə hazır olmalı və müxtəlif insanlarla ünsiyyət qurmaq, komanda tərkibində işləyə bilmək, ətrafdakılara motivasiya verə bilmək kimi sosial bacarıqlara yiyələnməlidir. Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdur. İlk öncə ona görə ki, məhz bu sahələrdə təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir. Dillər, onlara məxsus söz və ifadələr daim biri- birinə inteqrasiya edir. Sosial, məişət və s. xarakterli problemlər olmasına baxmayaraq bəşəriyyət, dünya inkişafdadır. Dillər bir-birindən təkcə bu və ya digər qrammatik mənaları ifadə edib-etməməsinə görə deyil, həm də daha çox necə səslənmələri ilə fərqlənirlər. Müxtəlif dillərdə ifadə üsullarından istifadə etmə baxımından müxtəliflik, fərqlər olduğu kimi mühüm oxşarlıqlar da vardır ki, bunlar da səslərin kəsb etdiyi mənaların öz təbiəti, mahiyyəti ilə əlaqədardır. Hər bir sözün yaranması müəyyən ehtiyacdan doğur. Ünsiyyətin müəyyən şəraitə bağlı ehtiyacından yaranan söz sonra bütün dil daşıyıcıları üçün zərurətə çevrilir. Dilöyrənənlərin maraqlarının inkişafına məzmun, metod və digər vasitələr həlledici təsir göstərir.Təbii ki, işin məzmun və metodlarının seçilməsinin əsasında hamıya məlum olan didaktik prinsiplər durur. Bunlar tədris prosesinin hər anında təlim strategiyası və taktikasını müəyyən etməyə təkan verən başlanğıc müddəalardır. Müxtəlif fəaliyyət növləri ingilis dilinin istifadə olunması üçün olduqca vacib və sərfəli yollar hesab edilir. Bu zaman mövzu marağa uyğun olaraq, sərbəst şəkildə seçilə bilər. Belə ki, dilöyrənənlər istədikləri mövzuda debatlar təşkil edə bilərlər. İstədikləri aktyorları "əvəz edərək" konkret bir film səhnəsini canlandıra bilərlər. Bu növ çalışmaları yerinə yetirərkən onlar lazım olacaq leksik vahidlər və qrammatik strukturları müəllimin göstərişi ilə öz nitqlərində məşq etmiş olurlar. Bu işlər zamanı dilöyrənənlər müəyyən layihələr ətrafında birləşə bilərlər. Belə ki, layihə metoduna əsaslanan bu fəaliyyət zamanı bəzi prinsiplər əsas götürülə bilər.

Açar sözlər: dil, şifahi nitq, kontekst, sosial şəbəkə, ünsiyyət

Tədris zamanı müxtəlif şagird və tələbə qruplarının təşkili həssaslıqla həyata keçirilməlidir.Bu zaman tapşırığın təbiəti, dilöyrənənlərin bir-birlərinin işinə reaksiyası vacib sayılır. Başqa sözlə, bütün bunları düzgün təşkil edərək, neqativ reaksiyalardan fərqli olaraq, pozitiv öyrənmə situasiyaları yaratmalıyıq. Bu mənada dil əsas ünsiyyət vasitəsidir. Dil isə insanın cəmiyyətdəki fəaliyyətinin məhsulu olub onunla birgə inkişaf edir. İnsan sosial varlıq olaraq digərləri ilə cəmiyyətdə kommunikasiya yaradır. Bu zaman dil insan tərəfindən qavranılır, mənimsənilir. Məhz ünsiyyət bir proses kimi bizim əldə etdiyimiz biliklərin, təcrübənin ötürülməsini realizə edir. Belə ünsiyyət şifahi və ya yazılı formada nitq vasitəsilə təzahür edib insanın lüğət fondunu, yəni leksikonunu inkişaf etdirir, zənginləşdirir. İstənilən verbal ünsiyyət formaları vacib sayılır. Əlbəttə, adi söhbət əsnasında da insan öz dünyagörüşünü, lüğət tərkibini genişləndirə bilər.

Bundan əlavə, işlər dilöyrənənlərin xarici dilə olan marağının davamlılığına və inkişafına, təcrübi bacarıqlarının inkişafına, mədəni dünyagörüşünün formalaşmasına, onların diqqətlərinin və yaddaşlarının güclənməsinə öz töhfəsini verməli və onları daha da faydalı fəaliyyətlərə həvəsləndirməli, məsuliyyətlilik, kollektivçilik, müstəqil davranış və təşkilatçılığı inkişaf etdirməlidir. Onu da qeyd edək ki, KİV sənayesinə televiziya, radio, kitab, qəzet, jurnal, səsyazmalar, kino, internet daxildir. Televiziya ilk növbədə informasiya mənbəyidir. TV dili məhz qaydaya salınmış, ədəbi dil normalarını özündə ehtiva edən şifahi dildir. Bu mənada dinləyicilərin böyük həssaslıqla yanaşdıqları diktor və aparıcılardan səsləri, sözləri məharətlə, xüsusi vurğu və intonasiya ilə istifadə etmək tələb olunur. Dilin vəzifəsi ancaq informasiya vermək və ünsiyyət vasitəsi olmaqla bitmir. O, etik mədəniyyətin, milli şüur və təfəkkürün vahid göstəricisi kimi xarakterizə olunur. Dil bir sistem kimi öz ictimai funksiyasını nitqlə həyata keçirir. Kütləvi informasiya vasitələrində nitq yeni mükəmməl keyfiyyət qazanır. Burada nitq bir-birindən fərqlənən müxtəlif üslublarda – danışıq, publisistik, ədəbi-bədii üslubda özünü göstərir. Televiziyada musiqi, əyləncə, şou verilişlərində isə məişət üslubu üstünlük təşkil edir. Bu əsasən müsahibələr, iştirakçıların bir-biri ilə dialoqu formasında əks olunur. TV dilində bütün informasiyalar ədəbi dilin fonetik, leksik, qrammatik səviyyələrini əhatə edir. Bu zaman dil normalarına riayət etmək vacib şərtlərdəndir. Mətnin leksik quruluşunun formalaşmasında, onun məna tamlığının və əlaqəliliyinin təminatında leksik vahidlərin semantik əlaqələri əhəmiyyətli rol oynayır. Kontekst sözlərin əsas semantik əlamətlərinin reallaşmasına imkan verir[1, s.84]. Leksik normada dilin ən çevik vahidi sözdür. Kütləvi informasiya vasitələrində təkrarlar da böyük rol oynayır. Qrammatik normaya gəlincə isə o dilin qrammatik quruluşunu nitq prosesində nizamlayır. Sosial şəbəkələrdən əldə edilmiş materialların dərslərə tətbiqi planlaşdırılarkən şərait, təhsilalanların maraq və arzusu, eləcə də əməyi nəzərə alınır. Dilöyrənənlər bu və ya digər iş növünə maraq və qabiliyyətlərinə görə cəlb olunurlar.

Qeyd etmək lazımdır ki, qabiliyyət məsələsi işlərin səciyyəvi xüsusiyyəti, müəllim üçün zəruri məsələ olmalıdır. Bu istiqamətin kommunikativ tərəfinin gücləndirilməsi xarici dilin tədrisi məqsədlərində və təlimin məzmununda əks olunur.

Qəzetlər kütləvi informasiya vasitələrindən biridir və onların yeni söz və ifadələrin yaranmasında və yayılmasında böyük rolu vardır. Belə ki, qəzet və məqalələrdə yeni sözlərdən daha çox istifadə olunur. Belə sözlərin yaranma xüsusiyyətlərini öyrənmək vacibdir. Dünyada altyazı ilə yayın edən bir çox TV kanalları vardır. Bir çox insan bu televiziya kanallarını izləyərək xarici dildə dinləyib-anlama qabiliyyətini inkişaf etdirməyə çalışır. Qeyd edək ki, bu şifahi nitqin inkişafını tam təmin etmək iqtidarında deyil. Bunun üçün sosial media vasitəsilə dostlar tapmaq, xarici dildə yazışmaq, səsli ismarıclar göndərmək və s. məqsədəuyğundur. Sosial şəbəkələr üzərindən müxtəlif layihələrin həyata keçirilməsi də maraqlıdır. Layihə metodunun əsasını şagird və tələbələrin dərketmə bacarıqlarının inkişaf etdirilməsi, bilik və bacarıqların müstəqil şəkildə əlaqələndirilməsi, informasiya məkanına inteqrasiya bacarıqlarının inkişaf etdirilməsi, əldə olunmuş məlumatların müstəqil şəkildə təhlil edilməsi, müstəqil şəkildə fərziyyə irəli sürə bilmək, qərarlar qəbul edə bilmək (mövcud problemlərin həlli istiqamətlərinin və metodlarının müəyyənləşdirilməsi) qabiliyyətinin möhkəmləndirilməsi, tənqidi təfəkkürün, yaradıcı, eləcə də tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi kimi faktorlar təşkil edir. Yerinə yetirilmiş layihələrin nəticələri nəzərə çarpan və aydın olmalıdır. Qiymətləndirmə müəllimlər, həmyaşıdlar tərəfindən, eləcə də,özünüqiymətləndirmə yolu ilə həyata keçirilə bilər. Müəllimlər dilöyrənənlər tərəflndən işlərin həyata keçirildiyi müddətdə istifadə edilən bilik və bacarıqların səviyyəsini, keyfiyyətini müşahidə etmək imkanı əldə edə bilərlər. Təhsilalanlar isə özlərinin və həmyaşıdlannın işlərini nəzərdən keçirə, komandanın necə işləməsi və əldə etdiyi nailiyyətlər barədə fikir mübadiləsi apara bilərlər. Bundan əlavə, ingilis dilində olan kanallara abunə olmaq da faydalı hesab edilir. Burada da müəyyən çətinliklər meydana çıxır. Belə ki, səsləndirilən materialların dialekt və şivələrdə səsləndirilməsi çətinliklər yaradır. Zaman keçdikcə, onları tədricən anlamaq mümkün olur. Sosial şəbəkələrdə paylaşım edən dostlar şifahi nitqin inkişaf etdirilməsində yardımçı ola bilər. Bu paylaşımlara xəbər, jurnal məqalələri, videolar, danışıqlar, bloq yazıları, mahnılar və s. aid ola bilər. İngilis dilində şifahi nitq vərdişlərini KİV ilə inkişaf etdirmək istərkən bloqlar, vebinarlar, veb səhifələr, forumlar yardımçı ola bilər. Klassik ədəbiyyat, kitablar, qəzet, internet saytları, e-maillər, ictimai mediadakı xəbər axışı şifahi nitqi inkişaf etdirən intensiv fəaliyyətlərə aid edilir. Multimedia vasitələri, həftəlik radio proqramları, ödənişsiz açıq "online" kurslar da faydalı hesab olunur. "Online" ingilis dili mərkəzləri layihəsi sosial şəbəkələr vasitəsilə öyrənmədə xüsusi əhəmiyyət kəsb edir. Pulsuz video epizodlar, video dərslər söz bazası yaratmaq üçün asan və sürətli yoldur. Getdikcə daha çox Facebook, Twitter, Mixi və s. kimi sosial şəbəkə saytlarının artan məhşurluğu sayəsində xarici dili öyrənmək üçün belə şəbəkələrin istifadəsinin faydalarını təsdiq edən xeyli tədqiqatlar vardır.

Müasir metodiki ədəbiyyatlarda sosial şəbəkə saytlarından istifadənin yüksək motivasiya yaratdığı israrla qeyd edilir.Bundan əlavə, qeyd edilir ki, "Facebook" istifadəçilərinin şəkillərini, videolarını və dostları ilə paylaşdıqlarını müzakirə etmək üçün sosial şəbəkə saytları nəinki yararlı və rahatdır, hətta tədris prosesində gərginlik və

demotivasiyanın aradan qaldırılmasında əhəmiyyətli rola malikdir. Tədqiqatçılar "Facebook"dan istifadənin ingilis dilində danışmaq üçün daha çox imkanlar təklif etdiyini nəzərə alaraq dilöyrənənlərin rəqəmsal savadlılığını inkişaf etdirmək və xarici dilə yiyələnmək sahəsində "Facebook"un təsirli bir vasitə olduğunu qeyd etmişdir [1, s.80]. Qeyd edək ki, metodiki işlərin təşkili zamanı bəzi çətinliklər də qaçılmaz olur. Belə ki, bu işlərin təşkilində məkan seçimi, lazımi şəraitin olması diqqətçəkən məsələlər sırasındadır.Bundan əlavə, yararlı didaktik materialların olması da vacib sayılır. Dilöyrənənlərin məqsədləri ilə konkret mərhələdə xarici dil üzrə işin məqsədləri üst-üstə düşmədikdə, fəaliyyət motivi olmadıqda bütün işlər nəticəsiz olur. Bu zaman dilöyrənənlər tərəfindən qəbul edilmir və maraqla qarşılanmır. Xarici dillərin tədrisində işin xarakteri, onun hazırlanmasında və həyata keçirilməsində olan çətinliklərin həlli, tədbirlərin hazırlanması, məzmun, forma və metodlar üzrə bütün tələblərə əməl olunması zəruri hesab olunur. Xarici dil ilə bağlı iş sisteminin xüsusi şərtləri onun strateji məqsədlərinə tabe olmalıdır. Yuxarıda sadalanan xüsusiyyətləri onların məzmununa olan metodiki tələblərdə öz əksini tapır. Xarici dil üzrə sinifdənxaric işin məzmunu onun əsas istiqamətlərinin üzvi birliyindən ibarətdir. Burada metodiki işlər zamanı dilöyrənənlərin monoloji və dialoji nitqləri nəzərə alınmalıdır. Çünki monoloji və dialoji nitqin vəhdətdə inkişafı yüksək nəticələr verir. Beləliklə, aydın olur ki, kütləvi informasiya materialları vasitəsilə şifahi nitq vərdişlərinin öyrədilməsində sosial şəbəkə saytlarının rolu əvəzsizdir. Dilöyrənənlərə bu dildə ünsiyyət bacarığını aşılamaq məqsədilə onlara sosial şəbəkələr vasitəsilə situasiyalar təqdim edilə bilər. Bunlar motivasiya edici xarkterə malikdir. Motivasiya bir kəsi həvəsləndirmək məqsədə nail olmaq üçün daxili təkan və istiqamət verən ən önəmli faktorlardan biridir. Hər hansı bir məqsəd üçün hərəkətə keçməyə sövq edir, həm də arzuları, ehtiyacları, impulsları təmin edir. Əgər məqsədimiz öyrətmə və öyrənmə prosesində ən güclü təsir formalarını müəyyənləşdirməyi araşdırmaqdırsa ən mühüm məsələnin motivasiya olması meydana çıxar. Öyrənmə prosesini isə öyrətmək o qədər də asan məsələ deyil. Psixoloji baxımdan illər boyu müxtəlif intepretasiyalardan keçmiş və bir çox psixoloqlar tərəfindən fərqli fikirlər, təkliflər təqdim olunmuşdur. Bır çox məqamlarda motivasiya şəxsin öyrənmək üçün həvəsli olması kimi təqdim olunur. Konkret olaraq motivasiya arzu, niyyət, nail olmaq, labüd motiv, məqsəd, sövq etmə, mükafatlandırma, məqam və s. kimi anlamına gəlir. Xarici dil tədris fənni kimi təlim prosesinin bütün aspektlərinin dilöyrənənlərin şəxsiyyətinin formalaşdırılmasına, onların işlərinin düzgün nəzərdən keçirilməsinə yönəldiyi zaman öz funksiyalarını tam yerinə yetirir. Ünsiyyət vasitəsi və dünyada qarşılıqlı anlaşma vasitəsi kimi xarici dilin statusunu diqqətə alaraq, müasir metodika dilin öyrənilməsinin və təkmilləşdirilməsinin vacibliyini xüsusilə vurğulayır. Sözügedən işlərin məqsəd və vəzifələrindən bəhs edərkən bu zaman müəllimlərin öhdəsinə daha ciddi vəzifələr düşür. Belə ki, onlar kollektiv baxış və gedişlər təşkil etməklə, səmərəli fəaliyyətlər həyata keçirə bilərlər. Bu zaman dilöyrənənlərin birliyi yaranır, nitqi inkişaf edir, dünyagörüşü artır. Kütləvi informasiya vasitələri dinləyib-anlama vərdişlərinin formalaşdırılması üçün stimul xarakteri daşıyır. Buraya televiziya, radio

və s. aid edilir. Televiziya səlis nitqin inkişafı, orfofonik normaların qorunması baxımından xüsusilə faydalıdır. Bu qurğu səs və görüntünün insanların evində mövcudluğunu reallaşdırır. Bu zaman müxtəlif dillərdə olan məlumatları ingilis dilində evlərə daşımaq mümkün olur. Radio yığcamlılığı ilə diqqət çəkir. Belə ki, onu hər yerə rahat şəkildə daşımaq mümkündür. Burada musiqi, xəbərlər, radio-tamaşalar, radio-tədris kimi yayınlar şifahi nitqin inkişafında əlverişli sayılır. Ən ucuz kütləvi informasiya vasitələri jurnallar hesab olunur. Burada əsasən gündəlik baş verən və tez-tez dəyişən hadisələr işıqlandırılır. Jurnallar uzunmüddətli istifadəyə yararlı olduğu üçün tədris üçün də əlçatan olur. Sənədli film müxtəlif yaş qruplarına uyğun geniş mövzu seçiminə imkan verir. Şagird və tələbələr ailə həyatı, qonşular, sevimli heyvanlar, məktəb həyatı və dostlar barədə real həyat hadisələrini auditoriyaya çatdırmaq və videolaşdırmaq işini planlaşdıra bilərlər [2, s.101]. Ümumilikdə, xarici dillərin tədrisində metodiki işləri məzmun baxımından müxtəlif istiqamətli məqsəd, metodologiya, təlim və fəaliyyət formalarından ibarət bir sistem olaraq xarakterizə etməyi məqsədəuyğun hesab edirlər. Sinifdənxaric iş dərsdən sonra baş verən istənilən dil fəaliyyəti, xarici dilin öyrənilməsi ilə əlaqəli ola biləcək hər hansı sosial fəaliyyət forması, dilöyrənənlərin öz təşəbbüsü ilə xarici dildən istifadə üçün ilkin şərtlər yaradan imkanlar məcmusudur. Sinifdənxaric işlərin əhəmiyyətini araşdıran zaman onun xarici dillərin mənimsənməsi üçün özünəməxsus üstünlüyə və dəyərə malik olmasının şahidi oluruq. Dram fəliyyəti, texnoloji nailiyyət və kommunikativ öyrənməni özündə ehtiva edən videotapşırıqlar da dilöyrənənlərin dərsə olan həvəs və marağının artmasına səbəb olur. Bu zaman onlar həmyaşıdları ilə fəal əməkdaşlıq edir, bir-birlərini dəstəkləyirlər. Bu isə onların psixoloji inkişafında müsbət məcraya doğru mühüm əhəmiyyət kəsb edir[3, s.56]. Onu da qeyd etmək lazımdır ki, sosial şəbəkə materialları ilə bağlı təlim situasiyaları real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq, səciyyələndirilir.

Təlimin yeni texnoloji proseslə idarə edilməsində müəllimin təşəbbüskar və nümunəvi olması, problemə yaradıcı yanaşması ən vacib şərtlərdəndir. Müəllim öz təşəbbüslərini fəal tərəfin-təhsilalanların fikir və fəaliyyətləri ilə birləşdirdikdə, başqa sözlə, düzgün ümumiləşdirmə apardıqda, tədrisi interaktiv səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur. Texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaratmış olur.

Beləliklə, ingilis dili dərslərində sosial şəbəkə materiallarından geniş şəkildə istifadə etməklə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür.

ƏDƏBİYYAT

1. Brown H.D. Principles of language learning and teaching. Longman Publication, 2000, 352 p.
2. Cook G.Y. Applied Linguistics. Oxford: Oxford University Press, 2003, 134 p.

3. Fox K. Watching the English. The Hidden Rules of English Behaviour. London: Hodder.2005, pp. 56-57

Najafova T.

The methodology of using mass media in developing oral speech abilities in English language teaching at high schools

Summary

The article deals with the problem of working out effective ways of speaking skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The article is devoted to the mass media in modern methodology. Great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the role mass media. The author emphasizes its role in methodology. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. Phonological awareness is essential for learning to read and write. It was measured by, for instance, the following items of the initial test: finding rhyme words, in the general section of the test, and building words out of sounds and segmenting words into syllables, in the auditory section of the test. The success in tasks that require phonemic awareness is considered the most important prerequisite for learning to read. In the auditory section of the initial test for instance, the identification of the first or last phoneme in a word, and the phoneme synthesis task. Learners are often too embarrassed to say anything when they do not understand another speaker or when they realize that a conversation partner has not understood them. Instructors can help students overcome this by assuring them that misunderstanding and the need for clarification can occur in any type of interaction. Instructors can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom. So, using mass media gives us opportunity to develop students oral speech and at this time they will communicate successfuly.

Key words: language, oral speech, context, mass media, communication

Наджафова Т.

Методика использования социальные цети на формировании навыков устной речи в препадавании английского языка на высших вузах

Резюме

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Статья посвящена k СМИ на современном методике. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль СМИ. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Как известно, при обучении иноязычно-речевой коммуникации, основные трудности составляют различия в системах контактирующих языков. В свою очередь, потребности относительно изучения иностранных языков следует непременно стимулировать. Причём, работа в этом направлении должна носить целенаправленный, последовательный, поэтапный характер. Следующий фактор это понятие о самостоятельности (автономии) обучаемого. Исходя из общих положений философии обучения и психологии, а также основываясь на опыте преподавания языков, многие исследователи проблемы приходят к выводу о том, что лучший, способствующий более успешному овладению языком процесс - это тот, где центральной фигурой учебного процесса является сам обучаемый.

Следует отметить, что в настоящее время происходят значительные изменения в методике обучения иностранным языкам, и, в первую очередь, являющемся основным языком общения на глобальном уровне, английскому разрабатываются творческие методы преподавания, предполагающие обучение путем вовлечения обучаемых в процесс изучения языков в качестве заинтересованных, мотивированных участников данного процесса. Коммуникативное преподавание языка предполагает обучение языку в определенном контексте для обмена мыслями. Необходимым условием успешного внедрения новаторских идей является активность, в том числе коммуникативная активность участников процесса обучения языку.

Ключевые слова: язык, устная речь, контекст, социальные цети, коммуникация

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNARƏ RƏHIMOVA
F.e.n., dos.
Azərbaycan Tibb Universiteti
r.gulnara1963@gmail.com

İŞGÜZAR SÖHBƏT

Xülasə

İşgüzar söhbət - əsasən iki ikinəfər arasında söhbətdir, müvafiq olaraq onun iştirakçıları şəxsiyyətin, motivlərin, bir-birinin nitq xüsusiyyətlərinin spesifik xüsusiyyətlərini nəzərə ala bilərlər və almalıdırlar. Ünsiyyət, əsasən, qarşılıqlı xarakter daşıyır və partnyorların bir-birinə nitq və qeyri-bərabər təsirlərinin müxtəlif üsullarını nəzərdə tutur. İdarəetmə nəzəriyyəsində söhbət işgüzar ünsiyyət növü, idarəetmə məsələlərinin həllinə xidmət edən xüsusi təşkil olunmuş fənn söhbəti kimi nəzərdən keçirilir. İşgüzar danışıqlardan fərqli olaraq, əhəmiyyətli dərəcədə daha sərt strukturlaşdırılıb və bir qayda olaraq, müxtəlif təşkilatların (və ya bir təşkilatın) nümayəndələri arasında aparılır. İşgüzar söhbət, hərçənd həmişə konkret predmetə malikdir, daha çox şəxslərə istiqamətlənib və bir təşkilatın nümayəndələri arasında baş verir. İşgüzar söhbətin aparılmasını tələb edən məqsədlər sırasına, əvvəla, bir həmsöhbətin söz vasitəsi ilə digərinə müəyyən təsir göstərmək, digər insanda və ya qrupda hərəkət etmək istəyini, mövcud işgüzar vəziyyəti və ya işgüzar münasibətləri dəyişmək, başqa sözlə, söhbət iştirakçıları arasında yeni işgüzar vəziyyət və ya yeni işgüzar münasibətlər yaratmaq, ikincisi, rəhbərin əməkdaşların fikir və mülahizələrinin təhlili əsasında müvafiq qərarlar qəbul etmək zərurətini aid etmək olar.

Açar sözlər: işgüzar söhbət, partnyor, təşkilatın nümayəndəsi, həmsöhbət, fikir və mülahizələr.

Nitq rabitəsinin digər növləri ilə müqayisədə işgüzar söhbət aşağıdakı üstünlüklərə malikdir:

* Məqsədə nail olmaq üçün kömək edən həmsöhbətlərin sözlərinə tez reaksiya.

* Söhbətdə ifadə olunan fikirlərin, təkliflərin, ideyaların, etirazların və tənqidi iradların uçotu, tənqidi yoxlanılması və qiymətləndirilməsi sayəsində rəhbərin səlahiyyətlərinin artırılması.

* Söhbətin aparılma kontekstinin, eləcə də tərəflərin hər birinin məqsədlərinin başa düşülməsi nəticəsində müzakirə predmetinə daha çevik, differensiallaşdırılmış yanaşmanın imkanı.

İşgüzar söhbət məhz bilavasitə kişilərarası qarşılıqlı əlaqədə daha qabarıq şəkildə özünü göstərən əks əlaqə effekti sayəsində rəhbərin konkret vəziyyətə, yəni tərəfdaşların məqsədi, predmeti və maraqlarını nəzərə almaqla partnyorun fikirlərinə

reaksiya verməyə imkan verir. İşgüzar söhbət qarşılıqlı fəaliyyəti kimi aşağıdakı mühüm prinsiplər əsasında qurulmalıdır:

* Həmsöhbətin səviyyəsinə şüurlu nizamlama, yerinə yetirdiyi vəzifələrin məzmununun, onun səlahiyyətlərinin və məsuliyyət sferasının, həyat və əmək təcrübəsinin, maraqlarının, düşüncə və nitq xüsusiyyətlərinin nəzərə alınması.

Söhbət prosesinin səmərəli təşkili, bu, ilk növbədə, həmsöhbətlər tərəfindən müzakirə olunan mövzu üzrə informasiyanın məzmununun qısa izahı deməkdir, çünki geniş şərh və artıq informasiya vacib olanın mənimsənilməsini çətinləşdirir.

* Sadəlik, görünüş, dilin aydınlığı məlumatın rentabelliyi, həmsöhbətə istiqamətləndirilməsi şərti kimi yönləndirilir. İşgüzar söhbətdə məsələlərin rolu: söhbət monoloq deyil, dialoqdur, yəni ikitərəfli ünsiyyət, onun məqsədi yaranmış problemin xarakterini daha yaxşı anlamaq və ya müzakirə edilən məsələ ilə bağlı onun maraqları və rəyi nəzərə alınmaqla həmsöhbətlərdən birinə təsir etməkdir. Ona görə də sualları, qərardadları, qiymətləndirmələri elə ifadə etmək lazımdır ki, onlar birbaşa və ya dolayısı ilə həmsöhbətini ifadə olunmuş rəyə öz münasibətini bildirməyə dəvət etsinlər (1).

Dialoq sual verənə nəzarət etdiyi üçün o, sualların köməyi ilə informasiyanın ötürülməsi prosesini onun planlarına və istəklərinə uyğun məcraya yönəldə bilər; söhbətdə təşəbbüsü ələ ala və saxlaya bilər; həmsöhbətini fəallaşdıraraq, bununla da monoloqdan dialoqa keçə bilər; həmsöhbətə özünü göstərməyə imkan verir. Beləliklə, sual vermək bacarığı zəruri məlumatların tez və dəqiq alınması üçün əsas vasitədir. Bunu nəzərə alaraq, sualların növləri və funksiyaları haqqında daha ətraflı danışaq. Suallar müxtəlif əsaslarla təsnif edilə bilər. Up-bərabərlik fəaliyyətində aşağıdakı sual kateqoriyaları arasında fərqlər aparmaq faydalıdır: gözlənilən cavabların xarakteri; onların məzmununda yerinə yetirdikləri xüsusiyyətlər. Qapalı və açıq suallar gözlənilən cavabların xarakterinə görə bölünür. Qapalı suallar sərt strukturludur, onlara yalnız bəli və ya yox və ya bir neçə sözlə cavab verə bilərsiniz. Məsələn, " neçə yaşınız var?", "Harada yaşayırsınız?", "Hansı məktəbi bitirdiniz?""Bu işi sevirsən?"və s. bu hissəcik istifadə edərək sözləri ("Sizin xoşunuza gəlirmi?" "Siz istəyirsinizmi?", "Siz razısınızmı?") qapalı sualların variantıdır və cavabların müsbət istiqamətdə yerdəyişməsinə səbəb ola bilər, eləcə də "Siz istəmirsinizmi?" kimi suallar.» Bunu deyəndə nəyi nəzərdə tuturdunuz?" Dəqiqləşdirici suallar tam cavabların alınmasının effektiv üsuludur və söhbətin istiqamətlərinə nəzarət edir. Cavab sualları, hansı istiqamətdə hərəkət etmək qərarına gəlmək üçün mümkün qədər çox zəruri həmsöhbət məlumatlarını əldə etmək məqsədi daşıyır. Tədqiq edən məsələlərdən fərqi ondan ibarətdir ki, həmsöhbətin öz davranışının və ya emosional vəziyyətinin səbəblərinin ya aydın olmadığı, ya da onlar haqqında danışmaq istəmədiyi bir situasiyaya cavab tələb etməklə müraciət edirlər; belə hallarda birbaşa dəqiqləşdirmələrə müraciət edərək məlumat almaq mümkün deyil. Söhbət sənət - zəriflik, emosional empatik təzahürdür. Eyni zamanda, söhbətin aparılma texnikası məsələnin mahiyyətinə yaxınlaşmağa, problemin nədən

ibarət olduğunu müxtəlif tərəflərdən aydınlaşdırmağa yönəlib. Həmsöhbətin təcrübələrinin aydınlaşdırılmasına istiqamətlənən istənilən suallar nümunə ola bilər: "Bu tez-tez baş verir?", "Bu necə bağlılıqdır?", "Kim var idi?", "Nə oldu?" və s. Müəyyən bir vəziyyətdə həmsöhbətin mümkün davranışını aydınlaşdırmaq istəyən, xahiş edən də aprobasiya məsələlərinə müraciət edə bilər. Bunun əvəzinə birbaşa sual, növü "O halda nə edərdiniz...?", psixoloji olaraq aşağıdakı kimi ifadə olunan məsələlər daha incə məna verir: "Əməkdaşın əvvəllər aqressiv davranışı ilə nə vaxtsa rastlaşmısınızmı ? Nə etdiniz? Niyə belə etdiniz ? Əgər siz başqa cür hərəkət etsəydiniz nə olardı?" və s. Funksional-psixoloji məsələlər qrupunda güzgülü, dolayı (proektiv), estafet, sual körpüləri göstərmək olar. Həmsöhbətin cavabının tam təkrarlanması və ya onun cavabında açar sözlərin təkrarlanması üzərində qurulmuş güzgü sualları onun hisslərinin, həyəcanlarının, vəziyyətinin həqiqi anlayışına nail olmağa yönəlib (2). Güzgü suallarının nümunələri aşağıdakılardır: "Mən düşündüyünüzü düzgün başa düşdüm... (bunu həmsöhbətə nə bildirib, nə də təkrar olmalıdır)" və ya "Siz (həmsöhbətin dediklərinin təkrarlanması lazımdır niyə belə qərara gəldiniz?" Bu cür konstruksiya edilmiş fikirlər söhbətdə bir neçə funksiyanı yerinə yetirir: dinləyicinin həmsöhbətinin sözlərini təkrarlaması bildirirsiniz ki, onu eşidir, deməli, başa düşürlər; bundan başqa, öz fikrini kənardan eşidəndə insan ona tənqidi yanaşa bilər, fikir və hisslərini dəqiqləşdirə bilər. Dolayı suallar, bir insanın birbaşa suala səmimi cavab verməyəcəyindən qorxduğu hallarda istifadə olunur. Onda həmsöhbətin fikirləri haqqında deyil, deyək ki, onun iş yoldaşlarının və ya ictimai rəyin fikirləri haqqında sual verilə bilər. Məsələn: "Sizcə, ictimai rəy olmadan ali təhsilə keçidi necə qiymətləndirəcəklər?" və ya "Həmkarlarınız təşkilatda əmək intizamını necə qiymətləndirirlər?" Bu tipli sualların konstruksiyasında insan öz həmkarlarının və ya vətəndaşlarının fikrini formalaşdıraraq, faktiki olaraq problemə öz münasibətini ifadə edir. Dolayı suallar o halda da tətbiq edilir ki, sual verən nəyəsə marağını gizlətmək istəyir və ya nəyəsə öz münasibətini açıq-aşkar nümayiş etdirmək istəmir. Məsələn, həmsöhbətlə üçüncü şəxs arasında söhbətin olub-olmadığını bilmək və eyni zamanda marağını açıqlamaq istəmədiyini bilmək istəyərək, dolayı yolla onun üçün vacib olan məlumatları əldə edə bilər. Bunun üçün bir sıra suallar vermək olar, necə ki, təsadüfi olaraq lazımlı cavabı verir, məsələn: "Siz bu gün belə şöbəyə niyə gedirdiniz?", "Maraqlıdır, orada belə bir şey olubmu?", "O, mənə müraciət etdi və o, heç bir şey istəmədi?" Estafet məsələsi dialoqun davam etdirilməsi nəzərdə tutulub ki, söhbət zamanı bir mövzudan digərinə keçid məntiqi və psixoloji baxımdan uyğun olsun. Onun strukturuna görə, mövzunu inkişaf etdirmək üçün danışanın son sözlərini götürür (3).

İşə qəbul zamanı söhbət "qəbuledici" müsahibə xarakteri daşıyır. Əslində, bu, bir neçə əsas suallara və onlara müvafiq cavablara aiddir. Sualların forması dəyişə bilər, lakin onların məzmunu aşağıdakı bloklarda qruplaşdırıla biləcək informasiyanın əldə edilməsinə yönəlib: işə qəbul haqqında ərizə ilə müraciət edən şəxs kimdir; - niyə o, iş axtarır; - onun güclü və zəif cəhətləri nələrdir; - onun

baxışlarının effektivliyi nədir (başqa sözlə, onun yaxşı rəis haqqında təsəvvürü); - özünün ən sanballı nailiyyətləri hesab etdiyi; - hansı maaşlara ümid etdiyi.

1. Söhbət zamanı işdən çıxarılmanın əsl səbəbini, onun motivlərini müəyyən etmək lazımdır: bu, istehsal prosesinin narazılığına, diqqətsizliyinə və ya incikliyinə, hər hansı digər səbəblərə səbəb olur. Bu halda müsahibənin keçirilməsinin zəruriliyi rəhbərin istehsalın müxtəlif səviyyələrində idarəetmə fəaliyyətinin yaxşılaşdırılmasına göstərdiyi qayğıdan irəli gəlir. Bunun üçün işçinin istehsal tapşırıqlarının məzmunu, həcmi, yerinə yetirilməsi şərtləri, bu cür tapşırıqların qiymətləndirilməsi və onların yerinə yetirilməsi şərtləri ilə bağlı suallar vermək faydalıdır. Onun işində işçinin xoşuna gəlmədiyini və əksinə məmnun olduğunu bilmək lazımdır. Təşkilatı öz istəyi ilə tərk edən işçilər, bir qayda olaraq, öz vəzifələrində və arzularında səmimi olurlar və qalanların vəziyyətini yaxşılaşdıra biləcək məlumatları paylaşırlar.

2. Əks halda işdən çıxarılmalı olan işçi ilə söhbətlər gedir. Rəhbərliyin qərarı ilə işdən çıxarılma proseduru çox çətindir hər kəs üçün xüsusi ədəbiyyatda o, vida söhbəti adını aldı. Bu prosedur, belə bir söhbətin spesifikasını bilmək və onun aparılma texnikasına sahib olmağa əsaslanır. Belə ki, vida söhbəti istirahət günlərinin və ya bayramların qarşısında heç vaxt təyin edilmir: onu bilavasitə işdən çıxarılan iş yerində və ya çoxlu sayda insanın işlədiyi məkanda keçirmək olmaz; o, 20 dəqiqədən çox davam etməməlidir, çünki xoşagəlməz xəbəri yaşayan işçi rəhbərin ona verdiyi müxtəlif təfərrüatları diqqətlə dinləmək və fikirləşmək iqtidarında deyil. Əgər rəhbər işçini nizam-intizamın pozulmasında ittiham etməli və ya digər pozuntular barədə danışmalıdırsa, o, faktların dəqiq və düzgün şərh edilməli və verilən ittihamların ədalətli olduğuna şübhə ilə yanaşmalı olmamalıdır. Xarici təcrübədə işdən çıxarılan gediş üçün humanist hazırlamaq tövsiyə olunur; məsələn, ona başqa müəssisədə azad iş yerlərinin siyahısını təklif etmək və ya işdən çıxarılanların "reabilitasiya proqramı" kimi bir şey təklif etmək, hansında ki, öz qüvvələrində onun etibarının qorunub saxlanılması, əhatə edənlərin gözündə onun nüfuzunun saxlanılması nəzərdə tutulur. Problemli və intizam xarakterli söhbətlər ya əməkdaşın fəaliyyətində nasazlıqların yaranması və onun işinin tənqidi qiymətləndirilməsi zərurəti və ya nizam-intizamın pozulması faktları ilə bağlıdır. Problemli söhbətin hazırlanması prosesində rəhbər qabaqcadan problemin həllinin mənası, məqsədi, nəticələri, vasitələri və metodları haqqında suallara cavab verməli, söhbət zamanı rəhbərliyin mövqeyini tabeliyində olan şəxsin qəbul etməsinə çalışmalıdır. Bununla yanaşı, söhbətin konstruktiv nəticələrlə keçirilməsinə imkan verən bəzi qaydalar mövcuddur. Bunu etmək üçün aşağıdakıları etməlisiniz: 1) əməkdaş və onun işi haqqında lazımi məlumat almaq; 2) məlumat mesajında aşağıdakı sıraya riayət etməklə söhbət qurmaq; əməkdaşın fəaliyyəti haqqında müsbət məlumatları əks etdirən mesaj; tənqidi xarakterli mesaj; təqdirəlayiq-ibrətamiz xarakterli mesaj; 3) konkret olmalı və qeyri-müəyyənliklərdən qaçmamalıdır ("Siz lazım olanı etməmisiniz", "Siz tapşırıqları yerinə yetirməmisiniz" və s. tipli dövrlər); 4) tapşırığın yerinə yetirilməsini tənqid etmək, şəxsiyyəti tənqid

etmək anlamında deyil. Bu qaydalara riayət etmək konstruktiv danışığın xoşagəlməz hissəsini keçirməyə imkan verəcək, işçi tərəfindən lazımsız inciklik yaranmayacaq, onu müdafiə mövqeyi tutmağa məcbur etməyəcək.

Ədəbiyyat

1.Bax: N.B.Məmmədli. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı, "Elm və təhsil",2022.

2.Bax: N.Məmmədli. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, "Elm və təhsil", 2020.

3. Н.В. Шашкова. Этические принципы деловой коммуникации (к проблеме критериев эффективности). Нижегород, Нижегородский Государственный технический университет, 2009.

Гульнара Рагимова

Деловая беседа

Резюме

Деловая беседа — это разговор преимущественно между двумя собеседниками, соответственно ее участники могут и должны принимать во внимание специфические особенности личности, мотивов, речевых характеристик друг друга, т.е. общение носит во многом межлнчностный характер и предполагает разнообразные способы речевого и неречевого воздействия партнеров друг на друга. В теории управления беседа рассматривается как вид делового общения, специально организованный предметный разговор, служащий решению управленческих задач. В отличие от деловых переговоров, которые значительно более жестко структурированы и, как правило, ведутся между представителями разных организаций (или подразделений одной организации), деловая беседа, хотя всегда имеет конкретный предмет, более личностно ориентирована и чаще происходит между представителями одной организации. Цели и задачи деловой беседы. К числу целей, требующих проведения деловой беседы, можно отнести, во-первых, стремление одного собеседника посредством слова оказать определенное влияние на другого, вызвать желание у другого человека или группы к действию, с тем, чтобы изменить существующую деловую ситуацию или деловые отношения, другими словами, создать новую деловую ситуацию или новые деловые отношения между участниками беседы; во-вторых, необходимость выработки руководителем соответствующих решений на основании анализа мнений и высказываний сотрудников.

Ключевые слова: деловой разговор, партнер, представитель организации, собеседник, мнения и соображения.

GULNARA RAHIMOVA

BUSINESS CONVERSATION

Sammaru

A business conversation is a conversation mainly between two partners, respectively, its participants can and should take into account the specific features of the personality, motives, speech characteristics of each other, i.e. communication is largely interpersonal in nature and involves a variety of ways of verbal and non—verbal influence of partners on each other. In management theory, a conversation is considered as a type of business communication, a specially organized substantive conversation that serves to solve managerial tasks. Unlike business negotiations, which are much more rigidly structured and, as a rule, are conducted between representatives of different organizations (or divisions of the same organization), a business conversation, although it always has a specific subject, is more personally oriented and more often occurs between representatives of the same organization. Goals and objectives of a business conversation. The goals that require a business conversation include, firstly, the desire of one interlocutor to exert a certain influence on another through the word, to arouse the desire of another person or group to act in order to change the existing business situation or business relations, in other words, to create a new business situation or new business relations between the participants of the conversation; secondly, the need for the head to develop appropriate decisions based on the analysis of the opinions and statements of employees.

Keywords: business conversation, partner, representative of the organization, interlocutor, opinions and considerations.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: professor Z.Məmmədova
tərəfindən çapa tövsiyə olunmuşdur

ABIYEVA VALİDƏ
AFƏT SƏFİXANOVA
Azərbaycan Tibb Universiteti
Asehxanova@.gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ İNKARLIĞIN SEMANTİK-SİNTAKTİK VASİTƏLƏRLƏ İFADƏSİ

XÜLASƏ

Müasir ingilis dilində müxtəlif zamanlarda cümlənin quruluşunu bilmək olduqca vacibdir. İngilis dilində cümlə quruluşu mübtəda+xəbər+tamamlıq formasındadır. Fellər köməkçi fellər ilə birlikdə istifadə edilirlər və inkar formanın düzəldilməsi üçün "To be" felinin uyğun forması seçilərək "Not" inkar hissəciyi ilə birlikdə inkar cümlə düzəldilmiş olur. Təsdiqlik-inkarlıq kateqoriyasını araşdırarkən bir çox tədqiqatçılar tərəfindən inkar cümlənin ilkin təsdiq cümlələrdən alinması fikri irəli sürülmüşdür. Hər bir inkar cümləni formal olaraq təsdiq cümləyə istinad etmək mümkündür. Bir çox dilçilər inkarı təsdiq cümlə formalarının variantı pozitiv çıxış formanın transformu hesab edirlər. Müxtəlif tipoloji quruluşlu dillərin inkarlıq kateqoriyası üzərində aparılan araşdırmalara əsasən demək olarki, təsdiq cümlələrdən inkar cümlənin alınması prosesi əsasən iki istiqamətdə gedir:

1)Fakultativ struktur ünsürlərin cümləyə əlavə edilməsi

2)Təsdiq cümlənin müqabil kordinativ komponentini cümlədən çıxarmaqla

Açar sözlər:İnkarlıq kateqoriyası,leksik inkarlıq,leksik-qramatik inkarlıq,qramatik inkarlıq.

Müasir dilçilikdə bir sıra mənbələrdə təsdiq və inkar cümlələr qarşılıqlı vəhdət və əlaqədə təşkil olunur, inkarlıq vasitələrinin reallaşması bu generativ əsasla aşkara çıxarılır. Təsdiqlik və inkarlıq əks qütblər olsa da, həm də bir-biri ilə əlaqədar olan bir-birini doğuran biri digərini şərtləndirən anlayışlardır. Ünsiyyət prosesində bəzən təsdiq cümlə inkar cümləni, inkar əlamətli hökmü və təsdiq hökmü ifadə edə bilmir.

Linqvistik baxımdan təsdiqlik və inkarlığın qarşılıqlı əlaqə və asılılığı münasibətlərin semantik çarpazlığında üzə çıxır. Son illər müxtəlif dillərin materialı əsasında sintaktik sahə düşüncəsinin geniş tətbiqinə rast gəlinir. Müasir ingilis dilində inkarlığın semantikasının ifadəsi üçün dil səviyyəsi, ha belə səviyələrarası ifadə əlaqələri iştirak edir. Belə ki, sintaktik, leksik-sintaktik, leksik, morfoloji, leksik-semantik və sözdüzəltmə səviyyələrini təmsil edən rəngarəng indikatorlar toplanır.

İnkarlaşdırma dilin sintaktik səviyyəsində olduğu kimi leksik səviyyədə də müxtəlif eksplisit və implisit vasitələrlə reallaşır. Təsdiq və inkar cümlə formalarının

qarşılıqlı əlaqə və asılılıq münasibətləri üzərindəki müşahidələr göstərir ki, təsdiq-inkarlıq qarşilaşdırması inkarlığın bir sıra vasitəli ifadə üsullarının, implisit ifadə formalarının dil mexanizmini izah etmək üçün kifayət etmir. Çünki bir sıra hallarda semantik deyl, kommunikativ-praqmatik, funksional və üslubi amillər həlledici rol oynayır. İnkarlıq hadisəsinə sözün geniş mənasında kommunikativ kateqoriya kimi yanaşdiqda aydinolurki, burada affiks inkarlığı və leksemlərin semantik strukturunun məna elementi kimi aşkarlanan privativ inkarlıq xüsusi yer tutur. Funksional-kommunikativ baximdan neqatorlarla eyniləşən dilin daxili strukturunda yerləşən inkarlıq daşıyıcıları demək olar ki, bütün nitq hissələrini, söz kateqoriyalarını əhatə edir. Dilçilər latın dilindən keçən sözlərə daha çox -in prefiksini artırmağı üstün tutmuşdular.

Məs.:İnadequate,inadvertence,inarticulate və s. Lakin onu da qeyd etmək lazimdir ki,bu ayırıma baxmayaraq hələ də belə inkar prefiksli qoşa sözlər çoxdur:Unadvisable-inadvisable, unalienable-inalineable və s. (1.14)

Müasir ingilis dilində inkarlığın aşağıdakı tipləri ayırd edilir:

1)İnkar söz-cümlə

2)Ümumi inkarlıq

3)Xüsusi inkarlıq

4)Leksik inkarlıq

Bəzi dilçilər öz tədqiqatlarında müəlliflərin leksik yolla inkarlaşdırıla bilən və inkarlaşdırıla bilməyən söz qruplarından bəhs etdikləri müşahidə olunur.

İnkarlaşdırıla bilən sifətlərin, yəni inkar prefiks qəbul edə bilən sifətlərin təbiətini araşdırdıqda məlum olur ki, onların böyük əksəriyyəti verbal əlamətlərə malikdir.

Unachievable-that can not be achieved, unappreciative - that does not appreciate.

Qeyd etmək lazimdır ki, inkarlaşdırıla bilməyən sifətlərin belə əlaməti yoxdur. (1.20)

Müxtəlif dillərdə inkar komponentlərin reallaşması və bunun əmələ gətirdiyi ifadə xüsusiyyətləri spesifik xarakter daşiyaraq hər bir konkret dilin özünəməxsusluğunu əks etdirir. Vahid inkarlıq konstituentinin iştirakı ilə reallaşan sintaktik quruluş mononeqativ cümlə, daxilində iki və daha artıq inkarlıq konstituentinin reallaşmasi ilə səciyələnən sintaktik tip isə polineqativ quruluş adlanir. İngilis dilində əvvəlcə mononeqativ sistemə daxil olmuş, sonra polineqativliyə doğru inkişaf etmiş və nəhayət, müasir ingilis dinində mononeqativ sistem tam formalaşmışdır.

Cümlə daxilində inkarlığın reallaşması komponentlərin semantik-sintaktik münasibətləri ilə bilavasitə əlaqədardır. İnkarlıq semantikasının ifadəsi üçün sintaktik, leksik, leksik-sintaktik, morfoloji, leksik-semantik və söz düzəltmə səviyyələrini təmsil edən müxtəlif indiqatorlar toplanır. İngilis dilində inkar sahə strukturunu aşağıdakı dil əlaqələri ilə təsəvvür etmək olar:

1)"Not"ədatı

2)"No"əvəzliyi

3)İnkar əvəzlik və zərflər, no one, nobody, nothing, none, nowhere

4)Lack,fail,refuse,reject,və s. Adversativ fellər

5)Neither…nor bağlayıcısı

6)Affiks inkarlığı un, mis, dis, in, ir, im, less və s.

İngilis dilində "Not" ədatı və "No" inkar əvəzliyi ən güclü inkar konstituentlərindəndir. Əsrlər öncə cümlədə inkarlığın ifadəsi ikiqat, hətta üçqat inkarlıqla da nəzərə çarpırdı. İngilis dilində ikiqat inkarlıq inkar konstituentin və inkar prefiks və ya suffiksin iştirakı ilə öz əksini tapır. Elmi ədəbiyyatda inkarlığın linquistik statusu haqqında yekdil bir fikir yoxdur.

İnkar söz-cümlə bir sözdən ibarət olub yalnız inkarlıq ifadə edir. Məs.:No, you got wrong. Xeyr, siz səhv anladınız. Ümumi inkar mübtəda ilə xəbər arasında əlaqənin olmadığını göstərir. Bu halda xəbər həmişə inkarda işlənir.Məsələn:But this love did not come in a day. Lakin bu məhəbbət bir günə qazanılmamışdı.(2.10)

Xüsusi inkar cümlə üzvlərindən birinin inkarda işlənməsidir. Bu zaman cümlənin xəbəri təsdiqdə olur. Diana's senses came back to her but not her strength. Leksik inkar isə bütöv bir kompleksə deyl, ayrı-ayrı sözlərə aid olur. Bunlara misal olaraq inkarlıq ifadə edən felləri, prefiksləri və s,göstərmək olar. Məsələn:He denied breaking into the shop. İnkarlıq katekoriyasi və müasir ingilis dilində onun ifadə vasitələrinə dair bir çox tədqiqat aparılsa da, alimlər arasında yekdil bir fikir yoxdur.

Bəzi dilçilər müasir ingilis dilində üç, bəziləri isə altı ifadə vasitəsinin olduğunu qeyd edirlər. Məsələn:

1)İnkar əvəzlikləri (no, nothing, nobody və s.)

2)İnkarlıq bildirən zərflər (hardly, scarcely və s.)

3)İnkarlıq bildirən bağlayıcılar(neither… nor və nor)

Bəzi dilçilər isə altı kateqoriyani inkarlıq bildirən birləşmələr kimi qeyd etmişdilər.

İngilis dilində mövcud olan həmin kateqoriyalar aşağıdakılardır:

1)İnkarlıq bildirən affikslər (un, mis, in, dis, les və s.)

2)İnkar hissəcik (not)

3)İnkar əvəzlikləri və zərflər (nobody, neither, nothing, hardly, nowhere, seldom, scarcely)

4)İnkarlıq bildirən bağlayıcılar

5)İnkarlıq bildirən sözönüləri

6)İnkarlıq bildirən inexplicit ifadəsi

İnkarlıq bildirən affikslər sözün əvvəlinə və ya sonuna artırılaraq ona inkarlıq mənası verir, bəziləri isə həmin sözə əlavə məna verir. Qeyd etmək lazımdır ki, bir çox Hind-Avropa dillərində çox tez-tez rast gəlinən "un" prefiksi müasir ingilis dilində qədim ingilis dilində işləndiyi kimi işlənir. Məs.:

Grateful-ungrateful

Written-unwritten

Employment-unemployment

Qeyd etmək lazımdırki ən çox sifətlərdə rast gəlinir. Bəzi hallarda "un" prefiksi əlavə edilən sözlər təkcə inkar məna deyl həmdə yeni keyfiyyət bildirən məna kəsb edir.Məs.:Wise-ağıllı,müdrik,unwise-ağılsız, düşüncəsiz mənası daşıyır, bəzi kontekslərdə "foolish" sözünün sinonimi kimi çıxış edir. Önünə "un" prefiksi əlavə edənlən sözlər inkar məna bildirir, bu prefiks işlənməyəndə "less" suffiksindən istifadə edilir. Məs.:Careful-careless(uncareful) Latın dilindən götürülmüş "in" prefiksi german "un" prefiksinə bərabərdir. Bu da fransız dilindən alınmış sözlərdə işlənir Məs.:

İncorrect - yanlış

İndifferent - laqeyd

İnnumerable - sayısız

İnactive - qeyri-fəal(2.18)

Həmçinin "in" prefiksinin "il", "im", "ir" variantları da vardır:"il" - "l" hərfi ilə başlayan sözlərdə, "im"-"p, b, m" ilə başlayan sözlərdə "ir" isə "r" ilə başlayan sözlərə artırılır.

Məsələn:İncorrect, illegal, impolite, irresponsible. "Mis" inkarlıq bildirən sözönü german mənşəli prefiks olub ən çox fellərin önünə artırılır. Məsələn:Misfit, mistrust və s. Demək olar ki, inkarlıq bildirən şəkilçilərin əksəriyyəti latın, yunan mənşəli şəkilçilərdir. Latın mənşəli "dis" prefiksi isə ən çox fransız dilindən alınma sözlərə artırılır. Disagree sözünü buna misal göstərmək olar. "Anti" prefiksi latın mənşəli prefiksdir. Bu prefiks artırılan sözlərə elmi-siyasi ədəbiyyatda daha çox rast gəlinir və bu prefiks təkcə german dillərində deyl, bir çox başqa dillərdə də işlənir. Yazıda prefiks ilə sözün özü arasında defis işarəsi qoyulur. Məsələn: Anti-social, anti-fasicst və s. "Counter" prefiksi latın mənşəli prefiksdir. O, da "anti" prefiksi kimi daha çox elmi-siyasi ədəbiyyatda istifadə olunur. İnkarlığın leksik yolla ifadəsi dedikdə neqativ mənalı sözlərin cümlədə işlənməsi nəzərdə tutulur. Məs.:To deny-inkar etmək.

İnkarlığın sintaktik vasitələrlə ifadəsi dedikdə, əsasən aşağıdakılar göstərilir.

İnkarlığın ekspresiv-istehsalı ifadəsi;İnkarlığın sual vasitəsi ilə ifadəsi;İnkarlığın inkar bağlayıcıları ilə ifadəsi.

Nitqin əsas xüsusiyyətlərindən biri müxtəlif tonlu intonasiyalarıdır. Barxudarov düzgün olaraq qeyd edir ki, bəzən sözün bir qədər fərqli tələfüzü həmin sözün həqiqi mənasını dəyişdirir. (3.12) Bəzi dilçilər cümlədə vahid inkarlıq əlamətinin kifayət etmədiyini dilin zəifliyi, struktur naqisliyi kimi izah edirlər və "çox inkar az inkişaf etmiş dillər üçün səciyyəvidir" kimi yanlış nəticəyə gəlib çıxır:"The history of negative expressions in various languages makes us witness the folloving curious fluctuation". İnkar cümlələrdə iki və daha artıq neqatorun iştirakını qəbul etməməklə yanaşı bəzi inkar cümlələrin sintaktik və semantik əlaqələrini aşkara çıxara bilməmişdir. She isn't happy və she is unhappy cümlələrinin bir-birinə bərabər olduğu qənaətinə gəlinmiş, və onlar arasında bir fərq düşünmüşdür. Həmçinin, Barxudarov inkar cümlələr arasında semantik-sintaktik əlaqəni göstərmişdir.

Cümlələri təhlil edərkən görünür ki, she isn't happy cümləsində inkarlıq sintaktik, she is unhappy cümləsində isə semantik formada göstərilmişdir. Başqa sözlə she isn't happy eksplisit, she is unhappy isə implisit inkar cümlələridir. Cümlədə inkarlıq strukturu özünəməxsusluğu ilə əlaqədar olaraq müxtəlif şəkillərdə təzahür tapır. Flektiv olan ingilis, fransız,rus və s. dillərdə bu müvafiq olaraq not, no,не kimi qramatik ədatların X vəziyyətdə cümləyə daxil edilməsi digər dillərdə(Azərbaycan, Özbək və s.) uyarlıq daxilində ma, mə, - m şəkilçilərinə uyğun gəlir. Ümumiyyətlə, dillərin inkarlıq xarakteri onların polineqativ və

ya mononeqativ olmalarından asılıdır. Bəzi tədqiqatçılar yanlış olaraq dünya dillərinin polineqativ və mononeqativ quruluşunu, inkarın reallaşmasını onların inkişaf səviyyəsi ilə əlaqələndirməyə çalışmışlar.

Barxudarov cümlədə vahid inkarlıq əlamətinin kifayət etmədiyini dilin zəifliyi kimi izah edir və onun fikrincə inkar az inkişaf etmiş dillər üçün səciyyəvidir. (3.18)

Bununla yanaşı təhsilalanlarınpraktiki xidməti fəaliyyətində tətbiqi xüsusiyyətlərinin nəzərə alınmasında özünü biruzə verən, təlimin praktiki yönümlü xarakterinin öyrənilməsi aktuallaşmışdır. Məqalədə mədəniyyətin (cultural understanding) döyüş meydanında düşmən üzərində üstünlük əldə etməyin əsas

vasitələrindən biri kimi anlaşılmasını irəli sürən NATO doktrinalarında işlənib hazırlanmış konsepsiyanın xüsusiyyətləri müəyyən edilir.

Mədəniyyəti istənilən cəmiyyətin üzvlərinə xas olan , inkişaf edən, inteqrasiya edilmiş davranış modeli kimi şərh edən konsepsiya müəllifləri fərz edirlər ki, mədəniyyətyönümlü təlim adətləri, ənənələri, dili, incəsənəti, davranış stereotiplərinin, dilin daşıyıcılarının dünyagörüşlərinin ümumi dəyərlər sistemini bilməyi nəzərdə tutur.

Xarici ölkələrin hərbi ali təhsil müəssisələrində xarici dil hazırlığının keçirilməsi zamanı hərbi qulluqçuların xarici dil biliyinin lazımi səviyyəyə çatmasına və bundan sonra xidmət dövründə ondan istifadədə daim təkmilləşməsinə imkan verən müxtəlif tədris forma və metodlarından istifadə olunması hərtərəfli və ətraflı nəzərdən keçirilmişdir. Yeni, dəyişən şəraitdə peşəkar fəaliyyətin uğuruna zəmanət verən peşəkar inkişaf, sosial mobillik, öz peşəsində xarici dildən daim istifadə edə bilmə bacarığı hərbi mütəxəssisə qarşı irəli sürülən peşə keyfiyyəti kimi dəyərləndirilmişdir.

Hassanova Sevda, Aliyeva Khatin

SUMMARY

MODERN TRENDS IN FOREIGN LANGUAGE TRAINING OF MILITARY PERSONNEL

The article deals with improving the quality of foreign language training of servicemen with a focus on its practical implementation in everyday professional activities. The article also analyzes the place of the Russian language in intercultural communication, from this point of view, the Russian language is assessed in terms of mastering it by foreign-speaking military specialists of international coalitions, which are increasingly participating in combat, anti-terrorist, peacekeeping and rescue operations. At the same time, the problem of the practice-oriented nature of education has been updated, which is expressed in taking into account the motives and needs of students, the specifics of using a foreign language in practical work.

The article reveals the features of the concept developed in the NATO doctrines, which puts forward cultural understanding as one of the fundamental means of gaining superiority over the enemy on the battlefield. Interpreting culture as a developing, integrated system of behavior patterns characteristic of members of any society, the authors of the concept believe that culture-oriented learning implies knowledge of customs, rituals, language, art, behavioral stereotypes, the general system of values and worldviews of native speakers. A diverse range of forms and methods of teaching when conducting training sessions in a foreign language in military universities of foreign countries is considered in detail and comprehensively, allowing military personnel to achieve the required level of foreign language

proficiency for the chosen type of activity and further throughout the service to constantly improve in its use. An assessment is made of the foreign language independence of a serviceman, which is a professional quality, which is manifested in his ability and readiness to constantly use a foreign language for professional growth, professional and social mobility, work in his specialty, guarantees the success of the professional activity of the future officer in a new, changing environment, when priority becomes the ability to extract and adequately evaluate the necessary foreign language information, determining the areas of its application.

Keywords: the integration of the armed forces, the officer's independence in a foreign language, the practice-oriented nature of training, the modernization of the communication system, foreign language professional information

Список литературы

1.Москотина О.В. Актуальность формирования иноязычной самостоятельности курсанта военного вуза при обучении иностранному языку // современные проблемы науки и образования. 2015. № 5.

2. Мгимов Ю. Специальные и поощрительные надбавки к денежному содержанию военнослужащих США // Зарубежное военное обозрение. – № 11. – 1996. – С.12–14.

3. Юрчук И., Стрелецкий А. Языковая подготовка в военно-учебных заведениях стран НАТО // Зарубежное военное обозрение. – №3. – 2009. – С.22–28.

4.Cooke W. Exployting Authentic Text in a Self Generating Presentation and Correction Exercise // Language Learning Journal, 1998. – № 3. – P. 46.

5. Philips D. Languages in Schools. From Complacency to Conviction // CILT, 2007. – P. 10–15.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Münəvvər Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

АКБАРОВА НУРИЯЯ ЭЛЬМАН КЫЗЫ
МАММАДОВА ШАЛАЛА ЭЛИМДАР КЫЗЫ
Военный Институт имени Гейдара Алиева

СОВРЕМЕННЫЕ МЕТОДЫ ПРЕПОДАВАНИЯ РУССКОГО ЯЗЫКА И ЛИТЕРАТУРЫ

РЕЗЮМЕ

Русский язык, занимает пятое место по численности говорящих на нем.

Русский язык является одним из крупнейших мировых языков и самым распространенным языком Европы — как в географическом отношении, так и по числу носителей языка.

Русский язык входит в число официальных языков всемирных (ВОЗ, МАГАТЭ, ООН, ЮНЕСКО) и региональных международных (БРИК, ЕврАзЭС, ОДКБ, СНГ, ШОС) организаций.

Славянский литературный язык, стремительно развиваясь, оказался в одном ряду с греческим, латинским и еврейским. Он стал важнейшим фактором, объединявшим в IX—XIвеках все славянство. На нем писали и проповедовали в Киеве, Новгороде, Охриде, Преславе, Сазаве, в Чехии и на Балканах. Были созданы такие литературные памятники, как «Слово о законе и благодати» митрополита Иллариона, Остромирово евангелие, и сборник Святослава и, конечно, «Слово о полку Игореве».

Язык должен стать инструментом общения, позволяющим проникнуть в другую культуру, определить для себя ее характерные черты и усвоить тип поведения, адекватный восприятию представителями иной культуры. Только таким образом будущие студенты могут стать полноценными участниками межкультурного диалога.

Овладение языком – длительный, трудоёмкий, а главное, индивидуальный процесс.

В программу изучения русского языка, как и других иностранных, входит углубленное изучение грамматики, фонетики и лексического состава языка, тем не менее, теоретическое изучение уступает свое место выработке практических навыков.

“Инновационный подход к обучению позволяет реализовать современные цели обучения – формирование коммуникативной компетенции учащихся и воспитание толерантности в мультикультурном обществе.” (1. 19) Новый подход к обучению русского языка, как иностранного, опирается на методы и приемы, способствующие эффективному обучению. Известно, что некоторые могут овладеть языком сразу, некоторым овладение языка дается с трудом.

При всей сложности процесса обучения иностранных языков учитель ищет такие пути, способы, при которых обучение языка будет эффективным и полезным для каждого студента.

Ключевые слова: русский язык, организация, межкультурный диалог, методы обучения, фонетика, грамматика, изучение

Эффективные методы преподавания русского языка и литературы – это методы, которые позволяють давать ученикам твердые знания, активизирующие познавательные способности учеников.

Для того, чтобы процесс обучения был успешным, учитель должен из арсенала приемов и методов выбрать такие, которые позволят ученикам развивать творческие способности, обогащать знаниями, воспитывать и стимулировать процесс обучения и воспитания.

На уроках русской литературы очень важно развивать монологическую речь учащихся.

Для реализации этой задачи необходимо давать задания для аргументированного ответа (проблемный вопрос и доказательства). На начальной стадии этой работы учитель должен помочь ученику составить план устного выступления, помочь подобрать доказательства.

Для развития монологической речи учащихся рекомендуется давать задания для аргументированного ответа, в котором приводятся аргументы (доказательства), подтверждающие правильность тезиса, заключенного в вопросе.

Для развития речи учеников рекомендуется давать сообщения по опережающему обучению, написание отзывов о прочитанных книгах и просмотренных кинофильмах, особенно экранизацию литературных произведений., написание докладов и интервью.

На уроках русского языка для развития монологической речи учащихся целесообразно вести работу над речевыми нормами языка, для этого нужно давать упражнения и задания по исправлению речевых ошибок. Большую ценность имеет лексическая работа по выяснению знаний словосочетаний типа «Четвертое лишнее» (1), коллега по работе,/(2), памятный сувенир (3), снится во сне (4)..

Для развития речи на уроках русского языка необходимо составлять рассказы по изученной теме, например, «Как определить спряжение глагола с безударным личным окончанием», «Падежные окончания имен существительных». Составление таких рассказов позволит ученикам не только развивать речь, но и закреплять теоретические знания по данным темам.

Эффективными методами преподавания на уроках русского язык являются творческие и распределительные диктанты, когда учитель читает текст, а ученики выписывают не глаголы из этого диктанта, а образованные от

этих глаголов причастия, деепричастия и распределяют их по столбикам в тетради.

Неоценимую ценность представляют лингвистические разминки – осложненный словарный диктант. Когда ученики пишут вместо диктуемого учителем слова словосочетание с этим словом. Большую образовательную ценность представляют синтаксические пятиминутки- ученики не только проводят синтаксический разбор предложений, но и составляют схемы этих предложений., составляют предложения по данным учителем схемам. Например, 1) О:О,О и О..2)О ,но О и О,о.3)О и о, О и О.

Эффективным приемом обучения является творческое списывание упражнений, когда ребята вводят в текст упражнения причастные обороты, вводные слова, однородные члены и т.д.

Можно также по составленным схемам сложного и простого предложений придумать предложения, выделить грамматическую основу, расставить недостающие знаки препинания.

Необходимость формирования положительной мотивации в процессе обучения является важным условием повышения учебно-познавательной деятельности обучающихся, актуально для всех ступеней образования. Мотивация -это методы, средства побуждения к активной деятельности.

Активные методы обучения - это система методов, обеспечивающих активность и разнообразие мыслительной и практической деятельности обучающихся в процессе усвоения учебного материала.

АМО строятся на :

практической направленности;

игровом действии и творческом характере обучения;

интерактивности;

разнообразных коммуникациях, диалоге и полилоге;

использовании знаний и опыта обучающихся;

групповой форме организации их работы;

деятельностном подходе к обучению и рефлексии.

Применение активных методов обучения позволяет преподавателю научить обучающихся не получать готовые знания, а самостоятельно искать, анализировать, формулировать информацию, которая в итоге и составит общую сумму знаний, полученных за каждый урок.

Процесс обучения русскому языку как иностранному – это процесс совместной деятельности учителя и учеников, это передача учителем и усвоения учениками социальной культуры народа. «...обучение иностранному языку, в частности русскому языку, как иностранному, - очень сложный и многоаспектный процесс, и, упуская из виду какие-то его компоненты, мы тем самым обрекаем обучение на неуспех.»(2,7)

Для осуществления целей обучения у учителя должны быть методические знания, умения употреблять эти знания и умения реализовать принятое решение.

Инновационные методики характеризуются новым стилем организации учебно-познавательной деятельности учеников.

Инновациями в образовании называют новшества, нововведения в содержании образования, в формах и методах обучения, в отношения х «преподаватель – студент», использовании информационных технологий обучения, внедрение нового оборудования, в организации учебно-воспитательного процесса, его управлении и др.

Методы обучения настолько многообразны, что их сложно подвести под единую классификацию.

Недостатком переводного метода является то, что учащиеся постоянно находятся в атмосфере родного, а не изучаемого языка(3, 14-15)

Аудиовизуальный метод (обучение).

Расширение деловых и культурных связей с зарубежными странами обусловливают новые требования, предъявляемые к языковому образованию. Одним из условий успешного и полноценного общения является умение аудирования. Развитие этого умения, начиная с начального этапа обучения языку, способствует формированию коммуникативной компетенции.

В основе будущей полноценной коммуникации на иностранном языке лежит процесс успешного формирования навыков восприятия, узнавания и понимания речи на языке изучения. Материал, предоставляемый для аудирования, служит моделью реальной языковой среды, что позволяет вовлекать студентов в речевую деятельность. Аудиовизуальные материалы обеспечивают визуальное представление о ситуации, позволяет видеть артикуляцию произносимых звуков, что облегчает процессы восприятия и понимания иноязычной речи. Аудирование представляет собой сложную рецептивную, мыслительно-мнимическую деятельность, связанную с восприятием, пониманием и переработкой информации, содержащейся в устном речевом сообщении [Гальскова, с. 161]. Различают контактное и дистантное аудирование. Контактное имеет место при устном интерактивном общении, дистантное — при опосредованном слушании (радио- и телепередачи, фонозаписи, фильмы).

На занятиях по развитию и совершенствованию навыков аудирования в высшей школе используется дистантное аудирование, в рамках которого студенты учатся слушать и воспринимать речь на иностранном языке.

Создателями аудио-лингвального метода являются американский лингвист Ч. Фриз и методист Р. Ладо. Их концепция оказала существенное влияние на методику преподаваня. Задача начального обучения - обучение репродукции основ языка на уровне навыка. Поскольку из начального

обучения исключается чтение, то задачи обучения в рецептивном плане ограничиваются развитием умения понимать иностранную речь в нормальном темпе на структурном материале, по объёму большем, чем учащийся сам сможет воспроизвести. Основная цель — обучить учащихся устной речи. Этому подчинены все принципы обучения. Наряду с обучением устной речи ставится задача обучения письму и чтению, но на первой ступени только в объеме материала, предназначенного для обучения устной речи.

«Практическая задача — добиться того, чтобы учащиеся могли использовать ИЯ как средство общения в повседневной жизни. Первая часть курса включает некоторое количество текстов из художественной литературы, специально предназначенных для знакомства с письменной речью. Особый интерес представляет отбор языкового материала. Словарь и грамматические конструкции были отобраны на основе тщательного анализа живого разговорного языка. В результате для курса первой ступени словарь был определен примерно в 1500 слов.Весь новый материал воспринимается учащимися длительное время только на слух, а его значение раскрывается с помощью зрительной наглядности (диапозитивы, диафильмы, кинофильмы)».(4,36-37)

Əkbərova Nuriyyə Elman qızı,
Məmmədova Şəlalə Elimdar qızı

RUS DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİNİN MÜASİR METODLARI

XÜLASƏ

Açar sözlər rus dili, təşkil etmək, qrammatika, fonetika. tədris metodikası, öyrənmək

Tədrisdə dil, hər şeydən əvvəl, xüsusi biliklər aləminə daxil olmaq üçün bir vasitədir. Bu, həmçinin təlim-tərbiyə prosesinin bütün sahələrində irəliləyiş üçün bir zəmindir. Müasir dövrdə bu mövzu ilə bağlı bir çox problematik məsələlər dərindən işlənilib hazırlanmışdır. Rus dilinin öyrənilməsinin strateji məqsədləri də şagirdlərin və tələbələrin ümumi dil bilmə hazırlığının əldə edilməsidir.

Xarici dilləri bilmək həyatımızda böyük önəm kəsb edir. Rus dili isə qonşu dövlət olan Rusiya ilə beynəlxalq ikitərəfli münasibətləri həyata keçirmək üçün çox vacibdir. Bu dil Azərbaycanın daxili milli maraqlarının möhkəmləndirilməsinə də şərait yaradır. Azərbaycan və Rusiya arasında siyasi, iqtisadi, idarəetmə orqanlarını, eləcə də sıravi vətəndaşlar səviyyəsində əlaqələri əhatə edən əməkdaşlıq mövcuddur. Bu ölkələr arasında getdikcə daha çox ikitərəfli müqavilələr imzalanır.

Rus dili, hind-avropa dillərinin, balto-slavyan qrupuna aiddir. Dünyanın çoxyayılmış dillərindən biri olaraq — ümumi danışanların sayına görə beşinci yerdədir.

Rus dilinin xarici dil kimi tədrisinin tarixi çox qədim zamanlara aid edilir. Bu baxımdan qeyd etməliyik ki, rus dilinin xarici dil kimi tədrisinin metodikası sadədən mürəkkəbə doğru bir düzxətli inkişaf yolu keçmişdir.

Rus mənbələrinə istinad etsək, görərik ki, bu tarix min illərlə ölçülür. Rus dilçiləri-pedaqoqları rus dilinin xarici dil kimi tədrisinin əsasının Kiyev Rus dövləti zamanında qoyulduğu fikrini də irəli sürürlər. Bu tarix boyu müəyyən mərhələlər və dövrlər mövcud olmuşdur ki, onlar da Avropada və Rusiyada baş verən ictimai, siyasi və iqtisadi dəyişmələrlə birbaşa əlaqəli olmuşdur. Qeyd etdiklərimiz, yəni müəyyən dəyişikliklər sözsüz ki, təhsilə, təlim və tərbiyəyə təsir etmiş, bu da öz növbəsində, rus dilinin xarici dil kimi tədrisini gücləndirmişdir. Müasir dövrümüzdə rus dilinin tədrisində qrammatik-tərcümə metodu, kommunikativ metod, innovasiya metodu və digər metlordan istifadə olunur. Xarici dilin dərindən öyrənilməsi xalqlararası mədəniyyət dairəsinin genişləndirilməsinə, həmçinin tədrisdə motivasiyanın yüksəldilməsinə şərait yaradır. Dil-mədəniyyət təzahürüdür, o, nəinki tədrisdə dərk etmə, həmçinin inkişafetdirici və tərbiyəedici funksiyaları da daşıyır. Xarici dillərdən, eyni zamanda rus dilindən istifadə insanlara peşəkar fəaliyyətdə və şəxsi biliyinin artırılmasında böyük rola malikdir.

Akbarova Nuriyya Elman,
Mammadova Shalala Elimdar

MODERN METHODS OF TEACHING RUSSAIN AND LITERATURE

SUMMARY

Key words: Russian language, grammar, phonetics, methods of teaching, International dialogue

More than 260 million people around the world speak in Russian. According to Ethnologue Russian is the 8 most spoken language in the world.

Russian-is an East Slavic language mainly spoken across Russia. It is the native language of the Russians, and belongs to the Indo-European language family. It is one of four living East Slavic languages, and is also a part of the larger Balto-Slavic languages..

You can learn a lot about Russian culture through its literature and language. Learning Russian will allow you to understand the complexity of this culture.

Russian has proven to be a popular language of study both because of its international prominence and its famous literature works of Dostoevsky, Tolstoy, Pushkin, Gogol, Chekhov, and other famous writers.

The method of teaching Russian language consists of the literary parts of the language skills of students, the concepts of grammar, the change of language system over time (assimilation) and other parts of language science. Methodology; pedagogy, psychology and philosophy at the intersection of disciplines.

Teaching Russian as a foreign language (RFL) to non-philology students has been an active area of research for the last several decades.

Over a quarter of the world's scientific publications are in Russian, ranking second to English. This is the case for chemistry, physics, geology, mathematics, and the biological sciences. Russia has always had a rich tradition in the sciences—dating back to Mendeleev and up through recent Fields medalists in mathematics. The Soviet tradition of creating scientific towns and scholarly communities is giving way to a system of entrepreneurship backed by state agencies and private-sector start-ups; therefore, innovations in computer programming, software engineering, and information technology are coming out of Russian government agencies and private firms.

The ultimate purpose of teaching Russian to international non-philology students is for them to speak Russian fluently, to express their thoughts, to understand their interlocutors, to reproduce and interpret orally and in writing the information obtained from print and audio sources.

Learning Russian for professional purposes for non-philology university students is not only a means of mastering their future professions, but also a possibility to competently communicate in the professional environment andeasily adapt to constantly changing working condition.

Библиография

1 А. Н. Щукин. Методика преподавания русского языка как иностранного. Москва: Русский язык, 1990,

2.Андреева А.С. Формирование системы профессионального воспитания обучающихся в условиях непрерывного образования // Устойчивое развитие науки и образования. – 2016.

3.Шаталов М.А. Развитие системы профессионального образования на основе инновационных методов обучения,2016.

4. Шкрабо, О. Н. Аудиовизуальный метод в обучении иностранному языку в высшей школе,2014

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Bünyadova tərəfindən çapa tövsiyə olunmuşdur

BƏNÖVŞƏ MƏMMƏDOVA
ADU,
benovshem.m@gmail.com

QAVRAYIŞ TƏRZİNİN DİL KİMLİYİ FORMATINI YÖNLƏNDİRMƏSINƏ DAİR

(Ə.Babayevanın audial qavrayışının sinestezial planda həlli kontekstində)

Açar sözlər: Ə.Babayeva, dil kimliyi, audial qavrayış, təqlidi sözlər və mimemlər.
Ключевые слова: Алавия Бабаева, языковая личность, Тони Моррисон, аудиальный способ восприятия, подражательные слова и мимемы.
Keywords:: A. Babayeva, language identity, audial perception, imitative words and mimes.

Məlumdur ki, bədii mətnin struktur-semantik təşkilində müəllifin dil kimliyinin audial, A eri, kinestetik və ya diqital qavrayış aspektlərinin [1] "möhürü" əksini tapır. Belə ki, neyrofizioloji araşdırmalar A eri qavrayışının iki bir-birindən asılı və əlaqəli olan sistemlər əsasında mümkün olduğunu və bunun isə son nəticədə bu və ya digər fərdin "subyektiv qiymətləndirimələrinin, individual qərarlarının" verilməsinin əsasını təşkil etdiyini ortaya qoymuşlar [2].

Müasir dilçilikdə qavrayışın A eri, audial, kinestetik növlərə görə fərqləndirməsinin dil mənimsənilməsi prosesindəki rolu, bu fərqləndirmənin həmin prosesin müvəffəqiyyət səviyyəsini tənzim etməsi məsələsi geniş şəkildə araşdırılır və bu zaman dilçilər konkret təcütübi faktlara istinad edirlər [3]; [4]. Belə ki, təcrübi araşdırmaların ortaya qoyduğu real faktoloji baza audilların, vizualların və kinestetiklərin informasiya modallığının fərqliliyinin əsaslarını müəyyənləşdirməyə və təzahür formalarının qarşılaşdırmaqla sistemləşdirməyə imkan verir. Lakin heç şübhəsiz ki, ən geniş aspektdə audialların, vizualların, kinestetiklərin ətraf aləmdən gələn informasiyanın "emalındakı" və verbal reprezentasiyası formatındakı fərqləri problemilə məhz, koqnitivistika və koqnitiv dilçilik, habelə psixolinqvistika maraqlanır. Məhz, müasir koqnitivistika idrak prosesində qavrayış "kanallarının" hansının öncüllük kəsb etməsini və əldə etdilən informasiyanın xarakterini və formatını müəyyənləşdirilməsində hansı sensor orqanının həlledici rol oynadığını ortaya qoyur. Belə ki, vizuallar üçün görmə orqanından gələn informasiyanın yaddaşa ötürülməsin, ətraf kerçəklikdən əldə edilən informasiyanın təbii seleksiyasında, yəni konkret fərd tərəfindən qavranılmasında məhz, "görüntülü" məlumatların – obyektlər haqında rəng, forma və s. informasiyası ön plana çıxır. Vizuallar öz nitqində təsvirə, vizual canlandırmaya daha çox üstünlük verirlər. Kinestetiklər isə daktilo informasiyanın, yəni dəri örtüyündən əldə edilən informasiyanın verbal plana ötürülməsinin aktivliyi ilə seçilir və onların nitqində məhz, komfort, dinamika ilə bağlı informasiya daha yüksək işlənmə tezliyinə malik olur. Digər qavrayış tiplərindən fərqli olaraaq, yalnız qiqitillər ətraf aləmi sensor

orqanların öncüllüyü ilə deyil, məntiqi kateqoriyalar prizmasından qavrayırlar. Belə ki, bu qavrayış növündə "məcazi-məntiqi obrazlara konsentrasiya, köklənmə vasitəsilə informasiyanın qəbulu", hər bir mənimsənilmiş informasiyada mənanın axtarılması, informasiyanın "rəflərə" düzülməsi" mühüm rol oynayır [5;8-16]. Tədqiqatın bu məqamında bizim diqqətimizi daha çox cəlb edən audial qavrayış tərzinin təhlilinə keçmədən öncə onu qeyd edək ki, sosial psixologiya sayəsində bəzi araşdırmalar son qavrayış tərzini təbii qavrayış növləri sırasına aid etmir, yalnız vizual, audial və kinestetik qavrayış növünü fərqləndirirlər (məsələn, [6; 46-47]).

Nəhayət audiallara gəlincə, dünya əhalisinin yalnız 5-7%-ni təşkil etdiyi ehtimal edilən bu qavrayış növlü insanlar informasiyanı daha yaxşı dinləyərək mənimsəyib "yaddaşa salırlar". "Onlar hətta digər insanları, onların xarakterini onların səslərinə görə yadda saxlayırlar. ...Əgər hər hansı bir şəxsin nitqində "orda elə sakit idi ki, hətta quşların səsi eşidilirdi", "döşəmə cırıldayırdı" və s. : əmin ola bilərsiniz ki, bu şəxs audialdır [7]. Analoji formatda informasiyanın Ələviyyə Babayevanın yaradıcılığı üçün xarakterikliyi onun məhz audial qavrayış tərzinə malik olmasına şübhə yeri qoymur. Nümunələrə diqqət edək: *Bir az sonra Mirzəhəsən əminin ulağa qoşulmuş ikitəkərli arabası* ***cırıldaya-cırıldaya*** *həyətə girərdi* [8;8]; *... uşaqlar Qulamhüseynin* ***cır-cır arabasının səsini eşidəndə*** *həm sevindilər, həm təəccüb etdilər* [9; 11]; *Bu vaxt Elxan Arzunun başı üstündən kağız gəmini nişan aldı.* ***"Bulluq-bulluq" səs eşidildi****...* [9;165]. Maraqlıdır ki, Ə.Babayeva tam susqun orqan olan insan beynini də "danışdırmağı" bacarır: "*Bəs bu* ***şırıltı*** *haradandır?" Sən demə,* ***şırıltı beynində imiş****.* [9; 398]. Burada da müəllif təqlidi səs kompleksindən yararlanır. Ə.Babayeva təsvirdə məhz audial aspektli informasiyanı ilk olaraq "eşitdiyi" kimi, digər xarakterli informasiyanın (məsələn, xoşbəxtliyin) səciyyələndirməsində də audial planlı dəyərləndirməyə üstünlük verirdi. Məsələn: "*mərcanla keçirdiyi bu üç ildə arvadını hələ bu axşamkı kimi şən –* ***xoşbəxt*** *görməmişdi.* ***Qapının arasından süzülən şaqraq nəğmə, baharı səsləyən torağay kimi pərvaz edir, tül pərdələri qabardaraq pəncərədən çölə qanadlanırdı***" [9; 203].

Ə.Babayevanın metaforikləşmələrində də audiallıq məqamı həlledici rol oynayir. Belə ki, Ə.Babayeva özünün dominant qavrayış üsuluna uyğun olaraq, yarpaqları, küləyi, dənizi "danışdırır". Nümunələrə diqqət edək: ***Külək*** *tənəkləri, yastıyarpaq əncir kollarını yerə qısır, təpə-təpə qalxan qumlara daraq çəkib əylənir,* ***İlqarın yanından ötərək "tut məni" deyə pıçıldayır****, sonra isə dəcəlləşir, ağacların zirvəsindəki yarpaqlar arasında gizlənir,* ***"axtar məni" deyib uğuldayırdı****.*[9; 290]. Maraqlıdır ki, Ə.Babayeva ***pıçıldamaq*** və ***uğuldamaq*** feillərini eyni "sinif" çərçivəsində nəzərdən keçirərək intensivliyə görə qradasiya əsasında qarşılaşdırır. Halbuki ***pıçıldamaq*** feili bilavasitə insana aid nitq-danışıq ifadə edən feil olduğu halda, ***uğuldamaq*** feili mətndəki obyektə uyğun, yəni küləyə aid edilə bilən feildir.

Müəllif təsviri öz audiallığı prizmasından aparır. Bu mənada "informasiyanın təqdimatının perseptiv kanalının və sözün semantik modallığının qarşılıqlı asılılığı" problemini tədqiq etmiş dilçilərin gəldiyi qənaəti xatırlatmaq yerinə düşərdi. Belə ki,

eyni bir obyektion səciyyələndirməsi zamanı kinestetiklər, vizuallar və audilallar tam fərqli aspektdən yanaşma ortaya qoyurlar. Məsələn, "velosiped" obyektini səciyyələndirən ***vizual*** onun haqqında "***yaşıl velosiped***" informasiyasını səsləndirdiyi halda, ***audia***l eyni obyektə nəzərən "*velosiped səki üstündən* ***səsli şütüdü***" – izahatını verir [10; 12]. Sonuncu növ səciyyələndirmələr Ə.Babayevanın dil kimliyi üçün səciyyəvidir. Nümunələrə diqqət edək. Sinif otağını, baş verən hadisələri, qəhrəmanlarının emossional durumunu səslər vasitəsilə oxucunun təxəyyülündə canlandılır: ***Sakit sinif otağında***... [9; 7]; *Kağız üzərində sürüşən* ***qələmlərin xışıltısı*** ... [9; 8], *...cavan müəllimənin* ***səsi qırıq-qırıq çıxır*** [9;9] ; *qoca müəllimənin* ***səsi titrəyir***..[9; 9]; *Yenə* ***səs qırılır*** *...Xəttin o üzündəki həyəcanlı* ***səs yenə təşvişlə*** *soruşur* [9; 9]; *Zülmət* ***lal-dinməzdir*** [9;10]. Nümunələrdən də aydın şəkildə görünüdüyü kimi, müəllif obyektin, hadisənin, prosesin təsvirində məhz perseptiv kanaldan gələn informasiyanı ön plana alır: Ə.Babayeva obyekti onun səsi vasitəsilə "görür", duyur.

Ə.Babayeva özünün "Yubiley" hekayəsində də audiallara xas özəlliyi ilə bu və ya digər obrazın, kütlənin və ya məkanın səciyyələndirməsində ilk vurğunu akustik informasiya üzərinə qoyur: "*Gürcüstandan gələn qonaq yaman* ***odlu danışırdı****. Salonda* ***milçək uçsaydı eşidilərdi...*** *Qonaq isə şirin* ***gürcü ləhçəsilə ilə kükrəyə-kükrəyə*** *deyirdi..* " [9;26]; *...rəssam* ***rus dilində çətin tələffüz etdiyi*** *sözləri* ***aram-aram söyləməyə*** *başladı* [9; 23]; ***Səslərin*** *hər ikisi mənə* ***tanış gəldi****.* ***Qulaq asdım****.* ***Səs kəsildi****.* [9;32]. Maraqlıdır ki, hekayə boyu obrazların xarici görünüşünün səciyyələndirməsində tələb olunan formatı aşmayan, yəni minimal informasiya ilə kifayətlənən müəllif onların aksentinə, danışıq tərzinə, habelə situasiyanın "səsləndirməsinə" xüsusi həssaslıq nümayiş etdirir. *Məruzəçinin* ***səsi kəsildi*** (Ə.B; 21); *Bayaqdan bəri* ***uğuldayan səs*** *mikrofondan uzaqlaşdır* [9;22]; *...****hənirtisindən uğuldayan salonu*** *nəzərdən keçirdi* [9; 20]; *Məruzəçinin* ***səsi qırıldı****. Mikrofona yaxın kağızların* ***xışıltısı eşidildi****. Bir an* ***sükut içində keçdi****.* [9;21]; *..xəzri kimi qanadlı yola* ***səsləyirdilər*** [9;27] ; *.. bircə* ***alqışlar*** *tez* ***susaydı*** [9; 27]: *Ay da o yandan* ***çağırırdı.*** *Hey* ***çağırırdı*** *ki, gəl*, ...[9;26]. Göründüyü kimi, Ə.Babayeva ayı, yolu, salonu "dinləndirir". O da maraqldır ki, bir audial kimi, Ə.Babayeva onomatoplara qarşı laqeyd deyil. Təqlidi sözlərə, imitativlərə qarşı həssaslığı onun bütün yaradıcılığından "qırmızı xəttlə" keçir. Özünün audial dil kimliyi ilə Ə.Babayeva neytral şəkildə "*qapı döyüldü*", "*zəng vuruldu", "telefon zəng çaldı*" deməklə kifayətlənə bilmir. O, əksər halda həmin səsin fonetik "illyustrasiyasını" da təqdim edir. Məsələn: "Axtar, səslə məni...." hekayəsində: *Yenə məni axtarırsan...****Telefon*** *aramsız səslənir:* ***zınq...zınq...zınq****...****Qapı*** *döyülür:* ***taq-taq...taq*** ... [9;5]; "Bir müəllimə vardı" hekayəsində: *Hər qırx beş dəqiqədən bir səslənən* ***məktəb zəngləri*** *uşaqları çağırır....hey* ***zaranqu-zuranq***!...[9;10]**;** "Zəhra" hekayəsində: ***Zınq...zınq...zınq****... Yəqin yenə həmin adamdır. Rəqəmləri səhv yığıb.* (**telefon** haqqında – B.M.) ***Zınq...zınq...zınq****....Ay aman! Bu ki,* ***telefon deyil, qapının zəngidir*** *çalınan.* [9; 154]; "*Vaxtdır və ya küçə saatı" hekayəsində: "****Danq ...danq...danq****..." səslənər, məni xəyaldan ayırardı, "Vaxtdır!" – deyərdi. "****Danq***

...danq...danq**...” yatanları oyadardı*. [9; 14] ; “Yubiley” hekayəsində: *Salon nəhəng ürəyə bənzəyirdi:* ***gup-gup-gup *vururdu*. [9; 22]; “İnsana insan gərəkdir” hekayəsində: *Çöldə şaxta* ***şax-şax şaqqıldayanda*** *Fəxri pəncərədən çölə işarə edərək deyirdi*:.. [9; 35]; “Leyla” hekayəsində *...yerdəki mərcanqululer gümüşü ay işığında* ***par-par parıldayır***... [9;58]; “Yol yoldaşım – Zaman” hekayəsində ***Çıq-çıq...çıq-çıq...*** *Dur, qalx! Fəcrdir, dünyaya günəş doğur. ....****Çıq-çıq...çıq-çıq****...tələs-tələs*...[9; 161, 162]; “*Sızaq adam” hekayəsində: Xəlvət küçədə, ancaq dabanlarının səsi eşidilirdi.* ***Taq-tuq, taq-tuq***.[9; 175]; “Hardasan, dost, harada?” romanında: *...sonra da öz əməlindən xoşlanmış kimi* ***qah-qah çəkib*** *gülürdü* [9; 398], “Yenə bahardır” povestində: *Göz yaşı yuvarlanıb önlüyünə düşür: —* ***Tap, tap, tap****...* [8; 3]; *Yarpaqların nəqəratı ...quşların, böcəklərin* ***cəh-cəhinə*** *qarışdır* [8; 17-18]; ***Lokhalokla*** *qapağın içərisinə tökülən su, qumluq səhradakı sərab kimi ətrafda duranların nəzərini cəlb etdi*. [8; 238] və s. Müqayisə üçün qeyd edək ki, dil kimliklərini tədqiq etdiyimiz heç bir digər Azərbaycan qadın yazarının əsərlərində imitativlərdən istifadə bu səviyyədə kütləviliyi ilə seçilməmişdir. Bu faktın özü də informasiya mənimsənilməsindəki modallıq fərqliliyinin bilavasitə dil şəxsiyyətini formalaşdıran baza sütunlarından biri olduğunu əyani şəkildə ortaya qoyur. Eləcə də o müəyyənləşir ki, (audial, kinestetik və ya vizual olmaqla) həmin qavrayış növü fərqliliyi dil kimliklərinin spesifikliyini, özünəməxsusluğunu (və digər faktorlarla sintez şəraitində isə ümumiyyətlə, təkrarsızlığını) təmin edir. Onu qeyd edək ki, türkologiyada “imitativlər”, “təqlidi sözlər”, “mimemlər” və s. terminlər altında bu qrup sözlərin 1) səs imitasiyasına; 2) işıq imitasiyasına; 3) hərəkət imitasiyasına əsaslanan növlərində; habelə 4) psixo-imitativlər ; 5) imitativ mimemlər (yəni, nidalara əsaslanan imitativlər növü – B.M.)[1] növlərində fərqləndirilir [11; 353]. Bu zaman dilçilər xüsusilə onu vurğulayırlar ki, imitativlərlə təqlidi sözləri eyniləşdirmək olmaz [12; 40]. Məsələn, **pap-par** imitativ kimi dəyərləndirildiyi halda, **parıldamaq** feili artıq təqlidi əsaslı sözdür. Ə.Babayevanın audial qavrayış tərzi onun imitativlərlə yanaşı, onomatoplardan da geniş şəkildə yararlanmasına yol açmışdır. *Bütün gecəni mürgü döyüb* ***pıçıldaşan yarapaqları*** *Xəzəri üzərindən keçən sabah mehi yuxudan oyatdı..* ***Yarpaqlar xışıldaşdırlar***. [9; 17]; *.....- Bu nə* ***haray-həşirdir?!*** [9;18], *Gözlərini* ***şappıltı*** *kəsiləndən sonra araladı* [9; 332]; ***Qapılar xırıltı*** *ilə örtüldü* [9;339]; *Yanından ötəndə* ***tıqqıltısında*** *(saat haqqında – B.M.) anamın narahat ürəyinin* ***döyüntüsünü*** *eşidərdim*. [9; 14]. Haşiyəyə çıxıb bir daha ona diqqət çəkmək istərdik ki, istənilən audial kimi Ə.Babayeva hətta səssiz olan əşyaları “danışdırır”.

Dilçilər imitativləri “ibtidai insanın primitiv nitqin labüd tərkib hissəsi” kimi dəyərləndirməklə yanaşı, onu da qeyd edirlər ki, “təqlid-imitativlər əşyanın və ya ətraf gerçəklik hadisəsinin bədii-musiqili obrazıdır. Bu musiqili bədii obraz şüurlu

[1] Məsələn, *“...gündüzün qayğılarını unudub rahatlamaq istəyirdi, tez-tez də “****uf ...uf...uf...****” deyib sinə dolusu əsnəyirdi*” [6;334].

şəkildə qarşı tərəfin bu və ya digər assosiasiyalarına istinadən və qarşı tərəfin psixo-fizioloji reaksiyalarına əsasən yaradılır" [13]. Nümunəyə diqqət edək: ***Çıq-çıq ...çıq-çıq...*** *Zaman...Yol yoldaşım Zaman yaxamdan əl çəkir, yeknəsək, darıxdırıcı yoluna davam edir* [9; 163]. Göründüyü kimi, burada müəllif bilərəktən, yəni şüurlu şəkildə saat əqrəblərinin hərəkətinin imitasiyasını (akustik reprezentasiyasını) təqdim edir. Bu növ imitativlər isə müasir fonosemantika nəzəriyyəsinin banisi S.V.Voroninin bölgüsünə görə, instant-kontinuantlara uyğun gəlir [14; 78]. Xatırladaq ki, S.V Voronin əsasən ingilis dilinin və eləcə də paralel olaraq, bir çox digər qohum və qeyri-qohum dillərin leksik materialına əsasən aşağıdakı qrup imitativləri fərqləndirmişdir: 1) **instantlar**: zərbənin imitasiyasına istinad edən səs birləşmələri (məsələn, Ə.Babayevanın əsərlərindən nümunələrdəki instantlara diqət edək: *Taxtapuşun üstündə əvvəl "**tap-tap-tap-tap**", sonra da "**tappa-turup...tappa-turup**" səslər eşidildi.Arabir də pəncəsini atıb böyründən keçən qarışqaların sərrast cərgəsini pozurdu*. ***Tappa-turup...tappa-turup***...[9; 246]; *Əllər hərarətlə **şappıldadı***.[9;27] və s.); 2) **kontinuantlar**: qeyri-zərbə xarakterli və davamediciliyi ilə seçilən səslərin imitasiyası. Bu növ imitativlər yekcins olmayıb fərqli altqruplarına bölünür Məsələn, küylü kontinuantlara emosiyaların imitasiyasını ifadə edən səs komplekslərini daxil etmək olar. Ə.Babayevanın əsərlərindən nümunələrdəki küylü kontinuantlara diqqət edək: Küylü (Ə.Babayevanın əsərlərindəki nümunəyə diqqət edək: ***Hi, hi, hi****!...Güldü, iti dişləri ağardı*...[9;276]; *Həyat-bacaya kölgə düşdü. Bayaqdan budaqlarda atılıb-düşən sərçələr **xısın-xısın pıçıldaşdılar: cik-çirik... cik-çirik***...[9; 246]. Sonucu nümunədəki xısın-xısın və pıçıltı sözləri tonlu kontinuantlara, cik-çirik təqlidi səs kompleksi isə küylü kontinuantlara aiddirlər. 3) Frekventativlər isə ayrı-ayrı hissəsi ayrılıqda qavranılmayan imitativ çoxtərkibli səs komplekslərindən ibarətdir. Biz, Ə.Babayevanın əsərlərinin dilində "təmiz" frekvantativlərə nadirən təsadüf etmək olar. Bu da əslində heç də təsadüfi deyil. Belə ki, nəinki ayrılıqda bir dil kimliyinin nitqində, hətta bütövlükdə bu və ya digər dildə bu növ imitativlər yer almaya bilər. Belə ki, ingilis dilinin səs təqlidi leksiaksını həm sinxronik, həm də diaxronik müstəvidə araşdırmış M.Flaksman bu dilin Britaniya variantında ümumiyyətlə frekvantativlərə rast gəlinmədiyini vurğulamışdır. [15;59]. Nümunəyə diqqət edək: *Nə yarpaqların pıçıltısı, nə səkilərin kənarı ilə axıb gedən **şırıltısı**, nə ilbizlərin **cırıltısı** eşidilirdi*. [9; 134] ; *Xırda dağ bulağının **şırıltısını** xatırladan səslər **axdı, axdı, axdı***...[9;118]. Sonuncu nümunədə Ə.Babayeva frekventali səs kompleksində (**şırıltı**) ifadə tapan hərəkətin iterativliyini axdı feilinin dəfələrlə təkrarlanması vasitəsilə daha da "möhkəmləndirir". 4) Sonuncu növ təqlidi komplekslər isə instant-kontinuantlar adlanır. Adından da məlum olduğu kimi, burada iki müstəqil növün sintezi əks olunur. Yəni bu kimi səs komplekslərinin şəkilləndirməsində həm zərbə effekti, həm də davaedicilik semantikası rol oynayır. Ə.Babayevanın əsərlərinin dilində analoji səs komplekslərindən istifadə edilir: ***Çıq-çıq...çıq-çıq****...Bəsdir əyləndin! ...**Çıq-çıq... çıq-çıq**..Bil, tanı...Ayağımın altındakı qar təpələri məni lap taqətdən salır*. [9; 162-163].

Ə.Babayevanının audial qavrayışı onun müəllifi oladuğu bədii mətnlərdəki intermediallıq məqamında da aydın şəkildə təzahür tapır. Xatırladaq ki, intertekstuallıq nəzəriyyəsinin genişləndirilmiş formatda dəyərləndirilməsi semiotik sistemin həm musiqi əsərinin, rəssamlıq əsərinin və s. incəsənət formaları məhsullarının təzahür tapması ilə səciyyələnə biləcəyini ortaya qoymuşdur [16; 8]. Məhz bu səbəbdəndir ki, intermediallıq anlayışı dilçilər tərəfindən "***sinkretik intertekstuallıq***" (İ.V.Arnold), "***intersemiotiklik***" (L.P.Proxorov) kimi dəyərləndirilir ki, bu da mahiyyət etibarilə intermedial pərçimlənmələrin semiotik sistemin tərib hissəsi kimi nəzərdən keçirildiyini ortaya qoyur. [17; 211]. Müasir dünya ədəbiyyatı və bellestristikasında intertekst pərçimlənmələrinin tipologiyasını araşdırmış tədqiqatçılar "Din", "Mifologiya", "Folklor", "Kino sənəti" ilə yanaşı "Musiqi" tematik qrupuna daxil olan intertekstemlərin xüsusi aktuallıq kəsb etdiyini vurğulayırlar [18; 11-12]. Ə.Babayevanın əsərlərinin dilində məhz, "Musiqi" tematik qrupuna daxil olan intermediallıq faktlarına təsadüf etmək mümkündür. Müəllifin audial qavrayış tərzinə malik olması onun yaratdığı bədii mətnlərində musiqi əsərlərinin təsirini daha da gücləndirmiş olur.*Yenə* ***musiqi başladı. Gitara çalan*** *oğlan irəli çıxdı, ağzını mikrofona yaxınlaşdırıb oxumağa başladı. Kədərli,* ***süzgün bir nəgmə axdı, axdı****....* [9; 346]. Görünüdüyü kimi, Ə.Babayeva "axdı" feilinin təkrarı ilə iterativlik, davamedicilik semantikasının yaradılmasına nail olur, bununla da musiqi ilə "paralelliyə", yəni intermedial əlaqələndirməsinə nail olur. Müqayisə üçün deyək ki, Toni Morrisonun "Jazz" romanında verbal musiqi vasitəçiliyi ilə jazz atmosferinin yaradılmasını araşdırmış L.V.Belonojko məhz analoji məqamları diqqətə alır. Belə ki, Nobel ödüllü yazar da məhz mətnin ona xas olan təşkili üsulu ilə (Toni Morrisonun üslubunu səciyyələndirən təkarasız verbal musiqi formatı ilə – B.M.) jazz musiqisinin imitasiyasının yaradılmasına nail olur.

«*Philly! Philly's gone! She took Philly!»*
«She who? Somebody asked. —Who took him?»
«A woman! I said…I said…and she said okay…!»
– «Ain't got the sense of a gnat.»
– «Who misraised you?»
– «Call the cops.»
– «What for?»
– «They can at least look.»
– «Will you just look at what she left that baby for?»
– «What is it?»
– «The Trombone Blues.»
– «Have mercy.» [19 ; 25].

Ə.Babayevanın yaratdığı bədii mətn parçalarında da "verbal müsuqi" eşidlir: mətnin oxunuşu zamanı oxucunun təkcə gözü önündə müvafiq obraz və süjetlər canlanmır. Oxucu eləcə də aşağıdakı növ mətn parçalarında canlandırılan verbal musiqini "dinləyə" bilir.

Səs-küy, vay-həşir qopdu. Saksafonun səsi şeypurun uğultusuna züy tutdu*. Saqqallı təbilçi iki əlli təbilin üstünə düşdü.* ***Elə zərblə vururdu ki, şir başına oxşar nazik boynundan az qalırdı üzülsün****....* [9; 347]. ***Şeypur susdu****, şirəoxşar təbilçi* ***təbili aram-aram döyəcləməyə*** *başladı, skripkanın zəif iniltisi pianonun müşayəti ilə bütün* ***başqa səsləri susdurdu*** [9 ; 348].

Göründüyü kimi, audial qavrayış tərzi yazarın dil kimliyinə əsaslı şəkildə təsir etməklə istər onun leksik inventar seçimində (məsələn, təqlidi söz və imitativlərin yüksək işlənmə tezliyində), istər onun gerçəkliyi reprezentasiya mexanizmlərində (məsələn, verbal musiqi kimi) özünü əyani şəkildə biruzə verir.

ƏDƏBİYYAT:

1. Что такое тип восприятия и как его определить https://wikigrowth.ru/psyhologiya/tip-vospriyatiya/
2. Величковский Б.М. Когнитивная наука : Основы психологии познания : в 2 т., Т. 1, М. : Смысл : Издательский центр «Академия», 2006. 448 с.
3. Visual, Auditory, and Kinesthetic Learning Styles (VAK), 2019 http://www.nwlink.com/~donclark/hrd/styles/vakt.html
4. Constantinidou, F. and Baker, S. Stimulus modality and verbal learning performance in normal aging. // Brain and Language, 2002, 82(3), 296–311
5. Денишова Д. А.Репрезентативная система, каналы восприятия и синестезия в рамках вопроса о восприятии человека // Гуманитарный научный вестник. 2017. №5., с.8-16. http://naukavestnik.ru/doc/gv-2017-%E2%84%965-Denishova.pdf
6. Дроздова, Н. В. Социальная психология: учеб.-метод. Пособие.Минск: МГЭУ им. А. Д. Сахарова, 2012, 120 с.
7. Кто такой аудиал: описание типа восприятия, 2019, https://wikigrowth.ru/psyhologiya/audial/
8. Babayeva Ə.Sehrli pillələr (hekayələr), Bakı : Gənclik, 1974, 166 s
9. Babayeva Ə. Haradasan dost, harada...Bakı: Gənclik, 1977, 408 s.
10. Некрасова Е. Д. Взаимозависимость модальной семантики слова и перцептивного канала предъявления информации // Вестник ТГУ, 2016, № 402, с.10-17 https://cyberleninka.ru/article/n/vzaimozavisimost-modalnoy-semantiki-slova-i-pertseptivnogo-kanala-predyavleniya-informatsii
11. Кожоева Г.Ж. Об имитативах в киргизском языке // Филологические науки. Вопросы теории и практики Тамбов: Грамота, 2018. № 9(87). Ч. 2. С. 352-356. http://scjournal.ru/articles/issn_1997-2911_2018_9-2_30.pdf
12. Червинский П. Фольклор и этимология: Лингвоконцептологические аспекты этносемантики , Тернополь: Крок, 2010, https://books.google.az/books?id=JrfpCAAAQBAJ&pg=PA40&lpg=PA40&dq=%D0%B8%D0%BC%D0%B8%D1%82%D0%B0%D1%82%D0%B8%D0%B2%D1%8B-

13. Корнилов Г.Е. Имитативы в чувашском языке, автореферат дис. ... доктора филологических наук, Баку, 1989. 33 с. . http://cheloveknauka.com/imitativy-v-chuvashskom-yazyke
14. Воронин С. В. Основы фоносемантики – М.: ЛЕНАНД, 2006. 248 с.
15. Флаксман М. А. Звукоизобразительная лексика английского языка в синхронии и диахронии. СПб.: Изд-во СПбГЭТУ «ЛЭТИ», 2015. 199 с.
16. Лунькова Л. Н. Интертекстуальность художественного текст: оригинал и перевод. Автореферат диссер.... доктора филол. наук., Москва, 2011 г., 38 с. http://www.rad.pfu.edu.ru:8080/tmp/avtoref1565.pdf
17. Седых Э. В. К проблеме интермедиальности // Вестник Санкт-Петербургского университета Сер. 9. 2008. Вып. 3. Ч. II, с. 210-214 https://cyberleninka.ru/article/n/k-probleme-intermedialnosti
18. Зубакова Н. В.Типологические и функциональные характеристики интертекстем в произведениях современной массовой литературы и беллетристики, диссертация …канд.филол.наук., Липецк, 2016, 240 с.
19. Белоножко Л. В. Отображение музыкальной атмосферы джаза в романе Т.Моррисон «Джаз» средствами вербальной музыки // Филологические науки. Вопросы теории и практики Тамбов: Грамота, 2014. № 6 (36): в 2-х ч. Ч. I. С. 24-27.http://scjournal.ru/articles/issn_1997-2911_2014_6-1_05.pdf

Б.Маммадов

Об установки формата языковой личности посредством формы восприятия (в контексте реализации аудиального восприятия А.Бабаевой путём синестезии)

В статье исследуется языковая личность одной из самых выдающихся представителей современной азербайджанской литературы Алавии Бабаевой. Становится известным то, что А. Бабаева будучи носителем аудиального восприятия придавала особенное значение акустическим образам объектов, отдавала предпочтение описанию акустических эффектов объектов и действий. Так как, в отличии от визуалов и кинестетиков, люди с аудиальным типом восприятия отдают предпочтения именно плану звукового оформления. Исходя из этого, вполне закономерно что, в произведениях А.Бабаевой особой частотностью используется подражательные слова и мимемы, а также имеют место факты «вербальной музыки». Немаловажно учитывать что, данного рода языковые явления не используются только в отдельно взятом произведении автора, наоборот они являются своего рода знаковым элементом всего творчества и языковой личности А.Бабаевой. ***Чыг-чыг..чыг-чыг****…Хватить играться.* (рассказ «Время – мой путеводный товарищь»), *«**Данг… данг… данг**…» - он будил спящих.* («Время или же уличные часы»); ***Зынг…зынг…зынг****…Наверное тот самый человек* («Захра»); *Опять же ты ищешь меня. Телефон безостоновочно звонит:* ***зынг…зынг…зынг****…Стукв*

дверь: ***таг-таг…таг****…* («Ищи меня, зови меня»), *Салон был похож на большое стучащее сердце:* ***гюп-гюп-гюп*** *– стучало оно* («Юбилей»), *…потом как бы от наслаждения своим поступком засмеялся* ***ха-ха-ха***. (роман «Где же ты, друг, где?»); Слезы покатились и упали прямо на фартук: - тап, тап, тап… (повесть «Опять весна»). В произведениях А.Бабаевой (согласно теории фоносемантики) используются континуанты, инстанты, инстанты-континуанты, фреквентативы.

B. MAMMADOVA

About the Way of Perception Directing Language Identity (in the context of solving A.Babayeva's audio perception in a synesthetic plan)

Summary

In this article one of the outstanding representatives of Azerbaijan literature Alaviyya Babayeva's language identity is studied. It becomes clear that A. Babayeva being audial according to her way of perception in her works the acoustic effect of the objects, associations connecting with sounding just at the moment of figurativeness are mostly preferred. So, unlike the visuals and kinesthetic the audials just foreground the moment of sounding. From this point of view it is not accidental that in the works of A. Babayeva who differs for her audial way of perception imitative words, mimes are frequently used, as well as, the moments of the "verbal music" acquires actuality. It is interesting that this situation is clearly observed almost not only in her particular work but also in all her creative activity. "Chig-chig…chig-chig… Stop amusing!" (the story of "My travelling companion – Time"), Dang…dang… dang… he used to wake up the sleepings." ("It is time or street clock"); Zing…zing…zing… Perhaps again the same man. ("Zahra"); You are looking for me again… The telephone is continuously ringing: zing…zing…zing…; The door is being knocked: Tag-tag…tag… ("Look for, call me…"); The hall looked like a giant heart: it is beating: gup-gup-gup ("The Jubilee"); …then he burst into laughter: "gah- gah" as if he was pleased with his behavior (the novel of "Where are you, my friend, where?"); Tears roll fall down his cheeks:- Tap, tap, tap… (the novella of "It is again spring") and so on. In the language of A. Babayeva's works various kinds of continuants, instant- continuants, instants, frequentatives differentiating in the theory of phonosemantics are widely observed.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Tamilla Əmirova Hüseyn qızı tərəfindən çapa tövsiyə olunmuşdur

MƏTANƏT PAŞAYEVA
ADU
Rəşid Behbudov 134
e-mail: ahmed020@gmail.com

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU

XÜLASƏ

İnsan davranışının formalarından biri də dillə davranmaqdır. Məsələn, insan müxtəlif kommunikativ situasiyalarda danışaraq cavab verir. Buna görə də, xarici dillərin tədrisi zamanı dilöyrənənlər öyrəndikləri dili elə bir davranış kimi mənimsəməlidirlər ki, bu onlara real kommunikativ situasiyalarda kömək etsin. Xarici dillərin tədrisi metodikası dilçiliklə də sıx bağlıdır. İlk növbədə qeyd etmək lazımdır ki, xarici dilin tədrisində istifadə olunan dil materialları dilçilikdən qaynaqlanır.Metodika linqvistik tədqiqatlardan aldığı nəticələri dil materiallarının təqdimatında uğurla istifadə edir. Məlumdur ki, struktur dilçilik dil tədrisinə böyük təsir etmişdir. Bir sıra görkəmli dilçilər tərəfindən irəli sürülən fikirlər və yaradılan nəzəriyyələr dil tədrisinin metodikasında geniş tətbiq olunur. Müasir universitet tələbəsi ünsiyyətə hazır olmalı və müxtəlif insanlarla ünsiyyət qurmaq, komanda tərkibində işləyə bilmək, ətrafdakılara motivasiya verə bilmək kimi sosial bacarıqlara yiyələnməlidir.Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdur. İlk öncə ona görə ki, məhz bu sahələrdə təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir. Bu zaman KİV materialları vasitəsilə şifahi nitqin tədrisi vacib sayılır. Dillər, onlara məxsus söz və ifadələr daim biri- birinə inteqrasiya edir. Sosial, məişət və s. xarakterli problemlər olmasına baxmayaraq bəşəriyyət, dünya inkişafdadır. Dillər bir-birindən təkcə bu və ya digər qrammatik mənaları ifadə edib-etməməsinə görə deyil, həm də daha çox necə səslənmələri ilə fərqlənirlər. Müxtəlif dillərdə ifadə üsullarından istifadə etmə baxımından müxtəliflik, fərqlər olduğu kimi mühüm oxşarlıqlar da vardır ki, bunlar da səslərin kəsb etdiyi mənaların öz təbiəti, mahiyyəti ilə əlaqədardır. Hər bir sözün yaranması müəyyən ehtiyacdan doğur. Dil öyrənən zaman ən başlıca funksiyalardan biri həmin dildə danışanların mədəniyyətinin qəbul etmə bacarığına yiyələnməkdir. Bu proses ali bacarıqlar sırasına daxil olaraq təcrübə sahəsində deyil, yalnız insanın savadı, fərdi inkişaf səviyyəsi, özünə və dünyaya olan tənqidi münasibətdən asılıdır. Bu fakt dilöyrənmədə vacib bir aspektdir.

Açar sözlər: dil, şifahi nitq, kontekst, KİV, ünsiyyət

Onu da qeyd edək ki, oxu və yazı dilöyrənənlərdə sərbəst öyrənmə üçün əlverişlidir.- Tədris zamanı müxtəlif şagird və tələbə qruplarının təşkili həssaslıqla həyata keçirilməlidir. Amma müəyyən məqamlarda nələrin baş verdiyinə nəzarəti reallaşdırmaq üçün müəllimə ehtiyac vardır. Bu zaman tapşırığın təbiəti, dilöyrənənlərin bir-birlərinin işinə reaksiyası vacib sayılır. Başqa sözlə, bütün bunları düzgün təşkil edərək, neqativ reaksiyalardan fərqli olaraq, pozitiv öyrənmə situasiyaları yaratmalıyıq. Bu mənada dil əsas ünsiyyət vasitəsidir. Dil isə insanın cəmiyyətdəki fəaliyyətinin məhsulu olub onunla birgə inkişaf edir. İnsan sosial varlıq olaraq digərləri ilə cəmiyyətdə kommunikasiya yaradır. Bu zaman dil insan tərəfindən qavranılır, mənimsənilir. Məhz ünsiyyət bir proses kimi bizim əldə etdiyimiz biliklərin, təcrübənin ötürülməsini realizə edir. Belə ünsiyyət şifahi və ya yazılı formada nitq vasitəsilə təzahür edib insanın lüğət fondunu, yəni leksikonunu inkişaf etdirir, zənginləşdirir. İstənilən verbal ünsiyyət formaları vacib sayılır. Əlbəttə, adi söhbət əsnasında da insan öz dünyagörüşünü, lüğət tərkibini genişləndirə bilər. Göründüyü kimi, dilöyrənənlərin tam müstəqilliyi və fəallığı şəraitində tədris materialının şüurlu və tam mənimsənilməsinə, onların psixoloji inkişafına yardım edən dərs-interaktiv dərs kimi başa düşülür. Belə dərslərdə qazanılmış biliklər təhsilalanların yaddaşında uzun müddət qalır və onlar təbii olaraq, ünsiyyət prosesində fəal iştirak edirlər. KİV sənayesinə televiziya, radio, kitab, qəzet, jurnal, səsyazmalar, kino, internet daxildir. Televiziya ilk növbədə informasiya mənbəyidir. TV dili məhz qaydaya salınmış, ədəbi dil normalarını özündə ehtiva edən şifahi dildir. Burada nitq bir-birindən fərqlənən müxtəlif üslublarda – danışıq, publisistik, ədəbi-bədii üslubda özünü göstərir. Televiziyada musiqi, əyləncə, şou verilişlərində isə məişət üslubu üstünlük təşkil edir. Bu əsasən müsahibələr, iştirakçıların bir-biri ilə dialoqu formasında əks olunur. TV dilində bütün informasiyalar ədəbi dilin fonetik, leksik, qrammatik səviyyələrini əhatə edir. Bu zaman dil normalarına riayət etmək vacib şərtlərdəndir. Mətnin leksik quruluşunun formalaşmasında, onun məna tamlığının və əlaqəliliyinin təminatında leksik vahidlərin semantik əlaqələri əhəmiyyətli rol oynayır. Kontekst sözlərin əsas semantik əlamətlərinin reallaşmasına imkan verir. Mətnin kommunikativ və modal komponentlərinin formalaşmasında əhəmiyyətli rol oynayaraq oxucunun diqqətini oxşarlıq və fərqlilik sferasına cəlb edən söz və ifadələr mətnin leksik təşkilində xüsusi əhəmiyyətli vasitələr olur. Bu vasitələrin işlədilməsi bu və ya digər hadisənin müxtəlif tərəfli başa düşülməsinə, situasiyanın həcmli görunuşunə təminat verir. Fonetik norma səviyyəsində vurğu əsas amil hesab edilir. Bu zaman intonasiyanın xüsusi əhəmiyyətə malik olduğunu vurğulamaq olduqca vacibdir [1, s.84]. Leksik normada dilin ən çevik vahidi sözdür. Kütləvi informasiya vasitələrində təkrarlar da böyük rol oynayır. Qrammatik normaya gəlincə isə o dilin qrammatik quruluşunu nitq prosesində nizamlayır. Qeyd edək ki, felin zaman formaları morfoloji əlamətləri ilə təkamül keçir.TV-nin sintaktik konstruksiyasında yığcam, bəzən də ona yardımçı cümlələr daha çox işlədilir. Kütləvi informasiya vasitələri üçün daha çox inversiya xarakterikdir. Sözlər hər bir dildə yeniliyə söykənməsi ilə seçilir. Buna görə də zaman-zaman dildə sözlərin meydana gəlməsi səbəblərinin təhlili vacib sayılır. Qəzetlər kütləvi informasiya vasitələrindən biridir və onların yeni söz və ifadələrin yaranmasında və yayılmasında böyük rolu vardır. Belə ki,

qəzet və məqalələrdə yeni sözlərdən daha çox istifadə olunur. Belə sözlərin yaranma xüsusiyyətlərini öyrənmək vacibdir. Dünyada altyazı ilə yayın edən bir çox TV kanalları vardır. Bir çox insan bu televiziya kanallarını izləyərək xarici dildə dinləyib-anlama qabiliyyətini inkişaf etdirməyə çalışır. Qeyd edək ki, bu şifahi nitqin inkişafını tam təmin etmək iqtidarında deyil. Bunun üçün sosial media vasitəsilə dostlar tapmaq, xarici dildə yazışmaq, səsli ismarıclar göndərmək və s. məqsədəuyğundur. Sosial şəbəkələr üzərindən müxtəlif layihələrin həyata keçirilməsi də maraqlıdır. Layihə metodunun əsasını şagird və tələbələrin dərketmə bacarıqlarının inkişaf etdirilməsi, bilik və bacarıqların müstəqil şəkildə əlaqələndirilməsi, informasiya məkanına inteqrasiya bacarıqlarının inkişaf etdirilməsi, əldə olunmuş məlumatların müstəqil şəkildə təhlil edilməsi, müstəqil şəkildə fərziyyə irəli sürə bilmək, qərarlar qəbul edə bilmək (mövcud problemlərin həlli istiqamətlərinin və metodlarının müəyyənləşdirilməsi) qabiliyyətinin möhkəmləndirilməsi, tənqidi təfəkkürün, yaradıcı, eləcə də tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi kimi faktorlar təşkil edir. Yerinə yetirilmiş layihələrin nəticələri nəzərə çarpan və aydın olmalıdır. Bundan əlavə, ingilis dilində olan kanallara abunə olmaq da faydalı hesab edilir. Burada da müəyyən çətinliklər meydana çıxır. Belə ki, səsləndirilən materialların dialekt və şivələrdə səsləndirilməsi çətinliklər yaradır. Zaman keçdikcə, onları tədricən anlamaq mümkün olur. Sosial mediada paylaşım edən dostlar şifahi nitqin inkişaf etdirilməsində yardımçı ola bilər. Bu paylaşımlara xəbər, jurnal məqalələri, videolar, danışıqlar, bloq yazıları, mahnılar və s. aid ola bilər. İngilis dilində şifahi nitq vərdişlərini KİV ilə inkişaf etdirmək istərkən bloqlar, verbinarlar, veb səhifələr, forumlar yardımçı ola bilər. Klassik ədəbiyyat, kitablar, qəzet, internet saytları, e-maillər, ictimai mediadakı xəbər axışı şifahi nitqi inkişaf etdirən intensiv fəaliyyətlərə aid edilir. Multimedia vasitələri, həftəlik radio proqramları, ödənişsiz açıq "online" kurslar da faydalı hesab olunur. "Online" ingilis dili mərkəzləri layihəsi KİV ilə öyrənmədə xüsusi əhəmiyyət kəsb edir. Pulsuz video epizodlar, video dərslər söz bazası yaratmaq üçün asan və sürətli yoldur. Getdikcə daha çox Facebook, Twitter, Mixi və s. kimi sosial şəbəkə saytlarının artan məhşurluğu sayəsində xarici dili öyrənmək üçün belə şəbəkələrin istifadəsinin faydalarını təsdiq edən xeyli tədqiqatlar vardır. Müasir metodiki ədəbiyyatlarda sosial şəbəkə saytlarından istifadənin yüksək motivasiya yaratdığını israrla qeyd edilir. Bundan əlavə, qeyd edilir ki, "Facebook" istifadəçilərinin şəkillərini, videolarını və dostları ilə paylaşdıqlarını müzakirə etmək üçün sosial şəbəkə saytları nəinki yararlı və rahatdır, hətta tədris prosesində gərginlik və demotivasiyanın aradan qaldırılmasında əhəmiyyətli rola malikdir. Tədqiqatçılar "Facebook"dan istifadənin ingilis dilində danışmaq üçün daha çox imkanlar təklif etdiyini nəzərə alaraq dilöyrənənlərin rəqəmsal savadlılığını inkişaf etdirmək və xarici dilə yiyələnmək sahəsində "Facebook"un təsirli bir vasitə olduğunu qeyd etmişdir [1, s.80]. Bunlar motivasiya edici xarkterə malikdir. Motivasiya bir kəsi həvəsləndirmək məqsədə nail olmaq üçün daxili təkan və istiqamət verən ən önəmli faktorlardan biridir. Hər hansı bir məqsəd üçün hərəkətə keçməyə sövq edir, həm də arzuları, ehtiyacları, impulsları təmin edir. Əgər məqsədimiz öyrətmə və öyrənmə prosesində ən güclü təsir formalarını müəyyənləşdirməyi araşdırmaqdırsa ən mühüm məsələnin motivasiya olması

meydana çıxar. Öyrənmə prosesini isə öyrətmək o qədər də asan məsələ deyil. Psixoloji baxımdan illər boyu müxtəlif intepretasiyalardan keçmiş və bir çox psixoloqlar tərəfindən fərqli fikirlər, təkliflər təqdim olunmuşdur. Bır çox məqamlarda motivasiya şəxsin öyrənmək üçün həvəsli olması kimi təqdim olunur. Konkret olaraq motivasiya arzu, niyyət, nail olmaq, labüd motiv, məqsəd, sövq etmə, mükafatlandırma, məqam və s. kimi anlamına gəlir.Kütləvi informasiya vasitələri dinləyib-anlama vərdişlərinin formalaşdırılması üçün stimul xarakteri daşıyır. Buraya televiziya, radio və s. aid edilir. Televiziya səlis nitqin inkişafı, orfofonik normaların qorunması baxımından xüsusilə faydalıdr. Bu qurğu səs və görüntünün insanların evində mövcudluğunu reallaşdırır. Bu zaman müxtəlif dillərdə olan məlumatları ingilis dilində evlərə daşımaq mümkün olur. Radio yığcamlılığı ilə diqqət çəkir. Belə ki, onu hər yerə rahat şəkildə daşımaq mümkündür. Burada musiqi, xəbərlər, radio-tamaşalar, radio- tədris kimi yayınlar şifahi nitqin inkişafında əlverişli sayılır. Ən ucuz kütləvi informasiya vasitələri jurnallar hesab olunur. Burada əsasən gündəlik baş verən və tez-tez dəyişən hadisələr işıqlandırılır. Jurnallar uzunmüddətli istifadəyə yararlı olduğu üçün tədris üçün də əlçatan olur. Sənədli film müxtəlif yaş qruplarına uyğun geniş mövzu seçiminə imkan verir. Şagird və tələbələr ailə həyatı, qonşular, sevimli heyvanlar, məktəb həyatı və dostlar barədə real həyat hadisələrini auditoriyaya çatdırmaq və videolaşdırmaq işini planlaşdıra bilərlər.

Onlar bu işləri aşağıdakı ardıcıllıqla həyata keçiə bilərlər:

1) oyun hazırlamaq;
2) müxtəlif komanda tərkibində rollar nümayiş etdirmək;
3) oyun qaydaları haqqında məlumat vermək;
4) oyunun qaydasını nümayiş etdirmək.

Bu məqsədlə onlar 4 hissədən ibarət videomaterial hazırlaya bilərlər. Belə ki, mətni xarici dildə yazaraq onu məşq etməli və sonda mobil telefonun video yaddaşına köçürməlidirlər.Tapşırıq əsaslı dil təlimi üçün faydalı hesab edilən KİV ilə bağlı tədris materialları vəsaitlər toplusu olaraq metodiki ədəbiyyatda “Realia” adlandırılmış və onu aşağıdakı kimi təsnifləndirirlər:

1. Qəzet və ya jurnallar;
2. Televizor;
3. İnternet;

Qəzet tədris A erial kimi aşağıdakı ardıcıllıqla istifadə olunur :

- dilöyrənənlər qəzeti və onun bölmələrini nəzərdən keçirir;
- iştirakçılar qəzetin seçilmiş xüsusi bölməsindən iş elanı hazırlayır;
- dilöyrənənlər qəzetdəki xüsusi bölmələrdən istifadə edib, həftəlik əyləncə proqramı hazırlayır.

Tədris A erial kimi dilöyrənənlər televiziyadan da istifadə edə bilərlər:

- hava proqnozuna baxaraq, dili öyrənən tələbələr hava göstərən simvollardan istifadə edərək, bölgələrə uyğun xəritə qura bilərlər;

- dilöyrənənlər reklamları izləyərək, ifadələrdan siyahı hazırlaya, sözlərin mənalarını araşdırıb, bu ifadələrdən yazılı reklamlar hazırlaya bilərlər;
- dili televizor vasitəsilə mənimsəmək istəyən şəxs hər hansı filmin bir hissəsinə baxıb, lüğət ehtiyatlarını zənginləşdirə bilərlər [2, s.101].

Dram fəliyyəti, texnoloji nailiyyət və kommunikativ öyrənməni özündə ehtiva edən videotapşırıqlar da dilöyrənənlərin dərsə olan həvəs və marağının artmasına səbəb olur. Bu zaman onlar həmyaşıdları ilə fəal əməkdaşlıq edir, bir-birlərini dəstəkləyirlər. Bu isə onların psixoloji inkişafında müsbət məcraya doğru mühüm əhəmiyyət kəsb edir. Kütləvi informasiya materialları vasitəsilə dinləmədən sonra tərtib edilmiş kartların təqdim edilməsi tövsiyə edilə bilər. Şifahi nitq vərdişlərinin kütləvi informasiya materialları vasitəsilə aşılanmasından bəhs edərkən ilk növbədə kommunikativ sərişta məfhumunun müəyyənləşdirilməsi zərurəti meydana çıxır. Onu da nəzərə almaq lazımdır ki, dilöyrənənlərə şifahi nitq vərdişlərinin kütləvi informasiya materialları vasitəsilə aşılanması istiqamətində iş məqsədyönlü, mərhələli xarakter daşımalı və ardıcıl şəkildə həyata keçirilməlidir. İngilis dilində şifahi nitq vərdişlərinin kütləvi informasiya vasitələri ilə aşılanmasının əsasını təşkil edən linqvodidaktik amillərin müəyyənləşdirilməsi həmin prosesin daha səmərəli şəkildə təşkil edilməsini mümkün edir.

Şifahi nitqin inkişaf etdirilməsinə yönəlidilmiş kütləvi informasiya materialları onun aşağıdakı komponentlərdən ibarət olduğunun nəzərə almaqla tərtib edilməlidir:

- dil materiallarından müxtəlif situasiyalarda istifadə etmək bacarığının inkişaf etdirilməsi;
- ayrı-ayrı kommunikativ məna kəsb edən cümlələri mətn daxilində sintez etmək bacarığı;
- öyrənilən dilin istifadə edildiyi sosio-mədəni kontekstlə tanışlıq;
- başqa insanlarla ünsiyyət qurmaq arzusu və bunun üçün vacib olan özünə əminlik hissinin formalaşdırılması.

Təbii situasiyalardan fərqli olaraq, spontan şəkildə əmələ gələn KİV fonunda təlim situasiyaları müəllim tərəfindən planlaşdırılır və təqdim edilir. Çox vaxt həmin situasiyaları təqdim edərkən müəllim tərəfindən mənimsənilməli olan konkret linqvistik materialların istifadə edilməsi tövsiyə edilir. Əsasən şərti-real situasiyalar əyani-nitq, oxunulan materiallar və audio-vizual vasitələrlə təşkil edilən situasiyalar təsviri-nitq situasiyalarına aid edilə bilər [3, s.56]. Onu da qeyd etmək lazımdır ki, kütləvi informasiya materialları ilə bağlı təlim situasiyaları real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq, səciyyələndirilir. Təlimin yeni texnoloji proseslə idarə edilməsində müəllimin təşəbbüskar və nümunəvi olması, problemə yaradıcı yanaşması ən vacib şərtlərdəndir. Müəllim öz təşəbbüslərini fəal tərəfin-təhsilalanların fikir və fəaliyyətləri ilə birləşdirdikdə, başqa sözlə, düzgün ümumiləşdirmə apardıqda, tədrisi interaktiv səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur. Texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əl-

verişli şərait yaratmış olur. Beləliklə, ingilis dili dərslərində KİV materiallarından geniş şəkildə istifadə etməklə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür.

Ədəbiyyat

4. Brown H.D. Principles of language learning and teaching. Longman Publication, 2000, 352 p.
5. Cook G.Y. Applied Linguistics. Oxford: Oxford University Press, 2003, 134 p.
6. Fox K. Watching the English. The Hidden Rules of English Behaviour. London: Hodder.2005, pp. 56-57

PASHAYEVA M.

THE ROLE OF MASS MEDIA IN DEVELOPING ORAL SPEECH ABILITIES IN ENGLISH

SUMMARY

The article deals with the problem of working out effective ways of speaking skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the mass media in modern methodology. Great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the role mass media. The author emphasizes its role in methodology. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech more effective. Phonological awareness is essential for learning to read and write. It was measured by, for instance, the following items of the initial test: finding rhyme words, in the general section of the test, and building words out of sounds and segmenting words into syllables, in the auditory section of the test. Learners are often too embarrassed to say anything when they do not understand another speaker or when they realize that a conversation partner has not understood them. Instructors can help students overcome this by assuring them that misunderstanding and the need for clarification can occur in any type of interaction. Instructors can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom.

Key words: language, oral speech, context, mass media, communication

ПАШАЕВА М.

РОЛЬ СМИ НА ФОРМИРОВАНИИ НАВЫКОВ УСТНОЙ РЕЧИ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно – функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. Статья посвящена k СМИ на современном методике. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль СМИ. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения язы А является овладение умением эффективно общаться на изучаемом языке. Как известно, при обучении иноязычно-речевой коммуникации, основные трудности составляют различия в системах контактирующих языков. Исходя из общих положений философии обучения и психологии, а также основываясь на опыте преподавания языков, многие исследователи проблемы приходят к выводу о том, что лучший, способствующий более успешному овладению языком процесс – это тот, где центральной фигурой учебного процесса является сам обучаемый. Следует отметить, что в настоящее время происходят значительные изменения в методике обучения иностранным языкам, и, в первую очередь, являющемся основным языком общения на глобальном уровне, английскому разрабатываются творческие методы преподавания, предполагающие обучение путем вовлечения обучаемых в процесс изучения языков в качестве заинтересованных, мотивированных участников данного процес А. Коммуникативное преподавание языка предполагает обучение языку в определенном контексте для обмена мыслями. Необходимым условием успешного внедрения новаторских идей является активность, в том числе коммуникативная активность участников процесса обучения языку.

Ключевые слова: язык, устная речь, контекст, СМИ, коммуникация

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR RƏHMANOVA
ADU, baş müəllim
rahmanova.nigar@gmail.com
050-356-64-34

CANLI DANIŞIQ DİLİNİN BALACA ÜNSİYYƏT SFERALARI(MƏQALƏ)

Xülasə

Danışıq üslubu dilin əsas funksional üslublarından biridir. Hər bir dil üçün aydın, ahəngdar, anlaşıqlı danışıq dili, danışıq üslubu vacibdir.Danışıq üslubu, əsasən şifahi dialoji nitqdə ifadəsini tapır. Danışıq dili üçün sərbəst danışıq, sintaktik konstruksiyaların sadələşdirilməsi, dil normasından kənarçıxma səciyyəvidir. Dil paradiqmasının mövcud formalarından yayınma ənənəvi hal aldıqda və danışıq dilində özünü çox göstərdikdə belə yayınmalar dilin başqa üslublarına keçərək normanın özünü, onun üslubi səciyyəsini dəyişir.

Beləliklə, dialoqlar da dil sisteminin inkişafının potensial istiqamətləri özünü göstərir. Bundan başqa, dialoqlarda dilin bütün funksiyaları, o cümlədən emotiv, estetik funksiyaları az və çox dərəcədə ifadəsini tapır. Emotiv və estetik funksiyaların, ekspressivliyin müasir Azərbaycan və ingilis dillərində dialoji nitqdəki xüsusiyyətlərini canlı danışıqdan, belə imkan olmadıqda isə bədii əsərlərdən götürülmüş dialoqlar əsasında öyrənmək mümkündür.

Morfoloji formaların dialoqda üslubi ekspressiv, üslubi qeyri-okkazional, qeyri-ekspressiv, üslubi ekspressiv və üslubi neytral şəkildə işlənməsini qeyd etmək olar. Üslubi ekspressiv qrammatik formalar emosional xüsusiyyətlərinə görə seçilir və nitq tipindən asılı olmur.

Açar sözlər: üslub, canlı dil, dialoq

Elmi ədəbiyyatda xüsusi üslubi səciyyəli funksional sistem olmaq etibarilə ədəbi dilin qeyri-rəsmi bir forması kimi rəsmi formaya - kitab dilinə qarşı qoyulan nitq danışıq dili adlandırılır və bu dil danışıq aktının hazırlıqsız baş verməsinə, danışanların söhbətdə bilavasitə iştirak etməsinə görə ədəbi dildən fərqləndirilir. Danışıq dili özündə intellektual və emosional nitqi birləşdirir və çox zaman iki şəxs arasında gedən formada təzahür edir. Dilin bütün səviyyələrində (fonetika, leksika, morfologiya, sintaksis) danışıq dilinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır.

"Şifahi nitqi danışıq dili (nitqi) ilə eyniləşdirmək olmaz. Bədii əsərlərdə verilən dialoq nitqi danışıq dili nümunəsi hesab olunur və şifahi nitq sayılmamalıdır. Çünki bu nitq artıq yazıya alınmışdır və yazılı nitqdir". (1,s.13). Bədii əsərlərdə verilən dialoji nitq əslində ədəbi dilə yaxınlaşdırılmış şifahi nitqdir, danışıq dilidir. Bəzi hallarda bədii əsərin müəllifi dialoq iştirakçılarının nitqini şifahi nitqə daha çox yaxınlaşdırır, personajın öz şifahi nitqində ədəbi dil normalarını pozduğunu diqqət mərkəzinə çəkərək, onun xarakterini açmağa çalışır. Bədii ədəbiyyatda ikitərəfli, iki iştirakçısı olan danışıqla şifahi nitq və ya danışıq dili arasında fərq vardır. Bu fərq hər

şeydən əvvəl, bədii ədəbiyyatda verilən danışıq parçalarının bir müəllif tərəfindən düşünülüb yazıya alınmasında özünü göstərir. Deməli, müəllifin üslubu, onun lüğət ehtiyatı, istifadə etdiyi konstruksiyalar istər-istəməz personajların nitqinə daxil olur. Ümumiyyətlə götürüldükdə isə danışıq dili şifahi nitqlə eyniyyət təşkil edir. Hər iki halda nitq situasiyası eynidir, danışanlar nitq aktında bilavasitə iştirak edirlər. Nitq aktı əsasən hazırlıqsız gedir və onun gedişi nitq prosesindən asılı olur.

Hər bir şifahi nitq aktı üçün onun baş vermə şəraiti olur. Bu şəraitin həm dildaxili, həm də dilxarici formaları vardır. Dildaxili şərait danışıqda iştirak edənlərin nitqinin əlaqələnməsindən, sual və cavabların məzmunundan asılı olub, nitq aktının nitq iştirakçılarından birindən digərinə keçməsinin linqvistik xüsusiy-yətləri ilə səciyyələnir. Dilxarici şərait isə nitqin baş verməsinə və onun struk-turuna, digər xüsusiyyətlərinə təsir göstərən vəziyyətlə bağlıdır. Nitq şəraiti ünsiy¬yətin baş verdiyi şəraitin bütün elementlərini əhatə edir. Şifahi nitq aktında bilavasitə nitq şəraiti ilə bağlı olaraq danışıqda özünə yer alan dil vahidləri işlədilir. Belə vahidlər situativ vahidlər adlanır.

Dilçilikdə situasiya müəyyən söyləmin işləndiyi kontekst, nitq şəraiti, tərzi, məqsədi kimi qəbul edilir. Həmin situasiya ilə əlaqədar olan vahidlər isə situativ vahidlərdir. Məsələn, situativ söyləm konkret məzmunu yalnız həmin şəraitdə anlaşılan söyləmdir.

Ünsiyyət prosesində iştirak edənlərin sayından asılı olaraq nitqin üç – monoloq, dialoq və poliloq növləri fərqləndirilir.

İki şəxs arasında baş verən nitq dialoq adlanır. Müasir dilçilikdə bir sıra yeni elmi istiqamətlərdə tədqiqatlara diqqətin artırılması müşahidə olunur. Kommunikativ linqvistikanın, o cümlədən onun daxili sahələri kimi fərqləndirilən üslubiyyat, linqvistik praqmatika, ritorikanın tədqiqat obyektlərinə yeni aspektlərdən yanaşma dialoqun xüsusiyyətləri, funksiyaları məsələlərinə də elmi münasibəti dəyişdirmişdir. Hazırda tədqiqatçılar dialoqu yalnız insanlararası ünsiyyətə aid bir forması kimi deyil, mövcudluq və şüurun maraqlı fenomeni kimi qəbul edirlər. Dialoq filologiyada ilk olaraq ədəbiyyatşünasların diqqətini özünə cəlb etmişdir. Rus filologiyasında dialoq probleminin öyrənilməsinin əsasını M.Baxtin qoymuşdur. O, belə hesab edirdi ki, “dialoq münasibətləri özünəməxsus xüsusiyyətlərə malikdir və bu münasibətləri ayrılıqda nə məntiqi, nə linqvistik, nə psixoloji, nə mexaniki və ümumiyyətlə, heç bir başqa təbii münasibətə aid etmək mümkün deyildir. (2,s.303).

Dialoqda iştirak edən diktorların hər birinin danışığı birbaşa digər diktora ünvanlanır. Dialoq qısalığı, yığcamlığı, sintaktik quruluşun nisbi sadəliyi ilə seçilir. Dialoq iştirakçılarının nitqi, bir qayda olaraq, bir-birinə bağlanır. Dialoqda yarımçıq cümlələr, replikalar çoxluq təşkil edir. Dialoq struktur və ya məna rabitəsi ilə əlaqələnən replikalar məcmusu kimi çıxış edir. Dialoq vahidləri bir-birini təyin və bərpa edə bilir. Dialoq üçün səciyyəvi olan söz, tərkib, sintaktik ifadə tərzi dialoqizm adlanır. Dialoq prosesində tərəflərin biri və ya hər ikisi kiçik monoloqlardan istifadə

edə bilir. Bu halda monoloq qarşı tərəfə ünvanlandığı kimi, onu quranın özünə də aid olur.

Dialoqun əsas hissəsi dialoqun orta fazasıdır. Bu fazada dialoq müəyyən mövzu ətrafında gedir. Mövzu davam etdirilir, bir mövzudan başqa mövzuya keçmə baş verir. Dialoqun orta hissəsini mövzuya görə hissələrə ayırmaq olar. Bu da dialoqun struktur planının bir tərkib hissəsi olur. Eyni zamanda dialoqda ikinci dərəcəli mövzular, epizodlar da yer ala bilir. Dialoqda hansı mövzunun əsas, hansının ikinci dərəcəli və epizodik olması kontekst əsasında müəyyənləşir. Danışıq dili dialoqlarında eyni tərtibli mövzular üzrə ünsiyyətin davam etdirilməsi daha çox müşahidə olunur.

Aralıq səviyyəyə görə dialoq aşağıdakı hissələrə bölünür: 1) dialoq addımı (elementar replika); 2) replika mübadiləsi əsasında danışanın dəyişməsi; 3) danışığın gedişi; 4) nitq aktı və ya qavrama aktı; 5) dialoqun budaqlanma siqnalı; 6) əks rabitə kanalının fəaliyyəti.

Mikrosəviyyədə nitq aktının tərkib elementləri - sintaktik, leksik, fonoloji, prosodik elementlər əsas götürülür.

Dialoqun nitq məhsulu kimi, tədqiqində əsas diqqət nitqin xüsusiyyətləri üzərində cəmləşdirilir.

T.A. van Deyk dialoqun struktur və sosial-mədəni xüsusiyyətlərini ayırmaqla bağlı konsepsiya yaratmışdır. Həmin konsepsiyaya görə dialoqun təbiətini aydınlaşdıran aşağıdakı amillər mövcuddur: 1) cümlələr, replikalar və verbal qarşılıqlı təsir (intonasiya, vurğu, ton) həmçinin paraverbal təsir gedişləri arasında fonetik və fonoloji münasibətlər; 2) replikaların nizamlanmış dəyişməsində morfoloji və leksik xüsusiyyətlər replikaları açan və qapayan, təşəbbüsü müsahibə verən xüsusi sözlər, praqmatik hissəciklər və digər əlaqələndirici ünsürlər; 3) sintaktik xüsusiyyətlər və münasibətlər (yarımçıq cümlələr, müsahib tərəfindən tamamlama, replikanın fraza sərhədləri, təkrarlar, əlaqənin sintaktik üsulları, məsələn, anaforik əvəzlik); 4) həm intensional, həm də ekstensional semantik münasibətlər; lokal və qlobal ziddiyyət (mövzunun müəyyənləşməsi və dəyişməsi, şərt və nəticə); 5) nitq aktları ardıcıllığı kimi qəbul edilən dialoqun praqmatik xüsusiyyətləri; lokal və qlobal praqmatik əlaqə (nitq aktının yerində olması); 6) gedişlər və ya replikalar ardıcıllığı kimi qəbul edilən dialoqun gedişində qarşılıqlı təsirin saxlanması (təşəbbüsün ələ alınması və replikanın dəyişməsi; dialoqun strategiyası və onun ritorik-üslubi ifadəsi); 7)dialoqdakı fəaliyyət ardıcıllığının sosiokulturoloji xüsusiyyətləri. (3).

Rus və xarici dilçilikdə dialoqların ənənəvi iki növü bu dialoqların haradan götürülməsi ilə bağlı fərqləndirilir. Həmin iki növ bədii və danışıq dialoqları adlandırılır. Danışıq dilində gedən diloqların olduğu kimi qeydə alınması çətindir. Bu cür materiallar olmadığından çox zaman dialoqlar bədii mətndən götürülmüş nümunələr əsasında araşdırılır.

Dialoqlar dialoji nitqdə iştirak edənlərin bir-biri ilə münasibəti və ya onların sosial statusları əsasında da təsnif olunur. Məsələn, 1) müxtəlif sosial statuslu şəxslər (rəislə işçi) arasında; 2) bərabər sosial statuslu şəxslər arasında dialoq. Belə ayırma təbii səciyyə daşıyır. Lakin təsnif üçün ümumi sərhədi təyin etməyə əsas yaranmadığından ümumiləşdirmə aparmaq, aralıq növləri təyin etmək çətinlik törədir. Cəmiyyətdə sosial paylanma imkanları geniş olduğundan kifayət qədər çox dialoq növlərini ayırmaq lazım gəlir. Məsələn, valideyn-uşaq (ata-oğul, ata-qız, ana-oğul, ana-qız, qardaş-qardaş, qardaş-bacı və s.), zabit-əsgər, müəllim-şagird, böyük-uşaq, oğlan-qız, satıcı-alıcı, həkim-xəstə və s. Təbii ki, iştirakçıların sosial cəhətdən fərqli olması dialoqa həm ekstralinqvistik, həm də intralinqvistik təsirlər göstərir. Qeyd edilən tiplərə aid bir neçə nümunə aşağıda verilmişdir.

Nitq prosesində iştirak edənlər arasındakı dialoqda onların bir-birinin fikri ilə razılaşması və razılaşmaması halları baş verir. Hər iki hal nitqdə müəyyən yollarla və vasitələrlə gerçəkləşir. Razılaşmamaq nitq aktı ünsiyyyət zamanı müəyyən qrammatik və leksik vasitələrin köməyi ilə ifadə olunur. Razılaşmamağı ifadə edən qrammatik vasitələr model və xüsusi quruluş şəklində cümlədə birləşir. Onların köməyi ilə ünsiyyət zamanı danışan bu və ya digər hadisə ilə bağlı özünün narazılığını bildirir. Bu cür modellər və quruluşlar hazır qəliblər, klişelər şəklində olur. Azərbaycan danışıq dilində də belə hazır qəliblər çoxdur: xeyr, yox, ola bilməz, mümkün deyil, elə deyil, razı deyiləm, razılaşmıram və s.

Danışıq dilində informasiyanın ötürülməsi və qəbul olunması ünsiyyətin baş verməsini səciyyələndirən başlıca cəhətdir. İnformasiyanın bitkinliyi hadisənin baş verib-verməməsi, həmin hadisəni, hərəkəti yerinə yetirən (yetirmiş, yetirəcək) şəxs haqqında məlumatla birbaşa bağlıdır.

Fellər dilin lüğət tərkibinin əsas hissəsini təşkil etməsə də, qrammatik baxımdan morfologiyanın ən geniş, zəngin və böyük hissəsidir. Fel leksik-semantik mənaya, morfoloji əlamət və sintaktik funksiyaya malik nitq hissəsidir. Fellərin cümlədə əsas yeri, əsas vəzifəsi xəbər funksiyasıdır. Fellər başlıca olaraq cümlədə xəbər yerində işlənir. Ona görə də fellər dilin başlıca ünsiyyət vasitəsi adlanır. "Müxtəlif varlıqların adını çəkmək heç də bir şəxsin öz fikrini başqasına çatdırması deyildir. Bunun üçün, şübhəsiz, həmin varlıqlarla bağlı iş, hal, hərəkəti göstərən, onların düşdüyü vəziyyəti və ya keçirdiyi halı, dəyişikliyi göstərə bilən xüsusi sözlərə –fellərə ehtiyac duyulur". Fellər əsasında formalaşan danışıq dili konstruksiyaları çoxdur. (4,s.19).

Razılaşmamaq nitq aktını ifadə edən konstruksiyaları, qəlibləri danışanın illokutiv məqsədlərindən asılı olaraq aşağıdakı siniflərdə yer ala bilər: 1) reprezentativlər: direktivlər: komissivlər: ekspressivlər: Elanetmələr (deklarativlər).

Ünsiyyət prosesi və prosesdə istifadə olunan nitq aktları müxtəlif situasiyalarda və müxtəlif şəxslər arasında baş verir. Situasiya və nitq aktında iştirak edənlərdən asılı olaraq müsahibin fikri ilə razılaşmamağın müxtəlif formaları üzə çıxır. Bu məsələ ilə bağlı birneçə konkret situasiyaları nəzərdən keçirək.

Danışıq dili şifahi nitqin bir sıra formalarından müəyyən xüsusiyyətləri ilə fərqlənir. Kommunikasiya aktının qabaqcadan hazırlanmaması, danışanın ünsiyyətdə bilavasitə iştirakı, kommunikasiya aktının məcburi səciyyə daşımaması, danışığın konsituasiya ilə bağlılığı belə xüsusiyyətlərdəndir.

Danışıq dilinə aid mətnin və ya ünsiyyətdə iştirak edənlərin nitqinin məzmununu, konkret fraza və cümlənin ifadə etdiyi mənanı üçüncü şəxsin tam qavraması konsituasiyanın bərpasını tələb edir. Konsituasiya danışığın baş verdiyi şəraiti bütünlüklə əhatə edir.

Nitq aktında iştirak edənlərin vizual-hissi vəziyyətindən asılı olaraq konsituasiyaların beş tipi fərqləndirilir: 1) danışıq prosesinin vizual-hissi şəraitlə müşaiyət olunması; 2) predmet şəraiti; 3) hadisə ilə bağlı şərait; 4)siqnalla bağlı şərait; 5) səs, küy və s. hissi qavramalarla bağlı şərait.(5.s.212-217). Məsələn, Danışıq prosesinin vizual-hissi şəraitlə müşaiyət olunması. 2. Predmetlə bağlı şəraitdə nitq. 3. Hadisə ilə bağlı şərait. "A" kassadan bilet alıb çıxır. 4. Siqnalla bağlı şərait. 5. Səs, iy və başqa hisi qavramalarla bağlı şərait.

Müxtəlif şəraitdə ünsiyyətdə iştirak edən şəxslərin nitqində əlaqənin açılması həmin şəraitin canlandırılmasını tələb edir. Danışıq dilinə xas olan bu xüsusiyyət nitqdə istifadə olunan konstruksiyalarda da ifadəsini tapır.

Ümumiyyətlə, danışıq dlində müxtəlif kommunikativ-funksional vahidlərdən istifadə olunur. "Danışıq nitqinin sintaktik xüsusiyyəti belədir ki, burada hazır formullar, şablon, standart ifadə tərzləri çox geniş və əsas yer tutur. Belə hazır sintaktik vahidlərin çoxluğu əslində xüsusi sistem təşkil edir və ciddi qrammatik qanunauyğunluqlara tabe olur". (6,s.8-9).

"Azərbaycan danışıq dilində bir sıra ismi və feli xəbərlərdə ki vasitəsilə təkrarlar meydana gəlir ki, bu hal bir struktur əlamət kimi əmr-nida cümlələrini səciyyələndirir:- Vur ki, vurasan! Yaz ki yazasan!"(8,s.148-149).

Azərbaycan danışıq dilində "lazımdır", "gərəkdir" sözləri çox işlənir. Mənə qələm lazımdır. Mənə çörək almaq lazımdır. Bu kitab mənə gərəkdir.

Danışıq üslubu, əsasən şifahi dialoji nitqdə ifadəsini tapır. İstər Azərbaycan, istərsə də ingilis dialoji nitqi çox dinamik və dəyişən dil üslubudur. Danışıq dili üçün sərbəst danışıq, sintaktik konstruksiyaların sadələşdirilməsi, dil normasından kənarçıxma səciyyəvidir. Dil paradiqmasının mövcud formalarından yayınma ənənəvi hal aldıqda və danışıq dilində özünü çox göstərdikdə belə yayınmalar dilin başqa üslublarına keçərək normanın özünü, onun üslubi səciyyəsini dəyişir. Beləliklə, dialoqlar da dil sisteminin inkişafının potensial istiqamətləri özünü göstərir. Bundan başqa, dialoqlarda dilin bütün funksiyaları, o cümlədən emotiv, estetik funksiyaları az və çox dərəcədə ifadəsini tapır. Emotiv və estetik funksiyaların, ekspressivliyin müasir Azərbaycan və ingilis dillərində dialoji nitqdəki xüsusiyyətlərini canlı danışıqdan, belə imkan olmadıqda isə bədii əsərlərdən götürülmüş dialoqlar əsasında öyrənmək mümkündür.

Morfoloji formaların dialoqda üslubi ekspressiv, üslubi qeyri-okkazional, qeyri-ekspressiv, üslubi ekspressiv və üslubi neytral şəkildə işlənməsini qeyd etmək olar. Üslubi ekspressiv qrammatik formalar emosional xüsusiyyətlərinə görə seçilir və nitq tipindən asılı olmur.

Dialoji nitqdə morfoloji baxımdan bir-birindən uzaq olan vahidlər üslubi sinonim kimi çıxış edir. Dialoji nitqdə istənilən qrammatik forma əlavə konnotativ məna ala bilər. Qrammatik formanın üslubi konnotasiyası dialoji nitqdə dennotativ məna ilə kontekstin uyğun gəlməməsinin nəticəsi kimi üzə çıxır. Bu uyğunsuzluq qrammatik formanın işlənməsi zamanı əmələ gəlir. İfadəlilik formanın qrammatik mənası ilə sözün leksik mənası arasındakı uyğunsuzluğun aradan qaldırılmasının nəticəsi olur. Leksik və qrammatik mənanın sintezi əvəzinə onlar arasında ziddiyyət aşkarlanır. Belə ekspressivlik situativ kontekst zəminində meydana çıxır.(8.s.79).

Cümlə kommunikativ cəhətdən müstəqildir, nitqdə ayrıja məlumat verən vahid kimi işlənir. Bununla yanaşı, danışıq dilində bir sıra diferensiallaşmamış ifadə vasitələri vardır ki, onlar kommunikativ müstəqilliyinə və nitqdə müəyyən məlumat bildirmək imkanına malik olur və adi cümlələrdən fərqlənirlər. Bu ifadə vasitələri arasında danışıq dilində zəngin semantikası və quruluş müxtəlifliyi ilə seçilən nida cümlələri xüsusi yer tutur. Nida cümlələrinin əsasında duran kommunikativ sem məlumatın verilməsində və sorğunun qurulmasında özünəməxsus rol oynayır.

Belə kommunikativ semlərin dörd qrupu fərqləndirilir: 1) semantik, struktur bölgüyə xidmət edənlər; 2) məişətdə işlədilənlər (salamlaşma, təbrik, xeyir-dua, alqış və s.); 3) emotivlər; 4) sual-nida xarakterli ifadələr.

Nida cümlələri cümlə səviyyəsində və cümlədən böyük vahid kimi çıxış edə bilər. Onların struktur tiplərinin formalaşmasında söz sırası da mühüm rol oynayır. Yuxarıda qeyd olunan "I" qrupa daxil olan nida cümlələri külli miqdarda quruluş variantlarına malikdir. Onların yaranmasında ədatlar da mühüm rol oynayır. F.M.Ağayev nida cümlələrindən bəhs edərkən ədatları nida cümlələrinin strukturunu zənginləşdirən bir vasitə kimi göstərmişdir. Dialoji nitqdə iştirak edənlərin bir-birini əvəzetmə və ya dialoqda adresant, adresat funksiyalarının dəyişməsi zamanı istifadə olunan replikalarda qeyd edilən cəhət daha çox üzə çıxır.

Dialoji nitqdə istifadə olunan qiymətləndirici nida cümlələri daha zəngin struktur tipləri ilə seçilir. Qiymətləndirici nida cümlələri həm müsbət, həm də mənfi məzmun daşıya bilir. Məzmunun mənfiliyi və ya müsbətliyi kontekst əsasında müəyyənləşir. Qiymətləndirici nida cümlələrində emosiyanın ifadəsi deyil, daha çox münasibət və qiymət bildirilir.

Dil vahidləri və vasitələri dil sistemində müəyyən funksiyaları yerinə yetirir. Funksiya ünsürün və ya elementin sistem daxilində müəyyən üsul və formada mövcud olması və bu sistemə müəyyən şəkildə xidmət göstərməklə təyin olunur. Əgər bir tam kimi cümlənin funksiyası onun kommunikativ təyinatı ilə bağlıdırsa, onu elementlərinin, tərkib hissələrinin funksiyaları kommunikativ vahidi qurmaqdır. Cümlənin tərkib hissələrinin, ünsürlərinin kombinator imkanları cümlənin

quruluşunda reallaşır. Cümlə əsas kommunikativ vahiddir. Bu kommunikativlik şərti cümləyə xas olan predikativlikdən irəli gəlir. Cümlə elementlərinin kombinator imkanları bu elementlərin hansı nitq hissəsi olması və bu nitq hissəsinin hansı leksik-semantik və qrammatik yarımqrupuna məxsus olması ilə əlaqədardır.

Cümləni təşkil edən elementlər yalnız fellər olmur. Cümlə daxilində adlar və köməkçi nitq hissələri də istifadə olunur. Bütün bu elementləri onların sistemdə mövcudluq üsulu, kommunikativ vahidlər yaratmaqdakı rolu və dəyərliliyi baxımından konstruktiv-semantik funksiyaya görə qruplaşdırmaq mümkündür. Kom¬mu¬nikativ vahiddəki elementləri, ünsürləri yerinə yetirdikləri konstruktiv-semantik funksiyaya görə üç qrupa ayırmaq olar. 1) birinci funksiya –müstəqil işlənmə; ikinci funksiya –cümlənin komponenti kimi işlənmə; 3) üçüncü funksiya – söz birləşməsinin komponenti kimi işlənmə. Konstruktiv-semantik funksiyaları yerinə yetirən elementlərin müxtəlif topluları sintaktik vahidin səciyyəsini təşkil edir.

Danışıq üslubu, əsasən şifahi dialoji nitqdə ifadəsini tapır. Danışıq dili üçün sərbəst danışıq, sintaktik konstruksiyaların sadələşdirilməsi, dil normasından kənarçıxma səciyyəvidir. Dil paradiqmasının mövcud formalarından yayınma ənənəvi hal aldıqda və danışıq dilində özünü çox göstərdikdə belə yayınmalar dilin başqa üslublarına keçərək normanın özünü, onun üslubi səciyyəsini dəyişir. Beləliklə, dialoqlar da dil sisteminin inkişafının potensial istiqamətləri özünü göstərir. Bundan başqa, dialoqlarda dilin bütün funksiyaları, o cümlədən emotiv, estetik funksiyaları az və çox dərəcədə ifadəsini tapır. Emotiv və estetik funksiyaların, ekspressivliyin müasir Azərbaycan və ingilis dillərində dialoji nitqdəki xüsusiyyətlərini canlı danışıqdan, belə imkan olmadıqda isə bədii əsərlərdən götürülmüş dialoqlar əsasında öyrənmək mümkündür.

Morfoloji formaların dialoqda üslubi ekspressiv, üslubi qeyri-okkazional, qeyri-ekspressiv, üslubi ekspressiv və üslubi neytral şəkildə işlənməsini qeyd etmək olar. Üslubi ekspressiv qrammatik formalar emosional xüsusiyyətlərinə görə seçilir və nitq tipindən asılı olmur.

РЕЗЮМЕ
МАЛЫЕ СЛОВАРНЫЕ СФЕРЫ ЖИВОЙ РАЗГОВОРНОЙ РЕЧИ

Разговорный стиль является одним из основных функциональных стилей языка. Ясный, гармоничный, внятный разговорный язык, стиль речи важен для каждого языка.

Разговорный стиль в основном выражается в устной диалогической речи. Разговорный язык характеризуется свободой слова, упрощением синтаксических конструкций, отклонением от языковой нормы. Когда отклонение от существующих форм языковой парадигмы становится традиционным и проявляется в разговорной речи, такие отклонения переходят на другие стили языка и изменяют саму норму, ее стилистические

характеристики. Таким образом, диалоги также показывают возможные направления развития языковой системы. Кроме того, все функции языка, в том числе эмоциональные и эстетические, в большей или меньшей степени выражаются в диалогах. Изучать особенности эмотивной и эстетической функций, выразительности в современной азербайджанской и английской диалогической речи можно из живой беседы, а если такой возможности нет, то на основе диалогов, взятых из художественных произведений.

Можно отметить, что морфологические формы обрабатываются в диалоге стилистически экспрессивно, стилистически неокказионально, неэкспрессивно, стилистически экспрессивно и стилистически нейтрально. Стилистические выразительные грамматические формы выбираются по их эмоциональным характеристикам и не зависят от типа речи.

Ключевые слова: стиль, разговорный язык, диалог

SUMMARY
SMALL VOCABULARY SPHERES
OF LIVE COLLOQUIAL SPEECH

Conversational style is one of the main functional styles of the language. Clear, harmonious, intelligible spoken language, style of speech is important for every language.

Conversational style is mainly expressed in oral dialogic speech. Spoken language is characterized by freedom of speech, simplification of syntactic constructions, deviation from the language norm. When a deviation from the existing forms of the language paradigm becomes traditional and manifests itself in colloquial speech, such deviations pass to other styles of the language and change the norm itself, its stylistic characteristics. Thus, dialogues also show possible directions for the development of the language system. In addition, all the functions of language, including emotional and aesthetic ones, are expressed to a greater or lesser extent in dialogues. It is possible to study the features of emotive and aesthetic functions, expressiveness in modern Azerbaijani and English dialogic speech from a lively conversation, and if this is not possible, then on the basis of dialogues taken from works of art. It can be noted that morphological forms are processed in the dialogue stylistically expressive, stylistically non-occasional, non-expressive, stylistically expressive and stylistically neutral. Stylistic expressive grammatical forms are chosen according to their emotional characteristics and do not depend on the type of speech.

Key words: conversational language, style, dialoq.

Ədəbiyyat

1. Adilov,M.İ, İzahlı dilçilik terminləri lüğəti, Bakı,Maarif, 1989
2. Бахтин, М.М., Исследования в лингвистике, Ленинград, 1983.
3. Дейк, ван Т.А.,Язык. Познание. Коммуникация. Прогресс, 1989.
4. Əliyev,V.H.,Fel.Ümumi məlumat.,Müasir Azərbaycan dili., Bakı, Elm, 1980
5. Земская, Е.А., Русская разговорная речь., Москва, Наука,1981.
6. Ağayeva,F.M.,Azərbaycan danışıq dili. Bakı, Maarif 1985.
7. Брусненская, А.А., Курочкина Л.В. Интенциональное использование грамматических форм существительных в современном русском языке. Филологические науки. 2002.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Fəlsəfə elmləri doktoru dosent Şəmsinur Aslanova tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜL EYYUBOVA
ADU
Rəşid Behbudov 134
e-mail: qasimova42@gmail.com

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI KOMMUNİKATİV FƏALİYYƏTLƏRDƏN İSTİFADƏNİN YOLLARI

XÜLASƏ

Bu gün mədəni ünsiyyətə uğurla nail olmaq üçün tədris prosesində şifahi nitqin inkişafında kommunikativ fəaliyyətlər əsas və aparıcı yerlərdən birini tutur. Sözü gedən fəaliyyətlər təkcə kommunikasiyanın dəstəklənməsində deyil, həm də motivasiyanın yaradılmasında böyük rol oynayır. Bu işlərin təşkili zamanı dilöyrənənlərdə monoloji və dialoji nitqi stimullaşdırmaq və tədris olunan xarici dildə spontan nitqin yaradılmasına gətirib çıxara bilmə şəraitinin yaradılması zərurəti danılmazdır. Bu da mənimsənilmiş dil materiallarının və nitq strukturlarının monoloji nitqin təşkili prosesində istifadə edilməsi üçün müvafiq stimulların yaradılmasını nəzərdə tutur. Belə stimullardan biri nitq reaksiyasına səbəb ola bilən şərait kimi qəbul edilən kommunikativ situasiya hesab edilə bilər. Monoloji və dialoji nitqin təşkilində tələbat və həmin tələbatın ödənilməsi üçün səmərəli şəraitin olması vacibdir. Məhz buna görə nitq ünsiyyətinin baş verməsi üçün müvafiq situasiyanın olması zəruridir. Müvafiq bacarıqlara yiyələnmiş dil daşıyıcıları nitq prosesində bununla bağlı heç bir çətinliklə üzləşmir. Dil daşıyıcısı olmayan, xarici dilləri, o cümlədən, ingilis dilini öyrənənlərə bu işlərin təşkilində monoloji nitq zamanı müvafiq vərdişlərin aşılanması zəruridir. Bütün bunlar fərdi işlərin siyahısına daxildir. Belə ki, buraya yazı, oxu və digər bacarıqlar da aid edilir. Nəticə etibarilə, müxtəlif kommunikativ fəaliyyət növlərindən istifadə etməklə tədrisdə keyfiyyəti əldə etmək mümkündür. Motivasiya sahəsində müasir dövrdə aparılan tədqiqatlarda əsas diqqət daha çox ayrı-ayrı fərdlərin daxili və xarici amillərin qarşılıqlı təsirinə göstərdikləri reaksiyaya yönəldilir. Buradan bizi müəyyən davranışlara vadar edən motiv, maraq və tələbatlar barədə məsələlər ortaya çıxır. Motivasiya bir kəsi həvəsləndirmək məqsədinə nail olmaq üçün daxili təkan və münasibətlərə istiqamət verən ən önəmli faktorlardan biridir. Hər hansı bir məqsəd üçün hərəkətə keçməyə sövq edir, arzuları, ehtiyacları və s. təmin edir. Konkret olaraq, motivasiya arzu, niyyət, nail olmaq, motiv, məqsəd, məqam və s. kimi başa düşülür. Bunlar isə müxtəlif situasiyalarda müxtəlif cür izah oluna bilər. Beləliklə, şifahi nitqin inkişafında kommunikativ fəaliyyətlərin həyata keçirilməsi vacib şərt kimi nəzərə alınmalıdır.

Açar sözlər: motivasiya, metod, texnologiya, nitq, dil

Bəzi kommunikativ fəaliyyətlər dilöyrənənlə -dilöyrənən, dilöyrənən –müəllim arasındakı şifahi ünsiyyətin təmin edilməsini dəstəkləyir. Bunlar internet vasitəsilə də mümkündür. Biz onları yeddi kateqoriyaya ayıracağıq: 1. Razılaşma 2.Müzakirələr 3.Təqdimatlar 4. Kommunikativ oyunlar 5. Problem həlli 6. Özün haqqında danışmaq 7. Simulyasiya və rollu oyunlar. Razılaşma kateqoriyasında dilöyrənənlər müvafiq müzakirələrdən sonra bir-biri ilə razılaşmalıdırlar. Bu baş verənə qədər tapşırıq tam hesab olunmur. "Razılaşma" adlı fəaliyyətlər azad fikir söyləmə və spontan nitq vərdişlərinin inkişafında müvəffəqiyyətli hesab olunur.

Grammar-translation metodu əsasən məqsəd dilinə tərcüməyə əsaslanır. Qrammatika qaydası yadda saxlanılmalı və uzun söz siyahısı əzbərlənməlidir. Əsas diqqət danışıq qabiliyyətinin inkişafına verilir.

Audio-lingual metodunun nəzəriyyəsi burada dilin öyrənilməsi vərdişlərinin alınmasına əsaslanır. İstənilən situasiyanın çoxsaylı praktik dialoqları mövcuddur. Yeni dil əvvəlcə dinlənilir, sonra isə yazılı şəkildə görürlərək geniş öyrənilir.

TPR (Total Physical Response) üsulu elə işləyir ki, dinləyici bir sıra asan əmrlərə cavab verir. Bu əmrlər sırasına "qalx", "kitabını bağla", "pəncərəyə yaxınlaş və onu aç" kimi sadə əmrlər daxildir. Bu üsul eşitmə dərkinin vacibliyini qeyd edir.

Communicative language teaching üsulunun məqsədi dinləyicilərə effektiv imkanlar vermək və onlara lazımi şəkildə müxtəlif formada düşə biləcəyi situasiyaları danışmaqdır. Communicative language teaching təlimi kurslarının məzmununa dəvətnamə, təklif, şikayət və ya digər anlayışlar – zamanın ifadəsi, miqdar, yerləşdiyi yer kimi funksiyalar daxildir (7, 68)

Silent Way metodu ona görə belə adlanır ki, müəllim imkan dairəsində az danışsın ki, dinləyici onun nə demək istədiyinə nəzarət edə bilsin. Qeyd edək ki, burada ana dili istifadə edilmir.

Community Language Learning üsulunda qəbul edilir ki, müəllim və dinləyicilər arasında möhkəm şəxsi əlaqələr yaradılmalı və beləcə də təlim üçün heç bir maneə qalmamalıdır. Ana dilində çoxlu danışıqlar olur ki, müəllim təkrar üçün o danışıqları tərcümə edir.

Tapşırıqlara əsaslanan dil öyrənmə üsulunda Task-based language learning təlim zamanı əsas diqqət dinləyicilər üçün maraqlı olan məsələnin yerinə yetirilməsinə yönəldilir. Dinləyicilər onlara lazım olan dildən istifadə edərək tapşırığı icra edir və səhvlər nisbətən az düzəldilir.

The Natural Approach üsulu professor S. Kraşen tərəfindən təklif edilmişdir və bu yanaşma birinci və ikinci dillərin öyrənilməsi arasındakı oxşarlığı qeyd edir və səhvlərin düzəlişi olmur. Təlim dinləyicilərin dillə tanış olmaqları hesabına baş verir. Bütün təlim üsulları əsaslı şəkildə onlardan fərqlənir və bu üsul yalnız özünəməxsus xüsusiyyətlərə malikdir (4, 150)

Keyslərin həlli aşağıdakı addımlardan ibarətdir:

Təklif olunmuş situasiyanın (keysin) tədqiqi; Çatmayan informasiyanın yığılması və təhlili; Problemin mümkün həll variantlarının müzakirəsi; Ən yaxşı həllin çıxarılması.

Deyilənlərdən belə görünür ki, burada her şey sadədir. Lakin elə gəlinən nöqtələr var ki, keyslə ilkin qarşılaşan iştirakçılar müəyyən qədər çaşqınlığa düşə bilər.

Birincisi, keys düzgün cavaba malik deyil. Optimal həll yeganə ola bilər (bu zaman o heç də həmişə real situasiyalarda rellaşdırıla bilməz), lakin bir neçə effektiv həllər olur.

Ikincisi, giriş keysləri bir - biri ilə ziddiyyət təşkil edərək daim dəyişə bilir. Keys real faktlar üzərində qurulur və həqiqi həyati situasiyanı simulyasiya edir. Lakin həyatda bir dəfə də olsun oxşar problemlə qarşılaşılır.

Uçüncüsü, bir qayda olaraq keyslər məhdud zaman şəraitində həll edilir.

Keys üsulu təhsil mühitinə mürəkkəb, aydın olmayan real halları (keysləri) daxil edir. Burada əsas icraçı əhəmiyyətli həllərlə qarşılaşır. Bu üsul müəyyən potensiala malikdir. Belə ki, iştirakçıları realistik idarəedici situasiyalara cəlb edir ki, tam olmayan informasiya, zaman məhdudiyyəti və ziddiyətli məqsədlərlə onların necə qərar qəbul etdiklərini müəyyən etsin. Bu daha çox misallar və təcrübə əlavə etməklə təlim prosesində təlimin hər bir saatını zənginləşdirir. Zənginləşmiş mühit iştirakçını daha dərin təfəkkürə və öz fikirini sərbəst ifadə etməyə stimullaşdırır. Bu üsulda müəllim iştirakçıların yalnız problemə necə müxtəlif reaksiya verməsinə deyil, eyni zamanda onlara imkan verir ki, müxtəlif təşkilati məsələlərə münasibətdə özlərinin nöqteyi-nəzərlərinin necə fərqləndiyini də görsünlər. Bu da öz növbəsində tələbələrə öz təlimlərinin səviyyəsini yüksəltməyə və onların həvəsləndirilməsinə kömək edir. Beləliklə, aparılmış araşdırmalar göstərir ki, böyük həcmdə tədqiqat işləri, akademik və təhsil nəticələrinin geniş spektirinə bu üsul çox müsbət təsir edir. Bu üsul öz effektivliyi ilə akademik müvəfiqiyyətə, tənqidi təfəkkürə, sinifdə məşğələlərdə

motivasiyaya, tələbələr arasında şifahi və yazılı mübadilə vərdişlərinə təsir göstərir. Bu tədqiqatlar akademik mühitdə üsulun vacibliyini əks etdirir. Lakin, təşkilatlarda bu üsulun istifadəsi haqqında az informasiya vardır. Keys üsulunu təşkilatlar üçün vacib aktiv bir üsul kimi hesab etmək olar. Son tədqiqatlar göstərir ki, klassik təlim üsulları – instruktorlar əsasında tədris və ya staj keçənlərə təlim müəyyən məhdudiyyət kəsb edir. Bu üsullarda əsas məhdudiyyətlərdən biri ondan ibarətdir ki, təlim prosesində iştirakçıların fərdi fərqlərini görmək olmur. İnsanların fərqinə, tədris materiallarına və onların müxtəlif təlim stillərinə iştirakçıların maraq və tələbatları daxildir. Ona görə də elə bir konkret təlim üsulu axtarmaq lazımdır ki, əvvəlki təlim üsullarının məhdud cəhətlərini azaltmış olsun (3,70).

Keys üsulunun üstunlüyü tədqiqat strategiyası kimi başa düşülür. Bura aşağıdakılar daxildir:

Vahid problem sahəsində qrupun iş imkanı; Vaxt məhdudiyyəti şəraitində qeyri-müəyyənlik dərəcəsini azaldan strukturlaşmış informasiyadan istifadə; Sadə ümumiləşdirmə vərdişlərini yaratmaq imkanı; Real həyatla tanışlığı verir; Qərar qəbulu prosesində dərinləşməyə məcbur edir; Problemdə iştirakçının reaksiya cəldliyini öyrədir; Strateji düşünmənin formalaşmasına kömək edir.

Keys üsulunun çatışmayan cəhətləri də vardır. Bu cəhətlər aşağıdakılardır: Informasiya çoxluğunun qaçılmazlığı; Tədqiqata yanaşmanın subyektivliyi və səthiliyi; Mümkün ümumiləşdirmə çərçivəsi səbəbi üzrə şübhə; Ümumiləşdirlmiş nəticələr üçün; Keys metodunun yararsızlığı.

Bu üsulun təhsildə geniş yayılması onun praktik orientasiya istiqamətdə olması ilə əlaqədardır. Onun tətbiqi tələbələrdə dinləmə bacarığı, tərəfdaşı dinləmək və başa düşmək, birgə fəaliyyəti planlaşdırmaq və razılaşdırma ilə icra etmək, rolları paylaşdırmaq, razılaşdırmağı bacarmaq, diskussiya aparmaq, nitqdə öz fikirlərini düzgün ifadə etmək, bir-birini dəstəkləməyi bacarmağı formalaşdırır. Təlimi təşkil etmək üçün konkret situasiyanın yazılışından istifadə edilir, tələbələrə real həyati situasiyanı dərk etməyi təklif edirlər. Belə ki, bu, eyni vaxtda yalnız hər hansı praktik problemi deyil eyni zamanda müəyyən kompleks bilikləri əks etdirir. Deyilənlərin mənimsənilməsi isə bu problemin həllində zəruridir. Bu zaman problemin özü birqiymətli həllə malik deyil. Keysdə hərəkət ya yazılışda verilir və onun dərk edilməsi tələb edilir, ya da problemin həll üsulu qismində fərqli şəkildə təklif edilir.

Bu üsulun köməyi ilə dinləyicilər, yəni tələbələr analitik və qiymətləndirmə vərdişlərini təkmilləşdirmək və aşkar etmək, komandada işləməyi öyrənmək, qoyulmuş problemin daha yaxşı rasional həllinin tapılması imkanlarına malik olur. Elə məhz ona görə də təqdim edilən məqalədə keys üsulunun hazırki dövrdə daha çox praktik yönümlü və nəticə etibarilə daha çox tələb edilən bir üsul olduğunu qeyd etmək yerinə düşərdi.

Son nəticədə qeyd etmək lazımdır ki, ingilis dilinin tədrisində Keys üsulu aşağıdakıları təmin edir: Dinləyicilərin yeni biliklər əldə etməsi və ümumi təsəvvürlərin inkişafını; Mürəkkəb və strukturlaşmamış problemin təhlili vərdişinə

yiyələnməyi; Sağlam fikrin, qəbul edilmiş qərarda cavabdehlik hissinin, təmas vərdişinin inkişafını; Hərəkətlərin işlənməsi və onların həyata keçirilməsi vərdişlərinə yiyələnməyi; Komandada işləmək imkanını;

Qoyulmuş problemin daha yaxşı rasional həllinin tapılması imkanını.

Bütün bunlarla yanaşı aşağıdakı halların olması da mümkündür: Keys üsulu ilə işləyərkən dinləyicilər müəyyən çətinliklər hiss edə bilər; Analitik işin gedişində müvəffəqiyyətsizlik və motivasiyanın azalması ola bilər.Belə nəticəyə gəliirik ki, keyslərin tətbiqi informasiyalı, taşkilati, pedaqoji əsaslandırılmış və təminatlı olmalıdır. Bu da keyslərin funksional sahəsi istifadə üçün geniş sahə açır, ingilis dilinin tədrisi üçün ənənəvi klassik üsulları tamamlayır. Ümumiyyətlə keyslərdən istifadə Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya olması yolunda atılmış bir addımdır.

Ədəbiyyat

1. Abbasova S.H. İngilis dili fənninin tədrisi metodikasında yeni, müasir təlim metodları: ingilis dili müəllimləri üçün.Bakı – 2005
2.Veyisova Z. Fəal / interaktiv təlim. Müəllimlər üçün vəsait. Bakı:UNİSEF, 2007
3. Angelo, T & Boehrer, J. (2002). Case learning: How does it work? Why is it effective? Case Method Website: How to Teach with Cases, University of California, Santa Barbara
4. Barnes, L.B., Christensen, C.R. and Hansen, A.J. (1994), Teaching and the Case Method: Text, Cases, and Readings, Harvard Business Press, Cambridge, MA.- .
5. Barnes, L.B., Christensen, C.R. and Hansen, A.J. (1994), Teaching and the Case Method: Text, Cases, and Readings, Harvard Business Press, Cambridge, MA.-
6. Jeremy Harmer. How to Teach English, 2007.
7. Rodgers T. Methodolodgy in the New Millennium // English Teaching Forum 2000. Vol. 38.

FATMA ALIYEVA YADULLA KIZI

DISTINCTIVE AND MISSING FEATURES OF THE CASE METHOD IN TEACHING ENGLISH

SUMMARY

The presented article considers a topical issue that is important in the process of teaching English in modern times - the study of the Case method. In the course of the studies, it was established that, unlike traditional teacher-oriented methods, student-oriented interactive method Case technology is one of the ways of organizing problem-based teaching, as well as aimed at developing the cognitive potential of a person, increasing learning ability, and developing creative abilities of a person. The fact that students are a means of developing and forming speech-cognitive activity determines the relevance of using the Case method we are studying.The article examines the application of the Case method as an interactive method in teaching English, its distinctive features, advantages and disadvantages, and as a result, the

application of this method is considered as an important step in teaching English. Here, as the main goal, the Case method in the study of a foreign language was comparatively analyzed, and the theoretical foundations of this method were also covered. Consequently, when characterizing Case technology, it became possible to identify the types and forms of cases, as well as the necessary conditions for the implementation of the Case method in the process of teaching a foreign language.
Key words: traditional learning, thematic learning, education, method, technology, method, critical analysis, practice, problem, presentation

ФАТМА АЛИЕВА ЯДУЛЛА КЫЗЫ

РЕЗЮМЕ

ОТЛИЧИТЕЛЬНЫЕ И НЕДОСТАЮЩИЕ ЧЕРТЫ КЕЙС-МЕТОДА В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ

В представленной статье рассматривается актуальный вопрос, который важен в процессе преподавания английского языка в наше время, - изучение кейс-метода. В ходе исследований было установлено, что, в отличие от традиционных методов, ориентированных на учителя, ориентированный на учащихся интерактивный метод Кейс-технологии является одним из способов организации проблемного обучения, а также направлен на развитие когнитивного потенциала личности, повышение способности к обучению и развитие творческих способностей учащихся.человек. Тот факт, что учащиеся являются средством развития и формирования речемыслительной деятельности, определяет актуальность использования изучаемого нами кейс-метода.В статье рассматривается применение кейс-метода как интерактивного метода в обучении английскому языку, его отличительные особенности, преимущества и недостатки, и в результате применение этого метода рассматривается как важный шаг в обучении английскому языку. Здесь в качестве основной цели был проведен сравнительный анализ кейс-метода в изучении иностранного языка, а также освещены теоретические основы этого метода. Следовательно, при характеристике кейс - технологии стало возможным выявить виды и формы падежей, а также необходимые условия для реализации кейс-метода в процессе обучения иностранному языку.
Ключевые слова: традиционное обучение, тематическое обучение, образование, метод, технология, метод, критический анализ, практика, проблема, презентация

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: f.ü.f.d, dos Svetlana Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

XURAMAN AĞASALAM QIZI ƏLİYEVA
E-mail:x.samedova@mail.ru
Bakı Slavyan Universiteti
S.Rüstəm küç., 33

MÜRƏKKƏB SİNTAKTİK BÜTÖV MƏTN VAHİDİ KİMİ
(Azərbaycan və alman dillərinin materialı əsasında)

XÜLASƏ

Mətn onun strukturunun tərkib hissələrinin bir-biri ilə əlaqəli və bir-birindən asılı olması ilə xarakterizə olunur. Mətnin bir hissəsi olaraq onun tərkib hissələrinin, yəni cümlələrin tamlığı nisbi xarakter daşıyır. Mətndə cümlənin semantikası kontekstdən asılı olaraq müəyyən dəyişikliyə məruz qala bilər. Makromətndə mürəkkəb sintaktik bütöv funksional-nitq vahidi kimi ayrıla bilər. Mürəkkəb sintaktik bütöv cümlələrin struktur-semantik birliyi ilə təşkil olunur. Mürəkkəb sintaktik bütövün kompozisiya-semantik quruluşu başlanğıc, orta hissə və sonluqdan ibarətdir. Mürəkkəb sintaktik bütövün tərkibinə daxil olan edən cümlələrin rolu fərqlidir.

Mikromətni açan cümlələr, əsasən, müstəqil olur və mətnə yeni fikir gətirir. Mikromətnin orta hissəsini təşkil edən cümlələr ilkin cümlədən asılı olaraq başlanğıcda qeyd olunan fikri açır və mikromətnin əsas məzmununu ifadə edir. Mikromətn sonunu təşkil edən cümlələr əvvəlki cümlələrdəki fikri özünəməxsus şəkildə yekunlaşdırır.

Mikromətnin hər bir cümləsi müəyyən məzmuna malik olmaqla, həmin situasiya üçün konkret kommunikativ vəzifəni yerinə yetirir. Mikromətnin tam xarakteristikası mikromətnin yalnız kompozisiya-mövzu, sintaktik və kommunikativ aspektlərdə təhlili əsasında mümkündür. Mikromətnin kommunikativ strukturunu şərh edərkən dayaq söz, "söz mövzunun daşıyıcısıdır" kimi elementlərə xüsusi diqqət yetirilir.

Açar sözlər: mətn, mürəkkəb sintaktik bütöv, cümlələrin əlaqəsi, söz, struktur, semantika, kommunikasiya, müqayisə

Mətn elə bir struktura malikdir ki, onun komponentləri müəyyən şəkildə qarşılıqlı olaraq əlaqəlidir. Mətnin komponentləri kimi ayrı-ayrı bitkin cümlələr özünü göstərir. Eyni zamanda, mətnin tərkibində onun ayrı-ayrı tərkib hissələrinin, yəni komponentlərinin bitkinliyi nisbi xarakter daşıyır. Buradan təbii olaraq belə çıxır ki, eyni cümlə modelinə mətn tərkibində və tərkibdən kənarda müxtəlif cür yanaşmaq lazımdır. Bu fikri, görünür, bir qədər də gücləndirmək olar ki, hətta eyni cümlə modeli öz assosiativ semantik xüsusiyyətlərinə görə müxtəlif mətnlərin tərkibində özünü müxtəlif cür aparır, başqa sözlə desək, mətn daha yüksək təşkil olunmuş sintaktik vahid olmaq etibarilə öz tərkibində olan cümlənin semantik və

assosiativ strukturunu istədiyi şəkildə dəyişdirmə gücünə malikdir. Başqa yöndən yanaşsaq, mətnin işləm məqamının mövcudluğu o zaman mümkün olur ki, onun tərkib komponentləri qarşılıqlı struktur-semantik əlaqədə olsun [2; 5]. Cümlənin komponentə çevrilməsi çox zaman gözədəyməz dəyişikliklər, təsadüfdə gerçəkləşən dəyişmələr nəticəsində baş verir. Komponentlər arasında əlaqələrin qurulması artıq bu dəyişikliyin sanki ilk mərhələsi kimi özünü göstərir. Hər hansı bir əlaqə o əlaqənin yaradıcısını bir qədər başqa cür edir. Mütəxəssislər qeyd edirlər ki, hər hansı münasibətdə olan obyektlər bir-biri ilə əlaqəsi olmayan obyektlərlə eynilik təşkil edə bilmir [1; 3]. Obyektləri bir-birinə yaxınlaşdırmaq, hətta müəyyən strukturda bu obyektlər dəyişməz, transformasiyaya uğramamış şəkildə qaldıqda mümkün olmur. Beləliklə, yalnız mətn tərkibində komponentlərin qarşılıqlı münasibəti bu komponentlərin hər birinin semantik transformasiyası üçün güclü təkan verir. Lakin mətn komponentlərinin semantik-qrammatik qarşılıqlı əlaqəsinin növlərinin təhlilinə keçməzdən əvvəl kompozisiya və kəmiyyət planları ilə bağlı əməliyyatlar aparmaq vacibdir. Konkret olaraq mətnin kompozisiyasını müəyyənləşdirmək lazımdır. Bunu isə mətn komponentlərinin ötürdükləri məlumatın vacibliyi nöqteyi-nəzərindən mətn quruluşunda nə şəkildə yerləşdirilməsi ilə müəyyənləşdirmək mümkündür. Bundan əlavə, mətnin tərkibini kəmiyyət planında müəyyənləşdirmək lazımdır. Bundan sonra mürəkkəb linqvistik hadisə olan mətnin daxili mexanizminin təhlilinə keçmək olar.

Makromətnin tərkibində işləm məqamına malik olan mətn düzənli quruluşa malikdir. Mikromətnin malik olduğu mikrokompozisiyanın mahiyyəti müəyyən mənada mübahisəli məsələdir. Mikromətn və makromətn anlayışlarına aid olan mikrokompozisiya və makrokompozisiya terminlərinin ifadə yükü dilçilikdə müzakirə olunan məsələlərdəndir. Məsələn, O.İ. Moskalskaya kompozisiya məsələləsini şərh edərkən mətn və frazafövqü birlik yox, məhz abzas terminindən istifadə edir [7, s. 82]. Belə ki, ona və digər dilşünaslara görə, məhz abzas bilavasitə kompozisiya səviyyəsinin vahididir. Əlbəttə, kompozisiya formal plana aid olan hadisədir. Digər tərəfdən, biz mətnin və abzasın münasibətini nəzərdən keçirərkən onu məzmun və formanın plan münasibəti kimi qəbul edirik. Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, "kompozisiya abzasın quruluşuna məhz mətn vasitəsilə yeridilir. Kompozisiya ölçüləri öz-özlüyündə məhz mətn yaradan struktur dəyərlərdir. İlk növbədə məzmunun özü öz ifadəsinin üsul və prinsiplərini müəyyənləşdirir" [1, s. 98]. Başqa tərəfdən, əgər kompozisiya yalnız abzasa aid olursa, o zaman qəbul etməliyik ki, kompozisiyanın başlanğıc, orta və son mərhələ kimi ayırdığımız mərhələləri prinsip etibarilə şifahi nitqə aid edilə bilməz. Amma bununla yanaşı, biz görürük ki, möhkəm kompozisiya qaydaları ilə yaradılan mətn həm yazılı, həm də şifahi niqtdə işləm məqamına malikdir. Təbii ki, kompozisiyanın yalnız mətnin yazıdakı istifadəsinə, yəni abzasa aid olması onun şifahi nitq sahəsində mexaniki şəkildə təcrid olunması deməkdir.

Mətnin elementar tərkibi olaraq mürəkkəb sintaktik bütöv (mikromətn) müəyyən kompozisiya-məna strukturuna malikdir. Mürəkkəb sintaktik bütöv üç hissədən ibarətdir: başlanğıc, orta və sonluq [8]. Mürəkkəb sintaktik bütövün tərkibinə daxil olan cümlələrin rolu müxtəlifdir.

Mikromətni başlayan cümlə və ya cümlələr xüsusi bədii-məna və kompozisiya yükünə malikdir. Onların əsas təyinatı yeni fikrin daxil edilməsində və ya fikrin inkişafında dönüş qeyd etməsindədir. Mikromətnin başlanğıcını təşkil edən cümlələr daha çox müstəqil, azad quruluşla səciyyələnir.

Mikromətnin orta hissəsini təşkil edən cümlələr başlanğıcda qeyd edilən fikri açır. Bu cümlələr struktur və semantik baxımdan daha az müstəqilliklə səciyyələnir, sintaktik baxımdan, əsasən, başlanğıc hissədən asılı olur.

Mikromətnin son hissəsini təşkil edən cümlələr əvvəlki cümlələrdə inkişaf edilən fikrin özünəməxsus yekunu kimi çıxış edir və mikromətnin məna strukturu üçün vacib əhəmiyyət kəsb edir. Son hissə başlanğıc kimi çox vaxt aydın ifadə olunur.

Linqvistik ədəbiyyatda mikromətnin bölünməsinin iki planı – kompozisiya-mövzu (başlanğıc, orta hissə, sonluq) və sintaktik planlar şərh edilir. Kompozisiya-mövzu bölünməsində mikromətnin xarici strukturu nəzərdən keçirilir. Onun konturlarının sərhədləri çəkilir, kompozisiya hissələri müəyyən edilir. Sintaktik bölümdə mikromətni təşkil edən cümlələr arasında əlaqə üsulları təhlil edilir. Mikromətnin daxili quruluşu açılır. Bu iki plandan başqa, mikromətnin bölünməsinin kommunikativ (məlumat) strukturu [4; 6] adlanan üçüncü planı da mövcuddur.

Mikromətnin hər cümləsi müəyyən məzmuna malik olaraq həmin situasiya üçün konkret kommunikativ tapşırıq həyata keçirir, bu isə cümlənin xüsusi kommunikativ strukturu olduğunu bildirir. L.A. Çernyaxovskaya kommunikativ (məlumat) struktur anlayışına belə bir tərif verir: “Söyləmin kommunikativ (məlumat) strukturu söyləmdə olan məzmun strukturu məzmunu təşkil edən həmin dilin qrammatikasına uyğun olaraq qaydaya salınmış və formalaşmış məna qrupları arasında semantik əlaqəni ifadə edən strukturdur” [9, s. 16].

Mikromətnin tam xarakteristikası, mikromətni təşkil edən cümlələrin məna və rolunun aydın edilməsi yalnız mikromətnin üç planda – kompozisiya-mövzu, sintaktik və kommunikativ planlarda bölünməsində mümkündür. Onlardan biz kompozisiya-mövzu planını çıxış kimi qəbul edirik.

Mikromətnin müxtəlif kompozisiya-mövzu hissələrində yerləşən cümlələr müxtəlif rollar yerinə yetirir. Tədqiqat göstərir ki, sadə nəqli cümlələrin mikromətnin sonuna yerləşdirilən onun müxtəlif kompozisiya-mövzu hissələrinə aid olan elementləri mikromətnin məna, sintaktik və üslub təşkili üçün müxtəlif əhəmiyyətə malikdir, yəni onlar qismən müxtəlif kommunikativ-üslub funksiyaları yerinə yetirir. Mikromətnin sonuna yerləşdirilən cümlələrin mətndən kənar cümlə kimi öyrənilməsi mümkün olmadığı üçün biz alman dilində sadə nəqli cümlələrin son elementlərinin postpozitiv bölmədə və bütövlükdə sadə nəqli cümlələrin təhlilinə diqqət yetiririk.

Əksər halda başlanğıc hissə mikromətnin mövzusunu formalaşdırır. Mikromətnin mövzusu bütövlükdə məzmunu ilə ifadə olunursa da, onda "söyləmin sanki dayaq sözünü ayırmaq olar" [10, s. 219]. Bununla əlaqədar mikromətnin kommunikativ strukturunun öyrənilməsi üçün tədqiqata "söz – mövzunun daşıyıcısı" kimi parametri cəlb etmək məqsədəuyğundur. Adətən, o, mübtəda, daha çox tamamlıq və hətta zərflik rollarında çıxış edən isim və ya əvəzlik olur.

Söz – mövzunun daşıyıcısı postpozitiv bölmənin sonuna və ya onun əvvəlinə yerləşməsi və ya cümlədən kənara çıxması xüsusi maraq doğurur. Alman dilində belə bir nümunəyə diqqət edək:

Plötzlich wachte sie auf. | Es war halb drei. *Sie* überlegte, warum *sie* aufgewacht war. Ach so! In der Küche hatte jemand gegen einen Stuhl gestoβen. *Sie* horchte nach der Küche. Es war still. Es war zu still, und als *sie* mit der Hand über das Bett neben sich fuhr, fand *sie* es leer. Dar war es, was es so besonders still gemacht hatte: sein Atem fehlte. | *Sie* stand auf und tappte durch die dunkle Wohnung zur Küche. (Wolfgang Borcherts Werke S. 114).

Bu mikromətnin söz – mövzunun daşıyıcısı başlanğıcla daxil olunur. Şəxs əvəzliyi ilə (sie) ifadə olunmuş mövzunun daşıyıcısını adlandıran mübtəda başlanğıcın yeni məlumatıdır və postpozitiv bölmənin son hissəsinin əvvəlinə yerləşdirilmişdir. Başlanğıcın sonunda ayrılan şəkilçi (auf) yerləşmişdir. Mövzunun dayaq sözü başlanğıcdan başqa, mikromətnin beş cümləsində də vardır. Bütün bu cümlələrdə mövzunun daşıyıcısı mübtəda rolunda çıxış edir, propozitiv bölmədə birinci və ikinci yerdə yerləşmişdir və eyni şəxs əvəzliyi ilə ifadə olunmuşdur.

Beləliklə, mövzunun dayaq sözü mikromətnin hər bir cümləsində və ya bir neçə cümləsində onların bir-biri ilə zəncirvari əlaqəsini formalaşdıraraq yerləşə bilər.

Təbii ki, mikromətnin mövzusunun dayaq sözü semantik cəhətdən çox yüklənmişdir və əksər hallarda cümlədə yeni məlumatın daşıyıcısı kimi çıxış edir. Beləliklə, cümlənin sonunda yerləşən isim və ya əvəzlik eyni zamanda iki funksiya 1) mikromətnin mövzusunun kommunikasiyası və 2) yeni məlumatın verilməsi funksiyalarını yerinə yetirir. Bu yalnız mikromətnin başlanğıc hissəsinin sonuna xasdır. Mikromətnin orta və son hissələrində isim və ya əvəzlik mövzunun dayaq sözü funksiyasını özündə saxlayaraq yeni məlumatın daşıyıcısı olmaya da bilər.

Əgər son mərhələnin konkretləşdirici mahiyyətdə olması mücərrəd başlanğıc mərhələ ilə şərtlənirsə, mücərrəd sonluq, əksinə, konkret başlanğıcın nəticəsi kimi özünü göstərir. Konkret başlanğıc elə başlanğıcdır ki, burada mətnin məzmun və informasiyası sanki birdən, əvvəlcədən verilir. Məqsəd isə bu məlumatın sonrakı komponentlərdə müxtəlif istiqamətlərdən inkişaf etməsi, əlavə səciyyələrlə zənginləşməsidir. Azərbaycan dilində belə bir misala diqqət edək:

Təbiətin qoynunda bir məzar da artdı. Tər çiçəklər, güllər içində. Üzü dağlara, yamaclara sarı. Ziyarətə gələnlər bilmirdilər ki, bu tənha məzarın qəmli sükutunda, qərib zülmətində zəngin bir xəzinə dəfn edilmişdir. O, şairin şirin arzularla dolu könlü idi (S. Qədirzadə).

Bu mətnin başlanğıcı bir cümlədən və bu cümləyə aid iki sintaktik birləşmədən ibarətdir (*Təbiətin qoynunda bir məzar da artdı. Tər çiçəklər, güllər içində. Üzü dağlara, yamaclara sarı*). Asanlıqla müşahidə etmək olur ki, mətnin birinci komponenti, yəni bütün başlanğıc mərhələsi situasiyanın konkret ifadəsindən ibarətdir. Birinci cümlənin məzmunundakı konkretliklə kifayətlənməyib, hətta onu başlanğıc mərhələnin o biri komponentləri ilə, yəni parselyatiklərlə bir qədər də konkretləşdirirlər. Mətnin orta mərhələsi əsas informativ yükün daşıyıcısıdır və öz-özlüyündə konkretlikdən mücərrədliyə doğru bir addımdır. Mətnin bu hissəsində artıq haqqında söhbət gedən obyektin başqa şəkildə təkrarı ilə qarşılaşırıq. Bu hissədə *məzar* sözü *xəzinə* sözü ilə təkrarlanır və bu təkrarlanma mücərrəd təkrarlanmadır. Təkrarın mücərrədləşməsi sonuncu mərhələdə davam etdirilir. *Könül* elementi mətndən keçən təkrarın bir komponenti kimi maksimal mücərrədləşməni ifadə edir.

Beləliklə, *məzar-xəzinə-könül* sözləri konkretləşmədən mücərrədləşməyə doğru olan istiqamətdə müxtəlif mərhələlərdə özünü göstərən eyni anlamın başqa-başqa dil vahidləridir. Mətnin sonluğu özünü bu təkrar komponentlərin ən mücərrəd elementi olan *könül* elementinin köməyi ilə nəticə etibarilə bütün mətnin mücərrədləşmiş nəticəsi kimi göstərir.

Bütün bunlar ümumi şəkildə Azərbaycan dilində mətnin kompozisiya quruluşunun əsasları kimi özünü göstərir. Mətn daxilində kompozisiya qruplarının qarşılıqlı əlaqələri nəticə etibarilə mətnin məzmununun tam şəkildə ifadə edilməsinə xidmət edir.

Başlanğıc cümlənin sonunun retrospektiv əlaqə funksiyasını ifadə etməsi yalnız o hallarda müşahidə olunur ki, həmin mikromətn bütöv mətnin tam əvvəlində yer almır və mövzu baxımından əvvəlki mikromətnlə birləşir. Məsələn:

Der Marquis hatte den Rundgang beendet. | Jetzt durfte er sich die groβe Freude gönnen, *seinem Sohn* die bevorstehende Ankunft Jean – Jacques' zu verkünden. ||.

Er schickte *nach ihm.* | Fernand kam. | Der sibzehnjährige Fernand – er trug als Erbe des Seigneurs von Ermenonville den Titel eines Grafen Brégy – war noch einfacher gekleidet als der Marquis; statt im üblichen prächtigen Rock und kostbar bestickten Wams war er im offenen Hemd. (L. Feuchtwanger. Narrenweisheit, S. 12).

Birinci mikromətnin sonuncu cümləsini və ikinci mikromətnin başlanğıcını müzakirə edərkən onların birbaşa sintaktik məna əlaqəsi aşkar edilir. Bunu ikinci mikromətnin mövzusunun daşıyıcısı – eyni şəxsi müxtəlif leksik vasitələrlə ifadə edən üzvlər göstərir.

İki cümlədə bu üzvlər son bölməyə yerləşmişdir və yeni məlumat bildirir və ya yeni cümlə qrupuna daxildir. Belə ki, birinci mikromətnin son cümləsində məsdər qrupu ilə ifadə olunmuş geniş tamamlıq (seinem Sohn die bevorstehende Ankunft Jean – Jacques' zu verkünden) çərçivədən kənara çıxır. Bu geniş tamamlığın

daxilində yönlük halda ifadə olunmuş tamamlıq (seinem Sohn) ikinci mikromətnin başlanğıcının sonunda yerləşən çıxışlıq halda ifadə olunmuş tamamlıqla (nach ihm) əlaqəsi qeyd oluna bilər.

Baxmayaraq ki, ikinci mikromətnin söz – mövzunun daşıyıcısı birinci mikromətnin sonuncu cümləsində ikincidərəcəli üzv kimi təqdim olunmuşdur, bu üzv kommunikativ əhəmiyyətli cümlənin sonuna keçirilməklə geniş tamamlığın tərkibinə daxil olur. Qeyd etmək lazımdır ki, məhz birinci mikromətnin sonuncu cümləsinin geniş tamamlığı həmin parçanın əsas mövzusunun daxilində yeni mikromətnə keçməsini bildirir.

İkinci mikromətnin başlanğıcı birinci mikromətnin sonuncu cümləsi ilə "tamamlıq – tamamlıq" (seinem Sohn – nach ihm) əlaqəsi ilə bağlanır, ikinci mikromətnin başlanğıcının sonu isə retrospektiv sinsemantikasının göstəricisidir və retrospektiv əlaqəni ifadə edir.

Bütün bunlar Azərbaycan və alman mətnlərində dil vasitələrinin qarşılıqlı əlaqəsini müqayisəli şəkildə tədqiq etməyə geniş imkan yaradır.

ƏDƏBİYYAT

1. Abdullayev K.M. və b. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim, 2012, 608 s.

2. Qurbanov A.M. Bədii mətnin linqvistik təhlili. Bakı: Nurlan, 2005, 476 s.

3. Адмони В.Г. Синтаксис современного немецкого языка (система отношений и система построения). Ленинград: Наука, 1973, 366 с.

4. Вардуль И. Ф. Основы описательной лингвистики. Синтаксис и супрасинтаксис. Москва: Наука, 1977, 351 с.

5. Гальперин И.Р. Текст как объект лингвистического исследования. Москва: Наука, 1981, 139 с.

6. Мамедов Н.Ш. Текст и языковая коммуникация. Учебное пособие. Баку: Мутарджим, 2019, 252 с.

7. Москальская О.И. Грамматика текста. Москва: Высшая школа, 1981, 183 с.

8. Солганик Г.Я. Синтаксическая стилистика (сложное синтаксическое целое). Москва: Высшая школа, 1973, 214 с.

9. Черняховская Л.А. Перевод и смысловая структура. Москва, 1976.

10. Hartman P. Texte als linguistisches Objekt // Beiträge zur Linguistik. München, 1971, s. 216-224.

Х. Алиева

КАК СЛОЖНАЯ СИНТАКСИЧЕСКАЯ ЦЕЛЬНОТЕКСТОВАЯ ЕДИНИЦА

РЕЗЮМЕ

Текст характеризуется тем, что компоненты его структуры взаимосвязаны и взаимообусловлены. В составе текста завершенность его компонентов, т. е. предложений носит относительный характер. В тексте семантика предложения в зависимости от контекста может подвергаться определенному изменению. В макротексте можно выделять сложное синтаксическое целое как функционально-речевую единицу. Сложное синтаксическое целое организуется структурно-семантическим объединением предложений. Композиционно-смысловая структура сложного синтаксического целого состоит из зачина, средней части и концовки. Роль предложений, входящих в состав сложного синтаксического целого, различна.

Предложения, открывающие микротекст, в основном бывают самостоятельными и вводят в текст новую мысль. Предложения, составляющие среднюю часть микротекста, зависят от начального предложения и раскрывают мысль, которая намечается зачином и выражают основное содержание микротекста. Предложения, составляющие концовку микротекста, подводят своеобразный итог развиваемой в предыдущих предложениях мысли.

Каждое предложение микротекста, обладая определенным содержанием, осуществляет конкретное для данной ситуации коммуникативное задание. Полная характеристика микротекста возможна только при анализе микротекста в композиционно-тематическом, синтаксическом и коммуникативном аспектах. При освещении коммуникативной структуры микротекста особое внимание обращается на такие элементы, как опорное слово, «слово – носитель темы».

Ключевые слова: текст, сложное синтаксическое целое, связь предложений, слово, структура, семантика, коммуникация, сопоставление

X. Aliyeva

AS A COMPLEX SYNTACTICAL WHOLE TEXT UNIT

SUMMARY

The text is characterized by the fact that the components of its structure are interconnected and interdependent. As part of the text, the completeness of its components, i.e. sentences, is relative. In the text, the semantics of the sentence, depending on the context, may undergo a certain change. In a macrotext, a complex syntactic whole can be distinguished as a functional-speech unit. A complex syntactic whole is organized by a structural-semantic union of sentences. The compositional-semantic structure of a complex syntactic whole consists of a

beginning, a middle part and an ending. The role of sentences that make up a complex syntactic whole is different.

The sentences that open the microtext are mostly independent and introduce a new thought into the text. The sentences that make up the middle part of the microtext depend on the initial sentence and reveal the idea that is outlined by the beginning and express the main content of the microtext. The sentences that make up the ending of the microtext sum up the thought developed in the previous sentences.

Each sentence of the microtext, having a certain content, performs a specific communicative task for a given situation. A complete characterization of the microtext is possible only when analyzing the microtext in the compositional-thematic, syntactic and communicative aspects. When highlighting the communicative structure of the microtext, special attention is paid to such elements as the key word, "the word is the bearer of the theme".

Key words: text, complex syntactic whole, sentence connection, word, structure, semantics, communication, comparison

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: prof. S. Ə. Abdullayev
tərəfindən çapa tövsiyə olunmuşdur

SƏBİNƏ İSGƏNDƏROVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
sabina_adu@yahoo.com

MƏTN VƏ DİSKURS

XÜLASƏ

Məqalə mətn , diskurs mövzusuna həsr edilmişdir.Mətnin ən mühüm linqvistik kateqoriya kimi qəbul edilməsi dil sisteminin kommunikasya prosesində ayrılıqda götürülmüş cümlə deyil, məhz müxtəlif növlü mətnlərdə aktuallaşması ilə əlaqədardır.Mətn müəllifin ümumi fikir çərçivəsində məna baxımından bir-birinə bağlanmış müəyyən cümlələr ardıcıllığıdır.

Diskurs anlayışı strukturalizm cərəyanına mənsub dilçilər tərəfindən danışıq aktının sosial baxımdan şərtlənməsinin təhlili üçün irəli sürülüb.Diskurs həyata köçürülmüş danışıqdır.A.Kibrikin qeyd etdiyi kimi diskurs eyni zamanda həm dil fəaliyyəti prosesidir,həm də onun nəticəsidir.

Mətn bilavasirə maddi varlıqdır və onu bu yanaşma çərçivəsində tədqiq etmək mümkündür.Lakin diskursun təhlili üçün biz mövcud danışıq aktında mətndəki eksplisit informasiyadan əlavə mətnarxası nəyin nəzərdə tutulduğunu bilməliyik.

Açar sözlər: mətn,diskurs,dilçilik,ünsiyyət,struktur

Keçən əsrin 70-ci illərində dilçilik elmində funksionalizmin meydana gəlməsi mətnin formalaşması və başa düşülməsi proseslərinə – diskursa yeni marağın oyanması ilə bilavasitə bağlı idi. Hazırda diskursa müxtəlif tərəfdən – sosioloji, psixoloji, tarixi aspektlərdən yanaşılır. Dilçilikdə diskursun tədqiqinə maraq müasir funksionalizmin fundamental xüsusiyyətidir və bu amil onu dilçiliyin digər müasir sahələrindən, eləcə də əvvəlki istiqamətlərindən fərqləndirir.

Funksional dilçilikdə diskurs təhlilinin mərkəzi rol oynamasının əsas səbəbi aşağıdakılardır. Funksionalizm müşahidə olunan dil formasının izahının axtarışı ilə məşğuldur. Funksionalistlər belə bir fikrə əsaslanırlar ki, forma əhəmiyyətli dərəcədə real həyatda daşıdığı funksiya ilə bağlıdır və onunla izah olunur. Real şəraitdə dilin fəaliyyəti faktiki olaraq diskursdur.

Linqvistik biliklərin yeni paradiqmi ilə bağlı məsələləri nəzərdən keçirərkən, “mətn”, “mətn kateqoriyaları” və nəhayət, “diskurs” anlayışları üçün səciyyəvi olan modifikasiyalar diqqət mərkəzinə çevrilir.

Beləliklə, ünsiyyətin əsas komponenti kimi mətn - diskurs çıxış edir.

Q.Kolşanskiyə görə, mətn struktur cəhətdən bütövləşmiş və təşkil

olunmuş ən yüksək səviyyəli kommunikativ vahiddir və ünsiyyətin koqnitiv, informasiya, psixoloji və sosial yükünü daşıyır [6, 12]. Mətnin yaranması prosesi, yəni diskurs ünsiyyətin müəyyən dominant mövqeyə malik məna nüvəsinin məntiqi ardıcıllıqla açılması kimi nəzərdən keçirilir.

Diskursiv təhlilin mahiyyəti mətnin məna ilə tutumunu və nəyin onu əlaqəli və başa düşülən etdiyini müəyyənləşdirməkdən ibarətdir. Bu zaman mətnin linqvistik mahiyyətinin nədən ibarət olduğu məsələsi ön plana çıxır.

Mətn sahəsi hüdudsuzdur. Lakin onu araşdırmaq üçün bütün dövrlərdə müəyyən cəhdlər göstərilmişdir. Keçən əsrdə strukturalist ruhda N.Pospelov, Q.Solqanik, Z.Hərris, R.Bart və digərləri bu istiqamətdə səylər göstərmişlər.

Məlum olduğu kimi, mətn dilçiliyi problemləri linqvistik tədqiqatların mərkəzinə çevrilmişdir. Mətnin ən mühüm linqvistik kateqoriya kimi qəbul edilməsi dil sisteminin kommunıkasiya prosesində ayrılıqda götürülmüş cümlədə deyil, məhz müxtəlif növlü mətnlərdə aktuallaşması ilə bağlıdır. Mətnin müxtəlif kommunikasiya şəraitində struktur təşkilinin linqvistik qanunauyğunluqları məsələləri dilçiləri daha çox cəlb edir. Belə ki, bu və yaxud digər dil hadisəsinin mətn səviyyəsində tədqiqi qrammatikaya, leksikaya, üslubiyyata aid bir sıra hadisə və faktlara yeni baxış imkanı verir. Mətnə müasir yanaşma çərçivəsində ardıcıl cümlələr arasındakı semantik və formal əlaqə problemləri ilə yanaşı, kommunikativ aspektlə bağlı «düzgün» və «uğurlu» ünsiyyətin əldə olunması şərtlərinin tədbiqi vəzifəsi kimi məsələlər durur. Mətn anlayışı birmənalı tərifə malik deyil. Onun müxtəlif tərifləri arasında oxşar və fərqli cəhətləri qeyd etmək lazımdır. Məsələn, H.Vaynrix hesab edir ki, «mətn- morfemlərin qaydalı ardıcıllığıdır. Bu ardıcıllıq ən azı iki, maksimal həcmi isə məlum olmayan sayda morfemlərdən ibarətdir. Hər bir morfemin öz mənası olduğu ilə əlaqədar onlar bir-birləri üçün kontekst yaradır və onların semantik dəyərlilikləri qarşılıqlı şəkildə müəyyənləşir» [3,373]. İndi isə, Z.Şmidtin tərifinə diqqət yetirək: «Mətn öz funksiyalarında mövcud çox saylı söyləm mahiyyəti daşıyır» [12,96]. Bir qədər oxşar tərif T.Nikolayevaya məxsusdur: «Mətn müəllifin ümumi fikri çərçivəsində məna baxımından bir-birinə bağlanmış müəyyən cümlələr ardıcıllığıdır» [9,8].

Bu istiqamətdə sonrakı tədqiqatlar müxtəlif tipli mətnlərə daha differensial yanaşmaya gətirib çıxarmışdır. Belə ki, artıq mətnin sərhədlərinin kifayət qədər dəyişkən və onun bir söyləmədən çoxcildli əsərlərə qədər müxtəlif həcmdən ibarət olduğu qəbul olunur. Məsələn, İ.Qalperın mətni «başlığı və müəyyən məqsədyönlüyə və praqmatik mərama malik leksik, qrammatik, məntiqi, üslubi əlaqələrin müxtəlif

vasitəsilə birləşmiş bir sıra xüsusi vahidlər (frazafövqi birliklər) ilə birgə bitıniş və ədəbi işlənmiş nitq əsərini təşkil edən dil nişanlarının qaydalı və yazılı birliyi» kimi təyin edir [4,18]. Prinsip etıbarilə mətnin bu təyini ilə O.Moskalskayanın mətn bölgüsü üst-üstə düşür: 1) bütöv nitq əsəri-mətn, yəni sözün geniş mənasında mətn və yaxud - makro-mətn və 2) frazafövqi birlik (mürəkkəb sintaktik bütöv) sözün kiçik mənasında mətn və yaxud mikro mətn» [8,5]. Bununla belə, mətnin dəqiq təyini, onun sərhədlərinin müəyyən olunması, mətnin kəsiklərə bölünməsi üsulları, onu təşkil edən vahidlərin statusunun muəyyən olunması, onun yaradılmasında iştirak edən semantik və formal amillərin nisbəti kimi problemlər isə hələ də öz tam həllini tapmayıb.

Mətnin öyrənilməsində iki üsul özünü göstərir. Birinci üsul propozisional, ikinci isə kommunikativ üsul kimi qəbul olunur [1, 182].

Propozisional üsul mətni müəyyənləşdirəcək parametrlərin yuxarıda qeyd edildiyi kimi, cümlənin artıq məlum qanunauyğunluqlarının mətnə köçürülməsindən doğur. Belə köçürülmə, təbii ki, öz müsbət nəticəsini verməlidir. Müsbət nəticə burada mətnin özünün linqvistik statusunun əsaslı surətdə olmasıdır. Cümlə ilə bağlılıq, mətnin öyrənilməsinə «aşağıdan», cümlədən gəlmək, prinsip etibarilə, nəticədə mətn problematikasını bilavasitə dilçilik problematikası edən cəhətlərdəndir.

Qeyd etdiyimiz kimi, ikinci üsul kommunikativ üsuldur. Bu üsul mətnin öyrənilməsini, onun immanent xüsusiyyətlərinin üzə çıxarılmasını digər homogen quruluşlara müraciət etmədən aparır. Bu üsul və yaxud belə bir yanaşma mətnin bütöv obyekt kimi spesifik xüsusiyyətlərinin dəqiq şəkildə differensiyasını şərtləndirir, mətni bir bütöv kimi xarakterizə etməyə imkan verir, onun özünəməxsus səciyyəsini ortaya qoymağa çalışır. Göründüyü kimi, cümlə sintaksisi ilə mətn sintaksisi arasında kəskin fərq qoyulur. Cümləyə olan münasibətlər keyfiyyət baxımından ayrılır və bu iki sintaktik səviyyənin bir-birinə nüfuz etməməsinə çalışılır. Bəzən, isə mətnin təsvirində digər sintaktik vahidlərin, xüsusilə cümlənin verə biləcəyi imkanların nəzərə alınması bildirilir və sintaktik səviyyə komponentləri bir-birilə daha çox əlaqəsi olan bütöv sistem kimi qəbul edilir.

Mətn dilçiliyinin inkişafı, xüsusilə bizim mətnlər vasitəsilə ünsiyyət aktını həyata keçirməyimiz, eləcə də bir cümlədən ibarət mətnin mövcudluğu ilə bağlı fikirlər cümlədən sonrakı struktur vahid kimi məhz mətnin öyrənilməsinin vacibliyini irəli sürür. *Diskurs* termini isə *mətn* termini funksiyasında və əsasən konkret mətn mənasında işlənir. Müasir fəlsəfə lüğətində *diskurs* termini belə açıqlanır: “Diskurs strukturalizm cərəyanına mənsub dilçilər tərəfindən danışıq aktının sosial baxımdan şərtlənməsinin təhlili üçün irəli sürülüb. Diskurs anlayışı poststrukturalizm və dekonstruksiya meyllərinin güclənməsi şəraitində

daha çox populyarlıq qazanır. Bir qayda olaraq, fəlsəfədə, sosiologiyada, semantikada tətbiq olunur. Tez-tez, sadəcə, "nitq"in sinonimi kimi də işlənir".

Dilçilik baxımından həmin tərif diskursun linqvistik mahiyyətini, onun təhlilinin xüsusiyyət və spesifikasını açmır. Linqvistik terminlər lüğətində isə onun daha məqbul tərifini tapırıq: "Ekstralinqvistik, praqmatik və digər amillərlə birgə əlaqəli mətn; hadisə aspektində götürülmüş mətn, məqsədyönlü sosial fəaliyyət kimi, insanların qarşılıqlı əlaqəsində və onların şüurlarının mexanizmlərində (koqnitiv proseslərdə) iştirak edən komponent kimi nəzərdən keçirilən nitq. Diskurs həyata köçürülmüş danışıqdır. Buna görə də diskurs terminindən, mətn termininin əksi olaraq, qədim və digər mətnlərə münasibətdə istifadə olunmur. Buna səbəb bu tip mətnlərdə canlı danışıq dili ilə əlaqənin birbaşa bərpa olunmasının mümkünsüzlüyüdür" [10-137].Zənnimizcə N.Enkvistin diskursa verdiyi klassik tərifi ilə razılaşmaq olar.Diskurs mətn ilə sosial komponentə malik kontekstin üzvi aktuallaşmasıdır.

Mətn ilə *diskurs* arasındakı terminoloji fərqlər məsələsi digər, kifayət qədər mürəkkəb problemin yaranmasına səbəb olur – mətn dilçiliyi diskursiv təhlildən nə ilə fərqlənir?

Diskursiv təhlilə həsr olunmuş əsərlərdə onun mətnlərarası səciyyə daşıdığına işarə edilir. Eyni zamanda mətnlə məşğul olan tədqiqatçılar da həmin səciyyəni mətnə aid edir. Mətn bir vasitə olaraq daha çox abstrakt formal konstruksiya kimi nəzərdən keçirildiyi halda, diskurs mental proseslər nöqteyi nəzərindən və ekstralinqvistik amillərlə bağlı nəzərədən keçirilir. Əslində diskurs formal konstruksiyanın müxtəlif növ aktuallaşmasıdır.

Buna görə də diskursiv təhlil daha çox mətnlərarası sahə olaraq yalnız dilçiləri deyil, həmçinin sosioloqları və psixoloqları özünə cəlb edir. Mətn və diskurs anlayışlarının fərqləndirilməsi çətinliklərinə (buradan mətn dilçiliyinin və mətn qrammatikasının diskursiv təhlil ilə çulğalaşması meydana gəlir) baxmayaraq, yuxarıda qeyd edilən amilə görə mətni diskursdan ayırmaq mümkündür. Mətn hazır reallıq kimi öz bitkinliyində öyrənilə bildiyi halda, diskurs öz spesifik xüsusiyyətlərinə malik mətnlər yaranması prosesi kimi öyrənilməlidir. Mətn bilavasitə maddi varlıqdır və onu bu yanaşma çərçivəsində tədqiq etmək mümkündür. Lakin diskurs daha mürəkkəbdir və onun təhlili üçün biz mətni göndərənin niyyətini, fikrini bərpa etməliyik, yəni gözümüz önündə mövcud danışıq aktında mətndəki eksplisit informasiyadan əlavə mətnarxası nəyin nəzərdə tutulduğunu müəyyənləşdirməliyik. Diskursiv təhlil mental modelləri öyrənmədən aparıla bilməz, çünki onlar həm ümumi, həm də xüsusi semantik strukturların qurulması kimi strateji məqsədlər üçün lazımı kommunikativ informasiyanın seçilməsinin real

əsasını təşkil edir.

Beləliklə, diskurs anlayışı ekstralinqvistik amilləri ehtiva edir. A.Kibrikin göstərdiyi kimi, "diskurs" mətndən daha geniş anlayışdır. Diskurs eyni zamanda həm dil fəaliyyəti prosesidir, həm də onun nəticəsidir, nəticə isə elə mətnin özüdür" [5,307].R.Wodak diskursa biliyin modellərini və strukturlarını özündə ehtiva etdiyini,mətni isə sadəcə olaraq diskursun spesifik və unikal realizəsi olduğunu bildirir.[14,123]

Beləliklə, diskurs mətn ilə qarşı-qarşıya qoyularaq "fəaliyyətdə" olan danışıq parçası kimi qəbul edilir. O, müəyyən mənanı kontektsdə əldə edir. Bu kontekst dildə məlumatı göndərən tərəfindən müəyyən məqsədlərlə, konkret şəraitdə və konkret mənada istifadə edilir.

Əlbəttə ki, hər bir təbii hadisə kimi diskurs da struktura malikdir. Bu sahədə tədqiqatlar çoxluq təşkil etsə də, dilçilər diskusrdakı komponentlər və yaxud vahidlər arasında mətn ilə, demək olar ki, eyni münasibətlərin mövcudluğunu qəbul edir. U.Mann və S.Tompson ritorik strukturlar nəzəriyyəsini işləyərək diskurs strukturunun maraqlı modelini hazırlamışlar [13, 39]. Bu nəzəriyyəyə əsasən diskursun hər hansı bir vahidi həmin diskursun digər bir vahidi ilə məna bitkinliyinə malik əlaqə vasitəsilə bağlıdır. Həmin əlaqələr ritorik münasibətlər adlanır. "Ritorik" termini şərti səciyyə daşıyır və hər bir diskurs vahidi özlüyündə deyil, mətnötürücüsü tərəfindən müəyyən məqsədə nail olmaq üçün digərinə əlavə mahiyyəti daşıyır. Ritorik münasibətlərə daxil olan diskurs vahidləri maksimal (bütöv diskurs) həcmdən minimal (ayrı-ayrı sadə cümlələr) həcmədək müxtəlif ola bilər. Diskurs iyerarxik şəkildə qurulub və bu iyerarxiyanın bütün səviyyələrində eyni ritorik münasibətlər istifadə olunur.

Ədəbiyyat

Azrbaycan dilində

1. Абдуллайев К.М. Азярбайъан дили синтаксисинин нязяри проблемляри. Бакы: Maarif, 1998, 284 s.
2. Mяmmяdov A.Y. Mятn yaranmasыnda formal яlaqя vasitяlяrinin sistemi. Бакы: Elm, 2001, 144 с.

Rus dilində

3. Вайнрих Х. Текстовая функция французского артикля // Новое в зарубежной лингвистике. М.: 1978, Вып. VIII, с. 370-387
4. Гальперин И.Р. Текст как объект лингвистического исследования М.: 1981, 139 с
5. Кибрик А.А. и др. Функционализм // Фундаментальные направле-

ния современной американской лингвистики. Сб. обзоров. Под. ред. А.А. Кибрика, И.М.Кобозевой, И.А. Секериной. М.: МГУ, 1997, с. 276-339
6. Колшанский Г.В.Коммуникативная функция и структура языка. М.: 1984, 175 с.
7. Мамедов А.Я. Роль формальных средств связи в построении макротекста // Вестник МГЛУ, М., 2002, Вып. 469, с. 109-112
8. Москальская О.И. Грамматика текста. М.: Высшая школа, 1981, 183 с. Николаева Т.М. Лингвистика текста. Современное состояние и перспективы // Новое в зарубежной лингвистике. М., 1978, Вып.VIII, с. 5-39
9. Николаева Т.М. Лингвистика текста. Современное состояние и перспективы // Новое в зарубежной лингвистике. М., 1978, Вып.VIII, с. 5-39
10. Словарь лингвистических терминов. М., 1990, 441 с
11. Смирницкий А.И. Древнеанглийский язык. М., 1955, 318 с
12. Шмидт З. «Текст» и «история» как базовые категории // Новое в зарубежной лингвистике. М., 1976, Вып. III, с. 89-108

İngilis dilində

13. Mann W.C., Matthiessen C.M., Thompson S.A. Rhetorical structure, Theory and Text analysis. 1992, pp. 39-78
14. Wodak R. The Discourse of Politics in Action. Politics as Usual. Hampshire: Palgrave Macmillan, 2009,252 p.

С. ИСКАНДАРОВА

ТЕКСТ И ДИСКУРС

РЕЗЮМЕ

Статья посвящена теме текста и дискурса. Принятие текста как важнейшей языковой категории связано с тем, что языковая система не является отдельным предложением в процессе коммуникации, а актуализируется в разных типах текстов. Лингвистами, принадлежащими к направлению структурализма, концепция дискурса была выдвинута для анализа социальной

обусловленности речевого акта. Дискурс есть речь, перенесенная в жизнь. Как отмечал А.Кибрик, дискурс есть и процесс языковой деятельности, и ее результат. Текст есть непосредственная материальная сущность и в рамках этого подхода возможно его изучение…Однако для анализа дискурса нам необходима знать, что подразумевается в существующем речевом акте, помимо эксплицитной информации в тексте.

Ключевые слова: текст, дискурс, лингвистика,коммуникация,структура

S. ISKHANDAROVA

TEXT AND DISCOURSE

The article is dedicated to the topic of text and discourse.Accepting the text as the most important linguistic category is related to the fact that the language system is actualized not by separate sentences but by different types of texts in the communication process. Text consists of diferent sentences connected together denoting a certain meaning. It was put forward by linguists belonging to the structural movement that the concept of discourse analyses the social conditioning of the act of speaking. Discourse is a speech transferred to life.As noted by A.Kibrik discourse is both the process of language activity and its result. The text is an immediate material entity and can be studied within the framework of this approach. However, for the analysis of the discourse, we need to know what is meant in the context, in addition to the explicit information in the text.

Key words: text, discourse,linguistics,communication,structure

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Aytən Hümbətova tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

AQŞİN DADAŞ-ZADƏ
filologiya üzrə fəlsəfə doktoru
AMEA Ədəbiyyat İnstitutu
Hüseyn Cavid prospekti, 115
agshin1960@rambler.ru

KLASSİK AZƏRBAYCAN MÜƏLLİFLƏRİNİN PYESLƏRİNDƏ DRAM ÜNSÜRLƏRİ

Xülasə

Azərbaycan ədəbiyyatı digər xalqların ədəbiyyatı kimi konkret tarixi-coğrafi, etnopsixoloji, ictimai-sosial amillərin ciddi təsiri şəraitində formalaşmış və inkişaf etmişdir. Bu proses dramaturgiya kimi məxsusi özəllikləri ilə seçilən ədəbi növdə xüsusilə aydın şəkildə müşahidə edilir. Qeyd etmək zəruridir ki, milli şüurun sürətlə və gur inkişaf etdiyi bir dövrdə Azərbaycan müəllifləri tərəfindən yazılan pyeslər hər zaman öz janr əlvanlığı ilə diqqətə səbəb olmuşdur. Ədəbiyyatşünaslıq elmi nöqteyi-nəzərindən özündə məhz bu səciyyəni ehtiva edən əsərlər böyük maraq kəsb etmiş və zaman-zaman təhlilə cəlb olunmuşdur. Belə ki, milli dramaturgiyanın klassik dövrünün N.Vəzirov, N.Nərimanov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, C.Cabbarlı kimi ünlü sənətkarlarının pyesləri araşdırılan mövzu çərçivəsində böyük əhəmiyyət daşıyır. Məqalə müəllifi adı göstərilən qələm sahiblərinin bəzi pyeslərini təhlil obyekti kimi seçərək, onlarda məhz dram ünsürlərinin (dram janrına aid spesifik cizgilərin) əlamətlərini arayıb aşkar etməyə çalışır, ayrı-ayrı əsərlərin ruhuna hopmuş dramatizmin əsas cəhətlərini vurğulayır. Bu zaman həmin əsərlərin ümumi pafosuna, onların oxucu və tamaşaçıda oyatdığı əhvali-ruhiyyənin keyfiyyətinin (özəl xüsusiyyətlərinin) təyin edilməsinə böyük önəm verilir. Məqalədə janr rəngarəngliyi və bir çox hallarda qarışıqlığı müstəvisində yalnız drama məxsus fərqləndirici və ortaq cizgilərin müəyyənləşdirilməsi, habelə nəzəri baxımdan qiymətləndirilməsi tədqiqatın aparıcı xəttini təşkil edir. Eyni zamanda sırf dram janrının klassik normativləri çərçivəsində sənətkarlarımız tərəfindən yaradılan ayrı-ayrı pyeslərin təsnifatı məsələsi ön plana çəkilir.

Açar sözlər: dram janrı, pyes, pafos, konflikt, yaradıcılıq

Ədəbiyyat tarixindən məlumdur ki, az qala üç min il bundan əvvəl qədim Yunanıstan torpağında mədəniyyətin tədrici və gur inkişafı nəticəsində, sözün klassik mənasında, dramaturgiya və teatr sənəti kimi incilər insanlara bəxş ediləndə bu

sahədə qələm işlədən şəxslər maraqlı bir gerçəkliklə üzləşmişdi. Söhbət ondan gedir ki, hələ o uzaq dövrdə yaradıcılıq işinə ciddi yanaşan ədiblər təxtəlşüur səviyyəsində bir gerçəkliyi duymamış deyildi. O da ondan ibarət idi ki, qələmə alınan əsərlərin hər birində (hamısında) mütləq şəkildə hər hansı bir ümumi, sanki bir qəlib təsiri bağışlayan standart əhvali-ruhiyyə, insanlara məxsus monoton səpkili emosiya və düşüncələr hökmranlıq edə bilməz. Odur ki, dramaturgiyanın beşiyində duran şəxslər şüur və yaradıcılıq qüvvələrini səfərbər edərək təsvir etdiyi hadisələrə həm estetik, həm də emosional cəhətdən müvafiq bir forma, habelə ovqat vermək haqqında fikirləşməli olurdu. Sırf nəzəri cəhətdən bu düşüncələr (təşəbbüslər) dram sənətinin quruluşunu, strukturunu, estetik mahiyyətini ifadə etmək baxımından öz əksini Aristotelin məşhur "Poetika" traktatında tapdı və öz dövrü üçün kifayət qədər ciddi şəkildə ümumiləşdirildi. Beləliklə, təqribən elə o zaman kəsiyindən etibarən dram əsərlərinin fərqli növlərə (janrlara) bölünə bilməsi kimi mühüm yaradıcılıq məsələsinin aktuallığı, hətta qaçılmaz zəruriliyi tədricən ön plana keçməyə başladı. Elə isə biz də özümüzə "dramaturgiyada janr nədir?" kimi vacib bir sualı ünvanlaya bilərik. Bu zaman yenə də nəzəri ədəbiyyata söykənərək təxminən belə bir fikir irəli sürmək olar ki, "janr hər şeydən əvvəl dramaturqa həyatı müəyyən bir baxış bucağı (rakurs) altında təsvir etməyə, onda ən vacib cəhətləri aşkara çıxarmağa yardım edən "məzmun forması"dır. Bu cəhətdən o, əsərin strukturuna təsir göstərən fəal forma səciyyəsi daşıyır. Onu hər hansı bir müvafiq materialı arxitektonika baxımından quran məna faktoru kimi dərk etmək lazımdır" (3, 12).

Şübhə doğurmur ki, hər bir dram əsərini əsaslı surətdə fərqləndirən cəhət onun konfliktinin pafosu ilə əlaqədardır. Məsələn, faciə janrında yazılan nümunələr konflikt baxımından gərgin toqquşmalarla müşayiət olunan "ağır çəkili" pafosa, insanın şüur və qəlbini lərzəyə gətirə biləcək olduqca təsirli, düşündürücü, sirayətedici "məxanizm"ə malikdir. Bununla belə, hər bir faciə oxucu və tamaşaçılara təqdim edilən problemin ayrı-ayrı xüsusiyyətlərinə görə özünəməxsus keyfiyyətlər sərgiləyir. Ona görə də ixtiyari (istənilən) bir janr daxilində belə yekcins, monolit mənzərə müşahidə edilmir. Nəticədə "mifoloji", "etoloji" (insanların sosial həyatını, ayrı-ayrı fərdlərin və ümumiyyətlə cəmiyyətin mənəvi-əxlaqi durumunu təsvir edən—A.D.), "milli-tarixi", roman üslubunda yazılan faciələr (2, 210) meydana gəlir. Dram janrında qələmə alınan nümunələrə də (söhbət klassik mənada formalaşmış dramlardan gedir— A.D.) belə bir yanaşma üsulu tətbiq etsək, yenə də konfliktinin spesifikasına əsasən pyesləri nəzəri cəhətdən həm "milli-tarixi", həm də roman üslubunda yazılan növlərə bölmək olar. Maraqlıdır ki, məhz roman üslublu dramlar konflikt və pafosunun cizgilərinə görə fərqli bir mənzərə yaratmaq iqtidarındadır. O səbəbdən ki, onların kəskin toqquşmalardan əsasən uzaq olan konflikt quruluşu və pafosunun mütləq şəkildə yüksək dramatizm üzərində ucalması mütləq şərt deyil.

Bu məqamda yuxarıda ifadə edilən fikirlərə istinadən mövzunu klassik Azərbaycan dramaturgiyasının bəzi nümunələri əsasında daha dərindən açmaq

zərurəti meydana gəlir. Ona görə ki, həmin ədəbi irsi formalaşdıran şəxsiyyətlər toxunduqları mühüm ictimai-siyasi, mənəvi problemləri "auditoriyaya" daha anlaşıqlı formada çatdırmaqdan ötrü daim münasib ifadə üsulları axtarışında olmuşdur.

Əgər məsələyə dram sənətinin tarixi və estetikası baxımından yanaşırıqsa (mövzu isə bunu bizdən tələb edir—A.D.), təbii ki, N.B.Vəzirov kimi zəngin bədii irsə malik sənətkarın yaradıcılığından yan ötə bilmərik. Məsələn, onun "Daldan atılan daş topuğa dəyər" pyesi (1890) məqaləmizin mövzusu çərçivəsində müəyyən və heç də əsassız olmayan bir maraq oyadır. Müəllif bu əsərində artıq dövrün gedişi ilə ayaqlaşmayan, insanları mənəvi-psixoloji cəhətdən şikəst edən, onları gülünc, hətta eybəcər vəziyyətə salan adətləri orijinal şəkildə ifşa etməyə çalışmışdır. Pyesin əsas qadın qəhrəmanının (Xırda xanım), guya ki, öz övladının xoşbəxtliyi uğrunda apardığı mübarizə üsulu tamamilə yanlış (bəzən ağlasığmaz) və cəmiyyət üçün zərərli əsaslara istinad etdiyindən, onun bütün təşəbbüsləri eyni zamanda həm dramatik, həm də yeri gəldikcə komik (daha çox satirik) elementlərlə müşayiət olunur. Burada qeyd edilməlidir ki, dram bir janr kimi ədəbi növün digər iki əsas janrından (faciə və komediya) fərqli olaraq, daha çevik, dəyişkən və ən başlıcası, universal keyfiyyətlərə malik olduğu üçün onlarla (yəni adı çəkilən digər iki janrla) elə bir maneəyə rast gəlmədən vəhdət təşkil edə bilir. Dramın bir janr olaraq struktur və spesifik xüsusiyyətləri ona hətta daha geniş mənada epos və lirikanın da müxtəlif elementləri ilə sıx təmas yaratmaq imkanı verir. Bir sözlə, bədii yaradıcılıqda dram digər iki aparıcı janra nisbətən, bir növ, "hibridləşmə" prosesinin təzahürü kimi çıxış etmək iqtidarındadır. Zənnimizcə, haqqında bəhs etdiyimiz pyesdə dramın məhz bu keyfiyyətlərini müşahidə etmək mümkündür. Burada cərəyan edən hadisələrin dramatik axarı bəzən pyesin digər bir personajının (Dəli Şirin) müdaxilələri ilə bir dərəcəyədək səngisə və daha çox tragikomik əhvali-ruhiyyə yaratsa da, bu hal müvəqqəti xarakter daşıyır. Əslində isə mayası yanlış təsəvvürlərdən yoğrulmuş niyyət uğrunda aparılan, mahiyyətinə görə mənasız və yeri gəldikcə, amansız mübarizə tamaşaçını pyesin sonunadək gərgin bir vəziyyətdə saxlamaqla, dram janrının özündə ehtiva etdiyi normativlərə cavab verir. Bununla əlaqədar söyləmək olar ki, N.Vəzirov göstərilən pyesdə dominant səviyyəyə çatdırdığı dramatik kolliziyanın toxumasına satirik mahiyyət daşıyan səhnələri uğurla daxil etməklə, sənətkarlıq baxımından maraqlı bir bədii nümunə yaratmağa müvəffəq olmuşdur. İlk nəzərdə bu pyesin janrının şərti olaraq "əxlaqi komediya" kimi müəyyən edilməsi istəyi ortaya çıxsa da, onu daha çox "məişət" dramı, hətta sosial-məişət zəminli dram kimi təsnif etmək daha məqsədəuyğundur. Söz yox ki, bu əsəri XIX əsrin sonunda, yəni dramaturgiyanın Azərbaycan ədəbi-bədii mühitində hələ kifayət qədər təşəkkül tapmadığı bir reallıqda estetik novatorluq nöqteyi-nəzərindən irəliyə doğru atılmış inamlı bir addım hesab etmək olar.

N.Vəzirovun janr spesifikası etibarilə diqqəti çəkən pyeslərindən biri də "Yağışdan çıxdıq, yağmura düşdük" (1895) əsəridir. Ədibin məşhur qələm

məhsullarından biri olan bu bədii nümunə ədəbiyyatşünaslığıımızda daha çox bir komediya kimi təhlil edilsə də, onun konflikt qatını təşkil edən ünsürlərin özəllikləri, kəskin təzad və dəyişikliklər üzərində qurulan süjeti və bəzi surətlərinin təsvir olunan hadisələrə müdaxilə tərzi məsələyə bir qədər fərqli rakursdan yanaşılmasını tələb edir. Bəllidir ki, bu pyesin əsas dramaturji konstruksiyası bir-biri ilə üzvi şəkildə bağlı olan iki süjet xəttindən ibarətdir. Əgər şərti olaraq "birinci" adlandırdığımız xətt boyu cərəyan edən hadisələrin bir-birini əvəz etməsi zamanı müəllif daha çox yumoristik, yeri gəldikcə də satirik boyalardan istifadə etmişsə, süjetin ikinci qatı çərçivəsində izlədiyimiz hadisələr ümumi mənzərəni bir qədər dəyişir. Həqiqət naminə qeyd edilməlidir ki, pyesin, əgər belə demək mümkünsə, birinci hissəsində də baş qəhrəmanın (Hacı Qənbər) qəflətən müflis olması bu personaj üçün mənəvi-psixoloji planda kifayət qədər ağır bir durum yaradır ki, həmin amil dram janrının ümumi qaydaları ilə tam uzlaşır. Bu məqamda müəllif cəmiyyətdə müəyyən mövqe tutan, lakin gözlənilmədən sosial dayaqlarını itirən bir şəxsə olan münasibətin kəskin, özü də amansız şəkildə dəyişməsini realist boyalarala əks etdirərək, məhz dramatik əhvali-ruhiyyəni gücləndirmişdir. Müəyyən müddət ötdükdən sonra bu qəhrəman cəmiyyətdəki sosial mövqeyini bərpa etsə də, onun bundan sonra sərgilədiyi davranış, daha doğrusu, həmin davranışın mayasını təşkil edən ictimai-əxlaqi uyğunsuzluq kinayəli gülüşün səhnəyə qayıtmasına rəvac verir. Lakin elə bu kontekstdə də təsvir edilən insan miskinliyinin cizgiləri tədricən komediya ilə haşiyələnmiş sərhədi aşır və yenə də dramatik çalarlar "qazanmağa" başlayır. Əgər buna pyesin ayrı-ayrı səhnələrində onun ideoloji istiqamətini təyin edən (eləcə də müəllifin ideyasını açan—A.D.) başqa bir personajın (Əşrəf bəy) öz dövrü üçün mütərəqqi səciyyə daşıyan nitqini və epizodik surət olan Aşıq Vəlinin replikaları və oxuduğu mənalı qoşmanı əlavə etsək, dramaturji palitranın tədricən təbəddülata uğradığını (mürəkkəbləşdiyini) görərik. Ümumiyyətlə, "Yağışdan çıxdıq, yağmura düşdük" pyesində klassik komediyaya uyğun yumor və satira tənasübü, sanki gözlənilsə də, əslində bu əsər öz ümumi əhvali-ruhiyyəsi, habelə konflikt düyününün açılması xüsusiyyətlərinə görə məişət dramına yaxınlaşmışdır. Burada "sosial-məişət" dramının ünsürləri özünü "Daldan atılan daş topuğa dəyər" pyesindən daha kəskin surətdə büruzə verir.

Diqqətlə izləmiş olsaq görərik ki, əsərdən əsərə N.Vəzirovun yaradıcılığında dramatik ruh güclənir, daha geniş vüsət alırdı. Bu baxımdan onun "Keçmişdə qaçaqlar" pyesi xüsusi əhəmiyyət daşıyır. Burada əsərin baş qəhrəmanı (Camal bəy) ümumi ədalət və öz haqları naminə ağır bir mübarizəyə hazır vəziyyətdə təsvir edilmişdir. Toxunduğumuz mövzu ilə əlaqədar daha ümumiləşdirilmiş, yəni mayası fəlsəfə ilə yoğrulmuş bir fikir ortaya qoymaq istəyiriksə, qeyd etməliyik ki, "insan öz varlığında təhlükə və risk elementlərini daşıyır, yəni Rilkenin əsərində deyildiyi kimi, risk onun daimi müşayiətçisidir (bu barədə Xaydeggerin qeydi də vardır). Eyni zamanda insan qorxulu, güclü və təhlükəlidir. Bunu Sofoklun "Antiqona" əsərində səslənən xor da təsdiq edir. Lakin yaşayışın (mövcudolmanın) bu təhlükəli

xüsusiyyəti nizamı dağılmış dünyanın bərpasını da tələb edir və ona ehtiyac duyulur" (4, 29). Bu sitata istinadən söyləmək mümkündür ki, N.Vəzirov tərəddüd etmədən öz qəhrəmanını cəmiyyətdə hökm sürən vəhşi qanun və münasibətlərə qarşı qoyaraq, onu dram janrının tələbləri əsasında müvafiq bir "böhran vəziyyəti"nə salmaqla ciddi imtahana çəkmək istəmişdir. Belə bir şəraitdə qəhrəman, N.Dobrolyubovun təbirincə, "qeyri-normal" vəziyyətdən çıxış yolu axtarmağa başlayır. İndi o, yüksək mənəvi potensial, mərdlik və əqidə möhkəmliyi nümayiş etdirib həmin vəziyyəti dəf etməlidir. Toxunduğumuz kontekst müstəvisində belə bir gerçəklik diqqəti cəkir ki, dramaturqun bəzi pyeslərindən fərqli olaraq bu əsərdə vaqiənin inkişafı prosesində dramatik vəziyyətlərin komik ünsürlərlə əvəz edilməsini, yaxud onların sintezini (yerli, yaxud yersiz), demək olar ki, müşahidə etmirik. Əksinə, müəllif dramatik (ciddi) xətti bir qədər də gücləndirmək məqsədilə pyesin finalına bayatı üstündə oxunan, insanları düşünməyə çağıran, eyni zamanda da kədərli bir şeir daxil etmişdir.

Yuxarıda söylənilən fikirlərə yekun olaraq belə bir qənaətə gəlmək mümkündür ki, "Keçmişdə qaçaqlar" pyesi öz ilkin ideyası və bədii-ümumiləşdirici potensialı etibarilə siyasi bir dram kimi qələmə alına biləcəyi halda, onun konfliktinin inkişaf xəttinə daxil edilən bəzi "yabançı" bədii ünsürlər əsəri həmin perspektivdən, sanki "məhrum etmişdir". Burada cəmiyyətin mənfi qüvvələri ilə kəskin toqquşma fonunda təsvir edilən xarakterlər fərdi cizgiləri ilə yadda qalsa da, əks qütblərin qarşılaşdırılması çox da şiddətli alınmamışdır. Buna baxmayaraq, pyes sözün tam mənasında ciddi "ictimai dram" kateqoriyasına aid edilə bilər.

Dram janrının özəllikləri klassik ədəbiyyatımızın daha bir görkəmli nümayəndəsi olan N.Nərimanovun da yaradıcılığında izlənilə bilər. Məsələn, onun "Nadanlıq" pyesinə (1899) müraciət edək, yəni o əsərinə ki, janrı müəllifin özü tərəfindən dram kimi müəyyənləşdirilmişdir. Halbuki, Ə.Sultanlının fikrincə, pyesin zavyazkası və razvyazkasında müşahidə edilən tragik məqamlar onun janr aydınlığını pozmuş, əsərin daha çox "qarışıq" və "mürəkkəb" intonasiyalarını gücləndirməklə bu barədə qəti fikir söyləməyi çətinləşdirmişdir (1,175). Əsərin təhlili belə bir nəticə hasil etməyə imkan verir ki, burada surəti yaradılan müsbət səciyyəli personajın həm konkret olaraq kimə, hansı qüvvəyə qarşı dayandığı, həm də dramaturgiyanın əzəli qanunları əsasında ümumiyyətlə mübarizə aparıb-aparmaması məsələsi müəmmalı görünür. Açıq dramatik kolliziyanın çatışmazlığı (zəifliyi) pyesi ayrı-ayrı, müəyyən mənada bir-biri ilə bağlı olmayan səhnə və epizodlara parçalamışdır. Buna rəğmən, "Nadanlıq" az və ya çox dərəcədə psixoloji dramın bəzi cizgilərinə malikdir. Daha ətraflı araşdırma onun müəyyən haşiyələrlə "ictimai dram" qrupundan olan pyeslər sırasına daxil edilməsinə imkan verir.

"Nadir şah" pyesi həm mövzusu, həm də mühüm tarixi-siyasi hadisələrə yanaşma nöqteyi-nəzərindən N.Nərimanovun yaradıcılığında xüsusi yer tutur. Bu əsərin yazılışı üslubunda Şekspirin bəzi pyeslərinə xas olan xronikallıq diqqəti cəlb edir. Adətən həmin formada qələmə alınan pyeslərdə digər ədəbi növlərin daşıyıcısı

olan elementlər özünü mütləq qaydada büruzə verirlər. Haqqında bəhs etdiyimiz əsərdə də romana məxsus cizgilər hiss olunur və bu xüsusiyyət pyesə monumental bir vüsət qazandırır. Burada hadisələr inkişaf etdikcə realist təsvir üsulunun yerini tədricən psixoloji-dramatik çalarlar tutur. Əsərin kompozisiya və üslub xüsusiyyətlərinə əsasən belə bir fikir söyləmək mümkündür ki, "Nadir şah" Azərbaycan dramaturgiyasında "milli-tarixi" janr qrupuna aid edilə biləcək ilk nümunədir. Qeyd edilməlidir ki, həmin pyesin birinci növbədə mövzusu, habelə həmin mövzunun müəllif tərəfindən açılması tərzi, qarşı-qarşıya duran "cəbhə"lər arasında fasiləsiz ziddiyyətlərin təsviri prosesində istifadə olunan kəskin priyomlar onu "ictimai dram" kimi xarakterizə etmək üçün kifayətdir.

C.Məmmədquluzadənin janrı bəzi tədqiqatçılar tərəfindən nədənsə komediya kimi müəyyən edilən "Anamın kitabı" pyesi (1919) xüsusi bir forma və süjet xəttinə malikdir. Adı çəkilən əsərdə müəllif dram janrının tələblərinə uyğun olaraq gah hadisələrin inkişafını (bir ailə, daha geniş mənada isə, bir cəmiyyət daxilində mövcud olan ideoloji antaqonizmi—A.D.) qızışdırmaqla kəskin məzmunlu səhnələr yaradır, gah da gözlənilmədən təhkiyə üsuluna keçərək, emosional gərginliyi yumşaltmağa çalışır və bu minvalla pyesin məna qatının özünə xas tərzdə əks olunmasını təmin edir. Əsərdə personajların şəxsi maraqları, sanki arxa plana keçir və onların yerini ictimai şüurdan irəli gələn mühüm məsələlər tutur. Açıq, bəzi məqamlarda isə gizli kolliziyalarda üzə çıxan ciddi mətləblər müəllifin səyi ilə möhtəşəm simvolik səviyyəyə qalxır, təbii dramatizm yüksələn xətt üzrə inkişaf edir. Ona görə də belə bir nəticəyə gəlmək olar ki, insanın şüurunu zənginləşdirən, dram sənətinin klassik tələblərinə uyğun olaraq təbii surətdə katarsis oyadan "Anamın kitabı" pyesi bütün xarakterik cəhətləri ilə ciddi "ictimai dram" kateqoriyasına aid edilə bilər. Beləliklə, bu bədii nümunədə, dramaturqun istedadı və gərgin yaradıcılıq axtarışları hesabına, haqqında bəhs etdiyimiz janrda ona qədər yazılmış heç bir əsərdə müşahidə edilməyən (əgər söhbət milli dramaturgiyadan gedirsə—A.D.) rəmzi potensial, süni pafosdan uzaq olan sağlam əsaslı vətənpərvərlik hissinin fundamental mahiyyəti və məzmunu öz əksini tapmışdır.

Klassik dramaturgiyamızın digər bir nümayəndəsi C.Cabbarlı özünün "Sevil" pyesində (1928) dramatik inkişafın başqa bir formasını təqdim etmişdir. Daha dəqiq desək, müəllif öz əsərinin ilk səhnələrində qəhrəmanını elə bir reallıqla üzləşdirmişdir ki, onun, hadisələrin inkişafı nəticəsində mütləq mənada "dram yaşaması", sarsıntılarla, dərin mənəvi və psixoloji böhranla müşayiət olunan ziddiyyətlərdən keçməsi zərurəti intuitiv səviyyədə şübhəsiz görünür. Bu halda Sevilin yaşadığı şəxsi dramı obrazlı şəkildə hər hansı bir ağır xəstəliklə müqayisə etmək olar. Psixologiya və estetikanın qanunlarına əsasən isə sarsıntı (şərti olaraq "xəstəlik"—A.D.) keçirən fərd istər-istəməz öz həyat yoluna nəzər salır, keçdiyi məşəqqətli yola əldə etdiyi təcrübə əsasında yenidən qiymət verir. Dramaturq öz qadın qəhrəmanını bilərəkdən məhz belə bir mürəkkəb situasiya ilə qarşı-qarşıya qoymuşdur. Lakin Sevilin sağlam ruhu və güclü iradəsi ona keçirdiyi ağır "xəstəliyə"

qalib gəlməyə, böhrandan çıxmağa imkan verir. Odur ki, sarsıdıcı keçmişi arxada qoyan bu personaj ilk növbədə mənəvi cəhətdən saflaşır, onun daxili aləmində və davranışında yeni, pyesin əvvəlində müşahidə olunmayan cizgilər meydana gəlir, mühakimə və hərəkətləri bir yetkinlik, müvazinət əldə edir. Ədib "Sevil" pyesində dramın məhz insanın tədrici təkamülünün təsviri ilə bağlı olan tipini qabartmağa çalışmış və həm ideya, həm də bədii cəhətdən həmin işin öhdəsindən gəlmişdir. Beləliklə, fikrimizi ümumiləşdirərək deyə bilərik ki, bu əsərin dramatik pafosu bütün məşəqqətlərə sinə gərərək fərdi mənada güclənən, ruhun yenilməzliyini nümayiş etdirən bir insanın mənəvi yüksəlişinin gözəgörünməz qatlarının dram sənətinin bədii vasitələri ilə açılması gerçəkliyinə əsaslanır. İlk səhnələrində ailə-məişət dramının əlamətlərini özündə əks etdirən "Sevil"in süjet xətti daha sonra məntiqi şəkildə mürəkkəbləşməyə və kəskin konfliktlə müşayiət olunmasına doğru istiqamət almışdır. Nəticədə əsər "ictimai", hətta bir dərəcəyədək "sosial" dramın ünsürləri ilə zənginləşimişdir. Konkret halda ("Sevil" pyesində) C.Cabbarlı dramatik mübarizənin daha fərqli mənzərəsini qələmə almaqla Azərbaycan dramaturgiyasında dram janrının variativlik imkanlarını nümayiş etdirmişdir.

Təssüf ki, "dramatizm" anlayışının həm ümumi qanunauyğunluqları, həm də ayrı-ayrı xüsusiyyətləri ədəbiyyatda, daha geniş mənada isə sənətşünaslıqda əsaslı surətdə təhlilə cəlb edilmədiyindən, bu mövzuda aparılan nəzəri-estetik fikir mübadiləsi adətən ziddiyyətlərlə müşayiət olunur və dar bir çərçivədən çox da kənara çıxa bilmir. Buna baxmayaraq, qətiyyətlə vurğulamaq gərəkdir ki, ilk növbədə klassik dövr ədəbiyyat xadimlərimizin istedadı və gərgin zehni əməyi nəticəsində ədəbi-bədii həyatımızın parlaq səhifələrini təşkil edən faciə və komediyalarla yanaşı, dram janrına aid olan çox qiymətli nümunələr də meydana gəlirdi. Bəzən həmin əsərlərin tipoloji xüsusiyyətləri onların janr mənsubiyyəti ilə əlaqədar suallar oyatsa da, bu pyeslərin əsasını təşkil edən pafos və konfliktlərin quruluşunun, kolliziyaların özəl xüsusiyyətlərinin, ümumən dramaturji inkişaf xəttinin daha dərindən təhlilə cəlb olunması həmin məsələyə aydınlıq gətirilməsinə və daha dəqiq nəticə əldə edilməsinə yardım göstərir.

Yuxarıda təhlilə cəlb etdiyimiz bədii nümunələr əsasında biz də dram janrının spesifikasının, orijinal xüsusiyyətlərinin araşdırılmasına müəyyən yer ayıraraq onun Azərbaycan dramaturgiyasında təzahür edən bəzi çalarlarına qiymət verməyə təşəbbüs göstərdik.

Ədəbiyyat

1.Sultanlı Ə.A. Məqalələr. B., Azərnəşr, 1971

2.Поспелов Г.Н. Проблемы исторического развития литературы. М., Просвещение, 1972

3.Фролов В.В. Судьбы жанров драматургии (Анализы драматических жанров в России XX века). М., Советский писатель, 1979

4.Хайдеггер М. Исток художественного творения (Вместо введения, автор Михайлов А.В.). М., Академический проект, 2008

АГШИН ДАДАШ-ЗАДЕ

ПРОЯВЛЕНИЕ ЭЛЕМЕНТОВ ЖАНРА ДРАМЫ В ПЬЕСАХ АЗЕРБАЙДЖАНСКИХ АВТОРОВ КЛАССИЧЕСКОГО ПЕРИОДА

РЕЗЮМЕ

Азербайджанская литература, как в целом и вся мировая литература, развивалась в органической связи с историко-географическими, этнопсихологическими и общественно-социальными условиями. Данные процессы нашли яркое воплощение и в драматургии, ценные образцы которой были созданы пером выдающихся азербайджанских писателей. Необходимо отметить, что классическая национальная драматургия, получившая особое развитие в период бурного становления самосознания народа, представляет собой разноцветную палитру, состоящую из произведений, написанных в разных жанрах. С литературоведческой точки зрения большой интерес вызывают сочинения, в которых наиболее ярко проявляются репрезентативные свойства различных жанров драматического искусства. Автор статьи обращается к некоторым пьесам таких известных азербайджанских писателей, как Н.Везиров, Н.Нариманов, А.Ахвердиев, Дж.Мамедкулизаде, Дж.Джабарлы, стараясь выявить сугубо жанровую составляющую их сочинений. При этом пристальное внимание уделяется проявлениям характерных особенностей жанра драмы, дается оценка их художественно-эстетическому своеобразию. Исследователь старается внести ясность в вопрос самобытности драматического пафоса, подчеркивая его различные проявления, обобщая их общие места и художественную специфику. Предпринимается также попытка типологизации пьес, написанных азербайджанскими авторами в жанре драмы.

Ключевые слова: жанр драмы, пьеса, пафос, конфликт, творчество

AGSHIN DADASH-ZADA

MANIFESTATION OF THE ELEMENTS OF THE GENRE OF DRAMA IN PLAYS BY AZERI AUTHORS OF CLASSICAL PERIOD

SUMMARY

Azerbaijani literature, as well as all world literature in general, developed in organic connection with historical-geographical, ethno-psychological and socio-social conditions. These processes were vividly embodied in dramaturgy, valuable samples of which were created by the pen of outstanding Azerbaijani writers. It should be noted that the classical national dramaturgy, which received particular development during the period of the rapid formation of the self-consciousness of the people, is a multi-colored palette consisting of works written in different genres. From a literary point of view, works of great interest are those in which the representative properties of various genres of dramatic art are most clearly

manifested. The author of the article refers to some plays by such well-known Azerbaijani writers as N.Vezirov, N.Narimanov, A.Akhverdiev, J. Mammadqulizade, J.Jabarli, trying to identify the purely genre component of their works. At the same time, close attention is paid to the manifestations of the characteristic features of the drama genre, their artistic and aesthetic originality is assessed. The researcher tries to clarify the issue of originality of dramatic pathos, emphasizing its various manifestations, summarizing their common places and artistic specificity. An attempt is also being made to typify plays written by Azerbaijani authors in the genre of drama.

Key words: drama genre, play, pathos, conflict, creativity

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Maral Yaqubova tərəfindən çapa tövsiyə olunmuşdur

RADƏ Mərdan qızı ABBASOVA
AMEA Folklor İnstitutunun elmi işçisi
İçərişəhər, kiçik qala
irada.abbasova61@gmil.com

Ə.HAMİD VƏ H.CAVİD YARADICILIĞINDA YALANÇI NİŞANLI MOTİVİ

(Xülasə)

Folklorda geniş yayılmış motivlərdən biri də əsl gözəlin əvəzinə ərə gedən yalançı gözəl motividir. Bu motiv türk folkloru, eləcə də Azərbaycan folklorunda, əsasən də nağıllarda geniş yayılmışdır. Bu motiv özündə qədim türk rituallarının izlərini əks etdirir. "Kitabi-Dədə Qorqud"yun üçüncü boyunda biz bu motivlə qarşılaşırıq. Folklora xas olan bu motiv yazılı ədəbiyata da keçmişdir. Biz bu motivlə Ə.Hamid və H.Cavidin yaradıcılığında da qarşılaşırıq. Yalançı nişanlı motivinin semantikasının araşdırılmasında əsas məqam onun toy ritualı ilə bağlılığıdır. Tədqiqatlar qədim oğuz toy ritualları üçün yalançı əvəzedici elementlərinin zəruri olduğunu təsdiq edir. Ə.Hamidin və H.Cavidin yaradıcılığında yalançı nişanlı motivinin folklordan gəlmə cizgiləri özünü qorusa da, hər iki sənətkar bu əski motivə yaradıcı kontekstdə yanaşmış və bu motiv vasitəsilə özlərinə məxsus bədii-estetik ideyaları təcəssüm etdirmişlər.

Açar sözlər: Ə.Hamid, H.Cavid, motiv, yalançı nişanlı, mif, folklor, ədəbiyyat

Giriş

Folklorda geniş yayılmış motivlərdən biri də əsl gözəlin əvəzinə ərə gedən yalançı gözəl motividir. Bu motiv türk folkloru, eləcə də Azərbaycan folklorunda, əsasən də nağıllarda geniş yayılmışdır. Bu motiv özündə qədim türk rituallarının izlərini əks etdirir. "Kitabi-Dədə Qorqud"yun üçüncü boyunda biz bu motivlə qarşılaşırıq. Əsirlikdən evinə dönən Beyrək öz nişanlısının başqası ilə toyuna gəlib çıxır. O, məclisə yalançı kimliklə – dəli ozan qiyafəsində daxil olur. Qısırca yengəni ona həqiqi gəlin kimi təqdim edirlər. Lakin o, Qısırca yengəninin həqiqi gəlin olmadığını sübut edərək, yalanın üstünü açır [4, s. 64]. Bu da öz növbəsində yalançı gəlin motvinin qədim türk ritual-mifoloji düşüncəsi üçün aktual olduğunu göstərir. Folklora xas olan bu motiv yazılı ədəbiyata da keçmişdir. Biz bu motivlə Ə.Hamid və H.Cavidin yaradıcılığında da qarşılaşırıq.

Tədqiqat

Yalançı nişanlı motivini araşdıran Oruc Əliyev bu motivin əks olunduğu "Əməmxiyar qızı" nağılının məzmununu və təhlilini təqdim etdikdən sonra yazır: "Bu nağılın "Nar qızı", "Gah-gah dağında üç xiyara aşiq olasan", "İncili Mərcanın nağılı", "Əyil, çinarım, əyil", "Qıra qız" adlı variantları Naxçıvan, Göyçə, Qazax, Ağbaba və Güney Azərbaycanda və s. regionlarda yayılıb" [7].

Azərbaycan nağıllarının süjet göstəricisini tərtib edən İlkin Rüstəmzadə də tərtib etdiyi kataloqda bu tip nağılları (408a və 408b) "Əməmxiyar qızı" nağılı və onun variantları başlığı altında qruplaşdırmışdır. İlkin Rüstəmzadə 408a başlığı altında qruplaşdırdığı nağılların məzmununu ümumiləşmiş şəkildə bu cür təqdim edir:

I. Qarı səhəngini sındırdığı üçün padşahın oğlunu qarğayır: "Səni görüm Gah-gah dağında üç xiyara aşiq olasan"; yaxud b) kişi yuxusunda gördüyü qıraların (nar qızının) dalınca gedir.

II. Qəhrəman xiyarları (narı, qıraları və s.) əldə edir; a) onların ikisini su olmayan yerdə kəsir, xiyarın içindən çıxan qızlar ölür; üçüncü xiyarı bulaq başında kəsir; yaxud b) iki narın içində heç nə olmur, üçüncü nardan gözəl bir qız çıxır. Qəhrəman qızı ağaca çıxarıb onun üçün paltar gətirməyə gedir. Qulluqçu (qaraçı qız) xiyarın içindən çıxmış qızı suya itələyib özü onun yerində oturur və şahzadə ilə evlənir.

III. Əsl gəlin bənövşəyə (gülə və s.) çevrilir; oğlan a) bənövşələri yola səpə-səpə gəlir və sonuncu bənövşəni sarayın önündə yerə atır; həmin bənövşə sərv ağacına çevrilir; yaxud gülləri dərib arvadına hədiyyə edir, arvadı onları pəncərədən çölə atır, gülün biri çinar ağacına çevrilir. Yalançı gəlin ağacı kəsdirib uşağı üçün beşik düzəltdirir. Qarı ağacın bir tilişkəsini evinə gətirir, həmin tilişkə yenidən qıza çevrilir.

IV. Əsl gəlin başına gələn əhvalatı a) səbr daşı və qın bıçağına danışır; yaxud paltar toxumaq üçün saraya çağrılır; paltar toxuya-toxuya mahnı oxuyur; qapının arxasından qulaq asan şahzadə mahnının sözlərindən onun əsl gəlin olduğunu müəyyən edir və onunla evlənir. Yalançı gəlin a) xam qatırın quyruğuna bağlanılır və ya b) saraydan qovulur."

408 b başlığı altında verilən nağılların ümumiləşmiş məzmunu isə bu cür təqdim edilir:

"Padşah öz dəsmalını evlənəcəyi qıza göndərir və onu yuyub suyunu həyətə tökməyi tapşırır. Qonşu qız suyu oğurlayıb öz həyətlərinətökür, həmin yerdəqızıl gül kolu bi-tir. Padşah onunla evlənir. Əsl gəlin göyərçinə, ağaca və s. çevrilir. Axırda həqiqət üzə çıxır, yalançı gəlin cəzalandırılır" [5, s. 128].

Yuxarıda qeyd olunduğu kimi, sözügedən nağıl motivinin əsas mahiyyəti ondan ibarətdir ki, (əksər hallarda qulluqçu və ya qaraçı qızı olan) yalançı gəlin həqiqi gəlin namizədi olan qızı (zorla və ya aldadaraq) kənarlaşdırıb onun yerində oturur və

şahzadəni aldadaraq ona ərə gedir. Nağılın sonunda isə işin üstü açılır, yalançı gəlin cəzalanır və həqiqi aşiqlər biri-birinə qovuşur.

Sözügedən motivlə Ə.Hamidin "Zeynəb" əsərində də qarşılaşırıq. Burada da Zeynəbin qulluqçusu Ceyran onun yerinə şahzadə Abbasa ərə gedir. Ancaq burada şahzadə Abbası aldadaraq Ceyranı onunla evləndirən Zeynəbin öz atası Əla padşah olur. Hökmranlığını daha da güclü etmək istəyən Əla qızını qonşu ölkənin şahı Abbasa vermək istəyir. Əvvəl Abbası dərviş qiyafəsində görən Zeynəb isə ərə veriləcəyi adamın əslində elə sevdiyi adam olduğunu bilmir və buna görə də bu izdivaca qəti şəkildə etiraz edir. Bu zaman atası Əla onu zindana saldırır, qətlinə fərman verir və onun əvəzinə onun qulluqçusu Ceyranı şah Abbasa ərə vermək qərarına gəlir:

"***A'lä:***
Zeynep diye Abbas'a bugün ben,
Ettim seni göndermeğe niyyet,
Göster ne ise şän-ı hamiyyet!
Ceyran:*(teheyyücle)*
Zeynep diye mi?... Ah, ne teklif!...
A'lä:
Ancak bu olur çäre-i te'lıf
Abbas'tan illä ki aman yok.
Ceyran:
Bahsetmeye eyvah zaman yok
Afveyleyiniz Zeynep'i evvel
Äti ola Ceyran'a muhavvel!

A'lä:
Nefyetmeliyim afvedeceksem.

Ceyran:
Tek sönmesin ol nür-ı mücessem
Afvında anın olmaya temhıl
Elbet ederim ben işi teshil.
A'lä:
Ahüyu bağışlar gibi bir şir,
Git afvımı kil Zeynep'e tebşır.
Gafil seferimden hazerimden,
Ancak uzak olsun nazarımdan.
Tathır ile iklım-i A'lä'yı,
Mülk eylesin iklim-i beläyı.
Ceyran:
Läkin gideyim... Geçmeye fırsat...

A'lä:
Anlarsın a bir şart ile ruhsat.
Oldun şu dakika bize evlät.

Ceyran:
Şehzäde de benden sizde damat! *(Koşarak gider.)*" [1, s. 277].

Daha sonra zindanda Zeynəbin yanına iki pəri gəlir və ona qeyr-adi güclər bəxş edir. Bu güclər vasitəsilə Zeynəb uzaq məsafələri bir göz qırpımında qət edə bilir, uzaq məsafələrdə baş verən hadisələri duya bilir, eyni zamanda cilddən-cildə düşə bilir. Qeyri-adi gücləri sayəsində başına gələnləri – yəni istədiyi adama onun əvəzində Ceyranın ərə verildiyini öyrənən Zeynəb Ceyranın gözünə öz simasında və Abbasın gözünə isə ölmüş arvadı Zəhranın cildində görünərək onları psixoloji sarsıntılara uğradır. Növbəti belə qarabasmalar zamanı isə faciə baş verir:

"***Ceyran:*** Görmüyor musun? Bak!... Bak beyaz kefene sarılmış olduğu halde yine her taraftan matem döküyor.*{Zulmet içinde bir sefid-püş görünür.)*

Abbas:*{Bihuş)* Gördüm!... Gördüm!... İşte şimdi ben de ona göstereceğim!

{Hançerle sefid-püşun üstüne yürüyerek). Her kim olursan ol, ey vticüd-ı habıs, seni ben geberte- ceğim!*(Sefid-püş kaçar. Abbas takip eder, odanın içinde dolaşırlar: Zul- met bir derecede artar ki üçü de görünmez olurlar. Ne yaptıkları hiç görünmediği hälde yalnız zalam içinde sesleri işitilir.)*

Abbas'ın sesi- Al!...

Ceyran'ın sesi: Äh!... Beni mi urdunuz?.

Zeynepinsesi: Elbette seni urdu! Kefenini kendi şırtımda getirdim!" [1, s. 297].

Beləliklə, nümunədə də verildiyi kimi növbəti qarabasma zamanı əlində xəncər qarabasmanın üzərinə hücum edən Abbas səhvən Ceyranı öldürür. Yaranan arzuolunmaz faciədən psixoloji cəhətdən daha da çox sarsılan Abbasla Zeynəbin dialoqu maraq doğurur:

"Zulmet çekilir, Ceyran 'ın mukaddemä Sefid-püş 'un giymiş olduğukisve-i beyzä arasında olduğu hälde mecruh ve mezbüh yattığıAbbas'ın elinde kanlı hançerle, bir dizi Ceyran'ın sinesindeolarak katil hälinde bulunduğu görülür. Zeynep müthiş birşekil ve heyetle bir kenarda durur.

Abbas: *(Ceyran'a hitaben)* Ruhum, Zeynep!... Ne yaptım sana?...

Zeynep: O Zeynep değil! Zeynep benim!... Kalk, kalk şunu nehre atalım, bari insanlar sana länet et- mesin!..

Abbas: *(Ceyrana bakıp bir iki defa haykırdıktan sonra)*İlähı, ilähı, ulühiyetin hakkıçün inäyetler buyur! Şu manzara bir häb olsun!...

Zeynep: Häbı olmayan ne var ki temenni ediyorsun! Bak gece gündüz düşündüğün Zeynep de senin için bir häb olmuş olmalı ki şu dakikada karşında duruyor da bilmiyorsun! Bundan altı ay evvel, Hindistan'da bir sahrada, derviş kıyafetiyle huzuruna çıktığın kimdi!.

Abbas:*(Ağlar gibi bir sesle ağır ağır)* Eyvah!... Eyvah!... Eyvah!...Bu biçare Alanın – o zälimin kızı değil miydi?

Zeynep: Bu bıçare o zälimin müstefreşesi idi!

Abbas: Aman ne diyorsun!.. O zälimin o gaddarın kızı Zeynep sen olmalısın ki ne ölülere merhametin var ne sağlara, ne de, benim gibi hayat ve memät arasında bulunan bıçarelere!...

Zeynep: Asıl merhametsiz sensin, Abbas, asıl merhametsiz sensin ki yolunda bu kadar fedakärlıklar eden bu kıza rahim olmayıp da sana bir buse vermeğe tenezzül etmeyen Ceyran'a öldükten sonra da äşık bulunuyorsun!*(Teevvühle)*Şimdi asla reddetmez, git istediğin kadar öp!

Abbas: A'lä'nın kızısın... Timur neslindensin, elbette yüreğin de timurdan olacak!

Zeynep: Ben A'lä'mn kızı değilim, şahidim validemdir ki payi- tahtın olan şu Kandehar'da bir misafirhänede bulunuyor.

Abbas: Öyle ise dev kızı mısın? İfrit misin? Buraya ne cüretle ne suretle girdin de bu cinayete sebep oldun? Karakollarımın hayalet- lere bile isabet eden mizraklanndan nasıl kurtuldun? Kasrimin efläke ser çeken suru üzerinden nasıl geçtin?... Sähir nazannla ordugahıma zulmet-i adem mi neşrettin? Yoksa nurani yüzünü görünce sabah-ı kı- yameti görmüş gibi hep dağıldılar mı! Bu ilahi güzelliğe karşı burc u bärülarım sana secde mi ettiler?...Git! Her nasıl geldinse yine öyle git! Beni de ma'şükamın türbesinde bırak!

Zeynep:Geldim, çünkü bir kuvve-i härıkulädeye malik idim. Lakin gidemem, çünkü o kuvvetim mahvoldu. Senin aşkın yolunda bütün mevhübät ve kemälätımı feda ettim, senin cariyen, senin esirin, senin kulun olmağa geldim! Beni istediğin anda bir avuç türab häline koya- bilirsin!...Merhamet et, Abbas, Äşıkım değilsin. Bari maşukum ol! Müsaade et de seni seveyim. Aşk ve muhabbetimi tahkır etme. Bak semadan düştüğüm halde yine senin yanında kendimi itilä etmiş görüyorum!

Abbas: Ne yapayım?... Ne yapayım?...

Zeynep: Ya onu nehre at, ya ben kendimi atacağım!

Abbas:Nasıl kıyayım!...

Zeynep: Öldürmeğe nasıl kıydm?

Abbas: Bilmeyerek urdum!

Zeynep: O da bilmeyerek atılacak...

Abbas:*(Yine Ceyran 'a bakıp bağırarak)* Allah!... Allah!... Allah!... Ben mi ur- dum bu kızı?... Ben mi işledim bu günahı?...*(Mecnun gibi dolaşır}*

Zeynep:Anladım... Daha tamamiyle keyfin gelmedi. Bilmeyerek bir kız öldürdüğün

elvermiyor. Bir de bilerek bir kız öldürmek istiyorsun!... Gideyim de rahat yaşa!

Abbas:*(Arkasından koşup tutup)* Dur!... Dur!... Dur!...

Zeynep: Ne istersin?...

Abbas: Atalım!...

Zeynep: Gel!...*(Ceyran 'ın naaşına gidip iki ucuna geçerler. Abbas ra 'şe ve deh- şetli ıstıraplar içinde bulunur.)* Ben başından, sen ayaklarından – hadi bakalım! *(Ceyran 'ın naaşını kaldırırlar.*

Abbas: Her tarafı kan içinde!... Eyvah!... Eyvah!...

Zeynep: Kendine gel, Abbas. Kimsenin katili değilsin ki nef sinin cellädı olasın. Katil de olsan ölüm bir mücazät değildir; meyuslar için dünyada ölümden acı bir şey vardır ki adına hayat derler.

Abbas: Ben o acıyı mı çekeyim dersin?... Ölümün pençesini yüreğimde hissede ede mi yaşayım?

Zeynep: Sen evham ve hayalätının acısını çekiyorsun. Meydanda bir cinayet yok, kendini cani zannediyorsun *(Kollarını açarak)* Gel, gel, o hayälätı terkedip bana gel, benim kollarıma gel ki selämet budur. Ägüş-ı mezar daima açıktır; bu her zaman açılmaz. Gel! *(Abbas şaşkın şaşkın icabet eder).* İşte bir dar! Fakat yerden göğe kadar yüksek değil...

Abbas:Äh!... Bir melekten yüksek daha ne olabilir? Ne kadar da güzel, aman Yärabbi!...

Ne kadar da güzel!

Zeynep: O güzellik de senin vehmin olmalı" [1, s. 354].

Göründüyü kimi, qarşılarına çıxan maneələrə, baş verən faciəyə rəğmən "Zeynəb" əsərinin sonunda əsl aşiqlər bir-birinə qovuşur.

Əsl gözəlin əvəzinə ərə gedən yalançı gözəl motivi Azərbaycan romantik ədəbiyyatında da rast gəlirik. Bu motiv H.Cavidin "Şeyx Sənan" əsərində də vardır. M.Kazımoğlu bu barədə yazır ki, eşq əhlinin daxili ikiləşməsini mistik obrazlarla əlaqədə göstərən H.Cavid mifoloji düşüncənin başqa bir modelindən də ustalıqla istifadə edir. Bu, yalançı qəhrəman modelidir. Yalançı qəhrəmanı qızlar arasında izləsək, həqiqi gözəllə yalançı gözəlin qoşa təqdim edilməsini mifoloji mətnlərdə bir sistem kimi görə bilərik. Yalançı gözəl özünə bəzək-düzək vurub həqiqi gözəlin yerini tutmaq, bir rəqib kimi həqiqi gözəlin qismətinə sahib çıxmaq, şahzadəyə ərə getmək istəyir. Bu məşhur mif modelini dəyişilmiş biçimdə H.Cavid dramaturgiyasında da müşahidə edirik. Təsadüfi deyil ki, "bir aşiqin iki sevgilisi" H.Cavidin neçə-neçə pyesindən keçib gedən bir motivdir. Bu motiv "Şeyx Sənan"da Şeyx Sənanın Xumar və Zəhraya; "İblis"də Arifin Rəna və Xavərə; "İblisin intiqamı"nda Arifin Sima və Rənaya münasibətində özünü daha qabarıq göstərir. Bu nümunələrdə bir oğlanın iki qıza münasibətində mifoloji düşüncədən gələn ümumi xətt belədir: şahzadə adidən qaçır və qeyri-adiyə can atır. Mifoloji mətnlərdə şahzadə aldanıb yalançı gözəllə evlənsə belə, əsl gözəli unuda bilmir və möcüzələr göstərən bu qızı əvvəl-axır axtarıb tapır. "Şeyx Sənan"da Zəhranın, "İblis"də Xavərin mifdəki yalançı gözələ oxşarlığı adilik məsələsindədir. Bəli, Şeyx Sənanın gözündə Zəhra, Arifin gözündə Xavər adi qızlardan biridir. "Şeyx Sənan"da Xumarın, "İblis"də Rənanın mifdəki əsl gözələ oxşarlığı isə qeyri-adilik məsələsindədir. Bəli, Şeyx Sənanın gözündə Xumar, Arifin gözündə Rəna insanı xurafat və "vəhşət"dən ayırıb

ilahi mərtəbəyə qaldıran gözəldir. Maraqlıdır ki, "İblisin intiqamı" əsərində əsl gözəl – yalançı gözəl motivi baxımından Rənanın funksiyası tamam dəyişir. Bu əsərdə Arifin artıq Rənaya yox, Simaya könül bağladığının şahidi oluruq. Arif Rəna ilə evlənsə də, xəyallar dalınca Rəna ilə bir yerdə "qoşmaq" ona (Arifə) mümkünsüz görünür. Nəticədə adi gözəli qeyri-adi gözəl əvəz edir və Arif "sülh pərisi" Simanın əsirinə çevrilir... Amma H.Cavid dramaturgiyasında daxili ikiləşmə modelləri heç də bunlarla bitmir və müəllif kökü mifə, folklora gedib çıxan yalançı qəhrəman motivinin başqa variantlarına da üz tutur " [3].

Göründüyü kimi, H.Cavidin "Şeyx Sənan" əsərində də əsl gözəlin əvəzinə ərə gedən yalançı gözəl motivini dəyişilmiş biçimdə müşahidə edirik.

Nəticə

Əbdülhaq Hamid və Hüseyn Cavid yaradıcılıqları üzərində yalançı nişanlı motivi əsaslnda aparılmış müqayisəli tədqiqat bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir:

a) Hər iki sənətkarın yaradıcılığında özünü göstərən bu motivin kökləri baxımından folklorla, mifologiya ilə bağlıdır. Folklor mətnlərində yalançı nişanlı motivi geniş yayılmışdır və onun rəngarəng variantlarına rast gəlinir.

b) Yalançı nişanlı motivinin semantikasının araşdırılmasında əsas məqam onun toy ritualı ilə bağlılığıdır. Bu cəhətdən, M.Kazımoğlıu və S.Rzasoyun araşdırmaları qədim oğuz toy ritualları üçün yalançı əvəzedici elementlərinin zəruri olduğunu təsdiq edir [4, s. 17-19; 6, s. 225].

c) Ə.Hamidin və H.Cavidin yaradıcılığında yalançı nişanlı motivinin folklordan gəlmə cizgiləri özünü qorusa da, hər iki sənətkar bu əski motivə yaradıcı kontekstdə yanaşmış və bu motiv vasitəsilə özlərinə məxsus bədii-estetik ideyaları təcəssüm etdirmişlər.

ƏDƏBİYYAT

1. Abdülhak Hämid Tarhan tiyatroları – VII (Mäcerä-yı Aşk, Nesteren, Zeynep, Hakan). Hazırlayan: İnci Enginün. İstanbul: Dergah yayınları, 2002, 440 səh.

2. Kazımoğlu M. "Bamsı Beyrək" boyunda yalançı adaxlı // "Dədə Qorqud" jur., 2006, N 3, s. 16- 22

3. Kazımoğlu M. Hər baxışda bir mələk... "Hüseyn Cavid və mifoloji düşüncə" silsiləsindən ikinci yazı / 525-ci qəzet.-2010. - 24 aprel, s.28-29

4. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. – Bakı: Yazıçı, – 1988. – 265 s.

5. Rüstəmzadə İ.Azərbaycan nağıllarının süjet göstəricisi. Bakı: Elm və təhsil, 2013, 368 s.

6. Rzasoy. Oğzu mifologiyası. Bakı: Nurlan, 2009, 363 s.

7.http://genderi.org/azerbaycan-nagillari-haqqinda-dusunceler-azerbaycan-nagillarin.html

Rada ABBASOVA

THE MOTIF OF FALSE BETROTHED IN THE WORKS OF A. HAMID AND G. JAVID

(Summary)

One of the widespread motifs in folklore is that a false beauty who is going to get married instead of the real beauty. This motif is popular in Turkish folklore, as well as Azerbaijani folklore, mainly in fairy tales. This motif reflects traces of ancient Turkish rituals. In the third volume of "Kitabi-Dada Gorgud" we encounter this motif. This motive, which is characteristic of folklore, has also been transferred to written literature. We encounter this motif in the work of A. Hamid and H. Javid. A key point in examining the semantics of the false betrothed motif is its connection with the wedding ritual. Research confirms that false substitute elements are necessary for ancient Oghuz wedding rituals. Although the features of the motif of the false betrothed from folklore are preserved in the works of A. Hamid and H. Javid, both artists approached this ancient motif in a creative context and embodied their own artistic and aesthetic ideas through this motif.

Key words: A. Hamid, H. Javid, motif, false betrothed , myth, folklore, literature.

Рада АББАСОВА

МОТИВ ЛОЖНАЯ ОБУЧЕННОГО В ПРОИЗВЕДЕНИЯХ А. ХАМИДА И Г. ДЖАВИДА

(Резюме)

Одним из популярных мотивов в фольклоре является ложная красота, которая выходит замуж за настоящую красоту. Этот мотив популярен в турецком фольклоре, а также в азербайджанском фольклоре, в основном в сказках. Этот мотив отражает следы древних тюркских ритуалов. В третьем томе «Китаби-Деда Горгуд» мы встречаемся с этим мотивом. Этот мотив, характерный для фольклора, перенесен и в письменную литературу. С этим мотивом мы встречаемся в творчестве А. Хамида и Х. Джавида. Ключевым моментом в рассмотрении семантики мотива ложного обручения является его связь со свадебным ритуалом. Исследования подтверждают, что для древних огузских свадебных обрядов необходимы ложные замещающие элементы. Хотя черты фольклорного мотива ложного жениха сохранились в творчестве А.

Хамида и Х. Джавида, оба художника подошли к этому древнему мотиву в творческом контексте и воплотили через него собственные художественно-эстетические идеи.

Ключевые слова: А. Хамид, Х. Джавид, мотив, ложная невеста, миф, фольклор, литература.

Rəyçi: f.e.d.prof. Seyfəddin Rzasoy

MƏMMƏDOVA HƏLİMƏ ELMAR QIZI
ADPU Şəki filialı, "Dillər və onların tədrisi texnologiyası" kafedrasının müəllimi
halima.mammad@gmail.com

CREATING A FAVOURABLE AND HEALTHY MORAL AND PSYCHOLOGICAL ENVIRONMENT IN A COMPREHENSIVE SCHOOL

SUMMARY

School occupies an essential part of a person's life, during which there is a living formation of personality. An essential condition for the successful upbringing of the personality of schoolchildren is the presence of a favorable psychological environment at school and in the classroom. To create a favorable environment for learning, first of all, one should take into account the psychological characteristics of students and do everything possible for motivation. It should not be forgotten that classroom management is not total psychological control over students. Classroom management is precisely about encouraging students to maximize their interest in learning. Each age period requires the teacher to have a special pedagogical and psychological approach to the student in order to achieve the highest results in the educational process. The relevance of the study lies in pointing out the correct methods for creating a positive learning environment for students and the formation of a healthy, full-fledged personality.

Key words: *education, teacher, favorable, unfavorable, environment, classroom management.*

Education at school takes up most of a person's life, during which an active formation of personality takes place. "Students preparing to become teachers often think that the goal of classroom management is to keep their class under "control" and maintain a well-behaved classroom. It is true that effective classroom managers succeed at creating a well-behaved classroom" [2. p.2]. According to the theory and practice shows, an important condition for the successful development of the personality of schoolchildren is the presence in the school and classroom of a suitable moral and psychological environment. The education system is designed to provide the active development of children and youth, their creative abilities, inclusion in socially significant activity. It is during the school years that the personality is more fully formed, the creation of basic features, and this largely depends on the social environment in which the child is. "The classroom environment is the setting in which student learning takes place. It concerns the classroom's physical environment, the social system, the atmosphere, and norms and values. Studies conducted in different regions of the world have shown that

classroom climate is one of the most important predictors of student achievement" [1. p.103]. As far as theory and practice testifies, an important condition for the best development of the personality of schoolchildren is the presence of an approving psychological environment in the school and class, which determines the vitality of considering this problem.

Only the teacher knows how much work and effort it took to make the lesson go according to the plan. Very often, teachers are so carried away by their professional techniques that they forget about the psychological environment in the lesson, which they must create in order to obtain the desired result. Whatever abilities the student possesses, if he does not respect or is afraid of the teacher, he will not show creativity and quality of teaching. The success of the lesson as a whole depends on the kind of psychological mood created by the teacher in the lesson.

"What does a well-managed classroom look like? Students are deeply involved with their work. The climate of the classroom is work-oriented, but relaxed and pleasant" [4. p.7]

A healthy moral, psychological and creative environment is a kind of condition that ensures the formation of the personality: against its background, the child either opens up, showing his talents, actively interacts with the teacher and other members of the group, or, on the contrary, becomes inert, withdrawn, and aloof.

In modern psychology, the psychological environment is understood as "the qualitative aspect of interpersonal relations, which manifests itself in the form of a set of psychological conditions that promote or impede productive joint activities and the all-round development of the individual in a group."

The development and progress of the socio-psychological environment is a constant practical task for class teachers, subject teachers, school psychologist and administration.

Priority tasks that class teachers solve at each age stage:

1) In grades 1- 4: develop cognitive activity, the ability to interact and cooperate.

For the development of cognitive activity, teacher can apply a number of such emotional methods for motivation as encouragement, educational and cognitive game, the creation of vivid visual-figurative representations, the creation of a situation of success, stimulating evaluation and satisfaction of the desire to be a significant person.

Methods of motivation as creating a problem situation, encouraging people to search for alternative solutions, performing creative tasks, and brainstorming are also crucial.

According to Jabbar Garyaghdıoghlu, Haji Husu is also the creator of "Qatar" mugham accompanied by Sadıkhjan on the tar. Haji Husu was the favourite singer of the Khan's daughter Natavan and participated in her parties. Haji Husu was often invited to the parties of Mahmud Agha from Shamakhi and Mashadi Malik Mansurov from Baki. It is said that the famous Gachag Nabi used to come to the wedding parties where Haji Husu sang especially to listen to his voice. The last years of Haji Husu's life were not very successful. After he returned from Arabia, he was forced to preach at the Govhar Agha Mosque in Shusha under the pressure of the mollahs. The people of Shusha came to the mosque from the surrounding areas to listen to him. J. Baghdadbayov wrote in his memoirs: "In the winter hundreds of people came and listened to this charming voice." (4)

Mirza Sadıg Asad oghlu (1846-1902), a great tarzan, often accompanied Haji Husu's performances on the tar. Among the people, he was famous as Sadikhjan. Mirza Sadig gained great fame and love among the peoples of Azerbaijan and Transcaucasia. His name "Sadikhjan" was apparently an expression of this love. Mirza Sadig was awarded the "Shiri-Khurshid" gold medal for his great and skillful performance at the wedding of the son of the Shah of Iran.

Mirza Sadig's services in the history of our music were great. He reconstructed the centuries-old tar and improved it, increasing the number of strings to eleven by adding six strings to the weak-sounding five-string tar. Sadikhjan reduced the number of tones in tar's arm to 17. To increase the resonance of the tar, he did a number of things, added new strings, and also invented the "dumb finger" style. In the past, they played the tar while bending over on their knees. Sadikhjan canceled this method and played while holding the tar on his chest. Mirza Sadiq was the

creator of the new Azerbaijani tar. He was called "the father of tar". Along with the tar, Mirza Sadığ improved the mughams, he added the "Zabul" tone to the arm of the tar, and "Mukhalifi" to the "Mirza Huseyn Segah". Sadikhjan had big hands, long and strong fingers, it is said that no one could repeat the fingers he used on the tar and the mizrabs he played. (2)

Conclusion We must note that skilled tarists such as Mashadi Zeynal, Mashadi Jamil Amirov, Shirin Akhundov, Gurban Primov are the wonderful successors of the Sadikhjan school.

"Shusha is one of the unique cultural centers of Azerbaijan. Distinguished by its natural beauty, this city is a valuable monument of our national architecture and medieval town-planning art. Shusha, which has always been home to our national and spiritual values and musical traditions, has come a long way since its formation as a city of great economic, political and cultural significance. It has played a special role in the life of our people. This city is known in the world as the cradle of Azerbaijani mugham, as well as homeland of prominent poets and writers, such as Gasim bey Zakir, Khurshidbanu Natavan, Mir Mohsun Navvab, Najaf bey Vazirov, Abdurrahim bey Haghverdiyev, Yusif Vazir Chamanzaminli, Firidun bey Kocharli, Ahmad bey Aghaoghlu and others. (1)

,

References:

1. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı Biblioqrafiya, Bakı, 2021
2. Z.Səfərova Şuşa Azərbaycan musiqisinin məbədidir. https://www.musigi-dunya.az
3. Zahid Abbasov Şuşa Azərbaycan musiqisinin məbədidir.https:// www. medeniyyet.az, may 4, 2012
4. Bağdadbəyov C. Qarabağ xanəndələri haqqında xatirələr. AEA-nın Memarlıq və Incəsənət Institutun arxivi. Qovluq № 149 (əlyazma).
5. http://aznews.az, may 16, 2021
6. V. Vinoqradov. Uzeir Qadjibekov i azerbaydanskac muzıka. M., 1938

Sevda Ağayeva Aydın qızı

Azərbaycan musiqisinin beşiyi – Şuşa

Xülasə

Azərbaycanın Qarabağa və Şuşaya qayıdışının əbədi reallığa çevrildiyi danılmaz faktdır. 2022-ci il "Şuşa ili" elan edilib. Artıq 30 ilə yaxındır ki, əldən verdiyimiz diyarın mədəni irsini araşdırmağın vaxtı çatıb.

Məqalədə Şuşanın tarixinə qısa ekskursiya verilir. Müəllif şəhərin 28 illik işğalda məruz qaldığı bütün əzabları xatırladıb. 2020-ci ildə 44 günlük Vətən Müharibəsi 2800-ə yaxın şəhidin həyatı bahasına Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatıb. Qarabağa əbədi qayıdış danılmaz faktdır. Qarabağın bütün şəhərləri, xüsusən Şuşa dirçəliş dövrünü yaşayır. Görkəmli musiqiçilərin, şairlərin və

yazıçıların xeyli hissəsi şuşalılardır. Bu şəhərin bütün məşhurları haqqında məlumat vermək daha geniş tədqiqat işi tələb etdiyindən müəllif onlardan bəzilərinin adını çəkmişdir. Məqalədə Şuşadakı "Kor xəlif" musiqi məktəbi, xanəndə Hacı Hüsü, müasir tarın yaradıcısı sayılan Sadıqcan haqqında məlumatlar var.
Açar sözlər: qala, mədəni irs, muğam, qundaq, konservatoriya, xanlıq, vandallar, məhv etmək, musiqiçi, təslim olmaq, beşik, Zabul, mizrab

Севда Агаева Айдын кызы

Колыбель азербайджанской музыки – Шуша

Резюме

Неоспоримый факт, что возвращение Азербайджана в Карабах и Шушу стало вечной реальностью. 2022 год объявлен «годом Шуши». Пришло время исследовать культурное наследие земли, которую мы пропустили почти 30 лет.

Статья представляет собой краткий экскурс в историю Шуши. Автор упомянул обо всех страданиях, которым подвергся город за 28 лет оккупации. 44-дневная Отечественная война 2020 года завершилась восстановлением территориальной целостности Азербайджана ценой жизни около 2800 шехидов. Вечное возвращение в Карабах – неоспоримый факт. Все города Карабаха, особенно Шуша, переживают период возрождения. Большое количество выдающихся музыкантов, поэтов и писателей являются уроженцами Шуши. Автор упомянул имена некоторых из них, так как предоставление информации обо всех знаменитостях этого города требует более широкой исследовательской работы. В статье содержится информация о музыкальной школе «Слепой халиф» в Шуше, хананде Гаджи Хусу, Садыджане, который считается создателем современного тара.
Ключевые слова: крепость, культурное наследие, мугам, пеленать, консерватория, ханство, вандалы, разрушать, музыкант, капитуляция, колыбель, Забул, мизраб

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: f.ü.f.d, dos Svetlana Məmmədova
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏRİFZADƏ FİDAN SAMİQ
ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müəllimi
E-mail: fidansh445@gmail.com

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA HUMANIZM TƏRBİYƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Açar sözlər: tərbiyə, humanizm, şəxsiyyət, kiçikyaşlı, şagird.
Key words: nurture, humanism, personality, young, pupil.
Ключевые слова: взрастить, гуманизм, лицность, молодой, ученик.

Təlim fəaliyyəti zamanı kiçikyaşlı məktəblilərin tərbiyələndirilməsi çox çətin prosesdir. Bu prosesin çətinliyi ondadır ki, uşaqlar dərsdə tərbiyəvi tapşırıqları əsas kimi qəbul etmirlər. Uşağa elə gəlir ki, o, məktəbə təkcə bilik ardınca gedir, ona görə getmir ki, daha da xeyirxah, qayğıkeş, doğruçul, səmimi olsun. Şagirdin hərəkəti, hiss və həyacanı, özünə, yoldaşına, müəllimə münasibəti müəllimin istədiyi davranış modeli kimi deyil, onun daxili aləmi ilə müəyyən olur. Təlim zamanı müəllimin qarşıya qoyduğu vəzifənin nəticəsi tez gözə çarpdığı halda, tərbiyənin nəticəsi uzun müddət görünmür. Çünki, tərbiyənin nəticələri özünü çox gec və həmişə az-çox mübahisəli şəkildə göstərir.

Humanizm latın sözü olub insani, bəşəri deməkdir, insanın ləyaqəti və hüquqlarına hörmətlə ifadə edilmiş baxışlar məcmusudur, onu şəxsiyyət kimi qiymətləndirmək, insanların rifahı üçün qayğı, onun hərtərəfli inkişafı, cəmiyyətin həyatında insan üçün daha rahat şəraitin yaradılmasıdır. Humanizm insana məhəbbət, insanın qədrini bilmək, şəxsiyyətinə hörmət, onun fərdiliyini, baxışlarını, mülahizələrini, əməllərinin müstəqillik hüququnu, əgər onlar cəmiyyətin və kollektivin zərərinə deyilsə, təsdiq etmək kimi təzahürlərdə ifadə olunur. Humanizm insanın öz həyatının məzmununu və formasını müəyyən etmək hüququna və öhdəliyinə malik olduğunu iddia edən demoktarik və etik həyat mövqeyidir. Humanizm insanın bilik və bacarıqlarından istifadə etməklə insani və digər ali dəyərlərə söykənən etika əsasında daha humanist cəmiyyətin yaradılmasına səsləyir. Humanizm insani məsələlərdə təbiətüstü inancların hakimiyyətini tamamilə rədd edir, amma bununla yanaşı inancların özünü hədəf olaraq seçmir. Ümumi mənada ateizm və aqnostisimlə bütünləşir, amma humanist anlayış bunlara daxil deyil. Humanizm bu cür təbiətüstü güclərin varlığı ilə bir növ maraqlanmayan etik yanaşmadır. Humanizmin əsas məqsədi hər cür avtoritarlıqdan insanı azad etməkdir.

Humanizmin tarixi inkişafı insan mədəniyyətinin təkamül prosesinin bütövlükdə inikasıdır. Tarixi hadisə olmaqla humanizm əsrdən əsrə çox əhəmiyyətli dəyişikliklərlə keçmişdir. İnsanların insanpərvərlik istəyi və təşəbbüsü hələ ibtidai icma quruluşunda meydana gəlmişdir. Qəbilə quruluşu şəraitində insan tədricən

təbiətə, başqa insanlara, özünün özünə qarşı münasibətini dərk etməyə başlamışdır. Həmin dövrdən başlayaraq insani əlamətlər meydana gəlmişdir.[1,s. 39].

Ümumiyyətlə, xalq humanizmi şər qüvvəyə, düşmənə barışmaz nifrət hissi ilə yoğrulmuş humanizmdir. Bütün dövrlərdə yaşayıb yaratmış yüksək zəka sahibləri xalq kütlələrinin humanizmi tərənnüm etmişdir. İnsana humanist münasibətin nümunəsi lətifə, nağıl və dastanlarımızda əsas etibarı ilə müsbət qəhrəmanlar vasitəsilə göstərilmişdir. Bu qəhrəmanlar həssas və qayğıkeşdirlər. Onların insanpərvərliyi hər şeydən əvvəl kütlənin, camaatın qeydinə qalmaqda elin səadətinə toxunmaq istəyənlərəamansız mübarizə aparmaqda təzahür edir. Məsələn, aşağıdakı nümunəyə nəzər salaq:

Dərd aşar başdan keçər,
Kiprikdən, qaşdan keçər,
Doğru söz, doğru kəlam,
Dağ dələr, daşdan keçər.

Bu nümunədə aydın şəkildə görünür ki,, xalq humanizmi insanı həmişə bir birinə qayğı, böyüklərə və kiçiklərə hörmət və xeyirxahlıq göstərməyə çalışmışdır.[1, s.120].

Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan "Qurani Kərim" müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı, həm də çox mühüm tərbiyə məktəbidir. Burada insan daima uca tutulmuş, yaxşı işlər görmək, haqq danışmaq təbliğ edilmişdir. "... Doğru yol tutan yalnış özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər, heç bir günahkar başqasının günahını daşımaz, və ya "...Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi, savabı verilər, onlara haqsızlıq edilməz". Qədim dövrlərdən müasir dövrümüzə qədər yaşayıb yaradan ədiblər, şairlər, pedaqoqlar, alimlər, dilçilər və s.lər əsərlərində fikirlərində humanizm haqqında dəyərli fikirlər söyləmişlər. Nizami Gəncəvi də əsərlərində humanist ideyalar təbliğ etməklə insanların xeyirxah və qayğıkeş, düzgün və doğruçul, özündən böyüklərə hörmət etməyə çağırır. Şair xalqın işinə, əməlinə yararlı olmağı insaniyyətliliyin əsası kimi qiymətləndirir. O bildirir ki, öz həyat dünyasını bəzəyini artırmaq üçün arzu və istəklərlə yaşayan insan həmişə xoş ətir saçan xüsusiyyətləri ilə insaniyyətliliyini təsdiqləməlidir.

Çalış öz xalqının işinə yara,
Geysin əməlindən dünya zərxara,
Xoş ətirlər saçmaq istəyən adam
Gültək xoşxasiyyət olmalı mudam.
Madam ki, sülh ilə göyərir dilək,
Döyüşə at çapmaq daha nə gərək?

Dahi Nizami Bərdənin tərifinə həsr edilmiş şeirinə nəzər salsaq burada da görərik ki, şagirdlərin tərbiyəsinə,onların əsl insan kimi yetişmələrinə güclü təsir göstərən humanist ideyalar mövcuddur.

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da, güldür, çiçəkdir
Yem üçün gəlir quş bu gözəl yurda,
İstəsən quş südü taparsan burda.
O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən.

Məlumdur ki, bu hisslər xarici aləm hadisələrindən tutmuş insanın bir-birinə, habelə onun öz şəxsi məninə olan münasibəti zamanı formalaşır və humanist münasibətlərdə təzahür edir.Nizami əsərlərində humanist ideyalar təbliğ etməklə insanları xeyirxah və qayğıkeş, düzgün və doğru danışmağa, özündən böyüklərə hörmət etməyə çağırır.

Humanizm ulularımızdan bizə ərməğan kimi gəlib çatmış və mənəvi dünyamızın incisi hesab olunur. Bu fikri "Kitabi Dədə Qorqud" da "Dirsə xan oğlu Buğacın boyunu bəyan edir" boyunda yazılmış "Ac görsək doyurağıl, yalıncıq görsək donatqıl", "Borcluyu borcundan qurtargül" kimi nəsihətamiz sözlər bir daha təsdiqləyir [2]. Humanizm normalarının mahiyyətinin başadüşülmə prosesi, onların ictimai mahiyyəti humanizm tərbiyəsinin bütöv komponentlərinin ümumi məzmununu müəyyənləşdidir. Şəxsiyyətin xarakterinin formalaşmasında hansı prosesin üstünlük təşkil etdiyi və həlledici təsir göstərdiyi humanizm tərbiyəsinin hər bir komponentinin özünəməxsusluğunu müəyyənləşdirir.

Hər bir kəsə humanist münasibətin nümunəsi şifahi xalq ədəbiyyatımızın nümunələri olan nağıl, lətifə və dastanlarımızda əsas etibarilə müsbət qəhrəmanlar vasitəsilə göstərilmişdir. Həmin qəhrəmanlar həssas və qayğıkeşdirlər. Onların insanpərvərliyi, hər şeydən öncə kütlənin, camaatın qeydinə qalmaqda,, elin səadətinə toxunmaq istəyənlərə mübarizə aparmaqda təzahür edir. Həmin nümunələrə nəzər salaq:

Çıxma düz yolundan, axtar doğru yol,
Hərcayı sözləri eyləmə qəbul.
İstəyənlə ilqarında möhkəm ol,
Hərdəm xəyallığın nə binası var.
Və ya Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi- halını,
Amanət-amanət qonşu malını
Qonşu yox istəyən, özü var olmaz [1, s.112].

Numünələrdən də aydın olur ki, xalq humanizmi insanı həmişə böyüklərə və kiçiklərə hörmət, xeyirxahlıq bir-birnə qayğı göstərməyə çalışmışdır.

Humanist hisslər insanın insana, cəmiyyətə münasibətini ifadə edir. Humanist hisslər əxlaqi hisslərin bir qoludur. Məktəblilərin kiçik yaş dövründə bu hisslər nisbətən daha şüurlu, əsaslandırılmış olur və getdikcə qabarıq halda özünü göstərir. Təlimdə qarşıya qoyulan tələblər, sinif kollektivinin üzvü olmaq, tərbiyəvi təsirlər hisslərin daha çox ictimai mahiyyət kəsb etməsini şərtləndirir.

Qədim Şərqin klassik abidələrindən biri olan "Qabusnamə" də ümümbəşəri problemlər haqqında – ata-anaya hörmət, ailə, ailə tərbiyəsi, elmi və dini biliklərə yiyələnmək, gənclik, qocalıq və sş haqqında qiymətli fikirlər irəli sürülür. Qabus oğluna hamıya yaxşılıq etməyi məsləhət bilir. O deyir: "Peyğəmbər əleyhisəllam demişdir: yaxşılıq yolunu göstərən adam yaxşılıq edən adama bərabərdir. "Yaxşılıq et və yaxşılığı öyrət, çünki bunlar bir-birindən ayrılmaz qardaşlardır. Yaxşılıq etməkdən peşman olma..." [2, s.50].

Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Tarixə nəzər salsaq, cavanşirin, Xətainin, Həzi Aslanovun, Mehdi Hüseynzadənin, Mübariz İbrahimovun və yüzlərlə, minlərlə soydaşlarımızın vətənə olan savgisi,bağlılığı sübut edir ki, bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirmişdir. Erməni faşistlərinə qarşı apardığımız ölüm-dirim savaşında qəhrəmanlıq göstərmiş döyüşçülərimizin şəxsi nümunəsi vətənpərvərlik işində ön plana çəkilməlidir.Vətənpərvərlik hər bir xalqın milli ənənələri, milli iftixar hissləri ilə ayrılmaz surətdə bağlıdır. Bu işdə milli ənənələr mühüm rol oynayır. Vətənpərvərliklə humanistlik arasında da bir bağlılıq mövcuddur.Əsas vəzifə ayrı-ayrı fərddə və kollektivdə aşkarlanan mənəvi keyfiyyətlərdəki iradları qaldırmaqla mənəviyyatı müsbət mənada münbitləşdirilməsinə səy artırmaqdır. Buna görə də şəxsiyyətə, şəxsiyyətlər toplusu olan kollrktivin əqidəsinə, onların daxili aləminə milli zəmində təsir göstərməksir. Məhz əxlaq tərbiyəsinin əsas vasitəsi əqidə şəxsiyyətə və kollektivə ideya-psixoloji təsiridir. Bu təsirin gedişində əxlaq normalarının, sərvətlərinin, prinsiplərinin mənimsənilməsi baş verir [3, s.66].

Böyük rus pedaqoqu K.D. Uşinski təbiətin estetik təsir gücündən doğma diyara məhəbbət tərbiyə etmək üçün onun əhəmiyyətindən bəhs edərək yazırdi: "Mən həyat təəssüratımın dərin etiqatı nəticəsində bilirəmki, gənc ruhun tərəqqisində gözəl mənzərənin tərbiyəvi təsiri o qədər böyükdür ki, müəllimin təsiri ona rəqib ola bilməz".[4, s.68].

Humanistlik ilkin əxlaqi kateqoriya olmaqla yanaşı, bütün mənəvi keyfiyyətlərin hamısına və ayrı-ayrılılıqda hər birinə qaynayıb qarışmaq və bu keyfiyyətlərin mahiyyət və məzmununa daha yaxın, daha vacib mənəvi keyfiyyətlərdəndir. Humanistlik kiçikyaşlı məktəblilərdə tərbiyəvi mühit və tərbiyəvi təsir sayəsində təşəkkül tapır. İnsanı nizamlı münasibətlərə, tərəqqiyə, xoş ovqata istiqamətləndirən humanistlik əxlaq prinsipləri əsasında şagirdlərdə kiçik yaşlarından formalaşmalı və son nəticədə onların əqidəsinə çevrilməlidir. Buna görə də kiçik məktəb yaşı dövründən şagirdlərə maddi-mənəvi ilkin şərtləri yaradan, məhsuldar qüvvələri durmadan inkişaf etdirən insanlara qayğı ilə yanaşmağı öyrətməliyik. Uşaqlar gücləri çatan xoş məramlı işləri yerinə yetirməyi özlərinin həm insaniyyətlilik, həm də vətəndaşlıq borcu hesab etməlidirlər. Vətəndaşlıq borcu humanist səciyyə daşımaqla əxlaqın çoxlu komponentlərini özündə cəmləşdirir. "Vətəndaşlıq borcu şəxsi keyfiyyətlərin mürəkkəb kompleksinin əsasını təşkil edir. O, insanın cəmiyyət qarşısında əxlaqi vəzifəsini yerinə yetirməsidir. Vətəndaşlıq

borcu özündə ağıl, hiss, davranış və başqa cəhətləri də birləşdirir. O, təkcə ağlın əmri ilə yox, həm də ürəyin arzusu ilə yerinə yetirilməlidir.

Göründüyü kimi, humanizm adamdan sözün əsl mənasında insan olmağı tələb edir. Bütün bu əlamətlərin əsasları ümumiləşdirilsə, humanizm insanları başa düşmək və halına acımaq, şəxsiyyətin nailiyyətlərinə dərin hörmət, qayğı, zülmə və zorakılığa qarşı barışmazlıq kimi ifade edilir.Humanizm-əxlaqi prinsipdir, insanın maddi və mənəvi tələbatının ödənilməsinə istiqamətləndirilmişdir. Humanizm insan haqqında baxışların məcmusunun şüurda əksidir, onun yüksək ictimai vəzifəsidir, onun hərtərəfli və ahəngdar inkişafıdır, insanlar arasındakı münasibətlərin formalaşmasıdır. Humanistlik-şəxsiyyətin əxlaqi keyfiyyətidir, əxlaqi prinsipi əsasında insan düşüncəsində formalaşmış, kollektivdaxili və qarşılıqlı münasibətdə, insan fəaliyyətinin müxtəlif mühitində təzahür olunur. Şəxsiyyətə sistemli yanaşma humanizm tərbiyəsinin elə komponentini ayırmağa imkan verir ki, kiçik yaşlı məktəblinin bütövlükdə əxlaqi fəaliyyəti və humansitliyin təzahüründə müvəffəqiyyəti təmin edilir. Bütün bu proseslər humanizm tərbiyəsinin komponentlərini xarakterizə edir. Bu komponentlərinə humanist hisslər, humanist münasibətlər, humanist keyfiyyətlər daxildir. Bu komponentlər davranışda təzahür etdiyinə görə, onlar humanizm tərbiyəsi quruluşuna daxil olaraq kiçik yaşlı məktəblinin tərbiyəlilik səviyyəsinə müəyyənedici təsir göstərir. [5].

İbtidai sinif şagirdlərində humanist hisslərin təşəkkülünə və formalaşmasına bir sıra amillər kömək göstərir. Uşağı hər hansı bir işin icrasına, hər hansı bir şəxsə humanist kömək göstərməyi təlqin edərkən həmin işin görülməsinin vacibliyinə, zəruriliyinə inam formalaşması çox mühüm təsir gücünə malikdir. Məktəblilərdə humanist hissləri formalaşdırmaq üçün həyat tərzimiz, humanist qanunlarımız, ilkin tərbiyə ocağı olan ailə üzvlərinin bir-birinə olan səmimi münasibətləri, bağçada, məktəbdə, ictimaiyyətdə qarşılıqlı hörmət və ehtiram, ehtiyacı olanlara yardım, qayğı barədə şagirdlərin lazımi biliklərə yiyələndirilməsi çox faydalıdır. İnsanlığa inam ilk başlanğıcını ailədən götürülməlidir. Kiçik yaşlı məktəblinin humanist münasibəti-xeyirxahlıq, hörmət, qayğıkeşlik və s. münasibətləri əhatə edir. Onlar başqasına inam, halına acıma, dərdinə şərikolma, zülmə, qəddarlığa, zorakılığa, qarşı barışmazlıq zamanı yaranır. Əvvəlcə bu münasibət kiçik yaşl məktəblidə öz doğma və yaxın adamlarına, sonra isə tədricən başqa insanlara qarşı yaranır.

Humanizm tərbiyəsinin tədqiqi göstərir ki, məktəblilərdə bu keyfiyyətlərin əmələ gəlməsi mürəkkəb prosesdir və bu, onların şüur və davranışları ilə vəhdət təşkil edir. Humanist keyfiyyətlərin tərbiyəsində şagirdlərin adamlara kömək etmək məqsədi ilə ictimai fəaliyyətə cəlb edilməsi, adamlar arasında humanist keyfiyyətlərin düzgün qavranılmasını və başa düşülməsinin təşkili, şagirdləri əhatə edən mühitdə xudbin təzahürlərlə fəal mübarizə, humanist münasibətlərin adətlərdə möhkəmləndirilməsi, humanizmin davamlı davranış formasına çevrilməsi kimi mərhələlər nəzərdə tutulur. Kiçikyaşlı məktəblilərdə humanist keyfiyyətlərin

formalaşdırılmasının dərəcəsi onların davranışlarının göstəriciləri ilə ölçülür.[3, s. 88].

Müşahidələrimiz göstərir ki, səriştəli müəlimlər kiçikyaşlı məktəblilərin nağıla olan məhəbbətindən onlarda humanist keyfiyyətlərin tərbiyə edilməsi üçün geniş istifadə edirlər. Oxunmuş nağılla əlaqədər söhbət apararkən nağılın əsas qəhrəmanları müəyyən edilir, onların bir-birindən fərqi aydınlaşdırılır. Şagirdlər insanların müsbət və mənfi əxlaqi fəaliyyətlərini ayıra bilirlər. Nağıl uşaqların qarşısında əsrarəngiz aləm, insanlıq dünyasının ikili xarakterini xeyir və şəri açır.

İstifadə olunmuş ədəbiyyat

1. Muxtarova N. A. Şagirdlərdə milli hiss və milli ləyaqətin tərbiyəsi üzrə işin sistemi.Bakı: Maarif, 1993, 126s.
2. http://www.az-muallim/com
3. Talıbov Y.R., Ağayev Ə.A., İsayev İ.N., Eminov A.İ., Pedaqogika. Bakı, 1993.
4. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1953.
5. http://www.525.az/site/?name=xeber&news_id=
6. Hüseynov S. Humanizm və xeyirxahlıq missiyası. Bakı: Nurlan, 2007, 115 s.

Şərifzadə Fidan Samiq qızı

İbtidai sinif şagirdlərinin şəxsiyyət kimi formalaşmasında humanizm tərbiyəsinin əsas istiqamətləri

Xülasə

Cəmiyyətin xüsusiyyəti, onun maddi bazası insanpərvər insanı cəlb etməyə şərait yaratmaq üçün insanlar arasında qarşılıqlı hörmət, dostluq, ünsiyyət, bir-birinə kömək etmək üçün əsasdır. Bütövlükdə humanizmin tarixi inkişafı bəşər mədəniyyətinin təkamülünün əksidir. Xalq humanizmi düşmənə, şərin gücünə barışmaz nifrət hissi ilə qarışmış humanizmdir.

İbtidai sinif şagirdlərində humanist hisslərin təşəkkülünə və formalaşmasına bir sıra amillər kömək göstərir. Uşağı hər hansı bir işin icrasına, hər hansı bir şəxsə humanist kömək göstərməyi təlqin edərkən həmin işin görülməsinin vacibliyinə, zəruriliyinə inam formalaşması çox mühüm təsir gücünə malikdir. Məktəblilərdə humanist hissləri formalaşdırmaq üçün həyat tərzimiz, humanist qanunlarımız, ilkin tərbiyə ocağı olan ailə üzvlərinin bir-birinə olan səmimi münasibətləri, bağçada, məktəbdə, ictimaiyyətdə qarşılıqlı hörmət və ehtiram, ehtiyacı olanlara yardım, qayğı barədə şagirdlərin lazımi biliklərə yiyələndirilməsi çox faydalıdır. İnsanlığa inam ilk başlanğıcını ailədən götürülməlidir.

Шерифзаде Фидан Самиг

Резюме

Основные направления гуманистического воспитания в формировании личности младших школьников

Характер общества, его материальная база является основой для взаимного уважения между людьми, дружбы, общения, помощи друг другу, чтобы создать условия для привлечения гуманного человека. Историческое

развитие гуманизма в целом, является отражением эволюции человеческой культуры. Народный гуманизм-это гуманизм, который смешан с непримиримым чувством ненависти к врагу и силе зла. Формированию и становлению гуманистических чувств у младших школьников способствует ряд факторов. При побуждении ребенка к выполнению какой-либо работы, к оказанию гуманной помощи какому-либо человеку очень важное влияние имеет формирование убеждения в важности и необходимости выполнения этой работы. В целях формирования гуманистических чувств у школьников очень полезно приобретение учащимися необходимых знаний о нашем быте, гуманистических законах, искренних отношениях членов семьи, являющейся местом первичного воспитания, взаимном уважении и почитание, о помощи и заботе нуждающимся. Вера в человечество должна быть взята из семьи.

Sharifzade Fidan Samiq

Summary

The main directions of humanism education in the formation of the personality of elementary school students

The main characteristics of the society are the respect, friendship, contribituon each other and creates good opportunity for the humanist people. The historical progress of the humanism is the background of the human culture. National humanism is the humanism which makes negative sensitive to the enemy.

Several factors contribute to the formation of humanistic feelings in elementary school students. When inducing a child to perform any work, to provide humane help to any person, the formation of belief in the importance and necessity of doing that work has a very important influence. In order to form humanistic feelings in schoolchildren, it is very useful for students to acquire the necessary knowledge about our way of life, humanistic laws, sincere relations of family members, which is the place of primary upbringing, mutual respect and esteem in kindergarten, school, community, help and care for those in need. Belief in humanity should be taken from the family.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: p.ü.f. doktoru Eminova Gülşən tərəfindən çapa tövsiyə olunmuşdur

RƏNA RZAYEVA
AMEA Şərqşünaslıq institutu
İran filologiyası şöbəsi
Böyük elmi işçi, dosent
Rzayeva1958@icloud.com
0502117773

"MUNİSNAMƏ" MÖMİNLƏRİN ƏMİRİ ƏLİ İBN ƏBU TALIBIN İMAM HÜSEYNƏ - ONLARA SALAM OLSUN! - VƏSİYYƏTİ VƏ ONUN ŞEİRLƏ TƏRCÜMƏSİ

Xülasə

Son vaxtlar ədəbi ictimaiyyətdə böyük maraq doğurmuş, daima gündəmdə olan əsərlərdən biri də Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə"sidir. Bu əsər bir-birindən maraqlı hekayətləri, rəvayətləri, kəlamları, fəlsəfi-təsəvvüfi ifadələri və s. ilə alim, tədqiqatçıların diqqətini hər zaman çəkir. Ümumilikdə on yeddi fəsildən, on yeddinci fəsli isə öz-özlüyündə otuz bir hekayətdən ibarət olan bu əsərin hər bir mətninin ayrılıqda araşdırılıb tədqiq edilməsinə, öyrənilməsinə ehtiyac vardır. On yeddi fəsildən ibarət olan bu əsər şərti olaraq iki hissəyə bölünür ki, bu hissələrdən birincisi özündə didaktik, ikinci hissəsi isə bədii mətnləri ehtiva edir. Bu mətnlər, xüsusilə də didaktik hissəyə aid olan mətnlər istər bədii, istər tarixi, istər sə də qiymətli mənbə olması baxımından olduqca maraqlıdırlar. Bu mətnlərdən biri də ikinci fəsildir. Bu fəsil belə adlanır:

در وصایای امیرالمومنین علی بن ابی طالب امام حسین را و ترجمه آن به شعر

"Möminlərin əmiri Əli ibn Əbu Talibin İmam Hüseynə - onlara salam olsun! - vəsiyyəti və onun şeirlə tərcüməsi" adlanır.

Lakin «Nəhc əl-bəlağə», şübhəsiz, yalnız öz məzmununa görə deyil, həm də yüksək bədii keyfiyyətlərinə görə «Munisnamə» müəllifinin diqqətini cəlb etmişdi, belə ki, həmin əsər klassik ritorikanın və natiqlik sənətinin parlaq nümunəsi sayılırdı. Yəqin ki, orijinalın təsir qüvvəsinin başlıca amili olan bədiiliyini müəyyən qədər hifz etmək məqsədi ilə, əl-Ustad «Nəhc əl-bəlağə»dən seçdiyi parçaların poetik tərcüməsini verməyi məqsədəuyğun saymışdı.

Açar sözlər: Əbubəkr ibn Xosrov əl-Ustad, Munisnamə, Nəhc əl-bəlağə, Əli ibn əbu Talib, vəsiyyət

Son vaxtlar ədəbi ictimaiyyətdə böyük maraq doğurmuş, daima gündəmdə olan əsərlərdən biri də Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə"sidir. Bu əsər bir-birindən maraqlı hekayətləri, rəvayətləri, kəlamları, fəlsəfi-təsəvvüfi ifadələri və s. ilə tədqiqatçı-alimlərin diqqətini hər zaman çəkir. Ümumilikdə on yeddi fəsildən, on yeddinci fəsli isə öz-özlüyündə otuz bir hekayətdən ibarət olan bu əsərin hər bir

mətninin ayrılıqda araşdırılıb tədqiq edilməsinə, öyrənilməsinə ehtiyac vardır. On yeddi fəsildən ibarət olan bu əsər şərti olaraq iki hissəyə bölünür ki, bu hissələrdən birincisi özündə didaktik, ikinci hissəsi isə bədii mətnləri ehtiva edir. Bu mətnlər, xüsusilə də didaktik hissəyə aid olan mətnlər istər bədii, istər tarixi, istərsə də, qiymətli mənbə olması baxımından olduqca maraqlıdırlar. Bu mətnlərdən biri də ikinci fəsildir. Bu fəsil belə adlanır:

در وصایای امیرالمومنین علی بن ابی طالب امام حسین را و ترجمه آن به شعر($7, 11^b$-18^a)

"Möminlərin əmiri Əli ibn Əbu Talibin İmam Hüseynə - onlara salam olsun! - vəsiyyəti və onun şeirlə tərcüməsi". (2.)

Maraqlı olanı budur ki, Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsrinin ikinci babı, dediyimiz ki, Əli ibn Əbu Talibin oğlu Hüseynə etdiyi vəsiyyət kimi verilmişdir, amma digər mənbələrdə, istər Azərbaycan, istər rus, istərsə də, fars dilində olan mətnlərdə söhbət Əli ibn Əbu Talibin oğlu Həsənə etdiyi vəsiyyətdən gedir. Məsələn, akademik Bəkir Nəbiyevin redəktəsi ilə çap olunmuş "Nəhcül Bəlağə"də oxuyuruq:

31-ci məktub İmam Əli əleyhis-salamın Siffeyndən qayıtdıqdan sonra, Hazirində (Siffeyn bölgəsi yaxınlığında yer adıdır) Həsən ibn Əli əleyhiməs-salama yazdığı vəsiyyətlərindəndir.(3, s. 183)

Daha sonra başqa bir tərcümədə yenə də oxuyuruq: 31-ci məktub İmam Əli əleyhis-salamın Siffeyndən qayıtdıqdan sonra, Hazirində (Siffeyn bölgəsi yaxınlığında yer adıdır) Həsən ibn Əli əleyhiməs-salama yazdığı vəsiyyətlərindəndir.(4)

İnternet resurslarından istifadə edərək fars dilində olan materialda oxuyuruq:

وصیت امام علیه السلام به فرزند خویش به هنگام بازگشت از صفین

آن چه مي‌خوانید وصیت امام علی علیه السلام به فرزندش امام حسن علیه السلام است که پس از بازگشت از صفین در قریه "حاضرین" نوشت.

İmamın Səfindən qayıdanda oğluna vəsiyyəti

Oxuduğunuz, İmam Əlinin (əleyhissalam) oğlu İmam Həsənə (əleyhissalam) Səfindən qayıtdıqdan sonra "Həzadin" kəndində yazdığı vəsiyyətidir.
(11)

Nəhcül-bəlağənin [ПУТЬ КРАСНОРЕЧИЯ (Нахдж – уль - Балага)] rus dilindəki nəşrində, yenə də oxuyuruq:

ЗАПОВЕДЬ адресована Хасану бин Али — да будет мир над ними обоими, — написана в лагере Хадирин при выступлении из Сиффина – Həsən ibn Əliyə ünvanlanmış vəsiyyət Siffeyindən qayıdanda Hazirində yazılmışdır. (6, s159)

Şübhəsiz, əl-Ustad bu əsərin yazılmasında öz dövründə geniş yayılmış məcmuələrdən, hədis toplularından və nəhayət, dördüncü xəlifə Əli ibn Əbu Talibin (656-661) adını çəkdiyimiz məşhur «Nəhc əl-bəlağə» («Bəlağət sənəti») əsərindən istifadə etmişdir. Sonuncu, görünür, əl-Ustadın xüsusi maraq obyekti və faydalanma mənbəyi olmuşdur, belə ki, «Munisnamə»nin «Möminlərin əmiri Əli ibn Əbu Talibin

İmam Hüseynə – onlara salam olsun! – vəsiyyəti və onun şeirlə tərcüməsi» adlanan II fəsli (7, 11[b]-18[a]) büsbütün həmin əsər əsasında yazılmışdır.

Məlumdur ki, «Nəhc əl-bəlağə» görkəmli ərəb şairi, Bağdad ələvilərinin başçısı, Quranın
təfsirinə dair bir sıra əsərlərin müəllifi Şərif ər-Rəzi (970-1016) tərəfindən tərtib olunmuşdur. Hərçənd bir çox tədqiqatçılar onu Ər-Rəzinin özü tərəfindən yazılmış əsər hesab edirlər (5, s.119).

On iki imam şiələrinin ən məşhur kitablarından biri olan "Nəhc əl-bəlağə" Əli ibn Əbu Talibin əmr, xütbə, məktub, vəsiyyət və kəlamlarından ibarətdir. Qeyd etdiyimiz kimi, əsəri tərtib edən Seyid Rəzidir. Əsərin adının mənası, nəhc yol, bəlağə isə gözəl söz deməkdir. Müəllif əsərdəki rəvayətləri müxtəlif Şiə və Sünni mənbələrindən götürmüşdür. (8)

Bilindiyi kimi, "Nəhc əl-bəlağə"nin mətni üç hissədən ibarətdir: I hissə 241-242 xütbədən ibarət olub İmam Əlinin müxtəlif hadisələr və şəraitlə bağlı etdiyi söhbətlərdir. II hissə 78-79 məktubdan ibarət olub İmam Əli tərəfindən müxtəlif şəxslərə yazılmış və onları düzgün yola, gözəl işlərə yönəldən məktublarıdır. III hissə isə 480-489 hikmətamiz sözdən ibarət olub İmam Əlinin müxtəlif yerlərdə söylədiyi əxlaqi, elmi, tarixi, psixoloji və digər hədislər toplusudur" (1,s.73-74).

"Nəhcül-bəlağə"nin lüğət mənası, dediyimiz kimi, bəlağət yolu, yaxud açıq və gözəl danışmaq yolu deməkdir. Bu kitabın məzmunu isə həzrət Əlinin (ə) söylədiyi xütbə, yazdığı məktub və hikmətli kəlamlarından ibarətdir.

Böyük alim Seyid Rəzi Məhəmməd ibn Əhməd (təvəllüdü h.q. ilə 359, vəfatı 405) hicri qəməri tarixi ilə 400-cü ildə (1000-ci il) həzrət Əlinin (ə) xütbə, kəlam və məktublarını toplayıb adını "Nəhcül-bəlağə" qoymuşdur. O, bu kitabı Nəhcül-bəlağə adlandırmasının səbəbini belə açıqlayır; "Yaxşı olar ki, mən bu kitaba "Nəhcül-bəlağə" adını verim, çünki, bu qiymətli, gövhər kəlamlar bəlağətin yolunu oxucuların üzünə açır və bu məharəti, hünəri axtaranları özünə yaxınlaşdırır, habelə müəllim, şagird və zahidlərin istək və arzularını yerinə yetirir".

Nəhcül-bəlağə həzrət Əmirəl-möminin Əlinin (ə) qiymətli bir kitabı olaraq bizi müxtəlif elmlərdən agah edir. Bu kitabda üsulid-din, firuid-din, Quran, sünnə, şəri hökmlər, kainat və məxluqatın sirləri, fəlsəfə, astronomiya, coğrafiya, siyasət, peyğəmbərlər, İslam tarixi, əxlaq, adət və ənənələr və başqa mövzular haqqında danışılır.

Nəhcül-bəlağənin məzmun və mətni,dediyimiz kimi, üç hissədən ibarətdir:

1-ci hissə 241-242 xütbədən ibarətdir. Xütbələr, həzrət Əlinin (ə) müxtəlif hadisə və şəraitilə
bağlı etdiyi söhbətlərdən ibarətdir. O cümlədən, birinci xütbə yer, göy, mələklər və Adəmin (ə) xilqəti, 184-cü xütbə "Müttə-qin" yaxud "Həmmam" xütbəsi ilə məşhur olub, mö-minlərin xüsusiyyətlərindən bəhs edir.

2-ci hissə 78-79 Məktubdan ibarətdir. Həzrət Əli (ə) bu məktubları, müxtəlif şəxslərə yazmış və onlara düzgün yolu, əmanətə xəyanət etməməyi və gözəl işləri

tövsiyə etmişdir. O cümlədən, Azərbaycanın hakimi Əşəs ibn Qeysə (5-ci mək.), Bəsrənin Hakimi Osman ibn Hüneyfə (4-45-ci mək.), Bəhreyn hakimi Ömər ibn Əbu Sənəməyə (42-ci mək.) və Şamın qanunsuz hakimi Müaviyəyə (6-cı mək.) də məktub yazmışdır.

3-cü hissə 480-489 hikmətamiz sözdən ibarətdir. Burada həzrətin (ə) müxtəlif yerlərdə söylədiyi əxlaqi, elmi, siyasi-ictimai, tarixi, psixoloji və digər hədislər yığılmışdır.(9)

Qeyd etmək lazımdır ki, istər əsərdəki fəlsəfi-ictimai fikirlər, istərsə də onun ifadə və üslub üstünlüyü bu əsərin Həzrət Əlinin elminin bir nəticəsi olduğunu göstərir. Eyni zamanda, əsərin rəvayət mənbələri də bu sözlərin müəllifinin Həzrət Əliyə aid olduğunu göstərir

"Nəhcül-bəlağə", sanki keçmiş, müasir dövr və gələcək üçün yazılmış, zaman keçdikcə köhnəlmək bilməyən, əksinə, günbəgün təzələnən bir kitabdır. "Nəhcül-bəlağə"də bütün bəşəri biliklər və dünyaya baxış üsulları özünəməxsus yer tutur. "Nəhcül-bəlağə" İslam aləmində Qurandan sonra ən böyük kəşf mənbəyi sayılaraq, insana kamilliyin ən uca, əlçatmaz və ünyetməz zirvələrinə yiyələnmək üsulunu öyrədir. İmam Əlinin (ə) xütbələri, məktubları və hikmətli kəlamlarından ibarət olan "Nəhcül-bəlağə"də hər bir müsəlmanı maraqlandıran və onun üçün ən ümdə məsələlərə dair dolğun məlumat vardır. "Nəhcül-bəlağə" İmam Əli (ə) haqqında, onun şəxsiyyəti, fəzilətləri, bəlağət və fəsahəti, elmi barədə biliklərimizi zənginləşdirməyə, daha dolğun bilik hasil etməyə imkan verən fundamental bir əsərdir. Natiqlik məharətinə nə dərəcədə malik olursansa-ol, nə səviyyədə elmi, dini, fəlsəfi təhsil alırsansa-al, İmam Əlinin (ə) fəzilət və üstünlüklərindən söz açmaq çox çətindir, çünki belə bir nəhəng fikir dühası haqqında danışmaq kimi böyük cəsarət tələb edən bir işdə dil acizlik göstərir, bilik naqislik nümayiş etdirir.

İmam Əli ibn Əbu Talibin (ə) bəlağət və fəsahətdə misli-bərabəri olmayan xütbələri, hikmətli kəlamları və məktublarının toplusu olan "Nəhcül-bəlağə" İslam və bütün dünya mədəniyyəti inciləri sırasına ölməz bir əsər kimi daxil olmuşdur. (10)

Lakin «Nəhc əl-bəlağə», şübhəsiz, yalnız öz məzmununa görə deyil, həm də yüksək bədii keyfiyyətlərinə görə «Munisnamə» müəllifinin diqqətini cəlb etmişdir, belə ki, həmin əsər klassik ritorikanın və natiqlik sənətinin parlaq nümunəsi sayılırdı. Yəqin ki, orijinalın təsir qüvvəsinin başlıca amili olan bədiiliyini müəyyən qədər hifz etmək məqsədi ilə, əl-Ustad «Nəhc əl-bəlağə»dən seçdiyi parçaların poetik tərcüməsini verməyi məqsədəuyğun saymışdır.

Burada da əvvəlki fəsildə olduğu kimi, əvvəlcə nəsihətlərin ərəb dilində orijinalı, sonra isə farscaya tərcüməsi verilir. Həmin tərcümələr əl-Ustadın bədii istedadını kifayət qədər yaxşı nümayiş etdirir onun gözəl nəzm ustadı olduğunu nümayiş etdirir. Bu fəsildən bir neçə hissəni nəzərdən keçirək, fəsil belə başlanır:

گفت سلطان اولیا به حسین
کای دلارام جان و قوت عین!
کوش میدار جانب یزدان

در همه حال آشکار و نهان
راست گوی ای نگار مردم چشم
در نسیم رضا و آتش خشم
گر توانگر شوی و گر درویش
نه کم از کم ده و نه بیش از بیش
داد کن در میان دشمن و دوست
داد مغز است و آفرینش پوست
زنده میدار در نشاط و کسل
صورت علم را به جان عمل ($7, 11^{b}$-12^{a})

Möminlərin əmiri Həzrət Əli Hüseynə dedi:
- Ey gözümün nuru, dərdlərimin məlhəmi,
Çalış bütün işlərində, gizlində və aşkarda,
İxtilaflar qəzəbini alovlandıranda da,
Əmin-amanlıq ruzigarı əsəndə də,
Ey mənim bir cüt gözüm,
Doğru söylə, düz danış.
Zəngin olsan da, yoxsul olsan da
[Olduğundan] az və ya çox olma.
Dost-düşmən yanında həmişə ədalətli ol,
Həyatın məğzi ədalətdir.(2,36)

Dediyimiz kimi, bu parça öz nəsihətamiz, ibrətamiz kəlamları, ifadələri ilə seçilir. Burada ifadə olunan hər bir fikrin arxasında kamil insan formalaşdıran xüsusiyyət yer almışdır. Bunlardan biri İslamda ən qəbuledilməz xüsusiyyətlərdən biri olan zalımlıq, xalqa zülm etmək tənqid olunur:

هر که تیغ ستم کشید برون فلکش هم بدان بریزد خون
وانکه بهر برادران در راه چاه ساز خود اوفتد در چاه
($7,12^{a}$)هر که در کارها ستیزه کند دور هفت آسیاش ریزه کند

Xalqa qılınc çəkənin özü
Fələk tərəfindən qanına qəltan ediləcəkdir.
Kim ki qardaşına quyu qazar,
Mütləq quyuya özü düşər.
Kim quldurcasına iş görər,
Onu yeddi göyün dəyirmanı əzib üyüdər.(2,37)

Məlumdur ki, təkəbbür hər zaman, hər dövrdə qəbulolunmaz xüsusiyyət olmuşdur.

هر که باشد برای خود معجب کز بیفتد ز راه اینست عجب
(12^{b})وآنکه بر عقل خویش مغرور است بدرستی عظیم رنجور است

Özü ilə öyünən kəs,
Özü də bilmədən yoldan sapınacaqdır.

Öz ağlına valeh olan adam
Əslində, çox əziyyət çəkər. (2,37)

Xalqa, ətrafa həqarət etmək, yuxarıdan baxmaq, əskiltmək kimi xüsusiyyətlər heç bir zaman
qəbul olunmamışdır.

هر که بر خلق گردن افرازد تیغ کبرش ز تن سر اندازد
و آنکه با مردمان کند خواری زود افتد میان دشواری (12^b-13^a)

Kim ki xalqa həqarət edər,
Təkəbbürün iti qılıncı onun boynunu vurar.
Kim ki başqasını alçaltmağa çalışır,
Tez bir zamanda özü əskilir.(2,37)

Bilirik ki, təqva hər bir imanı kamil insanın ən ümdə xüsusiyyətidir.

پارسایی چو رفت دل هم مرد دل مرده اش بسوی دوزخ برد (13^a)

Təqvası olmayanın ürəyi ölü ürəyi kimidir.
Ölü ürək isə cəhənnəmə vasil olur.(2,38)

Həsəd, paxıllıq heç vaxt insana ruh rahatlığı gətirməz, insan paxıl olarsa, hamının, hər şeyin həsədini çəkərsə, ruhən, qəlbən rahat həyat sürə bilməz. Ancaq bu hisslərə güc gələ bilənlər özlərini xöşbəxt hiss edə bilərlər.

هر که خار حسد زند آتش کل دل ها ازو بخندد خویش (14^a)

Kim ürəyindəki həsəd tikanlarına od vurub yandırır,
Bütün ürəklər onun üzünə gülür. (2,38)

Mərhəmət, xeyirxahlıq həmişə yüksək, abırsızlıq, həyasızlıq isə aşağı, pis xüsusiyyət kimi dəyərləndirilir. İmanı kamil olanın bütün zamanlarda çox yüksək dəyəri olmuşdur.

سر دانایی ای پسر نرمی است آفتش ابلهی و بی شرمی است
چیست ایمان بزرکتر گنجی صبر کن تا فرا رسد رنجی
پارسایی جمال فقر بود زینت مال دار شکر بود (15^a)

Ey oğul! Ağlın, mərifətin əsası mərhəmətdir, rəhmdillikdir.
Abırsızlıq, həyasızlıq isə elmin, mərifətin düşmənidir.
İman nədir!? O ən böyük xəzinədir! (2,39)

İslamın sarsılmaz təmələ malik olduğu, İslamın son din olaraq dinlərin ən mükəmməli, ən parlağı olduğu məlumdur. İslamın ən əsas prinsiplərindən olan "təqva", şübhəsiz ki, hər zaman, hər bir müsəlmanın tacı olmuşdur.

ای بسا لفظ کان چو کوه نمود نعمتی همچون کوه را بربود
هیچ پایه ای نیست گر همی دانی برتر از قبه مسلمانی
چیست تقوی چو نور چشم کرم پارسایی چو قلعه محکم (15^a)

Sən bilməlisən ki, müsəlmanlıq məbədinin bünövrəsindən möhkəm,
Ondan daha uca, daha möhtəşəm məbəd yoxdur.
«Təqva» nədir? Təqva ucalığın, yüksəkliyin parlayan tacıdır,
O, inamı, imanı mühafizə edən möhtəşəm bir qaladır (2,39)

İnsanın yaradışından, İslamın lap təməl daşının qoyulduğundan bəri ən böyük cihadı, mübarizəsi nəfsi ilə olmuşdur. Nəfs bütün bəlaların kökü, bütün bədbəxtliklərin əsasıdır.

حرص دندانه کلید غم است مرکب قهرمان بس المست
حرص گستاخ پر گنه کندت [بیش] عیب و پر تبه کندت (16^a)

Tamahkarlıq dərd-qəmin dişidir,
Ağrı-acının çapar atıdır.
Nəfs və tamahkarlıq adamı günaha sövq etdirir,
Sonra isə cinayətə, fəlakətə sürükləyir.(2,40)

İnsanı yaşadan, insana güc verib, ayaq üstə saxlayan ümiddir. Ümid üzülməsə, insan yaşayar, sabaha addımlayar.

ای پسر خلق را مکن نومید که شگفت است نور این خورشید (16^b)

Ey oğul! Heç vaxt xalqın ümidini üzmə.
Günəş şüaları zülməti işıqlandırdığı kimi
Ümid də insan qəlblərini işıqlandırır.(2,40)

Ümid Allahdandır, ümidini üzənlər, deməli Allahın böyüklüyünə şübhə edirlər, bu isə günahdır.

وای بر مبتلای حرمانست که مقیم مقام عصیانیست
(18^a)

Allahdan ümidlərini üzənlər yazıqdırlar,
Onlar Allaha asi düşənlərdir.(2,42)

İnsan ancaq Allaha tapınmalı, ondan istəyib, ondan gözləməlidir. İnsan bilməlidir ki, nə qədər çalışıb səy etsə də, ruzini, bərəkəti verən, sabaha yol açan Allahdır.

مرد را گر چه هست گوهر درد نتوان خواند مطلق او را مرد
تا نگردد ز بند این ها مرد که چه پوشید دی و دوش چه خورد (18^a)

İnsan o vaxt kamilləşir ki, «bu gün nə yeyim, nə içim,
Nə geyim, necə yaşayım, sabah nə olacaq!?»
Buxovlarından özünü azad edir.(2,42)

Gördüyümüz kimi bu hissədə verilən hər bir fikir, hər bir kəlam olduqca dərin və dəyərlidirş. Üzərindən əsrlər keçsə də, bu fikirlərin hər biri bu gün də aktualdır.

Bütövlükdə doxsan beytdən ibarət olan bu fəsil həmçinin fars dilinə bədii tərcümənin ilk nümunələrindən biri kimi maraq doğurur və həmin sahədə aparılacaq tədqiqatlara da cəlb olunmağa layiqdir.

İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT

1. Kərimova X. “Ədəb” janrı və ət-Tənuxinin “Nişvar əl-Muhadara va Əxbər əl-Muzəkəra" əsəri. Bakı, “Adiloğlu”, 2015, 232 s.
2. Munisnamə. Bakı-2021.764 səh.
3. NƏHCÜL BƏLAĞƏ İmam Əli əleyhis-salamın xütbə, məktub və hikmətli kəlamları (tərcümə və şərh, 2 cilddə) Ədəbi redaktor: Akademik Hacı Bəkir Nəbiyev 510səh. s.183-203
4. Nəhcül-bəlağə. 31-ci məktub. Tərcüməçilər:A.Mehdiyev,D.Cəfərli,E.Quliyev. Bakı.2006.
5. Фильштинский И.М. История арабской литературы X-XVIII вв. М., «Наука», 1991, 726 с.
6. ПУТЬ КРАСНОРЕЧИЯ (Нахдж – уль - Балага) 212стр.
7. مونس نامه. نسخهٔ خطی موزهٔ بریتانیا. شمارهٔ 9317.
8. https://az.wikipedia.org/wiki/Nəhcül-bəlağə
9. http://balaghah.net/old/nahj-htm/azr/id/masadir/06.htm
10. http://isamveri.org/pdfdrg/D04374/2019_2/2019_2_NURULLAYEVF.pdf
11. https:// wiki.ahlolbait.com/وصيت_نامه_حضرت_على_عليه_السلام

Резюме

В последнее время одним из самых популярных произведений, вызывавших большой интерес в литературной среде является «Мунисname» Абубакра ибн Хосрова аль-Устада. Это произведение состоит из интересных рассказов, повествований, изречений, философско-мистических высказываний. Это произведение долгии годы как привлекает внимание ученых и исследователей. Каждый текст этого произведения, состоящего всего из семнадцати глав, а сама семнадцатая глава которая состоит из тридцати одного рассказа, нуждается в отдельном исследовании и изучении. Это произведение, состоящее из семнадцати глав, условно разделено на две части, первая часть содержит дидактические тексты, а вторая – художественные тексты. Эти тексты, особенно относящиеся к дидактической части, очень интересны с точки зрения художественной, исторической ценности, а так же с точки зрения ценного историко-литературного источника. Одним из таких текстов является вторая глава. Эта глава называется:

در وساياي امير المومنين علي بن ابي تعلب را امام حسين و ترجمه ان به شور

«Заповедь Али ибн Абу Талиба, Повелителя Правоверных Имаму Хусейну – мир им! - и ее воплощение в поэзии».

Однако «Нахдж аль-Балага», несомненно, привлекла внимание автора «Мунисname» не только своим содержанием, но и высокими художественными качествами, так как произведение считалось ярким образцом классической риторики и искусства речи. Вероятно, с целью сохранения художественности оригинала, являющейся главным фактором его воздействия, ал-Устад счел целесообразным дать поэтический перевод отдельных частей из «Нахдж ал-Балага».

Ключевые слова: Абубакр ибн Хосров аль-Устад, Мунисname, Нахдж аль-балага, Али ибн абу Талиб, заповедь

Summary

Recently, one of the works that has aroused great interest in the literary community and is always on the agenda is "Munisname" by Abubakr ibn Khosrow al-Ustad. This work always attracts the attention of scientists and researchers which contains interesting stories, narrations, sayings, philosophical-mystical statements and etc . Each text of this work, which consists of seventeen chapters in total, and the seventeenth chapter by itself, consists of thirty-one stories that needs to be researched and studied separately. This work, which consists of seventeen chapters, is conventionally divided into two parts ; the first part contains didactic texts, and the second part contains artistic texts. These texts, especially those related to the didactic part, are very interesting from the point of view of being an artistic, historical or valuable source. One of these texts is the second chapter. This chapter is titled:

در وساياي امير المومنين علي بن ابي تعليب را امام حسين و ترجمه ان به شور

"Ali ibn Abu Talib, the Commander of the Faithful, to Imam Husayn - peace be upon them! - will and its translation in poetry" is called.

However, "Nahj al-Balagha" undoubtedly attracted the attention of the author of "Munisname" not only because of its content, but also because of its high artistic qualities, so that work was considered a bright example of classical rhetoric and the art of speaking. Probably, with the aim of preserving the artistry of the original, which is the main factor of its impact, al-Ustad considered it appropriate to give a poetic translation of selected parts from "Nahj al-Balagha".

Key words: Abu Bakr ibn Khosrow al-Ustad, Munisnama, Nahj al-Balagha, Ali ibn abu Talib, testament

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: f.ü.f.d.dos. Məsiağa Məhəmmədi tərəfindən çapa tövsiyə olunmuşdur

F.ü.f.d SEYİDOVA ŞAHNAZ İSMAYIL QIZI
Bakı Slavyan Universiteti
seyidovashahnaz21@gmail.com

A.P. ÇEXOV AZƏRBAYCAN ƏDƏBİYYATINDA

XÜLASƏ

Rus ədəbiyyatının dahi sənətkarlarından biri A.P.Çexov Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərindən tanınmağa başladı. A.Çexovun yaradıcılığı XIX əsr rus ədəbiyyatında bir dönüş yaratmışdır. Görkəmli ədib yaradıcılığına parodik hekayələrlə başlamışdı. Çexovun ilk hekayəsinin yazılması "Alim qonşuya məktub" onun tələbəlik illərinə təsaddüf edir. Bu hekayə ilə Azərbaycan oxucusu çox sonralar tanış oldular. Bu məqalədə, Çexovun Azərbaycan ədəbiyyatındakı tədqiqatından söhbət açılır.

Azərbaycan ədəbiyyatının ən görkəmli yazıçı və tənqidçiləri müxtəlif zamanlarda Çexov yaradıcılığına müraciət etmişlər. Onun əsərləri uzun illər tədqiqatçılar tərəfindən təhlil olunmuşdur. Böyük ustad yazarlarımızdan C.Məmmədquluzadə, Y.Çəmənzəminli, Ə.Haqverdiyev və b. Çexov əsərlərindən öz yaradıcılıqlarında bəhrələnmişlər. Məqalədə həmçinin Çexov yaradıcılığı ətraflı şəkildə təhlil olunmuşdur. Həmçinin məqalədə Çexovun həyatı araşdırılır. Görkəmli yazarların onun haqqındakı fikirləri qələmə alınır. Çexovun uşaqlıq dönəmini məqalədə yer almışdır. Çexovun gimnaziya və universitet illərindəki həyatı da məqalədə yer alır. Məqalədə Çexovun "Çöl" povestidə təhlil olunur.

Açar sözlər: əsər, ədəbiyyat, tədqiq, bəşər, təhlil, dəyərli, fərqli, tanınmış, janr, düha, səriştəli, söz, təbiət, qəhrəman, yaradıcılıq

Dünya ədəbiyyatının ən orijinal yazıçılarından biri A.P.Çexov rus ədəbiyyatının ən möhtəşəm və mükəmməl dühalarından biridir. Çexov XIX əsrdə rus ədəbiyyatında öz dəsti xətti ilə seçilir. Rus ədəbiyyatına yeni bir üslub gətirən Çexov yaradıcılığı boyu heç kimi təkrar etmir, onun əsərləri, yaratdığı obrazlar ondan öncə yaradılan obrazlara bənzəmir və onları təkrarlamır. Bu haqda M.İbrahimov yazırdı: "Çexov heç kəsi təkrar etmir, heç kəsə oxşamır, ən kiçik ünsürlərdə belə özündən əvvəl gəlmiş böyük yazıçılardan birinidə yamsılmır. O, rus və dünya ədəbiyyatında tamamilə yeni bir yol açdı, çox vüsətlə realizmin çərçivəsini genişləndirdi. On doqquzuncu əsrin nəsrində yeni bir üslub, Çexov uslubu yarandı" (6,441).

Mikayıl Rəfili Çexovu rus şairlərinin ən böyük vətənpərvəri adlandırmışdı: "Rus çöllərinin solmaz gözəlliyini, ucsuz və bucaqsız düzlərinin cazibədar və füsunkar sirrlərini dərindən duyan, insan ruhunu rübabinin tellərində əks etdirən böyük sənətkarlardan birisidə Anton Pavloviç Çexov idi. Böyük ədib, böyük sənətkar, böyük rus vətənpərvəri... O əbib olmaqdan artıq böyük bir şair idi. Rus nasirləri

arasında ən böyük şair idi" (8,5). Görkəmli tənqidçi doğru vurğulayır, Çexov vətənini sevən, məktəblər açan, uşaqların təhsili üçün əlindən gələni edən bir insan idi.

M.Rəfili Çexovu rus təbiətini dərindən bilən, insan ruhunu, iç dünyasını bütün dolğunlugu ilə əks etdirən sənətkar adlandırır. Həqiqətəndə, Çexov rus ədəbiyyatında təbiət gözəlliklərini, insan xarakterini ən dərin boyalarla qədər əks etdirən sənətkarlardan biridir.

M.İbrahimov Çexovun "Çöl" povestini xarakterizə edərək, yazırdı: "Çexov həm nəsr, həm də dram əsərlərində insanı dərindən təsvir edirdi. İnsanın ürəyini açırdı.Orada ən gizli telləri səslədirdi. Çox zaman adama elə gəlir ki, Çexovun əsərləri şerlə yazılmışdır. Orada dətin bir şeriyyat və lirizm var. Təkcə "Çöl" povestini oxumaq kifayətdir ki, Çexov qələmindəki, Çexovun həyatı bəbii idrakındakı şeriyyətə valeh olasan, bu şeriyyət axar çay kimi oxucunu qucağına alıb aparır" (6,448). Çexov "Çöl" povestini 1888-ci ildə yazmışdır. Ədibin qardaşı Aleksandr Çexov bu povesti avtobioqrafik əsər adlandırırdı. Bu əsərin süjeti Çexovun 1887-ci ildə Priazovskiyə səyəhəti zamanı yaranmışdır. Əsər Çexovun ən gözəl əsərlərindən biridir.

Çexov insanın daxili dünyasını, missiyasını yeni tərzdə təsvir edir. O rus ədəbiyyatına yenilik gətirir. A.Əfəndiyeva Çexovun rus ədəbiyyatına gətirdiyi yeniliyi belə xarakterizə edir:"XIX əsrin sonu və XX əsrin əvvəllərində Çexov realizmi rus ədəbiyyatının inkişafında yeni mərhələdir. Çexovun poetikasının yeniliyi dünyaya yeni baxışda, insan və onun missiyasını yeni rakursdan baxılıb, dərk edilməsindədir. Çexovun adamı dövrün ideallarının deyil, həyatın özünün, həyati reallığın onun həyat prinsiplərinin sözçüsüdür" (12,53). Çexov yaradıcılığı rus ədəbiyyatında yeni mərhəllə idi. Ədib həyatın reallığını əsərlərində canlı və rəngarəng əks etdirmişdir.

Çexov müxtəlif janrlarda yazan bir ustad sənətkar idi. Onun həm nəsr, həm də dram janrında mükəmməl əsərləri vardır. M.Bağırov Çexov haqda yazırdı: "Böyük rus xalqı dünya ədəbiyyatı xəzinəsinə bir sıra görkəmli sənətkarlar vermişdir. Bunların içərisində Anton Pavloviç Çexov fəxri yerlərdən birini tutur. Ədəbiyyatın müxtəlif janrlarında əsərlər yazan A.P.Çexov rus bədii nəsrinin, realist dramaturgiyasınının inkişafında çox mühüm rol oynamışdır. Qüdrətli istedada, dərin müşahidə qabiliyyətinə malik olan A.P.Çexov çox çətin, mürəkkəb və maraqlı bir yaradıcılıq yolu keçmiş, həyatdan öyrənmiş, dövrün ictimai-siyasi məsələlərinin əks edən, oxucuların qəlbinə yol tapa bilən, onları düşündürən əsərlər yazmışdır" (2,42).

Tolstoyun Çexov yaradıcılığına böyük dəyər verirdi. O, Çexovun Standaldan, Floberdən, Mopasandan daha yaxşı yazıçı olduğunu qeyd etmişdir. M.Rəfili yazırdı: " Çexovun novellası dünya və rus ədəbiyyatının ən güzəl zinyətlərindən biri sayılır. Novella aləmində Çexov həqiqətən xarüqələr yaratmış idi. L.N.Tolstoy belə Çexovu bu xüsusda fransız ədibi Qi-de-Mopasanla müqayisə edərək yazırdı ki: "Fransızların

üç yazıçıları var: Stendal, Flober, bir də Mopasan, lakin Çexov ondan yaxşıdır" (8,23).

Anton Pavloviç Çexov 1860-cı ildə yanvarın 29-da Yekaterinoslav quberniyasının Taqanroq şəhərində tacir ailəsində anadan olmuşdur. Çexovun babası Eqor Mixayloviç Voronej quberniyassında təhkimli kəndli idi. O böyük səy göstərmiş ailəsini və özünü təhkimçilikdən azad etdirir. Çexov bunu heç bir zaman unutmur, hətda 1889-cu ildə imperator Nikolay II nəcib irs titilu vermişdi, amma Çexov bu titulu qəbul etməmişdi.

M.Rəfili yazırdı: "Babası Voronej kəndlilərindən idi. Vaxtilə məhkum bir kəndli imiş, lakin sonralar öz səyi və əməyi sayəsində mülkədardan özünü satın ala bilmiş idi. Həm də belə nəql edirlər ki, babası özünü və üç oğlunu azad etdirirsə də qızı üçün pulu çatmır. Biçarə kəndli mülkədara müraciət edərək, pul qazanıncaya qədər gözləməsini və qızı özgəsinə satmamasını rica edir. Biçarə kəndlinin bu vəziyyətini görən Çertkov bir az fikirləşir və rəhmə gələrək, "Keçib-deyir-qızıda apar, bu da üstəlik olsun". Köləlikdən bu cür azad olunan Pavel Eqoroviç Çexov böyük ədibin atası idi" (8,7).

V.Ermilov bu haqda yazırdı: "Anton Pavloviçin babası Yeqor Mixayloviç Çexov, Voronej quberniyasında kəndli, məşhur Tolstoyun atası topraq sahibi Çertkovun təhkimlisi idi. Yeqor Mixayloviç əzmkarlıq, təşkilatçılıq və idarə etmə qabiliyyətinə və aydın düşüncəyə malik idi" (11,4). Çexovun atası Pavel Yeqorıç Çexov uşaqlıqda nökərçilik etmiş, sonra dükanda tacirin yanında köməkçi işləyir. Onun ən böyük arzusu öz dükanını açmaq idi. Çexovun atasının gözəl rəsm çəkmə qabiliyyəti vardı. O həmdə, skripkada gözəl ifa edərdi. Bunları Pavel Yeqorıç məktəbə getmədən, özü öyrənmişdi. Çexov deyərdi, istedad bizə atadan, qəlb gözəlliyi isə anadan keçmişdir.

Çexovun uşaqlığı çox məşəqqətli keçmişdir. Atası onu məcbur dükanda çalışdırırmış, sonra da kilsə xoruna göndərirmiş. Çexov qorxu, əzab, şiddət altında əzilərək böyüdü. Çexovun uşaqlıq illəri haqqında bu sözlər demişdi, "mənim uşaqlığımın uşalığı olmadı", bu sözlər onun nə qədər əzablı bir uşaqlıq yaşadığının sübutudur. M.Rəfili yazırdı: "Uşaqlığı sönük və fərəhsiz keçmişdir. İlk təhsilini aldığı yunan məktəbi də onun uçün bir zındandan, bir əsarətdən başqa bir şey deyildi. Biçarə uşaqlar cahil müəllimin yumruqlarından başqa bir şey deyildi" (8, 8). Göründüyü kimi, Çexov uşaqlıq illərində, nəinki, atasından şiddət görmüşdür, o məktəbdə oxuduğu ilk gündən orada da müəllimlərdən şiddət görmüşdür. O illər Rusiyanın bir çox məktəbində şagirdlərə şiddət göstərilirdi. Həsas qəlbli əbib bütün bunlardan təsirlənirdi, bəlkədə onun dərslərində ləngiməsinin əsas səbəblərindən biri məhz gözlərinin önündə baş verən bu məşəqqətli səhnələr idi. O döyülən uşaqları gördükcə, məktəbə getmək istəmirdi, lakin atası onu məcbur edərək, məktəbə göndərirdi, hara getsə, siddət, evdə də, məktəbdə də. Məhz bu şəraətdə təhsil almışdı, Çexov. Ailədən ayrı qalmaq Çexov üçün çox ağır oldu. Məktəbdə gördüyü şiddət, onun dərslərini axsadır, hətda sinifdə belə qalır. Lakin həyatda hər zaman mücadilə

edən əbib, çalışıb-oxuyaraq, gimnaziyanı bitirir. Gimnaziya illəri də çox ağır keçir. Çexov məktublarının birində Suvorin, ona öz həyatını səciyyələndirən bir hekayə yazmağı tövsiyə edir. Hekayənin qəhrəmanı təhkimli kəndli balası, keçmişdə dükanda çalışan, xorda məcbur oxuyan, gimnaziya şagirdi və tələbə olan, itaət və keşişlərin əlini öpmək üçün ruhunda böyüdülən, bir parça çörəkdən ötrü minnətarlığını bildirən, günahsız yerə döyülən uşaq, həyatı məşəqqətlə keçən insan olacaqdı.

Gimnaziyanı bitirdikdən sonra Çexov təhsilini davam etdirmək üçün Moskvaya gedir. Bu barədə Ə.Ağayev yazırdı: "1879-cu ildə Moskvaya getmişdir. Moskvada A.P.Çexov oxumuşdur. Təhsil illərində Çexovun həyatı ağır keçmişdir. Buna görə də o, oxumaqla bərabər, xüsusi evlərdə müəllimlik edir, başqalarının uşaqlarına dərs verirdi"(1,3). Tənqidçi doğru vurğulayır, Çexov tələbəlik illərində evlərdə müəllimlik edər və qazandığı pulu ailəsinə göndərərdi. O ömrünün sonuna qədər ailəsinə yardım etdi. Məhz Çexov ailəsini borclardan qurtarmışdır.

Çexov çox çalışqan tələbə idi. Onun böyük səylə oxumasının səbəbi, yaxşı bir həkim olub, çalışıb ailəsinə yardım etmək idi. Tələbəykən, hekayələr yazıb, nəşr etdirib, pul qazanardı və ailəsinə göndərirdi. Onun kiçik hekayələr yazmasının əsas səbəblərindən biri məhz bu idi. Nə qədər çox hekayələr yazsa, bir o qədər çox pul qazanmış olurdu. Çexov əsərlərini müxtəlif təxəllüs altında yazırdı. Bunlardan "Antoşa Çexonte", "Qardaşımın qardaşı", "Əsəbi adam" "Şampanski", "Akakiy Tarantulov", "Nəfis adam", "Arxip İndeykin", "Qayka №6" ən çox tanınanlardır.

Çexov 1884-cü ildə tibb fakültəsini bitirmişdir. Təhsilini bitirdikdən sonra Moskva ətrafındakı Voskresenski xəstəxanasında qəza həkim kimi fəaliyyətə başlamışdır. Həkim kimi o çox işlər gördü. Çexov xəstələrinə xüsusi nəvazişlə sidə o, xalq tərəfindən çox sevilirdi. Çexov həkimlik peşəsinə böyük dəyər verirdi. O deyərdi, "həkimlik mənim rəsmi arvadım, ədəbiyyat isə sevgilimdir". Ədəbiyyat Çexovun həyatının bəzəyi idi. O bütün əsərlərini xüsusi bir sevgi ilə yazmışdır. Ədəbiyyat Çexova həm şöhrət, həm də maddi cəhətdən rahatlıq bəxş etdi. Ədib ilk əsəri "Alim qonşuya məktub" 1880-ci ildə "Strekoza" jurnalında çap etdirmişdir.

Azərbaycan tənqidçiləri XX əsrin əvvəllərindən Çexov həyat və yaradıcılığını araşdırmış, əbib haqqında monoqrafiya və məqalələr yazmışlar. Çexov əsərləri Azərbaycanda böyük rəğbətlə oxunur. Ədibin əsərləri mütərcimlər tərəfindən yeni tərcümələrdə Azərbaycan oxucusuna təqdim olunur və böyük sevgiylə oxunur.

Ədəbiyyat

1.Ağayev Ə. A.P.Çexov. "Azərbaycan kənd təsərrüfatı" qəz., 1960, 28 yanvar.
2.Bağırov M.A. XIX əsr rus ədəbiyyatı. A.S.Qriboyedov, A.N.Ostrovski, A.P.Çexov. Bakı: Azərnəşr, 1965, 55s.
3.Berdnikov G. Çexov. Bakı: Gənclik, 1983, 235s.
4.Çexov A.P. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2009, 456 s.

5.Çexov A.P. Seçilmiş əsərləri. Bakı: Öndər, 2005, 432 s.
6.İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1961, 450s.
7.Köçərli F. Seçilmiş əsərləri. Bakı: Azərbaycan SSR EA nəşriyyatı ,1963, 340s.
8.Rəfili M. Anton Pavloviç Çexov.Bakı: Azərnəşr, 1944, 47s.
9.Кулиева Р. Реализм А.П.Чехова и проблема импрессионализма. Ваку: Элм, 1988, 188с.
10.Кулиева Р. Литература в контексте времени. Баку: Мутарджим, 2017, 420с.
11.Ермилов В. А.Р.Чехов. М.: Советский писатель, 1959, 495с.
12. Эфендиева А. От Л.Толстого до М.Горького. Баку: Мутарджим, 2017, 180с.

Резюме
А.П. Чехов в Азербайджанской литературе.

А.П.Чехов, один из великих художников русской литературы, стал известен в азербайджанской литературе в начале XX века. Творчество А.Чехова стало поворотным пунктом в русской литературе 19 века. Свое выдающееся литературное творчество он начал с пародийных рассказов. Написание первого рассказа Чехова «Письмо к ученому соседу» относится к студенческим годам. Азербайджанские читатели ознакомились гораздо позже. В данной статье рассматриваются исследования Чехова в Азербайджанской литературе. На произведения Чехова разное время ссылались крупнейшие писатели и критики азербайджанской литературы. Его работы анализируется исследователями на протяжении многих лет. Среди наших великих писателей - мастеров Д. Мамедкулузаде, Ю.Чаманзаминли, А.Хагвердиев, и другие. В своем творчестве они пользовались произведениями Чехова. В статье также подробно анализируется творчество Чехова. В статье также рассматривается жизнь Чехова. Дается мнения видных писателей о нем. В статье отражена жизнь Чехова. Анализируется гимназические и университетские годы Чехова. В статье анализируется повесть Чехова «Степь».

Ключевые слова: произведение, литература, исследование, мир, анализ, ценное, разный, известный, жанр, гениальный, компетентность, слово, природа, герой, творчество

Summary
A.P.Chekhov in Azerbaijani literature.

A.P.Chekhov, one of the great artists of Russian literature, became known in Azerbaijani literature from the beginning of the 20th century. A.Chekhov's work created a turning point in Russian literature of the 19th century. He started his outstanding literary work with parodic stories. The writing of Chekhov's first story "A Letter to a Scholar Neighbor" coincides with his student years. Azerbaijani readers got acquainted with this story much later. This article discusses Chekhov's research in Azerbaijani literature. The most prominent writers and critics of Azerbaijani literature have referred toA.Chekhov'sworks at different times. His works have been analyzed by researchers for many years. Among our great master writers, C.Mammadguluzade, Y.Chamanzaminli, A.Hagverdiyev and others. They benefited from A.Chekhov'sworks in their creativity. The article also analyzes Chekhov'swork in detail. The article also examines Chekhov's life. The opinions of prominent writers about him are written down. Chekhov's childhood was included in the article. Chekhov's life in gymnasium and university years is also included in the article. The article analyzes Chekhov's story "The Steppe".

Key words: work, literature, research, world, analysis, valuable, different, famous, genre, ingenious, competence, word, nature, hero creativity

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: professor Tahirə Məmməd
tərəfindən çapa tövsiyə olunmuşdur

TƏHMİNƏ ƏSGƏROVA
Bakı Slavyan Universiteti
Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının baş müəllimi
E-mail: tahminasgerova@gmail.com

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ DÜNYA ƏDƏBİYYATINDAN NÜMUNƏLƏRİN ÖYRƏDİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Xülasə

Ümumtəhsil məktəblərində müəyyən bir ölkənin mədəniyyəti haqqında daha geniş məlumat almaq üçün xarici ədəbiyyat kursunun öyrədilməsinin əhəmiyyəti çox böyükdür. Məktəblilər xarici ədəbiyyatla tanış olduqda azərbaycan ədəbiyyatının orijinallığını daha dərindən dərk edir, ideya və məzmunca daha dəqiq və düzgün qiymətləndirmək bacarıqları əldə edirlər. Eyni zamanda, gənc nəslin dünyagörüşünü genişləndirmək, mənəviyyatını inkişaf etdirmək baxımından da dünya ədəbiyyatı nümunələrinin tədrisi zəruridir. Bu baxımdan Ernest Heminqueyin IX sinif proqramındakı "Qoca və dəniz" povestinin tədrisi təqdirəlayiqdir.

Məktəblilər dünyanın ən görkəmli yazıçılarının əsərlərini sistematik formada öyrənməli, milli ədəbiyyatımızla oxşarlıqlar və paralelliklər müəyyənləşdirilməlidir. Bunun üçün "Ədəbiyyat" fənni üzrə yeni dərsliklər hazırlanarkən milli ədəbiyyatımızla yanaşı, dünya ədəbiyyatı nümunələrinin də paralel şəkildə tədrisinə və qarşılıqlı müqayisələrin aparılmasına imkan verən materiallara üstünlük verilməsi daha müvafiq olardı.

Açar sözlər: ümumtəhsil məktəbləri, dərsliklər, xarici ədəbiyyat, Heminquey, "Qoca və dəniz", müqayisə

Müasir məktəbdə xarici ədəbiyyat kursunun əhəmiyyəti çox böyükdür. Ədəbiyyat müəyyən bir ölkənin mədəniyyəti haqqında bəlkə də əsas məlumat mənbəyidir. Bu baxımdan qeyd etmək lazımdır ki, dünya ədəbiyyatının inkişafı milli ədəbiyyatların qarşılıqlı təsirinin məhsuludur. Dünyanın əsas yaradıcı şəxslərinin bədii əsərlərinin tədris materialı olaraq hər zaman başlıca mənbələrdən biri olmağı da vacib məsələlərdəndir.

Məktəblilərin xarici ədəbiyyatla tanışlığı onların öz mədəniyyətinin və ədəbiyyatının unikallığını, azərbaycan ədəbiyyatının orijinallığı ideyasını dərk etməyə, həyatın ümumbəşəri dəyərləri ilə tanış olmağa kömək edir. "Ədəbiyyatdan müxtəlif məşğələlərdə Azərbaycan ədəbiyyatının, eləcə də dünya xalqlarının ədəbiyyatından seçilmiş nümunələrin müzakirəsi şagirdlərin müasir dövrdə xüsusi aktuallıq kəsb edən mənəvi-estetik problemləri, həyatda, cəmiyyətdə baş verən

dəyişiklikləri dərk edib qiymətləndirmələrinə, milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmələrinə imkan yaradır" [1, 6].

Azərbaycan filoloji və humanitar elmlərinin tarixinə nəzər salsaq görərik ki, ziyalılar həmişə xalqın, şagirdlərin inkişafı, tərəqqisi, maariflənməsi məqsədilə milli ədəbi nümunələrlə yanaşı, xarici ölkə xalqlarının ədəbiyyatından nümunələrin dilimizə tərcüməsinə böyük əhəmiyyət vermişlər. Təsadüfi deyil ki, Azərbaycan elmində xüsusi yeri olan "Füyuzat" məcmuəsinin ilk nömrəsində Hötenin "Faust" əsərindən bir hissənin doktor Əli Hüseyn tərəfindən tərcüməsi verilib. Bu onun göstəricisidir ki, xarici ölkə ədəbiyyatından nümunələrin dərsliklərdə yer alması olduqca əhəmiyyətlidir.

Xarici ədəbiyyat nümunələrinin sistemli və müqayisəli tədrisi ədəbiyyat fənninin tədrisi səviyyəsini yüksəltməyə, standartları daha effektli reallaşdırmağa, şagird marağını maksimum dərəcədə təmin etməyə hesablanmalıdır. Şagirdlərin bilik və bacarıqlarının formalaşmasında lazımi fənn materiallarının seçilərək dərsliklərə daxil edilməsi, böyüyən nəslə qədərincə öyrədilməsi indiki mürəkkəb mədəni-ideoloji fikir mübarizələri çağında xüsusi əhəmiyyətə malikdir. Ümumtəhsil məktəblərinin ədəbiyyat proqramında tədrisi zəruri olan əsərlərin çoxluğundan xarici ədəbiyyata vaxt qalmır, xüsusən də tədris ilinin sonunda xarici müəlliflərin əsərləri öyrənilir. Halbuki orta və yuxarı sinif şagirdlərinin xarici ədəbiyyatı oxuması və qavraması dünya ədəbi prosesini və burada yerli ədəbiyyatın rolunu daha aydın dərk etmək üçün perspektivlər açır.

Müəllim üçün xarici ədəbiyyatın hər bir nümayəndəsinin fərdi xüsusiyyətlərini və eyni zamanda müəyyən bir dövrlə bağlı yaradıcılığına xas olan ümumi xüsusiyyətləri müəyyən etmək vacibdir. Əsərin dövr kontekstində təhlili şagirdləri yazıçının tərcümeyi-halı, təkcə sənətkarın həyatı haqqında deyil, həm də onun yaşadığı dövrün xüsusiyyətləri haqqında ən mühüm bilik mənbəyi olan faktlarla tanış etməkdən ibarətdir.

"Ədəbiyyat dərslərində xarici ədəbiyyatın mifdən bu günə qədərki tədrisi artıq prestij məsələsidir və rəqabətqabiliyyətli hər bir təhsil müəssisəsi bu fənni proqrama daxil etməlidir." [2, 13].

Müasir proqramların və dərsliklərin təhlili göstərir ki, məktəbdə xarici ədəbiyyat kursuna çox az saat ayrılır. Müəllimlər çox vaxt xarici ədəbiyyat dərslərinə kifayət qədər ciddi yanaşmırlar, şagirdlərin mənəvi tərbiyəsi prosesində onların böyük rolunu nəzərə almırlar. Buna görə də, bu və ya digər xarici müəllifin əsərini öyrəndikdən sonra məktəblilər onu tez unudurlar.

Xarici ədəbiyyatla tanışlıq 5-ci sinifdən başlayır: V sinifdə Mixail Prişvinin "Tala", Aleksandr Puşkinin "Qış səhəri", Lev Tolstoyun "İlyas", VI sinifdə Aleksandr Dümanın "Qafqaz səfəri: Bakı", Çingiz Aytmatovun "Dəniz kənarıyla qaçan Alabaş", Kamal Turanın "Üç nəfərin imtahanı", İvan Krılovun "Ağac", VII sinifdə Çingiz Aytmatovun "Manqurt", Viktor Hüqonun "Qavroş" , VIII sinifdə Məhmət Akif Ərsoyun "İstiqlal marşı", IX sinifdə Ernest Heminqueyin "Qoca və

dəniz", IX sinifdə Çingiz Aytmatovun "Gün var əsrə bərabər" əsərləri tədris olunur. Göründüyü kimi V-XI siniflərdə xarici ölkə ədəbiyyatından tədris olunan 12 əsərdən 3-ü Çingiz Aytmatov yaradıcılığına aiddir. Dünyanın korifey yazıçılarından olan Çingiz Aytmatov yaradıcılığına müraciət təqdirəlayiqdir, amma şagirdlər dünya ədəbiyyatının əsas ideyaları və məzmunu, əsas ədəbi cərəyanlar və məktəblər barədə məlumatsızdırlar. Dünya xalqlarının minilliklər ərzində formalaşmış mədəni nailliyətlərinin təhsilalanlara mükəmməl şəkildə çatdırılmasında dərslik müəlliflərinin, ədəbiyyat üzrə mütəxəssislərin məsuliyyəti böyükdür.

"İnformasiya bolluğu, qloballaşma, internet, vahid təhsil məkanının formalaşdırılması, Avropa təhsil məkanına inteqrasiya, yeni təlim texnologiyaları və s. məsələlər təhsilin məzmununda da, öyrədilməsi, metodları və qiymətləndirilməsində də bu yeniliklərin diqqətdə saxlanılmasını tələb edir. Məhz buna görə də optimal variant kimi təhsil sənədlərinin yenilənməsi üçün 5 illik vaxt müddəti qoyulur. Hər beş ildən bir bu dəyişmələrin aparılması bir zərurət kimi ortaya çıxır" [5,27].

Növbəti illərdə "Ədəbiyyat" fənni üzrə yeni dərsliklər hazırlanarkən milli ədəbiyyatımızla yanaşı, dünya ədəbiyyatı nümunələrinin də paralel şəkildə tədrisinə və qarşılıqlı müqayisələrin aparılmasına imkan verən materiallara üstünlük verilməsi daha müvafiq olardı.

IX sinif ədəbiyyat ədəbiyyat proqramında öz əksini tapan Ernest Heminqueyin "Qoca və dəniz" əsərinin məzmun və təhlilinin öyrədilməsinə 4 saat vaxt verilmişdir. Onlardan 2 saat əsərin məzmununun öyrədilməsinə, 2 saat isə təhlilinə ayrılmışdır. Əsərin tədrisi zamanı diqqət mərkəzində saxlanılmalı olan məsələlərə baxaq. Yazıçının 70 il bundan əvvəl gənclərə demək istədiyini bugünkü gənc oxucuya çatdırmağa çalışaq. Povestin neçə il bundan əvvəl yazılmasına baxmayaraq, onun qəhrəmanları zamansızdır, çünki onlar həm də qocalıq və gənclik, təcrübə və nadanlıq kimi simvolik məna daşıyır. Ernest Heminqueyin ən dərin düşüncələrini oxucuya çatdıran da məhz budur.

Müəllim əsərin təhlili zamanı şagirdlərin diqqətini yazıçının mövqeyinə, əsər vasitəsi ilə çatdırmaq istədiyi mesajlara yönəltməlidir. Gəlin müəllifin əsər haqqında dediyi fikirlərindən başlayaq. Heminqueyə bu əsərə görə Nobel mükafatı verildikdən sonra bir müsahibədə əsərini "gənc nəslə mesaj" adlandırmışdı. "Heminquey povestdə nə demək istədiyini aşkar söyləmiş, nəticə çıxarmağı oxucuların öhdəsinə qoymuşdur" [3, 215].

Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, əsərdə təsvir edilən ölümcül dueldə insanın taleyi ilə balıqların taleyi ümumiləşir. Qoca balığı məğlub edir, amma dəniz ona qalib gəlir.

"Qoca və dəniz" əsərini insanın ətraf aləmlə həm dost, həm də ona düşmən olmasının əbədi dramı kimi şərh etmək olar.

Əsərin qəhrəmanının obrazı üzərində iş zamanı qəhrəmanın portretini, sosial mövqeyini, başqaları ilə münasibətini, şəxsi keyfiyyətlərini təhlil etmək lazımdır. Bu

zaman Santyaqonun portret xüsusiyyətlərini tərtib etmək də tövsiyə edilir. “Taqətdən düşmüş, heyi kəsilmiş yorğun qoca çox arıq idi; peysərini dərin qırışlar örtmüş, qonur rəngə çalan sifətini ləkələr bürümüşdü. Hər iki yanağı boyunca üzüaşağı səpələnmiş bu ləkələr qocanın ta boynuna qədər yayılırdı. Dənizdən ağır, nataraz balıqları dartıb çıxartmaqdan kəndir onun əllərini kəsib yarıq-yarıq eləmişdi. Özü də yarıqların heç biri təzə deyildi; onlar eynən susuz səhralardakı köhnə, quru çatlara bənzəyirdi. Gözlərindən başqa, onun hər yeri, hər şeyi köhnəlmişdi, təkcə dəniz kimi mavi gözləri xalis gənclik ehtirasıyla alışıb-yanırdı; bu gözlər qocanın nə qədər məğlubedilməz olduğunu təsdiqləyirdi” [6,41].

“Qoca və dəniz” povestinin təhlilinin öyrənilməsinə həsr olunmuş dərsdə balıqçı Santyaqo obrazını, əsas ideoloji məzmunu nəzərə almaq məqsədəuyğundur. Santyaqo surətini təhlil edərkən şagirdlər belə qənaətə gəlirlər ki, Heminqueyin qəhrəmanı “qeyri-adi qocadır”-təkcə cəsur olduğuna görə deyil, həm də müdrik olduğuna görə. Hekayənin qəhrəmanı qoca olsa da, burada söhbət qocalıqdan getmir. Santyaqo balıqla qəhrəmancasına mübarizəsi ilə insanın nəyə qadir olduğunu, nəyə dözdüyünü göstərir; əməlində deyir: “İnsan məhv olar, amma məğlub olmaz”. Santyaqonun təbiətə münasibətində çoxlu çalar var: Qoca təbiətlə harmoniyada yaşamağa çalışır, çünki o, özünü onun bir hissəsi kimi hiss edir. Santyaqo sadəlövh, "təbii insandır", sanki təbiətlə birləşir-quşlarla, balıqlarla danışır, dənizi canlı varlıq kimi sevir.. O, dəfələrlə özünü dəniz sakinləri ilə müqayisə edir. "... “Mənim ürəyim xalis bağa ürəyidir ki, var; elə əl-ayağım da eynən çanaqlı bağaların pəncəsi kimidir” [6,41]. deyə tısbağalar haqqında düşünür. Delfinlərin oyunlarına heyran qalaraq deyir: “Yaxşı heyvanlardır, oynayırlar, zarafatlaşırlar. Qanadlı balıqlar kimi, bunlar da biz insanlara çox yaxındır” [6,55].

"Quşcuğaz, yaxşı-yaxşı dincini al, sonra da sahilə uç, həyat uğrunda mübarizə apar, yaşamaq uğrunda vuruş: necə ki hər adam vuruşur, hər balıq, ya hər quş vuruşur” [6,65].

Şagirdlərin diqqətini əsərdə başqa bir personaja-povestin əvvəlində və sonunda təsvir edilən oğlan Manolinə yönəltmək lazımdır. Santyaqo əgər həqiqətən də tamamilə tək olsaydı, onun həyatı, mübarizəsi öz mənasını itirərdi. Manolin qocaya qeyri-adi şəkildə qayğı göstərir, onda təkcə müəllimi deyil, həm də dostunu görür. Dənizdən nəsə “almaq” üçün etdiyi çoxsaylı uğursuz cəhdlərdən birindən sonra oğlan qoca ilə qarşılaşır. Onda öz gücünə inamını saxlayır. Qocaya gələcək həyat vəd olunur: onun təcrübəsi, sevgisi, bütün gücü tələbəsinə-Manolinə keçəcək. Bu o deməkdir ki, yaşamağın mənası var, yəni “insanın davamçısı var”.

Heminqueyin əsərinin qəhrəmanı əmindir ki, insan məğlub olmaq üçün yaradılmayıb. Bir insanı öldürə bilərsən, amma qalib gələ bilməzsən. Bu sözlər təkcə qocanın deyil, onun obrazını yaradan yazıçının özünün də həyat fəlsəfəsini ifadə edir. Heminqueyin gənc nəslə öyrətmək istədiyi təlim, hikmət,“gənc nəslə mesaj”ı budur. Bu mesaj birbaşa pedaqoji yönümlüdür. Əsərin baş qəhrəmanlarının-qoca ilə oğlanın seçimində bu artıq hiss olunur. Onlar bir-birlərinə çox bağlıdırlar.Oğlan üçün

qoca müəllim, tərbiyəçi, böyük yoldaşdır; qoca üçün oğlan tənhalığını işıqlandıran yeganə dost, köməkçi və həmsöhbət, zəngin təcrübəsini, həyat hikmətini, peşə sirlərini ötürmək istədiyi tələbədir. Beş yaşından Manolin qocanın köməkçisi idi, beş yaşından qoca onunla böyüklər kimi, kişi kimi davranır, onu dənizə aparır, alət daşımağı ona etibar edir, balıq tutmağı öyrədirdi. Əsl müəllim, pedaqoq kimi. Bu, oğlanda müstəqillik, özünə hörmət, məsuliyyət tərbiyə etdi.

Təhlil zamanı şagirdlərə hansı obrazı bəyəndikləri ilə bağlı sual versək, cavab proqnozlaşdırıla bilər. Yeniyetmələr şox vaxt özlərini daha çox güclü, cəsur, məğrur, mətanətli, mehriban, "döyülə bilməyən" qəhrəmanla eyniləşdirirlər. "Səni kim məğlub etdi, qoca? Heç biri. Mən sadəcə dənizə çox uzağa getdim". Əsərin əvvəlində o, necə idisə, sonunda elə də qaldı. Qəhrəmanın bu dəyişməzliyi müəllif ideyasını ehtiva edir.

Dərsdə şagirdlərin yaradıcı təfəkkürlərini inkişaf etdirmək üçün sankveynlər yaratmağı tapşırmaq olar.

Birinci sətir şeirin mövzusunu göstərir, adətən bu məqsədlə isimdən istifadə olunur.

İkinci sətir mövzunu iki sifətlə təsvir edir.

Üçüncü sətir bu mövzu çərçivəsində hərəkəti üç sözlə təsvir edir.

Dördüncü sətir müəllifin mövzuya münasibətini, hisslərini göstərən dörd sözdən ibarət cümlədir.

Beşinci sətir bir sözdür, 1-ci sözlə metoforik sinonimdir. Qafiyə tələb olunmur .

Məsələn, şagirdlər aşağıdakı beşlikləri yaradırlar:

Balıq,
Gözəl və güclü,
Tutuldu, sürükləndi, öldürüldü,
Sona qədər ləyaqətlə davam etdi,
Ağıllı!

Və yaxud,

Santyaqo,
Təvazökar və qürurlu,
Heyran olur, döyüşür, uduzur.
Sənin insan ləyaqətin zəfər çalır,
Qalib!

Əsərin təhlilindən sonra ümumiləşdirmə məqsədi ilə aşağıdakı suallardan istifadə etmək olar.

- Əsəri bəyəndinizmi? Nə üçün?
- Povestdəki personajlara münasibətiniz necədir?
- Qoca ilə müəllifin dialoqunu dinlədiniz, söhbət nədən gedir? Sizcə, bunun arxasında nə dayanır?
- Müəllif bu əsərdə başqa hansı stilistik vasitələrdən istifadə edir? (daxili monoloqlar)

- Müəllif bu əsərdə hansı cümlələrdən istifadə edir? (qısa, dəqiq, tutumlu)
- Qocanın həyatının bu qədər dəyişməsində kim günahkardır?
- Qoca nəyə görə müəllifə təşəkkür edir?

Xarici ədəbiyyat məktəblilərin dünyagörüşünü genişləndirmək, mənəviyyatını inkişaf etdirmək üçün zəngin materialdır. Dünya ədəbiyyatı nümunələrinin ədəbiyyat dərsləri və sinifdənxaric oxu dərslərində dərindən tədqiq edilməlidir. Əks təqdirdə, dünya ədəbi prosesinin əhəmiyyətini qiymətləndirmək də çətin olar.

"Hər bir milli ədəbiyyat təcrid olunmuş şəkildə deyil, digər ədəbiyyatlarla yaradıcı əlaqədə və qarşılıqlı hərəkətdə inkişaf edir, onlarla zənginləşir. Həmin milli ədəbiyyatların başqa ədəbiyyatlarla həqiqi qarşılıqlı əlaqələrini araşdırmadan onun dəyərli keyfiyyətlərini, milli xüsusiyyətlərini tam və dərindən dərk etmək mümkün deyil" "[4,114].

Xarici ölkə ədəbiyyatının mükəmməl tədrisi sayəsində beynəlxalq dəyərlərin mənimsədilməsi və dünyagörüşünün formalaşdırılması şagirdlərdə milli ədəbiyyatımızı da ideya və məzmunca daha dəqiq və düzgün qiymətləndirmək bacarıqları formalaşdırar. Eyni zamanda, şagirdlər tərəfindən dünya ədəbiyyatı nümunələri dərindən və sistematik formada öyrənilərək oxşarlıqlar və paralelliklər müəyyənləşdirilməlidir. Kitabi-Dədə Qorqud" dastanları ilə Homerin "Odisseya"sı, "İliada"sı, XII əsr Azərbaycan intibahı ilə Avropa intibahı, XIX əsr M.F.Axundzadə yaradıcılığı ilə fransız ədəbiyyatında Molyerin yaradıcılığı, C.Məmməduluzadə və Mark Tven nəsri, Anar, Elçin yaradıcılığı ilə U.Folkner, Q.Q.Markes və başqa yazıçıların əsərləri ilə qarşılıqlı müqayisələr aparıla bilər. Bu zaman müqayisə olunan əsərlərin oxşar və fərqli xüsusiyyətləri və müqayisə üçün əsaslar vurğulanmalı, ədəbi qəhrəmanların müqayisəli təhlili aparılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) V-XI siniflər. APTİ, Bakı, 2013
2. Доценко Е.Г. Баженова Т.С. Зарубежная литература в филологическом классе: от мифа к литературе и обратно, Филологический класс.1997. № 2
3. Xəlilov Ə. Dünya ədəbiyyatı. Dərs vəsaiti, Bakı,"Araz" nəşriyyatı, 2012, 566 s.
4. Ломидзе Г.М. Пути развития советской многонациональной литературы. М., Наука, 1967
5. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, Bakı, 2017, 304 s.
6. http://dgk.nmr.az/media/files/9d0bbb435db57b64859584c8e160a485.pdf Ernest Heminquey "Qoca və dəniz" 162 s.

Тахмина Аскерова

ВАЖНОСТЬ ОБУЧЕНИЯ ПРИМЕРАМ ИЗ МИРОВОЙ ЛИТЕРАТУРЫ НА УРОКАХ ЛИТЕРАТУРЫ

РЕЗЮМЕ

Очень важно преподавать курс иностранной литературы в средних школах, чтобы больше узнать о культуре той или иной страны. Когда школьники знакомятся с зарубежной литературой, они глубже понимают самобытность азербайджанской литературы, приобретают способность более точно и правильно оценивать идеи и содержание. При этом необходимо преподавать образцы мировой литературы в плане расширения мировоззрения и развития духовности подрастающего поколения. В этом отношении похвально преподавание рассказа Эрнеста Хеменегуея “Старик и море” в программе девятого класса.

Студенты должны систематически изучать произведения самых выдающихся писателей мира, выявлять сходство и параллели с нашей национальной литературой. С этой целью при подготовке новых учебников по предмету “Литература” целесообразнее было бы отдать приоритет материалам, позволяющим вести параллельное преподавание и сопоставление образцов мировой литературы, а также нашей национальной литературы.

Ключевые слова: общеобразовательная школа, учебники, иностранная литература, Хемингуэй, “Старик и море”, сравнение

Tahmina Askerova

THE IMPORTANCE OF TEACHING EXAMPLES FROM WORLD LITERATURE IN LITERATURE LESSONS

SUMMARY

It is very important to teach a foreign literature course in secondary schools in order to learn more about the culture of a certain country. When schoolchildren get acquainted with foreign literature, they gain a deeper understanding of the originality of Azerbaijani literature, and acquire the ability to evaluate ideas and content more accurately and correctly. At the same time, it is necessary to teach samples of world literature in terms of expanding the worldview and developing the spirituality of the younger generation. Therefore, the teaching of Ernest Heminqway's story "The Old Man and the Sea" in the ninth grade program is commendable.

Students should study the works of the world's most prominent writers in a systematic way, identify similarities and parallels with our national literature. For

this purpose, when preparing new textbooks on the subject of "Literature", it would be more appropriate to give priority to materials that allow for the parallel teaching and comparison of samples of world literature, as well as our national literature.

Keywords: secondary schools, textbooks, foreign literature, Hemingway,

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: prof. Leyla İmaməliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏSMƏ MAHMUDOVA
AMEA Məhəmməd Füzuli
adına Əlyazmalar İnstitutu
İstiqlaliyyət 26
mahmudova.mesme@mail.ru

KATİB ÇƏLƏBİ VƏ ONUN "KƏŞF ƏZ-ZUNUN AN ƏSAMİL-KUTUB VƏL-FUNUN" ƏSƏRİ

Xülasə

Bu məqalə Katib Çələbi və onun "Kəşf əz-Zunun an Əsamil-Kutub vəl-Funun" əsərinə həsr edilmişdir.Çələbi-əsl-nəcabətli, oxumuş, elmli, kəslərə verilən bir ad, ünvandır. Bu sözün mənşəyi haqqında müxtəlif fikirlər irəli sürülsə də, bugünə qədər konkret nəticə çıxarılmamışdır. İrəli sürülən fikirlərə nəzər salsaq görərik ki, İbn Kamal ilə Həsən Kafi Anhisarinin risalələrində bu sözün mənşəyi ilə bağlı qeyd etdikləri kimi, "çələbinin" türkmən dilində Allahın adlarından biri olan "Çalap"dan gəldiyi bildirilir. Bu da "Allaha mənsub", "Allaha bağlı" mənasını verir. Bəzi fikirlərə görə isə bu söz Hind-Avropa və Yunan dillərindən gəlmişdir. Lakin, bu fikirlər o qədər də inandırıcı görünmür. "Çələbi" sözünün bəzi Bizans qaynaqlarında türkçə olduğu və "bəyzadə" mənasını verdiyi qeyd olunmuşdur . Bu söz Osmanlıda, xüsusilə də XIV yüzildən XVIII yüzilə qədər elmli, yüksək təbəqəyə məxsus olanlara, ilk vaxtlarda isə osmanlı şahzadələrinə də aid edilmişdir.

Çələbilərin məskunlaşdığı yerlərdən biri də Qarabağ zonasıdı. Yaşayış məntəqəsini çələbi (mövləvi dərviş ordeninin başçısı) adı ilə tanınan bir qrup ailədən ibarət nəsil saldığı üçün, kənd bu nəslin adı ilə adlandırılmışdır. 1933-cü ildə Cəbrayıl rayonunun Dağtumas kəndi ərazisində də "Çələbilər" adlı kənd qeydə alınmışdır.

XVIII əsr məşhur Azərbaycan klassik şairi Molla Vəli Vidadi də bu mədrəsədə dərs demişdir. Məscid kompleksi ərazisində xüsusi otaqlar, hücrələr olub ki, bu hücrələrdə şagirdlərə dərs verilib. Dağlıq Qarabağ hadisələri başlamamışdan bu məscid-mədrəsə kompleksi yüksək səviyyədə bərpa olunub, ilkin formasına gətirilmişdi.

Hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Çələbi soyuna mənsub olan bir çox alimlərin türk, ərəb, fars dillərində qiymətli əlyazma və çap kitabları mühafizə olunur. Belə alimlərdən biri də Çələbi soyundan olan, XVII əsrdə din, hüquq, siyasət, ədəbiyyat, coğrafiya, tarix, biblioqrafiya və başqa elm sahələrində əsərlər yazaraq, dünyəvi elmlərlə dini elmləri birləşdirməkdə şöhrət qazanmış türk dünyasının görkəmli alimi və yazıçısı, Yerin kürə şəklində olması fikrinin tərəfdarı olan coğrafiyaşünas alim Mustafa bin Abdulladır (1609-1657).Katib Çələbinin əsl adı Mustafa bin Abdulla (1609-1657) olmuş, orduda katiblik etdiyi üçün xalq arasında Katib Çələbi ləqəbi ilə tanınmışdır.

Açar sözlər: İnstitut,əlyazma,mədəniyyət,müəllif,ədəbiyyat.

Azərbaycan xalqının min illərlə ölçüyə,qiymətə sığmayan böyük mənəvi sərvət yaratmışdır ki, bugünkü və gələcək nəsillərin duyğu və düşüncəsinin, dünyagörüşünün humanizm üzərində formalaşması üçün bu irs ən zəruri vasitələrdən və ümumi mədəniyyətimizin ən gərəkli qaynaqlarından biridir.Bədii ifadə ilə belə bir deyiliş vardır ki, memarlıq abidələri bəşər mədəniyyətinin nəsillərdən – nəsillərə sözsüz, kitablar isə sözlə ötürülür.Dünyanın bütün xalqları bəşər dühasının yaratdığı əsas sərvəti yazılarda qoruyub saxlamış, bunu min illərlə əl ilə kağızdan – kağıza köçürərək, bugünkü nəsillərə gətirib çatdırmışdır.Dünyanın qədim mədəniyyət ocaqlarından biri olan Azərbaycanda da bu yolla yaranmış minlərlə əlyazma AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanır. Bu xəzinədə Azərbaycan,ərəb,fars,türk,rus,özbək və s. Dillərdə 40 min addan çox material toplanmışdır.Bu qiymətli əlyazaların içində qədim çap kitabları da mühafizə olunur.Bu çap kitablarının dəyəri qədim əlyazmalar ilə bərabər tutulur. Ərəbdilli əski çap kitablarının bir qismi daşbasma üsulu ilə orta əsr əlyazmalarından çap olunduğuna görə onlar orta əsr əlyazmaları qədər böyük elmi dəyərə malikdir.Eyni zamanda bu kitablar ərəb dili və ədəbiyyatının fəlsəfi fikir və tarixinin,Şərq təbabətinin və ilahiyyatının və s.müxtəlif dövrlərini əhatə edən zəngin kolleksiyadır.Bu kolleksiyada ərəb ədəbiyyatının bütün tarixi mərhələlərini, o cümlədən folklorunu,Cahiliyyə,İslam,Abbasilər və müasir dövrlərini işıqlandıran bir sıra dəyərli nəşrlər vardır.

Bu kitabların böyük bir qismi birbaşa orta əsr əlyazmalarından olduğu kimi nəşr edildiyindən onlar əlyazma abidələri qədər çox dəyərlidir.Bu nəşrlər sırasında İbn əl-Hacib Cəmaləddin Osman bin Ömər əl-Maliki ən-Nəhvi (1174-1248), İbn Malik Camaləddin Əbu Abdullah Məhəmməd bin Abdullah ət-Tai əl-Ciyəni (1201-1273), İbn Hişam Cəmaləddin Əbi Məhəmməd Abdullah bin Yusif əl-Ənsari ən-Nəhvi (1308-1360), eləcə də başqa Şərq , o cümlədən türkdilli alimlərdən Sədəddin Sədulla Bərdai,Cəmaləddin Ərdəbili,İsmayıl Cövhərini, Cərullah Əbdülqasim Mahmud bin Ömər əz-Zəməxşərini (1075-1144) və onlarla başqa dilçiləri göstərmək olar. Türkdilli alimlərdən biri olan Mustafa bin Abdullah (1609-1657) biblioqrafiya sahəsində ərəb dilindəكشف الظنون عن اسامى الكتبو الفنون "Kəşf əz-Zunun an Əsamil-Kutubi vəl-Funun" adlı bir əsər yazılmışdır. Bu əsərin əlyazmalar xəzinəsində XVI -1889; VI-149 şifirli iki nüsxəsini aşkarlamışıq. XVI -1889 şifirli nüsxə 1310/1892-ci ildə İstanbulun "Dərsəadət" mətbəəsində nəşr olunub. Mustafa bin Abdullah Katib Çələbi ləqəbi ilə məşhur olmuşdur.

Çələbi-əsl-nəcabətli, oxumuş elmli kəslərə verilən bir ad, ünvandır. Bu sözün mənşəyi haqqında müxtəlif fikirlər irəli sürülsə də, bugünə qədər konkret nəticə çıxarılmamışdır. İrəli sürülən fikirlərin ən etibarlı və dəqiqi isə İbn Kamal ilə Həsən Kafi Anhisarinin risalələrində bu sözün mənşəyi ilə bağlı qeyd etdikləri kimi, "çələbinin"türkmən dilində Allahın adlarından biri olan "Çalap"dan gəldiyi

söylənilir. Bu da "Allaha mənsub", "Allaha bağlı" mənasını verir. Ümumiyyətlə, "Çələbi" sözünün mənası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzilərinə görə, bu söz Hind-Avropa və Yunan dillərindən gəlmişdir. Lakin, bu fikirlər inandırıcı deyildir. Görünür, əksər adları yunanlarla bağlamaq cəhdi bu sözdən də yan keçməyib. "Çələbi" sözünün bəzi Bizans qaynaqlarında türkçə olduğu və "bəyzadə" mənasını verdiyi qeyd olunmuşdur.

Osmanlıda, xüsusilə də XIV yüzildən XVIII yüzilə qədər elmli, yüksək təbəqəyə məxsus olanlara, ilk vaxtlarda isə osmanlı şahzadələrinə də aid edilmişdir. İldırım Bəyazidin dörd oğlu "Çələbi" ünvanıyla çağırılmışdır. I Mehmet padşah olduqdan sonra da bu ünvanla çağırılmışdır. "Çələbi" bəzi qeyri-müsəlman zümrələr tərəfindən də işlənilən bir ünvan olmuşdur. Eremya Çələbi, Thevennot Çələbi də bu ünvanla anılmışdır. Həmçinin, xristian və yəhudi qadınları ərlərinə çələbi deyirmişlər. "Çələbi" kəlməsi yer adı olaraq da yayılmışdır. İstanbulda 10-a yaxın məhəllə və küçə bu adı daşıyır, Bosniya əyalətinə aid Çələbi bazarı adıyla bir qəzanın olduğu da söylənilən məlumatlar arasındadır.

Çələbilərin məskunlaşdığı yerlərdən biri də Qarabağ zonasıdı. Yaşayış məntəqəsini çələbi (mövləvi dərviş ordeninin başçısı) adı ilə tanınan bir qrup ailədən ibarət nəsil saldığı üçün, kənd bu nəslin adı ilə adlandırılmışdır. 1933-cü ildə Cəbrayıl rayonunun Dağtumas kəndi ərazisində də "Çələbilər" adlı kənd qeydə alınmışdır. İranda Çələbi, Krımda Çələbilər (Plodova), Rusiyada Çelyaba (Çelyabinsk) adlı yaşayış məntəqələrinin olduğu da məlumdur. Çələbilər ("Çələbi" sözü dini və dünyəvi termin olub, hakimiyyətlərin, şahzadələrin ləqəbi kimi işlənib, "Allahı sevən", "yazıçı", "şair", "bilici" mənalarını verir) XVI əsrin ikinci yarısında Kiçik Asiyadan Azərbaycana gəlmişlər. Çələbilərin adlı-sanlı başçılarından olan Hacı Qaraman XVI-XVII əsrlərdə Cəbrayıl ərazisinə köç etmiş, əvvəlcə Niftalılar və Nusus kəndləri arasındakı yerdə özünə məskən salmış, sonralar Çələbilər kəndində yerləşmişdir. Hacı Qaramanın dəfn edildiyi məzar sonralar "Ocaq" kimi müqəddəsləşdirilmişdir. Çələbilər kəndindəki məscid isə Məhəmməd ibn Hacı Qaraman Əhmədli tərəfindən 1088/1678-ci ildə inşa edilmişdir. O, ömrünün sonunadək həmin kənddə ağsaqqallıq etmiş, xeyirxah işlərin duaçısı, hüzuruna pənah gətirənlərin yardımçısı olmuşdur. Qarabağ tipinə aid olan qədim xovlu xalçaları yaşlı xalçaçılar "Çələbi" adlandırsalar da, həmin xalçaları çox vaxt "Çələbirt" adlandırırdılar. Əslində isə xalçanın adı "Çələbi"dir – sonralar xalça alıcıları və tacirlər tərəfindən təhrif olunmuş və Avropada xalça sənətşünasları "Çelabirt" kimi tanınmışdır. Bu xalçanın ilk dəfə hazırlandığı yer Bərdədən 10 km şərqdə yerləşən Çələbilər kəndi olmuşdur. "Çələbi" xalçalarının kompozisiyası və quruluşu məhz bu kənddə yaranmış və təkmilləşmişdir; daha sonra Dağlıq Qarabağda, Aranda və xüsusilə, XIX əsrdən Qazax əyalətində və digər xalçaçılıq məntəqələrində yayılmaqla, onlar müxtəlf adlar altında məşhurluq qazanmışlar.

Cəbrayılın Çələbilər kəndi ərazisində tikintisi XVI əsrə aid olan əzəmətli bir məscid-mədrəsə də var idi. Məhəmməd İbn Hacı Qaraman Əhmədli tərəfindən

1088/1678-ci ildə tikilən bu məbəd də, dini və dünyəvi elmlər böyük din xadimləri tərəfindən tədris olunmuşdur. XVIII əsr məşhur Azərbaycan klassik şairi Molla Vəli Vidadi də bu mədrəsədə dərs demişdir. Məscid kompleksi ərazisində xüsusi otaqlar, hücrələr olub ki, bu hücrələrdə şagirdlərə dərs verilib. Dağlıq Qarabağ hadisələri başlamamışdan bu məscid-mədrəsə kompleksi yüksək səviyyədə bərpa olunub, ilkin formasına gətirilmişdi.

Hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Çələbi soyuna mənsub olan bir çox alimlərin türk, ərəb, fars dillərində qiymətli əlyazma və çap kitabları mühafizə olunur. Belə alimlərdən biri də Çələbi soyundan olan, XVII əsrdə din, hüquq, siyasət, ədəbiyyat, coğrafiya, tarix, biblioqrafiya və başqa elm sahələrində əsərlər yazaraq, dünyəvi elmlərlə dini elmləri birləşdirməkdə şöhrət qazanmış türk dünyasının görkəmli alimi və yazıçısı, Yerin kürə şəklində olması fikrinin tərəfdarı olan coğrafiyaşünas alim Mustafa bin Abdulladır (1609-1657).

Katib Çələbinin əsl adı Mustafa bin Abdulla (1609-1657) olmuş, orduda katiblik etdiyi üçün xalq arasında Katib Çələbi ləqəbi ilə tanınmışdır. Digər ləqəbi isə Hacı Xəlifədir.Katib Çələbi 1609-cu ildə İstanbulda anadan olmuşdur. Atası Osmanlı dövlət və siyasət adamlarının qurduğu Əndərun təşkilatında təhsil alaraq yetişmiş bir əsgər olmuşdur. O, altı yaşında olarkən ilk təhsilini almaq üçün atası tərəfindən İsa əl-Kərimdən Quran oxumağı, təcvid qaydalarını və namazı öyrənmişdir. Həmin dövrün adətinə görə, öyrəndiklərini Məsih Paşa "Dərul-Qurra" mədrəsəsində əzbər deyirdi. Quranın yarısını əzbərləyərək həmin mədrəsədə oxuyurdu. Daha sonra Zəkəriyyə Əli İbrahim Əfəndidən dərs almışdır.14 yaşına kimi özəl dərslər alan Çələbi 1623-cü ildə Anadolu mühasibə idarəsinə işə qəbul olunmuşdur. O, IV Muradın dövründə şərq səfərlərinə katib kimi getmişdir.1635-ci ildə İstanbula dönərək özünü bütünlüklə elmə həsr etmişdir. Tarix, tibb, coğrafiya, astranomiya kimi elmlərdən geniş anlayışı olan Katib Çələbinin eyni zamanda zəngin bir kitabxanası da olmuşdur. 1645-ci ildə növbəsi çatsa da, vəzifəsi artırılmadığına görə idarədən uzaqlaşdırıldı. Lakin 1648-ci ildə Şeyxülislam Əbdürrahim əfəndi vasitəsilə işlədiyi idarəyə ikinci xəlifəliyə gətirildi. Buna baxmayaraq yenə Katib Çələbi yaradıcılığına davam etmiş və bir çox əsərlər yazmışdır. O, tarix, coğrafiya və biblioqrafiyaya aid 20-dən çox kitabın tərcümə və tərtibinin müəllifidir. O, ərəb dilində yazdığı və biblioqrafiyaya aid olan bu əsərini "Kəşf əz-Zunun an-Əsamil-Kutub vəl-Funun" adlandırmışdır.

Onun ərəb dilində yazdığı bu əsəri biblioqrafiq ensiklopediya adlandırmaq olar. Filologiya üzrə elmlər doktoru, professor Azadə Musabəylinin yazdığı kimi: "Türkiyədə orta çağda yazılmış dəyərli qaynaqlardan biri də Katib Çələbinin (1609/1656) bütün islam aləminə xitab etdiyi uzün ərəbcə yazdığı böyük biblioqrafiya kitabı "Kəşf əz-Zunun"dur ki, dünyada tanınmış əsərlərin ən mühümüdür. Bu əsərdən bu gün Türkiyədə olduğu qədər dünya elm aləmində də faydalanılmaqdadır" .

Biblioqrafiya termini Qədim Yunanıstanda meydana gəlmişdir. Biblioqrafiya - yunan sözü olub , “biblion” kitab, “qrafo” yazıram deməkdir. Yunan alimi və şairi Kollimaxinin (e.ə. 310–240) “Müxtəlif elmlərdə fərqlənənlərin hamısının və onların yazdıqları hər şeyin cədvəlləri” əsəri ilk biblioqrafik nümunə hesab olunur. Kitab çapından sonra bibloqrafiya çap əsərlərinin uçot və qeydini aparan, onları sistemləşdirən, təsvir, tövsiyə və təbliğ edən elm və əməli fəaliyyət sahəsi kimi formalaşmağa başladı

Biblioqrafiya sahəsində yazılmış bu zəngin əsər XVII əsrdə Türkiyədə Katib Çələbi tərəfindən qələmə alınmışdır. Katib Çələbi yazdığı bu əsəri كشف الظنون عن اسامى الكتبو الفنون “Kəşf əz-Zunun an Əsamil-Kutubi vəl-Funun” adlandırmışdır. O, “Kəşf əz-Zunun an Əsamil-Kutubi vəl- Funun”əsərini əlifba sırası ilə düzmüşdür. Bu mühüm əsər 300-ə qədər elm sahəsinin xüsusiyyətlərini izah etməklə, 10.000-ə qədər müəllif və əlifba olaraq 15.000-ə yaxın kitab haqqında məlumat verir. Daha sonra İsmail Paşa əl-Bağdadi bu əsərə iki cildli ذيل كشف الظنون “Zeyl Kəşf əz-Zunun” adlı əlavə (zeyl) yazmışdır.

Əsərin ilkin adı “Kitabul-icmalil-fusul val əbvad fi tərtibil-ulum va əsmail-kitəb” dır. Müəllif bəzi əlavə və düzəlişlərdən sonra kitabın adını “Kəşf əz-Zunun an Əsamil kutub vəl-Funun” olaraq adlandırmışdır. Katib Çələbi bu əsəri 20 il ərzində yazmışdır.Əsər İslam dünyasında elmlər,yazılan və tərcümə edilən əsərlər haqqında qələmə alınmış ən geniş miqyaslı və zəngin bir neçə mənbələrdən biridir. Bu müddət ərzində Hələb şəhərində, ikinci əl kitab dükanlarında araşdırmalara başlamış, digər şəhərlərin kitabxanalarında davam etdirərək tamamlamışdır. “Kəşf əz-zünun...” əsərində adından da göründüyü kimi, kitablarla yanaşı, elmi fənlərdən də bəhs edilir. Yəni müəllif elmlərin sadalanması və bölünməsi ilə də məşğul olmuşdur. “Kəşf əz-Zunun an Əsamil kutub vəl funun” əsəri 5 hissədən ibarət olub, müqəddiməsində biliyin tərifi, islam dünyasında elmlərin yaranması və inkişafı sahələri, kitab müəllif hüquqlarının formaları və şərh ənənəsinin müxtəlif üslubları müzakirə olunur. Kitabda türk, ərəb və farsdilli əsərləri xüsusi ilə qeyd olunur, əsərlərin başlanğıc cümlələrinin köçürülməsi ilə oxşar əsərin bir-biri ilə qarışdırılmasının qarşısı alınır.

“Kəşf əz-Zunun”a müxtəlif zamanlarda müxtəlif əlavələr yazılmışdır. Əsas əlavə müəllifləri Katib Çələbinin müasirlərindən olan Hüseyn əl-Abbasi, Vişnəzadə İzzəti Məhmət əfəndi, Riyazizadə Abdullatif-dir. Hənifəzadə Tahir Əhməd əfəndinin “Asari nev” adlı əlavəsi də var. Əsərin sonuncu ən məşhur əlavəsi Bağdadlı İsmayıl Paşanın “İzahul-Məknun fiz-Zeyli alə kəşfiz-zunun an əsamil-kutub val-funun” dur.

“Kəşf əz-Zunun”un ilk elmi nəşrini tərcüməsi ilə birlikdə yeddi cilddə Qustav Leberecht Flügel latınca çap etdirmişdir. Əsərin tam olaraq Misir və İstanbulda çap olunmuş digər elmi nəşri M.Şərafəddin Yaltqaya və Kilisli Rifat Bilgi tərəfindən mövcud əlyazmaları və çapları nəzərdən keçirilərək müəllifin çapı ilə müqayisə edilib hazırlanmışdır (Surəti-İstanbul 1941, 1943,1971, Tehran 1387 1967). Hənəfizadənin “Asari nev-i kəşfi əz-zunun” un Flugel nəşrinin 6-cı cildinin sonunda

Riyazizadənin Qahirədə Məhəmməd Altuncunun 1977, Bağdadlı İsmail Paşanın "Əsamaul kutubil mutammim likəşfi-zunun" adı altında nəşr etdirmişdir.

"Kəşf əz-Zunun"da bir çox azərbaycanlı alimlərin həyatı, yaradıcılığı və əsərləri haqqında məlumat da verilmişdir. Bu əsər Azərbaycan mədəniyyətini öyrənmək baxımından çox dəyərli mənbədir. Bu mənbədə orta əsrlərdə yaşayıb-yaratmış azərbaycanlı alimlərindən Nəsrəddin Məhəmməd İbn Həsən ət-Tusi, Əş-Şirvani, Şəmsəddin Məhəmməd əl-Naxçıvani, Məhəmməd əl-Hənəfi ət-Təbrizi, Məhyəddin Məhəmməd əl-Bərdəi, Əbu Sənai Seyidəddin bin Mahmud bin Ömər Şeybani, Şah Fətullah Şirvani, Məhəmməd bin Məhəmməd ət-Tayyib ət-Tayyib ət-Təbrizi, Hüseyn əl-Xalxali, Mahmud bin Mahmud Şirvani, Əbu Zəkəriyyə ibn Əli bin əl-Xətib Təbrizi və bir çoxlarının adlarını çəkmək olar.

"Kəşf əz-Zünun" əsərində həyat və yaradıcılıqlarını araşdırdığımız şəxslərin böyük əksəriyyəti dini elmlər sahəsində tanınmış azərbaycanlılardır. Bunların əksəriyyəti fiqh, yəni İslam hüququ sahəsində, eləcə də hədis, təfsir, qiraət, kəlam sahəsində ixtisaslaşmış alimlərdir. Onların bəziləri həm də öz dövrünün tanınmış filoloq, ədəbiyyatşünas, tarixçi, coğrafiyaçı və riyaziyyatçısıdır.

Ədəbiyyat:

1.Mehmet Ipşirli-Çelebi-tdvia–viii.

2. Vikipediyahttps://az.wikipedia.org. Çələbilər.

3.Azadə Musayeva Şeyx İbrahim Gülşəni Bərdai və Türk Divanı I,"Elm və Təhsil". Bakı -2012.

4.Dünya Kütüphanelerinde Mevcut İslam Kültür Tarihi İle İlgili Eserler Ansiklopedisi. Hazırlayanlar: Ali Rıza Karabulut-Ahmed Turan Karabulut Kayseri-Türkiye, V.

5. اسماعیل پاشا البغدادی، ذیل کشف الظنون، استانبول،١٩٤٥، الجلد الاول، ٦+٦٢٠؛ الجلد الثانی، ٧٣١ص.

6. عمر رضا کحاله، معجم المولفین ١-٤، بیروت، الجزء الثالث، ٩٥٠ص، الجزء الرابع ٥٨١ ص.

7. اسماعیل پاشا البغدادی، هدایة العارفین، استانبول، ١٩٥١، الجلد الاول، ٨٤٠ص، الجلد الثانی١٩٥٥، ١١٦+٥٧٤.

8. Bursalı M.Tahir. Osmanlı Müellifləri, I- III ciltde, İstanbul, 1333, II.

9. Katib Çələbi "Kəşf əz-Zunun an Əsamil-Kutubi vəl-Funun".AMEA Əlyazmalar İnstitutu XVI -1889 (I-II; 4+592+662+4) –İstanbul "Dərsəadət" mətbəəsi, 1310/1892;VI-149 (I)

Месма Махмудова

КАТИБ ЧЕЛЕБИ И ЕГО ПРОИВЕДЕНИЕ «КАШФ АЗ-ЗУНУН АН АСАМИЛЬ-КУТУБ ВАЛЬ-ФУНУН»

РЕЗЮМЕ

Челеби - это титул, данный благородным по происхождению, образованным и знающим личностям. Хотя о происхождении этого слова выдвигались различные мнения, но до сих пор не было сделано конкретного вывода. Если исходить из выдвинутых точек зрений, то увидим, что, как упоминали Ибн Камаль и Хасан Кафи Анхисари о происхождении этого слова в своих рисале, «челеби» происходит от «Чалап», одного из имен Аллаха на туркменском языке, что означает «принадлежащий Аллаху», «близкий к Аллаху». По некоторым мнениям, это слово пришло из индоевропейского и греческого языков. Однако они не кажутся убедительными. В некоторых византийских источниках упоминается, что слово «челеби» тюркское по происхождению и означает «бейзаде». Это изречение использовалось во времена Османской империи, особенно с XIV по XVIII века его использовали по отношению к тем, кто принадлежал к образованному, высшему классу, а вначале оно также применялось к османским принцам.

На территории Джебраильского района села Челебилер была также величественная мечеть-медресе, строительство которой датируется XVI веком. В этом храме, построенном Мухаммадом ибн Хаджи Гараманом Ахмадли в 1088/1678 гг., великие священнослужители преподавали религиозные и мирские науки. Здесь также преподавал известный азербайджанский поэт-классик XVIII века Молла Вели Видади. На территории комплекса мечети были специальные помещения и кельи, в которых обучались ученики. До начала событий в Нагорном Карабахе этот комплекс мечети-медресе был отреставрирован на высоком уровне и восстановлен в первоначальном виде.

В настоящее время в Институте рукописей имени Мухаммеда Физули НАНА хранятся ценные рукописи и печатные книги многих ученых из наследия Челебина тюркских, арабском и персидском языках. Одним из таких ученых из наследия Челеби являлся ученый-географ Мустафа бин Абдулла под псевдонимом Катиб Челеби (1609-1657), который в XVII веке писал труды в области религии, права, политики, литературы, географии, истории, библиографии и других наук, снискавший известность сочетанием светских и религиозных наук, был сторонником идеи о шарообразности Земного шара. Настоящее имя Катиба Челеби было Мустафа бин Абдулла (1609-1657), стал известным под данным прозвищем будучи секретарем в армии. Его произведение «Кашф аз-Зунун ан Асамиль-Кутуб валь-Фунун», написанное на арабском языке, можно назвать библиографической энциклопедией.

Первоначальным названием произведения было «Китабуль-иджмалиль-фусул валь абвад фи тартибиль-улум ва асмаиль-китаб». После некоторых дополнений и исправлений автор назвал книгу «Кашф аз-Зунун ан Асамиль кутуб валь-Фунун». Эту работу он писал на протяжении 20 лет. Катиб Челеби расположил труд «Кашф аз-Зунун ан Асамиль-Кутуби валь-Фунун» в алфавитном порядке. Данное достопримечательное произведение содержит сведения о 10 000 авторах и алфавитах, об около 15 000 книг, а также поясняет особенности до 300 областей наук. В этом труде также представлена информация о жизни, творчестве и произведениях многих азербайджанских ученых. Эта работа является очень ценным ресурсом для изучения азербайджанской культуры.

Ключевые слова: Институт, рукописей, культура, автор, литература**.**

Masma Mahmudova

KATIB CHALABI AND HIS WORK "KASHF AZ-ZUNUN ASAMIL-KUTUB WAL-FUNUN"

SUMMARY

Chalabi is a name and address given to noble, educated and learned people. Although various ideas have been put forward about the origin of this word, no concrete conclusion has been made so far.If we look at the ideas put forward, we will see that, as Ibn Kamal and Hasan Kafi Anhisari mentioned about the origin of this word in their treatises, it is said that "chalabi" comes from "Chalap", one of the names of God in the Turkman language.This means "belonging to God", "connected to God". According to some opinions, this word came from Indo-European and Greek languages. However, these ideas do not seem very convincing.It is mentioned that the word "Chalabi" is Turkish in some Byzantine sources and means "beyzade". This word was used in Ottoman times, especially from the 14th century to the 18th century, for those who belonged to the learned, high class, and in the beginning, it was also applied to the Ottoman princes.

There was also a magnificent mosque-madrasa, whose construction dates back to the 16th century, in the territory of Jabrayil's Çelabiler village. In this temple built by Muhammad Ibn Haji Garaman Ahmadli in 1088/1678, religious and secular sciences were taught by great religious figures.The famous 18th century Azerbaijan classical poet Molla Vali Vidadi also taught in this madrasa. There were special rooms and cells in the territory of the mosque complex, in which students were taught. Before the events of Highland-Karabakh began, this mosque-madrasa complex was restored at a high level and brought back to its original form.At present, valuable manuscripts and printed books in Turkish, Arabic and Persian languages of

many scientists belonging to the Chalabi family are preserved at the Institute of Manuscripts named after Mahammad Fizuli ANAS.Mustafa bin Abdulla, nicknamed Katib Chalabi (1609-1657) was one of such scientists, who wrote works in the fields of religion, law, politics, literature, geography, history, bibliography and other sciences in the 17th century. He gained fame for combining secular and religious sciences and supported the idea that the Earth is spherical.The real name of the secretary Chalabi was Mustafa bin Abdulla (1609-1657). Because he was a secretary in the army, he was popularly known as Secretary Chalabi.His work "Kashf az-Zunun an Asamil-Kutub wal-Funun" written in Arabic can be called a bibliographic encyclopedia.

The original title of the work is "Kitabul-ijmalil-fusul wal abwad fi zamalil-ulum wa ismail-kitab". After some additions and corrections, the author named the book as "Kashf az-Zunun an Asamil kutub wal-Funun".He wrote this work for 20 years. Katib Chalabi arranged the work "Kashf az-Zunun an Asamil-Kutubi wal-Funun" in alphabetical order. This important work provides information about up to 10,000 authors and about 15,000 books alphabetically, explaining the characteristics of up to 300 fields of science.This work also provides information about the life, creativity and works of many Azerbaijan scientists. This work is a very valuable resource for studying Azerbaijan culture.

Key words: Institute, manuscript, culture, author, literature.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə elmlər doktoru, professor
Kamanda Şərifli
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNEL ƏSGƏROVA
AMEA Naxçıvan Bölməsi
Heydər Əliyev prospekti, 76

"MOLLA NƏSRƏDDİN"İN "POÇT QUTUSU"NUN TÖVQİF MƏKTUBLARI

"Molla Nəsrəddin" jurnalının ideologiyası bir məqsəd ətrafında cəm olsa da, mövzu və janr baxımından çoxşaxəli və zəngin olmuşdur. Jurnal nəşrə başlayanda onun proqramına "Söhbətlər", "Atmacalar", "Felyoton", "Lətifələr", "Şəxsi elanlar" və s. daxil idi. Həmin janrların hər biri özünəməxsusluğu ilə seçilirdi. Bu janrlar içərisində yığcam, qısa və aydın fikirləri özündə ehtiva edən, istər mövzu, istər ideya, istərsə də əyləncəli, məzhəkəli məzmunu ilə seçilən "Poçt qutusu" rubrikasının özünəxas yeri və rolu var idi. "Poçt qutusu" jurnalın məqsəd və amalının həyata keçirilməsində, jurnalın redaktoru, abunəçiləri, yazarları və oxucuları arasında ünsiyyət saxlanılmasında xüsusi əhəmiyyətə malik olan əlverişli janrlardan biri idi.

Məqalədə jurnalın nəşri tarixində önəmli rol oynayan "Poçt qutusu" məktubları tədqiqata cəlb edilmişdir. Müəllif əsasən redaksiyaya göndərilən və "Molla Nəsrəddin"in "Poçt qutusu" səbətində tövqif *(təxirə salam, tutub saxlama, yubatma)* olmuş məktublara diqqət yetirmiş və "elanınız çap olunmayacaq", "şeirlərin dərci məsləhət olmadı", "yazınızı çap etmək məsləhət olmadı" kimi məzmunda dərc olunan poçt qutusu yazılarını təhlil etmiş və məqalələrin hansı səbəbdən dərc olunmamasına müəyyən aydınlıq gətirmişdir.

Açar sözlər: *Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı, "Poçt qutusu", Naxçıvan ədəbi mühiti, naxçıvanlı müxbirlər.*

Mollanəsrəddinçilər Azərbaycanda, bütövlükdə Şərq aləmində cərəyan edən hadisələri öz səhifələrində layiqincə əks etdirmək üçün bir sıra yeni ədəbi forma və janrlardan istifadə edirdilər ki, bunların içərisində "Poçt qutusu" janrı yığcam, lakonik və əyləncəli məzmunu ilə seçilən janrlardan idi.

Jurnalın nəşri tarixində mühüm rol oynayan "Poçt qutusu" məktubları içərisində "məqalənizi çap eləmək mümkün olmadı", yaxud da "elanınız çap olunmayacaq", "şeirlər çap olunmayacaq", "yazınızı çap etmək məsləhət olmadı" kimi çap olunmayacağı haqqında məqalə sahibinə qəti şəkildə verilən cavablar diqqət çəkən cəhətlərdən idi. Sual yaranır : "Nə üçün", "Nəyə görə" bəzi məktublar dərc edilməyərək "poçt qutusu" səbətində tövqif olunmuşdur? "Poçt qutusu"nun tövqif məktublarını təhlil edərkən aydın olur ki, redaktorun bu məktubları dərc etməməsinin bir sıra əsaslı səbəbləri olmuşdur.

Mirzə Cəlilin müxbirlərdən ilk tələbi jurnalın məqsəd və məramına uyğun, təsir qüvvəsi böyük, savadsız oxucuların asanlıqla başa düşə biləcəyi tərzdə məqalələr

yazmaları idi. Yığcam şəkildə və yaradıcı üslubda yazmaq "Molla Nəsrəddin"in ən birinci tələbi olmuş və bunun vacibliyi "Poçt qutusu" yazılarında tez-tez vurğulanmışdır. Bu tələbləri ödəməyən məqalə müəlliflərinə isə redaksiya tərəfindən məktubların çap olunmayacağına dair jurnalın satirik üslubuna uyğun "Poçt qutusu"nda cavab verilirdi: "İdarəmizə gələn kağızların çoxunu çap etmirik. Etməməyimizin səbəbi budur ki, kağızların çoxundan bir məna çıxmır" [4, 1906, №31, s. 7]. Məsələn, "Bakıda "Naseh"ə: şeirlərinizi göndərdik İstanbula İran səfiri Ərfəüddövlə qafiyələrini düzəltsin, sonra çap edərik" [4, 1907, №12, s. 6]. "Naxçıvanda "Müridə": Markaya heyfiniz gəlsin" [4, 1908, №14, s. 7]. "Naxçıvanda "Aşiq"ə: "Bəlkə bir vaxt bir neçə söz yazaq" [4, 1908, №14, s.7]. "Culfada "Cüvəllağı"ya: "Nəsihət" çap olunmayacaq" [4, 1910, №3, s. 7]. "Naxçıvanda "Nəssac"a: "Bu dəfəki şeirlərin dərci məsləhət olmadı, gələcəkdə sadə və mənalı yazsanız çap olunar" [4, 1913, №4, s. 7]. "Əylis kəndində Tövfiqə: "Dörd vərəqdən ibarət məktubunuz səbətdə tövqif olunmuşdur. Heyf ki, rəhmətlikdən bir kəlmə də olsun anlamaq olmadı" [4, 1925, №16, s. 11]. "Naxçıvanda Diliacı tələbəyə": "Bunlar uşaqyana yazılardı" [4, 1929, №16, s. 7]. "Naxçıvandn "Həzrəti Məryəm" imzası ilə yazana: "Şeiriniz zəifdir, 9 parça nəsr yazınızdan da 9 sətir istifadə edə bilmədik" [4, 1929, №18, s. 7]. "Baş Noraşında kəndləri gəzənlərə": "Yazdığınız uzun məktubların içində nə qədər axtardıqsa, əməlli bir şey tapa bilmədik" [4, 1929, №21, s. 7]. Mirzə Cəlil jurnalda bu tipli poçt yazılarına yer verməklə müəllifləri daha ciddi və məzmunu oxucu tərəfindən anlaşılan yazılar yazmağa dəvət edirdi.

Redaktor təkcə təcrübəsiz qələm əhlinə deyil, həm də jurnalın ilk müxbirlərindən olan Ə.Qəmküsar, Ə.R.Şamçızadə kimi məslək yoldaşlarına da tövsiyələrini sərbəst surətdə bildirir, cəmiyyətdə baş verən hadisələrə mollanəsrəddinsayağı münasibət bildirməyin vacibliyini xatırladırdı.

C.Məmmədquluzadənin "məxsusi qələm yoldaşı" Əliqulu Qəmküsara verdiyi məsləhət də həmin tələbkar münasibətin ifadəsidir: "Culfada Qəmküsar" cənablarına: "Yazdığınız şeirlər çox gözəl, lakin heyf ki, mollanəsrəddinsayağı yazmayıbsınız çox ciddidir. Ümidvarıq ki, bundan sonra şeirlərinizi mollanəsrəddinsayağı yazarsınız. Özgə şeirlərinizi gözlüyürük" [4, 1909, № 46, s. 8]. "*C.Məmmədquluzadənin Ə.Qəmküsar yaradıcılığına göstərdiyi bu qayğı səmərəsiz qalmır. 1910-1911-ci illər Ə.Qəmküsarın əsərlərində satira və yumor ünsürləri hiss ediləcək dərəcədə güclənir"* [1, s.52]. Bu irad və tələblər təkcə Ə.Qəmküsar yaradıcılığına deyil, digər müəlliflərin də qələminin formalaşıb inkişaf etməsinə kömək etmişdir. "Dabanıçatdax xala" imzasıyla jurnalda satirik-yumoristik şeirlər çap etdirən Ə.R.Şamçızadə və M.Ə.Möcüzə də yumorla verdiyi tövsiyələr bu cəhətdən maraqlıdır: "Dostumuza, "Dabanıçatdax xala"ya: yazılan şeirlər bir az qıcqırıblar" [4, 1909, №27, s. 8]. "Tazə şairə" *(M.Ə.Möcüzə-G.Ə.)*: "Qoy şeirlərin hələ qurusun" [4, 1921, №6, s. 7]. "Poçt qutusu"nun əlverişli cəhətlərindən biri də odur ki, redaktor bu janr vasitəsilə jurnalın yazar və müxbirlər ilə əlaqə saxlamış, redaksiyaya

göndərilən yazılara öz tənqid və iradlarını bildirməklə bərabər, həm də onlara öz məsləhət və tövsiyələrini də vermişdir.

1906-cı ildə nəşrə başlayan jurnalın ən ümdə vəzifəsi "açıq ana dilində" yazıb yaratmaq idi. Məktubların dərc olunmamasının ən başlıca səbəblərindən biri də onların ana dilində yazılmaması olmuşdur. C.Məmmədquluzadə müəlliflərindən ana dilində yazmalarını qətiyyətlə tələb etmiş və jurnalın 31 nömrəsini "İdarəyə göndərilən məktub və məqalələr açıq türk ana dilində yazılmış olmasalar, çap olunmayacaqlar" [4, 1906, №12, s. 2] başlıqlı elan dərc etdirmişdir. Ana dilində yazılmayan yaxud, Mirzə Cəlil demişkən "qatış-bulaş" dildə yazılan heç bir məktub jurnal səhifələrində özünə yer ala bilmirdi.

"Molla Nəsrəddin" öz müxbirlərindən, daimi oxucularından şəhər və kəndlərdə baş verən əhəmiyyətli hadisələri yazıb xəbər bildirməyi təvəqqe edirdi. "Oxucularımızdan təvəqqə edirik ki, idarəmizə qoluzorbalıqda hünər göstərən şəxslərin fotoqrafiyalarını, şəhər və kəndlərdə üz verən əhəmiyyətli vüquatı yazıb bizə bildirsinlər" [4, 1907, №9, s. 2]. "Gündə üçşahılıq alış-veriş eləyən fəqir dükançılara sataşmağın heç bir ləzzəti yoxdur. Əgər qoluçomaqlıların hünərlərindən bizə xəbərlər yazsan, artıq həvəs ilə çap edərik" [4, 1907, №1, s. 7]. "Naxçıvanda "Molla Dosta": "Yazdığınız mollanın qeytan almaq məsələsi əhəmiyyətli olmadığına görə çap olunmayacaq. Çalış mənalı və faydalı xəbərlər yazgilən ki, heç olmasa, şəhərinizdə (skverdə) danışılan şirin-şirin söhbətlərdən və gözəl-gözəl qiybətlərdən xəbərdar olub bilək ki, şimdi oradakı bəylərin söhbətləri nə məqulədədir? [4, 1914, №5, s. 7].

Bu poçt yazılarından aydın olur ki, redaktor müəlliflərin qarşısına ciddi tələblər qoyur, öz məsləhət və nəsihətləri ilə müxbirlərinə yol göstərirdi.

Mirzə Cəlil jurnalın yazarlarından məzhəkəli və tənqidi ruhda yazmağı tələb edərkən həm də ədəb, mərifət, etik qaydaları pozmamağı da əsas tuturdu. Məsələn, bu tipli poçt yazılarından bir neçəsinə nəzər yetirək: "Culfada "Müxbirimiz"ə: "Molla Əhmədin hərəkətini yazmaq olmaz ayıbdır" [4, 1910, №18, s. 7]. "Culfada bir nəfər təzə şairə": "Əliqulu" imzalı yazdığınız şeirdə bir nəfər ordubadlını pisləyirsiniz ki, bangda uçotnı çlen olub ordubadlılara xod vermir. Dəxi bundan savayı bir söz yaza bilmərik [4, 1912, №4, s. 7]. "Naxçıvanda Dinsizə": "Molla Palanduz söhbəti küçə və çayxana söhbətidir" [4, 1929, №18, s. 7]. "Naxçıvanda konfrans nümayəndələrinə": "Bir qadının qızıl ziynəti barədə olan yazınızı çap etmək məsləhət olmadı" [4, 1929, №23, s. 7].

C.Məmmədquluzadə müəlliflərin qarşısına bir çox tələblər qoyurdu ki, bunlardan ən vaciblisi idarəyə daxil olan məktublarda düzgün, yalan olmayan xəbər, məlumat və informasiyaların yer alması idi. Redaktor jurnalın səhifələrində dərc olunan materialların səhihliyinə xüsusi diqqət yetirir və müxbirlərindən göndərilən məktublarda doğru, səhih məlumatların yazılmasını təvəqqe edirdi. Redaktor bu tələbləri ödəməyən yazı müəllifinə "poçt qutusu"nda satirik-yumoristik tərzdə cavab verirdi. Məsələn, Naxçıvanda "Baqqala": "Yazırsan ki, göndərdiyin məktubda bir

dənə də qələt olmaya! Amma and olsun Məşqət kəndinin təzə hacılarının imanına ki, yalan deyirsən. [4, 1907, №16, s. 7]. "Danabaş kəndində mollaya": "Əməli olunar, amma siz də hərdənbir yazınız Baş Noraşendə "T.R." cənablarına və Axıtda "R.R." cənablarına. Keçəllər barəsində yazdığınız düz deyil" [4, 1909, №2, s. 6]. "Baş Noraşində "Müsafirə": "Yazdığınız yalan da olmasa yalana oxşayır" [2, 1929, №16, s. 7].

"Molla Nəsrəddin"in "Poçt qutusu" yazılarına nəzər yetirdikdə məlum olur ki, idarəyə daxil olan bu yazılar konkret ünvana uyğun olaraq ya dərhal dərc edilmiş, ya da növbəti nömrədə dərc ediləcəyi bildirilmişdir: Məsələn, Ordubadda məxsusi səyyahımız Məşədi mozalan bəyə: "Məktubunuz 17-ci nömrədə çap olunacaq" [4, 1909, №16, s. 8]. 17-ci nömrədə isə oxuyuruq: Ordubadda Məşədi Mozalan bəyə: "Məktubunuz 18-ci nömrəyə qaldı" [4, 1909, №17, s. 8]. İzləyib şahidi oluruq ki, redaktor müəyyən səbəblərdən məqalənin dərcini gecikdirmiş olsa da, "Mozalan bəyin səyahətnaməsi" 18-ci nömrədə işıq üzü görür və oxucuların ixtiyarına verilir. Yaxud da göndərilən yazı az əhəmiyyətli olduğundan dərc edilmir və "poçt qutusu" sərlövhəsində xəbər verilirdi: "Naxçıvanda "Gahdanbir"ə: "Məqalənizi çap eləmək mümkün olmadı. Xahiş edirsiniz bir özgə mətləb yazınız" [4, 1923, №10, s. 7]. "Naxçıvanda Hüd-hüdə: Teatro barəsində yazdığınız əhəmiyyəti az olduğundan çapa verilmədi" [4, 1929, №32, s. 7].

"Poçt qutusu"nda verilən cavablar onu göstərir ki, "Molla Nəsrəddin" bir sıra mürtəce qüvvələr tərəfindən təqib olunmasına görə göndərilən məqalələrin hamısı jurnalın səhifələrində özünə yer ala bilmirdi. İctimai dairələrdə qızğın fikir mübadiləsinə, böyük əks-sədaya, çaxnaşmalara səbəb olan bəzi yazıların indiki vaxtda dərc edilməsinin mümkün olmadığını redaktor "Poçt qutusu"nda özünəməxsus tərzdə cavablandırırdı: "Culfada "O taylı" imzası ilə yazana: Elə şeyləri indiki vaxtda yaza bilmərik" [4, 1909, №13, s. 7]. "Naxçıvanda "Qorxağ"a: "Tanımadığımız şəxsdən gələn kağızları çap etmirik" [4, 1924, №4, s.7]. "Naxçıvanda "dəmir yol fəhləsi və ibadətçiyə": "Mustafa Həsən oğlunun nadincliyindən və dız Ələsgərin bizdən küsməyindən qorxaraq o barədə bir şey yaza bilmədik" [4, 1929, №26, s. 7]. Jurnalda müəlliflərin məqalələri imzasız və yaxud gizli imzalarla çap olunurdu ki, bu da onların məxfiliyinin qorunması baxımından gərəkli idi. Jurnal müəllifləri təhlükəsizlik üçün bir neçə gizli imzadan istifadə etsələr də, reaktor yazıların məzmuna, üslubuna fikir verir, tanımadığı müəlliflərdən gələn yazıları jurnalda çap etmirdi. Məsələn, "Naxçıvanda "Qorxağ"a: "Tanımadığımız şəxsdən gələn kağızları çap etmirik" [4, 1924, №4, s. 7]. C.Məmmədquluzadənin bu mövqeyi jurnalın nəşrində yaranan problemlərin qarşısını almaqda böyük rol oynayırdı.

Mirzə Cəlil qətiyyətlə ziyalılara, şair və yazıçılara, bir sözlə, qələm əhlinə yaradıcılıq və mətubat azadlığı verilməsini də açıq-aşkar təbliğ edirdi. Bu haqda "Molla Nəsrəddin" "Cavabımız" da yazır: "Hərənin bir etiqadı var, hər cəridənin bir məsləki var, hər yazıçının bir mətləbi var; yoxsa bu işlər bihudə deyil, heç bir şairə

demək olmaz-elə yazma, belə yaz, heç bir fikir sahibinə demək olmaz ki, qandığını at, mən qandığımı tut" [4, 1911, №44, s. 2]. *"Molla Nəsrəddin"in əsas amalı, əfkarı "etinasız" müsəlmanları əsrin qabaqcıl mədəniyyətinə qovuşdurub, qəzet və jurnal oxucuları etmək, mətbuata qarşı "etinalı" etmək idi"* [3, s. 243].

Deyilənlərdən bu nəticəyə gəlmək olar ki, "Poçt qutusu" jurnalın məqsəd və amalının həyata keçirilməsində əhəmiyyətli janrlardan biri olmuşdur. Redaktor "Poçt qutusu" vasitəsilə həm jurnalın abunəçiləri, yazarları və oxucuları ilə əlaqə saxlamış, həm də müəlliflərinə öz irad, təklif və tövsiyələrini bildirmişdir. Redaktor idarəyə daxil olan məktubların çap olunmaması səbəbini "poçt qutusu"nda müəlliflərə bildirir, yazarlarında daha aktual məsələlərə toxunmağı, xüsusən də ana dilində, dolğun, yığcam və satirik məzmunlu yazılar yazıb göndərmələrini tələb edirdi. C.Məmmədquluzadə jurnalda bu tipli "poçt qutusu" yazılarına yer verməklə müəlliflərin yaradıcılığının inkişaf edib formalaşmasına müsbət təsir göstərmiş və onların jurnala daha keyfiyyətli yazılar göndərməsinə səbəb olmuşdur.

Ədəbiyyat siyahısı

1. Ağayev İ. Əliqulu Q. Bakı: Elm, 1976, 120 s.
2. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri, Naxçıvan: "Əcəmi" NPB, 2009, 424 s.
3. Mirəhmədov Ə. Azərbaycan mollanəsrəddini. Bakı, 1980, s. 243
4. "Molla Nəsrəddin" jurnalı.

TOVQIF LETTERS OF "MOLLA NASREDDIN'S" "POSTBOX"

Gunel Asgarova
Dissertator of Nakhchivan Branch of ANAS

Although the ideology of "Molla Nasreddin" magazine is focused around one goal, it has been diverse and rich in terms of theme and genre. When the magazine started publication, its program included "Conversations" "Remarks", "Feuilleton", "Anecdotes", "Personal announcements" and etc. Each of those genres was distinguished by its uniqueness. Among these genres, the "Postbox" rubric had its own place and role, which contained concise, short and clear ideas, was distinguished by its topic, idea, entertaining and humorous content. "Postbox" was one of the favorable genres, which was of particular importance in the implementation of the purpose and goals of the magazine and in maintaining communication between the editor, subscribers, writers and readers of the magazine.

In the article, the "Postbox" letters, which played an important role in the history of the publication of the magazine, were involved in the research. The author mainly paid attention to the letters sent to the editorial office and tovqif *(postponement, detention, delay)* in the "Postbox" basket of "Molla Nasreddin" and analyzed the postbox messages published with content such as "your announcement

will not be published", "the publication of poems was not recommended", "it was not recommended to print your writing" and was clarified for what reason the articles were not published.

Key words: *Jalil Mammadguluzade, "Molla Nasreddin" magazine, "Postbox", Nakhchivan literary environment, Nakhchivan reporters.*

ПИСЬМА "ТОВГИФ" ИЗ "ПОЧТОВОГО ЯЩИКА" "МОЛЛЫ НАСРАДДИНА"

Гюнель Аскерова
Диссертант Нахчыванского отделения НАНА

Несмотря на то, что идеология журнала "Молла Насреддин" была сосредоточена вокруг одной цели, он был разнообразен и богат по тематике и жанрам. Когда начал издаваться журнал, в его программу входили "Беседы", "Реплики", "Фельетоны", "Анекдоты", "Личные объявления" и т. д. Каждый из этих жанров отличался своей уникальностью. Среди этих жанров свое место и роль занимала рубрика "Почтовый ящик", которая содержала сжатые, краткие и четкие мысли, отличалась своей темой, идеей и веселым, юмористическим содержанием. "Почтовый ящик" был одним из благоприятных жанров, имевших особое значение в реализации целей и задач журнала, в поддержании связи между редактором журнала, его подписчиками, писателями и читателями.

В статье к исследованию привлечены письма "Почтового ящика", сыгравшие важную роль в истории издания журнала. Автор в основном сосредоточился на письмах, отправленных в редакцию и содержащихся в корзине "Почтового ящика" "Моллы Насреддина" с товгифом (отсрочка, задержка, задерживание), и проанализированы сообщения почтового ящика, опубликованные с таким содержанием, как "Ваше объявление не будет опубликовано", "Стихи не рекомендованы к публикации", "Ваша статья не рекомендована к публикации" и выяснены причины, по которым статьи не были опубликованы.

Ключевые слова: *Джалил Мамедгулузаде, журнал "Молла Насреддин", "Почтовый ящик", литературная среда Нахчывана, Нахчыванские журналисты.*

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur

MASUMA RAJABOVA
Enterprise:
Academic degree: Master
Email: masumarajabova@gmail.com

DIFFERENCE BETWEEN BRITISH ENGLISH AND AMERICAN ENGLISH

ABSTRACT

Before America gained independence from Britain in 1776, American and British accents were similar. Both had an accent where the 'r' sound was pronounced harshly. After 1776, the accents began to diverge, but the British accent in America changed more smoothly than the British accent in England.

Towards the end of the eighteenth century, in the south of England, especially among the wealthy class, a pronunciation in which the 'r' sound was not strongly stressed became dominant, and this 'prestige' became standard and has since spread throughout England.

However, most American accents remained unchanged with the 'r' accent. With one or two exceptions: New York and New England accents have become unstressed 'r', perhaps due to British connections. Irish and Scottish accents, on the other hand, remained accentuated.

Today, American and British English have several types of accents, and there is no such thing as a true American or British accent. We will pay special attention to this issue in this article.

Keywords: British English, American English, accent differences, English language

MAIN PART

English today is accepted as the global common language spoken even by people whose mother tongue is different in communication, science, commerce, aviation, internet, radio, diplomacy and many other fields. Although the history of English, which is used by more than one billion people in the world, dates back to 1400 years ago, the English were the first to contribute to its development. English, which is the official language of countries such as America, United Kingdom, Australia, Canada, South Africa and New Zealand today; As a result of developing technology, industry, international trade and education network, it is the first language taught as a foreign language in most countries (FINEGAN E., 2019). Let's take a look at the English-related differences that have been divided by linguists into two general categories: British (BrE) and American (AmE) English.

British English and American English

While America is the first place where English is used the most in the world, the second place is the United Kingdom, where British English (BrE) was born and developed. British English, which dominates the media and literature sector, has more traditional patterns than American English (AmE), which has become widespread especially with the film and music sector. In general, the differences between the two are; pronunciation, grammar, i.e. language structure, vocabulary, spelling errors, punctuation marks, idioms, dates and formatting of numbers (FROMKIN V., 2015).

Scottish, Welsh and Northern Irish English used in the United Kingdom, Cockney and Scouse dialect, which is common in London and Liverpool, are among the commonly used British English dialects today. American English dialects are; It can be grouped into dialects spoken by African Americans, southern Americans, New Yorkers, and those living in eastern New England.

Americans were introduced to English when the British colonies settled on the continent in the 1700s, and over time, it has become a more common trend than fashion as the world's most spoken official and foreign language. Today, English is among the indispensables for both students who want to pursue an academic career and people who start business life. The world's leading international organizations such as NATO, the Olympic Committee, the World Trade Organization, the United Nations use British English today.

Although the differences between American English and British English in general are not huge, English with a homogeneous language structure can sometimes lead to misunderstandings. Although it is not our mother tongue and it is a foreign language, we think that both English speaking peoples are saying the same things. Linguists doing research on this subject point out that the differences between British and American English have reached 1% today and are getting bigger. Mass media, internet and globalization also play a large part in this (ILKHAN M., 2022).

Differences in Spelling

The language, which did not have a standard spelling check at the beginning of the 18th century, reveals the spelling differences between the two languages with the English Language Dictionary prepared by Samuel Johnson in 1755 and the American English Language Dictionary prepared by Noah Webster in 1828. While certain words of British English prefer French spellings, American English deviates from these spelling rules.

The spelling of most Latin-derived words is like colour, centre, defense, envelope, catalog in British English, while in American English it varies as color, center, defense, envelop, catalog.

Vocabulary

The most striking difference in British and American English is the changes between words. For example, the British prefer to say "go on holidays" or "live in

flats", while Americans prefer to say "go on vacation" or "live in apartments" (LEGOUIS E., 2015).

Although it is a little difficult to understand whether the English that most of us learned in primary and high school, whether it is American or British English, especially students who will take university education abroad or who take exams such as TOEFL and IELTS will be able to understand the differences from words to grammar, from spelling to pronunciation.

Word differences are the most important issues that students who will receive their university education in countries such as England and America should pay attention to when writing the essays requested by educational institutions during their application. For example, the British prefer to call the eraser "rubber", the Americans "eraser", or the British say "lift" to the elevator, the Americans prefer to say "elevator".

British and American accent

There is a discernible accent difference between the English language spoken in both England and America. Contrary to popular belief, their language, which has been preserved by the Americans to a large extent and survived to the present day without much change, despite the resplendent and heavy accent of the British, has not developed by separating from the British accent.

While it is difficult to make a clear distinction between a British and an American accent, there is a clear emphasis on the two languages. This difference in emphasis is also evident in cities such as London, Manchester, Glasgow in England, and between a Texan and a New Yorker in the United States. While American English generally pronounces the letter "r" clearly in words such as "hard, winter", British English does not emphasize the letter "r" rather (McCormick P., 2020).

Another accent difference like this is that in words with more than two syllables such as "secretary, territory, preparatory, conservatory" in American English, they make the emphasis at the end of the word. At the same time, Americans pronounce this sound as "d" in words such as "better, butter, letter, matter" with a double "t" letter.

And, of course, the word "can't" that we can all distinguish whether we have a British or an American accent, and which we are all too familiar with from TV shows, which the British emphatically pronounce as "kant". Another similar word is "dance", which is pronounced "dance" in British English.

Grammar Differences

Considering the differences between British English and American English in general, we can say that the least difference is in grammar, that is, in language structure. In some cases, we can even say that American English influenced British English in terms of grammar, and the obvious differences were reduced to a lesser extent.

One of the grammatical elements where these differences emerge most clearly is prepositions such as "at, on, to, from". For example, when the British say "What are you doing at Christmas?", the Americans say "What are you doing on Christmas?" or the British say "Monday to Friday", while the Americans say "Monday through Friday".

At the same time, when talking about the past tense, while the Americans make sentences with a simpler grammatical structure, the English weight also shows its effect in this rule. For example; While Americans can simply say "I ate too much", the British prefer to say "I've eaten too much" (McCormick P., 2020).

Another difference is seen in singular and plural nouns. For example; Words that are singular but plural in British English, such as "committee, government, team", are always expressed in the singular in American English. While the British say "My team are winning", the Americans say "My team is winning".

CONCLUSION

As a result, when we look at the differences between British and American English, we can say that there are many similarities and there are a few nuances between them. Because if you can understand one style, it is not so difficult to understand the other. Moreover, although there are differences in both types, English, which is spoken by more than a third of the world's population today, is no longer an elective course and has become a necessity, especially for international students.

Considering these reasons, we recommend that those who want to learn English and those who are trained in this subject should absorb both genres well and become familiar with one another while studying either British English or American English. Because linguists predict that English, which is on the way to become a universal language that spreads rapidly and facilitates communication between people, can meet at a single point in the future by eliminating the differences.

At the same time, although British English is taught in schools in our country, most students who watch and listen to movies, music and television programs in American English may falter between the two types. In this regard, instructors must have a good command of British and American English and be able to accurately convey the differences to their students.

REFERENCES

FINEGAN, E. and Besnier, N. Language: its structure and use. San Diago: Harcourt Brace Yavanovich, 2019.

FROMKIN V. and Rodman R. Introduction to language. New York: Holt, Rinehart & Winston, 2015.

ILKHAN, M. Kureselleşme ve İngilizce, http://www.ingilish.com/kuresellesmeingilizce.htm Web.

LEGOUIS, E. A Concise History of English Literature. Oxford: Clerendon, 2015.

McCormick, P. at all. Adventures in English Literature (Classic ed.). New York: Hartcourt Brace & World, 2020.

Məsumə Rəcəbova

BRİTANİYA İNGİLİS DİLİ VƏ AMERİKA İNGİLİS DİLİ ARASINDAKİ FƏRQ

XÜLASƏ

Amerika 1776-cı ildə İngiltərə üzərində müstəqillik qazanmazdan əvvəl Amerika və İngilis aksentləri oxşar idi. Bu zaman hər iki dildə 'r' səsinin sərt tələffüz edildiyi vurğu var idi. 1776-cı ildən sonra vurğular bir-birindən ayrılmağa başladı, lakin Amerikadakı İngilis ləhcəsi İngiltərədəki İngilis aksentindən daha rəvan şəkildə dəyişdi.

XVIII əsrin sonlarına doğru İngiltərənin cənubunda, xüsusən də varlı təbəqə arasında "r" səsinin güclü vurğulanmadığı bir tələffüz üstünlük təşkil etdi və bu "prestij" standart hala gəldi və o vaxtdan bütün İngiltərəyə yayıldı.

Bununla belə, Amerika aksentlərinin əksəriyyəti 'r' vurğusu ilə dəyişməz qaldı. Bir və ya iki istisna ilə: New York və New England vurğuları, ola bilsin, Britaniya əlaqələrinə görə vurğulanmamış "r" halına gəldi. Digər tərəfdən İrlandiya və Şotlandiya vurğuları əsas aksent olaraq qaldı.

Bu gün Amerika və İngilis İngilis dillərində bir neçə növ vurğu var və əsl Amerika və ya İngilis ləhcəsi kimi bir şey yoxdur. Bu məqalədə bu məsələyə xüsusi diqqət yetirəcəyik.

Açar sözlər: Britanya İngilis dili, Amerikan İngilis dili, aksent fərqləri, İngilis dili

Масума Раджабова

РАЗНИЦА МЕЖДУ БРИТАНСКИМ АНГЛИЙСКИМ И АМЕРИКАНСКИМ АНГЛИЙСКИМ

АННОТАЦИЯ

До того, как Америка обрела независимость от Великобритании в 1776 году, американский и британский акценты были похожи. У обоих был акцент, когда звук «р» произносился резко. После 1776 года акценты стали расходиться, но британский акцент в Америке менялся более плавно, чем британский акцент в Англии.

К концу восемнадцатого века на юге Англии, особенно среди богатого класса, преобладающим стало произношение, в котором звук «р» не подвергался сильному ударению, и это «престижное» стало стандартом и с тех пор распространилось по всей Англии.

Однако большинство американских акцентов остались неизменными с акцентом «r». За одним или двумя исключениями: акценты Нью-Йорка и Новой Англии стали безударными «r», возможно, из-за британских связей. С другой стороны, ирландский и шотландский акценты остались подчеркнутыми.

Сегодня в американском и британском английском есть несколько типов акцента, и нет такого понятия, как настоящий американский или британский акцент. В данной статье мы уделим этому вопросу особое внимание.

Ключевые слова: британский английский, американский английский, различия акцентов, английский язык.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: dosent Ülviyyə Nəsirova
tərəfindən çapa tövsiyə olunmuşdur

TƏRANƏ CAVADOVA
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu
Teranecavadova062@gmail.com
Istiqlaliyyət, 26

BÖYÜK ŞAİRİMİZ MOLLA PƏNAH VAQ İF YARADICILIĞINA BİR BAXIŞ

Xülasə

Azərbaycan xalqının, Qarabağ torpağının XVIII əsrdə yetişdirdiyi ədəbi mühitin ən dahisi Molla Pənah Vaqifdir. Onun yaradıcılığı, ərsəyə gətirdiyi əsərlər Azərbaycan poetik düşüncə və bədii-estetik fikri tarixində yeni, əvəzsiz bir mərhələ təşkil edir. Şair Azərbaycan milli poeziyasının, realist bədii şeirin yaradıcısı, Yaxın və Orta Şərqdə ictimai-siyasi şüur hərəkatının aparıcı və ideoloqudur. Görkəmli Azərbaycan şairi Molla Pənah Vaqif 1717-ci ildə Qazax yaxınlığında anadan olmuş, yaxşı mədrəsə təhsili görmüş, ərəb və fars dillərini mükəmməl öyrənmiş, astronomiya, riyaziyyat, musiqi və poetika üzrə geniş biliyə sahib bir ədib kimi yetişmişdir. Verilmiş məqalədə vəzir, şair, pedaqoq, ədib Molla Pənah Vaqifin həyat və yaradıcılığına bir nəzər yetirilmişdir. Ədib əvvəlcə doğulduğu Qazax mahalında, sonra isə Qarabağda, mədrəsələrdə dərs deyib, elmi, helmi və bacarığı ilə fərqləndiyinə görə Molla Pənah adını almışdır. Qarabağa gəldikdən sonra Şuşada məktəb açan şair az bir zaman içərisində şəhər sakinləri arasında həm yaxşı müəllim, həm də istedadlı şair kimi tanınıb. Bunu nəzərə alaraq Qarabağ hakimi İbrahimxəlil xan Vaqifi baş vəzir təyin edir. M.P.Vaqif öz yaradcılığı ilə Azərbaycan şeir tarixində yeni səhifə açmış, qoşma, təcnis, qəzəl və müxəmməsləri ilə bizə hər zaman əziz olmuşdur.

Acar sözlər: Molla Pənah Vaqif, Qarabağ, Şuşa, şeir, şair, qoşma, vəzir.

1796-cı ildə Valerian Zubovun başçılıq etdiyi rus qoşunları Qarabağ sərhədlərinə yaxınlaşanda İbrahimxəlil xan oğlu Əbülfət ağanın başçılığı ilə onun yanına elçilər göndərib. Bu heyətə Vaqif və tanınmış Qarabağ bəylərinin oğlanları daxil idi. Səfarət geri dönərkən İbrahimxəlil xanla bərabər Vaqifə də II Yekaterinanın adından qiymətli hədiyyələr verilir.

1797-ci ildə Ağa Məhəmməd şah Qacarın Şuşaya hücumu zamanı İbrahimxəlil xan Car-Balakənə qaçır. Şəhəri ələ keçirən Qacar bir gün sonra orada sui-qəsd nəticəsində öldürülür. Hakimiyyətə İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəy yiyələnir. Vaqifdən xoşu gəlməyən Məhəmməd bəy onu oğlu Əli bəylə birlikdə öldürtdürür. Vaqifin evi talan olunur, şairin əlyqazmaları yandırılır. Böyük şairimiz,

Qarabağda, ümumən Azərbaycanda böyük mənsəb və nüfuz sahibi olan Vaqifin həyatı belə faciəvi sonluqla bitir.

Vaqif Şərq poeziyasının bütün klassik formalarından istifadə etsə də, yaradıclığında başlıca yeri qoşma janrı tutub. Və o, heca vəznində "Durnalar", "Heyran olmuşam", "Toy adamları", "Sonalar kimi", "Tel nazik" və başqa şeirlərinə mahnılar bəstələnib.

Vaqifin yaradıcılığına nəzər yetirdikdə görürük ki, şair oxucusuna təlqin edir ki, dünyanın əzabını da toy-bayram kimi qəbul etmək lazımdır;

Toy-bayramdır bu dünyanın əzabı,
Əqli olan ona gətirər tabı. (6, 161).

Böyük şair öz yaradıcılığı ilə ədəbi-pedaqoji fikrin inkişafında yeni bir dövr açmış, öz sələflərindən öyrənmiş olsa da onların görə bilmədiyi son dərəcə mühüm bir işi görmüşdür. Bu yenilik də bundan ibarətdir ki, görkəmli şair ədəbiyyatı milli həyata, milli məişətə, milli xarakterə doğru istiqamətləndirmiş, realist bədii təfəkkürə getdikcə genişlənən və dərinləşən daimi bir yol açmışdır. Vaqifin əsərlərinin mövzusu da, forması da, üslubu da xalqın həyatından, məişətindən, milli keyfiyyətlərindən doğmuşdur. O, tam mənası ilə milli bir şairdir. Vaqifə qədər heç bir Azərbaycan şairinin əsərlərində milli xalq həyatı bu qədər dolğun, səmimi və təbii bir şəkildə təsvir edilməmişdir. "Elə şairlər var ki, istedadının səviyyəsinə görə Vaqiflə heç müqayisə oluna bilməz. Səbəbi də ondadır ki, Vaqifin sənətkarlığını nə qədər söz işlətməsi deyil, sözdən necə istifadə etməsi aşkarlayır." (2, 121).

Məsələn,
Əbəs-əbəs neçin qaçırsan məndən,
Mən ki, zalım, adam yeyən deyiləm (6, 43).

Məlum bir həqiqətdir ki, Molla Pənah Vaqif, öz dövrünün görkəmli şairi – lirik sənətkarı olmaqla yanaşı, həm də gözüaçıq, təcrübəli siyasi xadim, elmə-maarifə xüsusi əhəmiyyət verən maarifçi idi. Şair elmin, maarifin əhəmiyyətini özünün əməli-yaradıcılıq işində və ictimai-siyasi fəaliyyətində dönmədən nümayiş etdirmiş, gəncləri oxumağa, elmin dərinliklərinə baş vurmağa həvəsləndirmişdir. Doğrudur, müəllifin şeirlərində bilavasitə məktəbə, maarifə və elmə çağıran motivlər hiss edilməyəcək dərəcədə zəifdir; bununla belə, şairin keşməkeşli, ziddiyyətli, böhranlarla dolu həyat yolunda və əməli yaradıcılıq fəaliyyətində əxlaqi-tərbiyəvi işlərə böyük diqqət yetirməsi, yeri düşdükcə şeirlərində tərbiyəvi-didaktik mülahizələrə geniş yer verməsi Vaqifi fəal bir maarif xadimi, pedaqoq kimi də tanıtmışdır. Repressiya qurbanı, mollanəsrəddinçi alim Salman Mümtaz yazır: "M.P.Vaqif ilk dəfə məktəbəqədər fəaliyyətə Tərtərbasarda (indiki Tərtərdə) başlamış, sonra isə Pənahabadın (Şuşanın) Saatlı məhəlləsində davam etdirmişdir. Belə bir tarixi mühitdə meydana atılan ədib, müəllim, şair Vaqif öz istedadı, biliyi ilə etibar və ümid doğuran bir qüvvəyə çevrilir. Onun şeirləri oxucusunu xoş günlərə, həyata, bəxtəvərliyə çağırır" (5, 263).

Çox maraqlıdır ki, tərbiyə, əxlaq, etika və sair pedaqoji prinsiplərlə əlaqədar fikirlər, şairin estetik baxışlarında gözəllik anlayışını tamamlayan, bu anlayışın məzmununa yeni cizgilər gətirən mühüm müddəalar kimi daxil olmuşdur.

Vaqif, qoşmalarının mühüm hissəsini gözəlliyin təsvirinə həsr etmişdir. Bu əsərlərdə təsvir olunan "sərv qədli", "mina boylu," "zülfü ənbər", "şəkər göftarlı " gözəllər eyni zamanda gözəl yerişi, gözəl duruşu, gözəl rəftar və danışığı ilə də şairin ruhunu oxşayan real insanlardır.

Oturuşun gözəl, duruşun gözəl,
Sallanışın gözəl, yerişin gözəl,
Xoyun, xülqün gözəl, hər işin gözəl,
Bəxş olub bu xubluq xudadan sənə.(7, 30)

Xarici gözəlliyin təsviri şairin şeirlərində əsas yer tutur.

Ənliyi, kirşanı neylər camalın,
Sən elə gözəlsən binadan, Pəri. (7, 41)

– deyərək təbii insan gözəlliyindən bəhs edən Vaqif sadə, həyati təşbihlər vasitəsilə təsvir etdiyi gözəli oxucunun gözü qarşısında məharətlə canlandıra bilir.

Üzün ağ, dəyirmi, gözün məstana,
Baxışın bağrımı döndərdi qana.
Ağzın sədəf, dişlərindir dürdana
Əcayib cəvahir lə'li sevmişəm.
Halqalanır zülfün buxaq yanında,
Yay qaşların ucu qulaq dalında,
Zənəxdan içində yanaq yanında
Qara telli bir xətalı sevmişəm. (7, 57)

Vaqif gözəli ölkələrlə müqayisə edir, hətta onlardan üstün tutur:

Zövqüm, səfam, seyrim, bağım, çəmənim,
Süsənim, sünbülüm, laləm, səmənim,
Xətavü Xütənim, Çinim, Yəmənim
Hindustanım, Rumum, Iranım mənim.(7, 66)

Vaqif, qoşmalarında qadın gözəlliyindən bəhs edərkən vəfa, sədaqət, təmizlik kimi sifətləri bu gözəlliyin ayrılmaz hissəsi olaraq götürür, elmli, mərifətli qadınları tərifləyir.

Özgə ilə hərgiz olmaya işi,
Qafiyə qəzəldən həm çıxa başı,
Bulaqtək qaynaya həm gözü, qaşı
Artıq ola həm kəmalı gözəlin. (7, 77).

Buradan aydın olur ki, Vaqif gözəllikdən danışarkən təkcə zahiri keyfiyyətlərlə kifayətlənmir. O, qadınları mənəvi cəhətdən gözəl, həyalı, abırlı, incə zövqə malik insanlar kimi görmək istəyir.

Vaqif öz yaradcılığında bədii xitab və suallardan da geniş istifadə etmişdir:

Badi-səba, bir müjdə ver könlümə,

Ol güli-xəndənaım neçün gəlmədi?
Xəyalım şəhrini qoydu divanə,
Sərvərim, sultanım neçün gəlmədi? (7, 39).

Vaqifə xas olan ruh yüksəkliyi şairin bütün yaradıcılığı boyu davam etmir. Həyatın son illərində qarşılaşdığı ağır şərait şairin şəxsi əhvali-ruhiyyəsində də təsir etməyə bilmir. Bu isə şairin yaradıcılığında kəskin dönüş yaranmasıyla nəticələnir. Həmin illərin məhsulu olan əsərlərin ruhunda ciddi dəyişiklik özünü göstərir. Bu zaman şairin yaradıcılığında ictimai motivlər, həyatın, zamanın gərdişindən şikayət öz əksini tapır. Həyatının son illərində yazdığı "Bax" rədifli qəzəli və "Görmədim "müxəmməsində şair həyatın keşməkeşlərində müəyyən acı təcrübəsi olan, çərxi-dövranın ədalətsiz gərdişindən narazı bir insan kimi şikayətlənir. Əvvəl yazılan əsərlərdən fərqli olaraq bu şeirlərdə dərin hüzn, kədər, bədbin bir əhvali-ruhiyyə özünü göstərir.

Şair Vidadiyə yazmış olduğu "Bax" rədifli qəzəlində dostuna müraciətlə "Gərdişi-dövranın kəc rəftarından" ibrət götürməyə, həyatda baş verən bu cür gözlənilməz hadisələrdən dərs almağa çağırır.

Ey Vidadi, gərdişi-dövrani-kəc rəftarə bax
Ruzigara qıl tamaşa, karə bax, kirdarə bax! (7, 156)

Həmin şeirdə Vaqif dostuna müraciət edərək
Baş götür bu əhli aləmdən ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dusta, nə yarə bax! – deyir. (7, 156)

Gördüyümüz kimi, Vaqifin Vidadiyə müraciətlə dediyi bu sətirlər onun bundan bir qədər əvvəl həmin dostu ilə deyişərkən dediyi:
Say qənimət diriliyin dəmini,
Keçən həmdəmlərin çəkmə qəmini,
Ağlın olsun sil gözünün nəmini,
Dəxi geri gəlməz onlar, ağlarsan! (7, 219)
- misralarından mənaca nə qədər fərqlidir. Eyni şəxsə müraciətlə söylənilən bu şeirlərin ruhunda aydın görünən ziddiyyət Vaqifin dünyagörüşü və yaradıcılığında olan kəskin dönüşün ifadəsi idi.

Vaqif yaradıcılığındakı bu dönüşü aydın ifadə edən başqa bir əsər isə onun "Görmədim" müxəmməsidir. Şairin ictimai məzmunlu əsərləri içərisində mühüm yer tutan bu müxəmməsi Vaqif Məhəmməd bəy Cavanşirin hakimiyyəti illərində qələmə almışdır. Burada yaşadığı mühitdə həddindən artıq ədalətsizliklərə məruz qalan şairin etirazları, zəmanəsindən şikayətləri ifadə olunur. Vaqif bu müxəmməsi yaşadığı mühitin və cəmiyyətin başdan ayağa qədər haqsızlıq üzərində qurulduğunu kəskin ifşa edən aşağıdakı beytlərlə başlayır:
Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm əyri gördüm, özgə babət görmədim. (7, 185)

Bu sətirlər Vaqifin ədalətsizlik hökm sürdüyü bir cəmiyyətə olan etirazı, yaşadığı mühitə qarşı kəskin ittihamı idi. Daha sonra isə şairin həmin cəmiyyətin

ayrı-ayrı nümayəndələrinə, sultanlara, dərvişlərə, ədalətsiz bəylərə, din xadimlərinə və sədaqətsiz dostlara olan sonsuz nifrəti ifadə olunmaqdadır:

Nəfs əmmarə əlində sərbəsər olmuş əsir,
Həqqi batil eyləmişlər, işlənir cürmi kəbir,
Şeyxlər şəyyad, abidlər əbusən qəmtərir,
Hiç kəsdə həqqə layiq bir ibadət görmədim.(7, 185)

Belə bir zamanda qədirbilməz insanlarla əhatə olunduğunu qeyd edən şair eylədiyi yaxşılıq əvəzinə həmişə pislik gördüyünü söyləyir, dostluq etdiyi insanların ədavətindən şikayətlənərək:

Bulmadım bir dost kim, ondan bir ədavət görmədim. – deyir.

Cəmiyyətin özbaşınalığı, qanunsuzluq və ədalətsizlikləri ifşa edən bu şerində şair Müxtəsər kim böylə dünyadan gərək etmək həzər! – deyərək bütün bunlara qarşı etiraz və nifrətini yekunlaşdırır.

Molla Pənah Vaqif öz dəyərini xalqımız tərəfindən layiqincə alıb. Səməd Vurğun "Vaqif" dramını və Ramiz Mustafayev eyni adlı operanı istedadlı şairə həsr edib.

Mənbələr və ədəbiyyat:

1. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərnəşr, 1956, 328 səh.
2. Cəfərov N. Füzulidən Vaqifə qədər. Bakı: Yazıçı, 1991, 168 səh.
3. Çəmənzəminli Y.V. Qızlar bulağı.Qan içində. Romanlar. Bakı: Yazıçı, 1987, 328 səh.
4. Köçərli F. Azərbaycan ədəbiyyatı. II cilddə. I cild. Bakı: Elm, 1978, 600 səh.
5. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları, Bakı: Yazıçı, 1986, 445 səh.
6. Vaqif M.P. Əsərləri, (şeirlər). Bakı: Yazıçı, 1988, 192 səh.
7. Vaqif M.P. Əsərləri. Tərtib edən və ön sözün müəllifi H.Araslı. Bakı, Şərq-Qərb, 2004, 264 səh.
8. Vaqif M.P. Əsərləri. Bakı: Azərnəşr, 1969, 260 səh.
9. Vaqif M.P. Seçilmiş əsərləri. Bakı: Maarif, 1978, 160 səh.

Т.Гаджиева

Взгляд на творчество нашего великого поэта Моллы Панаха Вагифа

Резюме

Язык Молла Панах Вагиф – самый гений литературной среды, культивируемой народом Азербайджана, земли Карабаха в 18 веке. Его творчество и произведения составляют новый прекрасный этап в истории

азербайджанской поэтической мысли и художественно-эстетической мысли. Поэт является создателем азербайджанской национальной поэзии, реалистической художественной поэзии, лидером и идеологом движения общественно-политического сознания в Ближний и Средний Восток. Известный азербайджанский поэт Молла Панах Вагиф родился недалеко от Газаха в 1717 году, получил хорошее медресе образование, в совершенстве изучил арабский и персидский языки, вырос писателем с обширными познаниями в астрономии, математике, музыке и поэтике. В данной статье дается обзор жизни и творчества Моллы Панаха Вагифа, визиря, поэта, педагога, писателя. Сначала Адиб преподавал в медресе в родном Газахском районе, а затем в Карабахе, за ученость, руководящую способность и мастерство получил прозвище Молла Панах. Приехав в Карабах, поэт открыл в Шуше школу и вскоре стал известен среди жителей города как хороший учитель и талантливый поэт. Учитывая это, карабахский судья Ибрагимхалил-хан назначает Вагифа премьер-министром. М. П. Вагиф открыл своим творчеством новую страницу в истории азербайджанской поэзии, он всегда был дорог нам своими куплетами, таджни, газелями и мухаммами.

Ключевые слова: Молла Панах Вагиф , Карабах, Шуша, стихотворение, поэт, куплет, визир.

T.Cavadova

A LOOK AT OUR GREAT POET MOLLA PANAH VAGIF'S CREATIVITY

SUMMARY

Molla Panah Vagif is the most genius of the literary environment cultivated by the people of Azerbaijan in Karabakh in the 18th century. His creativityand works constitute a new, beautiful stage in the history of poetic and artistic-aesthetic thought of Azerbaijan. The poet is the creator of Azerbaijan's national poetry, realistic artistic poetry, the leader and ideologist of the socio-political consciousness movement in the Near and Middle East. The famous Azerbaijani poet Molla Panah Vagif was born near Gazakh in 1717, received a good Madrasa education, learned Arabic and Persian languages perfectly, grew up as a writer with extensive knowledge of astronomy, mathematics, music and poetics. The given article gives an overview of the life and creativity of Molla Panah Vagif as a vizier, poet, pedagogue, writer. At first, the poet taught in Madrasas in his native Gazakh district, and then in Karabakh. He was named Molla Panah because of his academic skills and wisdom. After arriving in Karabakh, the poet opened a school in Shusha and soon became known as a good teacher and a talented poet among the residents of the city. Taking this into account, Karabakh's ruler Ibrahimkhalil Khan appointed Vagif as prime minister.

M.P. Vagif has opened a new page in the history of Azerbaijani poetry with his creativity, he has always been valuable to us with his couplets, tajnis, ghazals and mukhammas.

Key words: Molla Panah Vagif, Karabakh, Shusha, poem, poet, couplets, vizier.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Samirə Ağababa qızı Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

YƏDULLA DADAŞLI
ADPU-nun Cəlilabad filialının dosenti,
filologiya üzrə fəlsəfə doktoru
Yadulla@mail.ru

MÜSTƏQİLLİK DÖVRÜNÜN ƏDƏBİ-NƏZƏRİ FİKRİNDƏ M.Ə.SABİR
(Professor Təyyar Salamoğlunun tədqiqatları əsasında)

Açar sözlər: Realizm, ictimai yuxarılar,dialoqun məzmunu,mühacirət ədəbiyyatşünaslığı,Sabirin satiraları.
Ключевые слова : Реализм, общественная вершина, содержание диалога, литературоведение в эмиграции, сатиры Сабира.
Key words: Realism, social superiors, dialogic content, emigration literary studies, Sabir's satires.

Iyirminci yüzilin son onilliyində Azərbaycan xalqının ikinci dəfə milli müstəqillik qazanması və öz inkişafının yeni mərhələsinə qədəm qoyması sosial-siyasi həyatda əsaslı dəyişikliklər, inqilabi çevrilişlər yaratdığı kimi , ədəbi və mədəni müstəvidə də fundamental yeniliklərin meydana gəlməsi ilə sonuclandı . Son otuz ildə milli ədəbi prosesin milli düşüncə işığında irəliləməsinə, ədəbi-nəzəri və estetik fikrin milli ruhda inkişafına , bədii və elmi sənət həqiqətlərinin öz həqiqi dəyərini almasına geniş imkanlar yaratdı. Milli ədəbiyyatımızın inkişafına geniş imkanlar yarandığı çağdaş dövrümüzdə Azərbaycan ədəbiyyatı klassiklərinin həyat və yaradıcılığının milli təfəkkür müstəvisində yenidən tədqiq olunmasına qayğı və diqqətlə yanaşılması, onların əsərlərinin dəfələrlə nəşr olunub ədəbi ictimaiyyətə və geniş oxucu kütləsinə çatdırılması həyatın ədəbiyyatımızın qarşısına qoyduğu tale yüklü məsələlərdəndir . Düzdür, sovet siyasi rejimi dövründə də klassik Azərbaycan şair və yazıçıları, dramaturq və publisistləri haqqında xeyli sayda tədqiqatlar, araşdırmalar aparılmış , elmi əsərlər yazılmış, onların ədəbiyyat tariximizdəki xidmətləri dəyərləndirilmişdir. Lakin bu araşdırmalarda , monoqrafik aspektdə aparılan tədqiqatlarda sovet rejiminin ədəbiyyat qarşısına qoyduğu siyasi tələblərdən irəli gələn ideoloji yanaşmalar üstünlük qazanmış , ədəbi şəxsiyyətin həqiqi elmi dəyərini almasına maneələr törətmiş , klassik sənətkar ideoloji qiymətləndirmənin qurbanına çevrilmişdir. Hətta iş o yerə gəlib çatmışdır ki, millətimizin qeyrətini, ədəbiyyatımızın təəssübünü çəkən bəzi yazıçılara “xalq düşməni” damğası vurulmuş, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə , Əhməd Ağaoğlu kimi qüdrətli vətən xadimləri qürbətdə yaşayıb -yaratmaq məcburiyyətində qalmış, Cəlil Məmmədquluzadə , Cəfər Cabbarlı kimi vətəndaş ədiblər aşağılanaraq “cığırdaş” adlandırılmışdır. Sovet dövrünü görməyən , bu

rejimdə yaşamayan ,lakin vətənin və millətin qeyrətini çəkən Mirzə Ələkbər Sabir kimi vətənpərvər şairə sovet dövrünün bəzi Azərbaycan ədəbiyyatşünasları ideoloji meyarlarla yanaşmış , onun satiralarını siyasi motivlər çərçivəsində araşdırmış, hətta onu sosialist realizminin astanasına yaxınlaşan bir şair adlandırmaqla yanlış elmi mülahizələr irəli sürmüş, metodoloji yanılmalara yol vermişlər . Artıq müstəqillik dövrünün ədəbiyyatımızın qarşısına qoyduğu mühüm vəzifələrin həyata keçirilməsinin, reallığa çevrilməsinin son dərəcə önəmli olduğunu qərarlaşdıran filoloq alimlərimiz klassiq ədəbi irsin , o cümlədən M.Ə.Sabir yaradıcılığının estetik meyarlarla dəyərləndirilməsi istiqamətində xeyli faydalı işlər görmüş, böyük əmək sərf etmişlər . Qeyd etmək lazımdır ki, M.Ə.Sabirin anadan olmasının 150 illiyi (2011) və 160 illiyi (2021) ilə əlaqədar olaraq , Respublikada elmi-praktik konfranslar keçirilmiş, bu konfranslarda çıxışlar edən onlarla alimlərin məqalələri işıq üzü görmüşdür. Şairin "Hophopnamə"si 2003 və 2004-cü illərdə Bakıda , 2012-ci ildə Türkiyənin İstanbul şəhərində görkəmli türk alimi Y.Akpınar tərəfindən çap olunmuşdur. Sabirin ardıcıl tədqiqatçılarından biri olan professor Alxan Bayramoğlu ilk dəfə şairin elmi bioqrafiyasını yazmış, "Mirzə Ələkbər Sabir" (həyatı və əsərləri ,2003), "Bənzərəm bir qocaman dağa ki ..." (2010) əsərlərində, Əbdülvahab Yurdsevər "Sabirin Azərbaycan ədəbiyyatında yeri" (2014) monoqrafiyasında dahi şairin ədəbi irsini müasirlik baxımından elmi tədqiqata çəkmiş, həqiqi qiymətini verməyə çalışmışdır. Hələ ömrünün gənclik illərindən M.Ə.Sabirin əsərlərini sevə-sevə oxuyan , Sabir sənətinin vurğunu olan , Sabir poeziyasının ecazkar qüdrətini, şairin vətəndaşlıq amalını, estetik qayəsini, milli və bəşəri idealını yüksək dəyərləndirən Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru , filologiya üzrə elmlər doktoru Təyyar Salamoğlu çox keçmir ki, Sabirin ardıcıl və geniş eridusiyalı tədqiqatçısına çevrilir. T.Salamoğlunun müstəqillk dövründə apardığı tədqiqatlarda sabirşünaslıq yeni bir keyfiyyət mərhələsinə daxil olmaqla yanaşı , ideoloji yanaşmadan uzaqlaşaraq estetiklik yönümündə öz inkişafını həyata keçirir . Sabirşünaslığın aktual problemlərini analitik təhlil süzgəcindən keçirən və onu yeni elmi faktlarla zənginləşdirən alim bədii mətn həqiqətlərini elmi həqiqətlərə çevirməklə öz metodoloji baxışlarını elmi şəkildə əsaslandırır .

Folklorşünas alim Seyfəddin Rzasoy Təyyar Salamoğlunun "Azərbaycan ədəbiyyatının müasir problemləri" (2014) adlı elmi-nəzəri və ədəbi-tənqidi məqalələr toplusuna yazdığı ön sözdə Təyyar müəllimi " ədəbiyyata milli vicdan məsələsi kimi baxan tək-tük alim"lərdən biri adlandırır , onun ədəbi xidmətlərini yüksək qiymətləndirir: "Lakin "Təyyar Salamoğlu" fakturası müasir ədəbi-nəzəri fikir üçün " qəfildən peyda olan" subyekt yox, artıq ədəbi-nəzəri məkanda yeri, rolu məlum olan , bu məkanın qurucuları səviyyəsinə qalxmış ədəbi simadır " (6,14). Təyyar Salamoğlu Azərbaycan ədəbi –nəzəri və estetik fikrininn çeşidli aktual problemləri ilə bağlı tədqiqatlar aparanda da, xıx əsrin sonu, xx əsrin əvvəlləri Azərbaycan uşaq poeziyasını elmi araşdırma predmetinə çevirəndə də , 1980-ci illər Azərbaycan romanının janr təkamülü və poetik özəlliklərini tədqiq edəndə də ,

Azərbaycan repressiya və mühacirət poeziyasına , ədəbi tənqid tariximizə dair portret-oçerklər yazanda da , ən yeni Azərbaycan ədəbiyyatı məsələlərini , o cümlədən Mir Cəlalın və İsmayıl Şıxlının bədii nəsrini müasirlik baxımından monoqrafik aspektdə araşdıranda da , nəhayət ,200-dən artıq elmi məqalənin müəllifi kimi tanınanda da "iti mühakimə, analitik təfəkkür, dil rəvanlığı, polemik ruh"a (Bəkir Nəbiyev) malik ədəbiyyatşünas alim və tədqiqatçı olduğunu sübuta yetirmişdir . Ədəbiyyatımızın ən müxtəlif dövrlərinin aktual problemlərinə özünəməxsus baxış bucağı altında ustalıqla nüfuz etmək bacarığı onun filoloji mühitdə imicini artırmış, elmi yaradıcılığına güclü maraq oyatmışdır. Filologiya üzrə elmlər doktoru, professor Yaqub Babayev haqqında danışdığımız filoloq alimin "xıx əsrin sonu, xx əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri" (2021) adlı dərs vəsaitinə yazdığı "Meyar həqiqətdirsə..." başlıqlı ön sözdə Təyyar Salamoğlunun şəxsi keyfiyyətlərini və elmi fəaliyyətini yüksək dəyərləndirmişdir: " Məsuliyyət, cəfakeşlik, axtarışa həvəs, araşdırıcı təşnəliyi, ayıq müşahidə qabiliyyəti, yüksək intellekt, dərin təfəkkür, bacarıqlı təhlil ədası tədricən Təyyar müəllimi peşəkar ədəbiyyatşünasa çevirmişdir. Və nəhayət, o, Azərbaycan ədəbiyyatşünaslığının nüfuzlu, tanınmış, öz sözü, səsi və nəfəsi olan filoloq alimlərindən birinə çevrilmişdir" (1,6). Həqiqət naminə etiraf etməliyik ki, Təyyar Salamoğlunun araşdırmalarında elmi mühakimə, analitik təhlil, məntiqi düşüncə, nəzəri yanaşma , təhlilə çəkilən problem və ədəbi hadisələrin dərin qatlarına , məna çalarlarına nüfuz etmək bacarığı olduqca güclüdür. O, aktual filoloji problemlə bağlı elmi sələfləri və müasiri olan filoloq alimlərlə polemikaya girəndə də elmi həqiqətləri axtarır və Bu həqiqətlərə arxalanır, tutarlı, dəlilli-sübutlu arqumentlərlə, məntiqli mühakimələrləelmi həqiqətləri üzə çıxarır. Təyyar müəllim araşdırdığı məsələ ilə bağlı filoloq alimlər və tənqidçilərlə polemika aparanda da oz konseptual mövqeyini ortaya qoyur və elmi həqiqətlərə söykənməklə nə qədər haqlı və məntiqli olduğunu sübuta yetirir. Ədəbiyyatımızın taleyini düşünən , onun mənafeyinə xidmət edən, milli ədəbi şəxsiyyətlərin haqlarını özlərinə qaytarmağa çalışan Təyyar Salamoğlu dünya millətləri içərisində öz millətinin də imzasını görmək amalı ilə yaşayan, milli ictimai şüuru oyandırmaq yolunda külüng çalan vətəndaş şairimiz Mirzə Ələkbər Sabirin də həqiqi elmi dəyərini verməyi, " sovet dövrü sabirşünaslığındakı elmi-metodoloji yanlışlıqları aradan qaldırmaq, Sabirin tənqid - gülüş hədəflərini dəqiq müəyyənləşdirmək, şairin bədii gülüşünün mahiyyətini aydınlaşdırmağı" (Zaman Əsgərli) qərarlaşdırır. Cəsarətlə deyə bilərik ki, Sabir şəxsiyyəti və yaradıcılığı son dövr Azərbaycan ədəbiyyatşünaslığında T.Salamoğlunun elmi araşdırmalarında öz həqiqi elmi qiymətini almış, dahi şairin məramı , məqsədi, milli poetik qayəsi, vətəndaşlıq qüdrəti, vətənə , millətə qırılmaz tellərlə bağlılığı öz təsdiqini tapmışdır. Sabirdə millət yanğısını görən T.Salamoğlu : "Hophopnamə"nin "əzəl mübtədası" Millət sözüdür " – yazanda nə qədər də haqlı və məntiqli görünür!

Təbiidir ki, T.Salamoğlunu daha çox M.Ə.Sabir yaradıcılığında milli intibah idealı və bu idealın sovet dövrü və müstəqillik illəri Azərbaycan ədəbiyyatşünaslığında dərki və təsviri məsələsi daha çox maraqlandırırdı. Dörd məqalədən ibarət olan və 2015-ci ildə işıq üzü görən kitabını "M.Ə.Sabirin milli intibah idealı" adlandırması da təsadüfi hadisə sayıla bilməz. Bu kitabda toplanılmış məqalələr müəllifin Sabirin poetik irsinə tamamilə yeni elmi baxışlarının metodoloji və estetik ifadəsi kimi diqqətimizi çəkir." M.Ə.Sabir yaradıcılığı milli ədəbi tənqid müstəvisində" adlandırdığı birinci məqalədə T.Salamoğlu XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidinin ümumi mənzərəsini yaratmaqla, ədəbi tənqidin şairin satirik poeziyasına münasibətinə aydınlıq gətirməklə yanaşı, məfkurəcə elmi-ədəbi düşüncələri arasına az qala "Çin səddi" çəkilmiş, ideoloji yanaşmanın yanlış metodologi baxışları ilə əks qütblərə bölünmüş, realist və romantik meyarlarla ölçülmüş, inqilabçı-demokrat və burjua millətçisi, pantürkist və panislamist, mürtəce yazıçı və jurnalistlər kimi səciyyələndirilmiş sənətkarları ideologiya və milli məfkurə baxımından birləşdirən cəhətləri dövriyyəyə buraxmışdır. Məqalə müəllifi tamamilə düzgün olaraq belə bir nəticəyə gəlir ki, "Yeni tipli ədəbiyyat uğrunda mübarizə, Azərbaycan ədəbiyyatının yol ayrıcında qalması tənqidi düşüncəni fəallaşdırmış, onun ədəbi prosesə fəal müdaxiləsini qaçılmaz etmişdi.

F.Köçərli və S.Hüseyn kimi Ə.Hüseynzadə və Ə.Ağaoğlunu da , "Molla Nəsrəddin"çilər kimi "Füyuzat"çıları da ədəbi tənqidə milli ədəbiyyatın problemləri gətirmişdir" (8,16). Göründüyü kimi , T.Salamoğlu milli ədəbi düşüncəni oyatmaq, milli ədəbi tənqidin irəliyə doğru inkişafını sürətləndirmək amalına mollanəsrəddinçilərlə füyuzatçıların eyni cəbhədə , eyni platformada xidmət etdiklərini, bununla da milli estetik məfkurə daşıdıqlarını vurğulamaqla da real həyat həqiqətlərinin parlaq mənzərəsini yaradır. Eyni zamanda sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığında milli ədəbi tənqidimizin XX yüzilin ilk onilliklərini əhatə edən mərhələsinin romantik və realist tənqid metodları kimi səciyyələndirilməsinə qarşı çıxmaqda da tamamilə məntiqli görünür. Ədəbi tənqidi yaradan sənətkarların estetik baxışları ilə tənqidi düşüncə üslubunun eyniləşdirilməsinin necə acı nəticələr doğurduğunu təsdiqləyəndə də elmi həqiqətlərə əsaslanır.Digər tərəfdən , sovet dövrü Azərbaycan ədəbi-nəzəri və estetik fikrinə baxışları çevrəsində romantik sənətkarların mütərəqqi və mürtəce dünyagörüşlü kimi dəyərləndirilməsinin , romantiklərin romantik tənqidi düşüncəyə , realistlərin isə realist tənqidi düşüncəyə malik olmasının heç bir məntiqi əsasa söykənmədiyini, bu metodoloji yanaşmanın siyasi rejimin ideoloji tələblərindən qaynaqlandığını təsdiqləyəndə də özünün həqiqətə və məntiqi əsaslara söykənən mövqeyini ortaya qoyur. Ədəbiyyat tariximizdə mütərəqqi romantizmin nümayəndələri kimi xarakterizə olunan Məhəmməd Hadi, Abbas Səhhət, Hüseyn Cavid, Abdulla Şaiq simalı ədəbi şəxsiyyətlərin yaradıcılığının yalnız romantik tənqidi düşüncənin məhsulu olması konsepsiyasına qarşı çıxmaqla da nə qədər güclü məntiqi təfəkkür sahibi olduğunu,

analitik təhlillərinin elmi reallıqlarla səsləşdiyini nümayiş etdirir. T.Salamoğlu adı çəkilən romantiklərin həm realist yazıçılar olduğunu, Sabirin yaradıcılığına realist və estetik meyarlarla dəyər verdiklərini, milli ədəbi tənqidin Sabir yaradıcılığı müstəvisində formalaşdığını sübuta yetirir . Təyyar müəllimin çağdaş milli ədəbiyyatşünaslığa gətirdiyi elmi yeniliklərdən biri də bundan ibarətdir ki, o, romantizmin nəzəriyyəçisi olan Əli bəy Hüseynzadə ilə M.Ə.Sabirin ədəbi əlaqələri və estetik baxışlarındakı bəzi uyğunluqlara ilk dəfə aydınlıq gətirmişdir. Tədqiqatçı alim Sabir haqqında ilk mətbu məqalənin müəllifi olan Əli bəy Hüseynzadənin estetik baxışlarının geniş və əhatəli olduğunu, "Ə. Hüseynzadənin estetik konsepsiyasında dünyanın həm romantik, həm realist dərkinə eyni dərəcədə yer" ayrıldığını bildirir. "Erməni vətəndaşlarımıza tövsiyə və ixtaratımız", "Molla Nəsrəddin" və "Dəbistan" , "Tolstoyluq nədir" məqalələrinin adını çəkməklə Ə.Hüseynzadənin təkcə romantik deyil, eyni zamanda realist bir tənqidçi olmasını da təsdiqləyir. Filoloq alim Əli bəy Hüseynzadənin sənətə estetik baxışlarını düzgün qiymətləndirərək yazır:

"Ə.Hüseyzadə realizmi, ilk növbədə, ictimai həyat hadisələrinə nüfuz və təsir gücünə görə dəyərləndirir. O, Tolstoy, Qoqol, Dikkens kimi dünya şöhrətli realistləri də, Vaqif , M.F.Axundzadə, C.Məmmədquluzadə, Sabir, Ə.Haqverdiyev, N.Nərimanov, S.M.Qənizadə və b. milli sənətkarların yaradıcılığını da bu kontekstdə dəyərləndirir". (8,20). T.Salamoğlunun dünya şöhrətli Azərbaycan alimi və tənqidçisi Əli bəy Hüseynzadə yaradıcılığına və onun Sabir poeziyasına mütərəqqi münasibətinə həqiqi sənətin estetik meyarları ilə yanaşması milli ədəbi-tənqidi düşüncəyə bəslədiyi yüksək vətəndaşlıq qayəsindən, bu düşüncəni obyektiv dəyərləndirmək amalından qaynaqlanır. A.Səhhətin "nəzəri dolğunluğu , ədəbi prosesə nüfuzun dərinliyi , söylənilən mülahizələrin obyektivliyi və sərrastlığı ilə daha ciddi maraq " doğuran "Sabir" məqaləsinin xalqımızın milli şüurunun oyanmasında daha önəmli olduğunu diqqətə çatdıran T.Salamoğlu görkəmli ədəbiyyatşünas və tənqidçi Firidun bəy Köçərlinin (1863-1920) də Sabir haqqında mülahizələrinə öz münasibətini bildirmişdir.

Professor Təyyar Salamoğlunun sabirşünaslığa gətirdiyi yeniliklərdən ən ümdəsi milli intibah idealına xidmət edən şairin "ictimai aşağılar"a və "ictimai yuxarılar"a münasibəti ilə bağlıdır. Məlumdur ki, sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığında tənqidi realizmin obrazlar sistemi tipoloji baxımdan "ictimai aşağılar"a və "ictimai yuxarılar"a bölünmüs, "ictimai aşağılar" dedikdə geniş xalq kütləsi, "ictimai yuxarılar" dedikdə isə cəmiyyətin yuxarı təbəqələri: xanlar, bəylər , mülkədarlar və başqaları nəzərdə tutulmuşdur. Cəmiyyətə sinfi mövqedən bu cür yanaşılması Sabir poeziyasında özünü doğrultmamış, şairin milli və estetik qayəsinin təhrifinə gətirib çıxarmışdır. Sabirin millətə, millətin bütün təbəqələrinə münasibətinə aydınlıq gətirməyə çalışan alim Sabir poeziyasının bədii mətn həqiqətlərinə əsaslanaraq elmi həqiqətləri aşkara çıxarır. Təyyat müəllim "Azərbaycan tənqidi realizminin estetikası" (2018) monoqrafiyasında milli tənqidi

realizmin estetik xüsusiyyətlərini C.Məmmədquluzadənin bədii nəsri və M.Ə.Sabirin yaradıcılığı əsasında aydınlaşdırır. Eyni zamanda Sabir satirasında "ictimai yuxarılar"a münasibət konteksində şairin estetik baxışlarını aydınlaşdırır, onun tənqid hədəflərinə münasibətini obyektiv müəyyənləşdirir. Akademik İsa Həbibbəyli "Azərbaycan tənqidi realizminin estetikası" monoqrafiyasına yazdığı "Tənqidi realizmin estetikasına realist elmi baxış" adlı ön sözdə T.Salamoğlunun Sabirin satiralarındakı "ictimai yuxarılar"a münasibətini açıqlayır: "T.Salamoğlu "Sabir satirasında "ictimai yuxarılar"ın mövqeyini obyektiv elmi meyarlarla tədqiq edib dəyərləndirir. Sabirin xalqın ictimai aşağılara və yuxarılara bölünməsinin şairi olmayıb , bütövlükdə və tam halda xalqın taleyinin vətəndaş müdafiəçisi olduğu yeni elmi mövqedən şərh edilmişdir. Milli şüuru oyatmaq, vətəndaş birliyinə nail olmaq Sabirin sənət kredosu, sənət konsepsiyası idi;- fikiri də elmi obyektiv qənaətdir." (4,7).

T.Salamoğlu Sabir satirasının sosial –fəlsəfi və estetik mahiyyətini aydınlaşdırmaq məqsədilə öncə şairin "millət" anlayışına münasibətinə , bu anlayışın məna tutumuna aydınlıq gətirməyi , daha sonra şairin tənqidi və maarifçi realizm metodları çərçivəsində estetik amalını və vətəndaş mövqeyini çözələməyi qərarlaşdırır. Sabir satiralarının bədii mətn materialları əsasında ictimai qayəsini açıqlayaraq yazır: " Ümumiyyətlə, Sabirin estetik düşüncəsində ölümə məhkum olan milli-sosial təbəqə yoxdur. Sabir yenicə yaranmaqda olan burjua münasibətləri zəminində meydana çıxan sosial təbəqə və zümrələri milli birlik uğrunda mübarizəyə səsləyir"(9,130). Tədqiqatçı onu da xatırladır ki, "milli birlik uğrunda mübarizənin taktika və strategiyasını dəqiq müəyyənləşdirən" şair milli birliyə milli şüuru oyatmaqla nail olmağın mümkünlüyünə bütün varlığı ilə inanır, millətin ruhunu diriltməyi, düşüncəsini tərbiyə etməyi yayımlayırdı. Hələ görkəmli türk alimi İsmayıl Hikmət 1924-cü ildə çap etdirdiyi "Sabir mürəbbi" məqaləsində Sabiri məhz tərbiyəçi şair kimi yüksək dəyərləndirmişdi. Professor Təyyar Salamoğlu da "milli şüuru oyatmaq, vətəndaş birliyinə və düşüncəsinə nail olmaq " uğrunda şairin apardığı mübarizəyə milli tərbiyədən başlamasını vurğulamaqla Sabirin təkcə demokratik dünyagörüşlü tənqidi realist sənətkar deyil, həm də maarifçi realist şair olduğunu diqqətə çatdırır. Tədqiqatçı sözünə davam edərək yazır:" Şair öz sənət kredosu uğrunda mübarizə və mücadiləyə "işin ibtidası"ndan -tərbiyədən başlamışdır. Sabirin tərbiyə məktəbində sinif və yaxud təbəqə, zümrə ayrı-seçkiliyi yox idi. Onun əsas tərbiyə üsulu tənqid idi. Böyük sələfi Axundzadə kimi o da "istehza, gülgü və məsxərə yolu ilə " yazılan əsərin tərbiyəvi-idraki gücünə inanırdı. Milli birliyə, oyanışa , tərəqqiyə mane olan hər cür qüsurlara, özünü dərk edən vətəndaş kimi formalaşmağa , vətənin və millətin taleyi ilə bağlı düşünməyə mane olan hər cür əxlaqi və mənəvi naqisliyə qarşı kəskin tənqidi münasibət Sabir satirasının həqiqi milli məzmununu yaradır" (9, 130). Deməli, Sabirin tənqidi realist üslubunun mayasında maarifçi realizm estetikası, bu estetikanın əsasında isə şairin tərbiyə məktəbi dayanır. Gözlərimizin önündə millətimizin qeyrətini çəkən, onu

sivilizasiyalı dünya xalqlarının səviyyəsinə yüksəltməyə çalışan vətəndaş bir şairimizin, "dəryada duran qocaman bir dağa bənzəyən" millət xadimimizin əzəmətli heykəli canlanır. Onu da qeyd etmək yerinə düşər ki, T.Salamoğlunun məntiqli və tutarlı analitik təhlilləri bizi bu qənaətə gətirir ki, Sabir satiralarının obrazlar aləmini ifşa yox ,tənqid hədəfinə çevirmiş, eyni bir millətin övladı olan kapitalistlə fəhlə, mülkədarla kəndli arasında milli fərq qoymamış, hər iki təbəqə nümayəndələrinin şüurunu oyatmağa çalışmış, onları vətənin taleyini düşünməyə, milli birlik, sosial ədalət uğrunda mübarizəyə səsləməklə " vətəndaşlıq düşüncəsi uğrunda mübarizə" aparmışdır. T.Salamoğlu Azərbaycan tənqidi realizminin estetikası ilə bağlı araşdırmalar apararkən Sabir satirasının dialoji-polifonik məzmununa da aydınlıq gətirmiş, yeni elmi-metodoloji baxışları ilə sabirşünaslığı zənginləşdirmişdir. Tədqiqatçının qənaətinə görə, inkar pafosu tənqidi realizmi səciyyələndirən başlıca amillərdən biri olduğu üçün Sabirin satira yaradıcılığına da şamildir. T.Salamoğlu Sabir satirasının dialoji-polifonik məzmunu ilə bağlı elmi arqumentlərini diqqətə çatdıraraq yazır: "Sabir satirasında inkar pafosu ilə təsdiq pafosu bir-birini tamamlayaraq, onun dialoji-polifonik məzmununu önə çıxarır. Bu satira heç də həmişə eybəcərliyi inkar məzmunu ilə özünəməxsusluq qazanmır. Burada cəmiyyətdə gedən proseslər mürəkkəbliyi, ziddiyyətləri, müsbət və mənfi tərəfləri ilə əks olunur. Sabir satirası maarifçi dünyagörüşünün ifadəsi olaraq öz üzərinə milli şüurun formalaşdırılması funksiyasını götürür. Bu funksiya onun cəmiyyətin bütün təbəqə və zümrələrinin həyatını bədii təhlil predmetinə çevirməsini qaçılmaz edir" (9,144). Bu dəyərləndirmə Sabir satirasının təsdiq və inkar pafosunu zərgər dəqiqliyi ilə ifadə edir. Sabir satiralarının bədii mətn həqiqətləri T.Salamoğlunu bu nəticəyə gətirir ki, Sabir millətin şüurunda inqilab yaratmağı, millətə öz milli mənliyini anlatmağı, sosial düşüncəni oyatmağı, müsəlman xalqlarını milli gerilikdən, ətalətdən və nadanlıqdan qurtarmağı qarşısına məqsəd qoymuş və bu amal uğrunda bütün yaradıcılığı boyu mübarizə aparmışdı. Tədqiqatçı alim onu da doğru müəyyənləşdirir ki, Sabir milli gerilikdən çıxış yolunu elm və təhsilə yiyələnməkdə, vətən övladını savadlandırmaqda, uşaqları məktəbə rəğbətləndirib onlara dünyəvi təhsil verməkdə görürdü. Deməli, Sabir məktəb uğrunda mübarizəni xalqı savadlandırmaq, cəhalətdən qurtarmaq, azadlığa çıxarmaq, azad vətəndaş cəmiyyəti yaratmaq uğrunda mübarizənin çıxış yolu kimi mənalandırırdı. Sabir cəmiyyətin xoşbəxt gələcəyi olan uşaqların da təlim və tərbiyə almasına, layiqli vətəndaşlar kimi yetişməsinə böyük önəm verirdi . Sabirin "Ata nəsihəti" satirasını analitik təhlil prizmasından keçirən müəllif onu da vurğulayır ki, cəmiyyətdə sosial-siyasi yeniliklərin genişlənməsi, "atalar"ın qaranlıq dünyasından "oğullar"ın birmənalı şəkildə sıyrılıb çıxmağa çalışması, milli intibah hərəkatına qoşulması Sabir satirasında inkar pafosu ilə təsdiq pafosunun bir-birini tamamlamasından soraq verir, hər ikisinin bu sənətin üzvi tərkib hissəsi kimi meydana çıxıb, onun həyati gücünü təsdiq etməsinin əlamətdar cəhətləri kimi meydana çıxır" (9,151) .

Müəllif onu da xatırladır ki, Sabir satiralarının bir qismi satirik tipin monoloqu biçimində yaranmış, ictimai düşüncəsinin yoxsulluğu səbəbindən bu obraz şairin tənqid hədəfinə çevrilmişdir. Digər tərəfdən, "əğniya"nın (dövlətlinin) , yaxud başqa satirik obrazın psixoloji portretini ustalıqla yaradan şair onun mənəvi aləminə güzgü tutur və bu güzgüdə satirik tipin iç dünyası, daxili (mənəvi) aləmi açıq –aydın görünür. Sabir satirik tipin şüurunu oyatmaq, onu cəmiyyət üçün layiqli vətəndaşa çevirmək, vətənin və millətin təəssübünü çəkən bir insan səviyyəsinə yüksəltmək amalını əsas fəaliyyət məqsədi kimi qarşısına qoymuşdu. Sabir millətin görən gözü, düşünən beyni idisə, "Hophopnamə" Azərbaycan cəmiyyətinin sosial həyatının güzgüsü, "millət" sözü isə , T.Salamoğlunun düzgün müşahidə etdiyi kimi, "Hophopnamə"nin "əzəl mübtədası"dır!

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığında olduğu kimi, mühacirət ədəbiyyatşünaslığında da Sabirin yaradıcılığı ilə əlaqədar olaraq xeyli araşdırmalar aparılmış, elmi tədqiqat əsərləri yazılmışdır. Mühacirət həyatı keçirən tədqiqatçılar Sabirin Azərbaycan ədəbiyyatı tarixində mövqeyini və yerini müəyyənləşdirməyə çalışmış, şairin estetik idealını aydınlaşdırarkən "Hophopnamə"nin bədii materiallarına əsaslanmışdır. Lakin onların Sabirlə bağlı elmi araşdırmaları bizim milli ədəbiyyatşünaslıqda kifayət qədər öyrənilməmiş və həqiqi qiymətini almamışdır. Bunu nəzərə alan T.Salamoğlu "Mühacirət ədəbiyyatşünaslığı Sabirə metodoloji münasibət kontektsində" məqaləsində mühacirət ədəbiyyatşünaslığının Sabirin poetik irsinə münasibətini aydınlaşdırmağı qarşısına məqsəd qoymuş, Azərbaycan mühacirət ədəbiyyatşünaslığının görkəmli ədəbi simalarından biri olan Əbdülvahab Yurdsevərin "Sabirin Azərbaycan ədəbiyyatşünaslığında yeri" (Bakı,2014) monoqrafiyasında Sabir haqqında söylədiyi mülahizələri bütövlüklə mühacirət ədəbiyyatşünaslığına şamil etməyin mümkünlüyü qənaətinə gəlmişdir. Alim bu fikirdədir ki, Sabir yaradıcılığı, xüsusilə satiraları mühacirət ədəbiyyatşünaslığında elmi-nəzəri və metodoloji cəhətdən düzgün anlaşılmış və obyektiv dəyərləndirilmişdir. Bu ədəbiyyat sosial və ideoloji təzyiqlərdən tamamilə uzaq olduğundan "Hophopnamə"nin materiallarından məqsədyönlü faydalanaraq Sabirin estetik idealına elmi meyarlarla dəyər verir. Sabiri mənsub olduğu millətin taleyi, xoşbəxt gələcəyi düşündürdüyü kimi, Azərbaycan mühacir filoloqlarını da "Sabir və millət" problemi daha çox düşündürür. Ona görə də onlar bu problemi önə çıxarır və həqiqi qiymətini verməyə çalışırlar. T.Salamoğlunun bir mülahizəsi də diqqəti çəkir:" Mühacirət ədəbiyyatşünaslığında Sabirlə bağlı aparılan tədqiqatların metodoloji əhəmiyyəti həm də onunla müəyyənləşir ki, burada "xalq" anlayışı "millilik" estetik kateqoriyasının ifadə vasitəsi kimi çıxış edir "(9,175).

Buradan aydın görünür ki, tədqiqatçı alim mühacirət ədəbiyyatşünaslığında Sabirin poetik irsinə elmi- metodoloji baxımdan düzgün yanaşıldığını dərindən duymuş, bununla bağlı elmi mülahizələrini dövriyyəyə buraxaraq yazmışdır: "Sabirin millətin bütün təbəqələrinin" mənafeyi uğrunda mübariz kimi dərk olunması, onun millətin bütün təbəqələri və əslində milli varlıq uğrunda

mübarizəsinin geniş mənada müstəmləkə rejiminə qarşı çevirilməsi, mahiyyətcə isə bunun milli varlığın özünüdərk və özgürlük savaşı olması mühacirət ədəbiyyatşünaslığından qırmızı bir xətt kimi keçir" (9,176). Bu dəyərləndirmə onu göstərir ki, başda Əbdülvahab Yurdsevər olmaqla , Azərbaycan mühacir ədəbiyyatşünasları Sabir satiralarının bədii mətn həqiqətlərini düzgün anlamış, şairin millətin bütün zümrə və təbəqələrinin azadlığı uğrunda mübarizə apardığını, beləliklə, milli düşüncəli vətəndaş şair olduğunu öz əsərlərində təsdiqləmişlər. T.Salamoğlu mühacir sənətkarların Sabir poeziyasına münasibətdə estetik baxışlarını düzgün müəyyənləşdirmiş , metodoloji yönümdə həqiqi elmi qiymətini vermişdir. Eyni zamanda "XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri" (2021) adlı sanballı dərs vəsaitində tənqidi realizmin Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir, maarifçi realizmin Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, İbrahim bəy Musabəyov və Sultan Məcid Qənizadə , romantizmin Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad və Umgülsüm Sadıqzadə, ədəbi tənqidin Firudun bəy Köçərli, Seyid Hüseyn, Əli bəy Hüseynzadə kimi böyük ədəbi simalarının yaradıcılığını müasirlik baxımından analitik təhlildən keçirmiş, bədii mətn həqiqətləri əsasında elmi həqiqətləri üzə çıxarmış, qabaqcıl fikirlər irəli sürmüş, ədəbiyyatşünaslığımızı yeni elmi faktlarla zənginləşdirmişdir.

Ədəbiyyat

1. Babayev Y. Meyar həqiqətdirsə...// Salamoğlu T. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri. Bakı: "Elm və təhsil", 2021, s.3-42
2. Cavadov T. Mirzə Ələkbər Sabir yaradıcılığı milli ədəbi tənqid müstəvisində// Sabir-150. Respublika elmi-praktik konfransın materialları ("Xəbərlər"in xüsusi buraxılışı), Bakı, 2011,s.9-11.
3. Əsgərli Z. Redaktordan // Salamoğlu T. M.Ə.Sabirin milli intibah idealı. Bakı:"Orxan" NPM, 2015, s.7-14.
4. Həbibbəyli İ. Tənqidi realizmin estetikasına realist elmi baxış // Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında). Bakı:"Orxan" NPM, 2018, s.3-8.
5. Nəbiyev B. Tədqiqatın təzəliyi// Salamoğlu T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: "E.Z". NPŞ MMC, 2009, s.3-22
6. Rzasoy S. Ön söz ,yaxud Yaradıcı subyekt milli ədəbi məkanın intellektual paradiqması kimi // Salamoğlu T. Azərbaycan ədəbiyyatının müasir problemləri. "E.Z". NPŞ ,Bakı, 2014, s 3-18.
7. Salamoğlu T. Azərbaycan ədəbiyyatının müasir problemləri. "E.Z". NPŞ Bakı, 2014, 512 səh.
8. Salamoğlu T. M.Ə.Sabirin milli intibah idealı. Bakı:"Orxan" NPM, 2015, 140 səh.

9. Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikası (C.Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı əsasında). Bakı:"Orxan" NPM, 2018, 182 səh.
10. Salamoğlu T. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri. Bakı: "Elm və təhsil", 2021, 662 səh.

Я. Б. Дадашлы.

М.А.Сабир в литературоведческом воззрении периода независимости (На основании исследовании профессора Тайяра Саламоглы)

Резюме.

Тайяр Саламоглы является одним из лучших исследователей творчества Мирзы Алекпера Сабира, видного поэта азербайджанского литературоведения периода независимости. Он много лет проводил исследования Сабира, писал интересные по содержанию работы и анализировал творчество Сабира с точки зрения современности. В статье анализируются работы учёного о творчестве Сабира. В статье показано, что как художники-романтики, так и художники – реалисты А. Саххат, А. Шаик, Ф. Кочарли в своих статьях о Сабире высоко оценили заслуги поэта в истории нашей литературы. В статье говорится, что Саламоглы выдвинул новые научные к преустовления о творчестве Сабира.

Он анализировал сатиры Сабира в свете нового мышления периода независимости. Саламоглы так же заявил, что творчество Сабира иногда не ценилось должным образом в советский период. В то же время он сказал, что Сабир пытается пробудить сознание всех слоев общества и что он борется за освобождение нации. В статье показано, что со стороны Саламоглы впервые выяснены литературные связи и соответствия во взглядах на искусство между Али бека Гусеинзаде и Мирза Алекпера Сабира. В статье так же приводятся сведения о диалогическом содержании сатир Сабира. Вместе с тем прояснилось и отношение зарубежного литературоведения к творчеству Сабира. Одновременно в статье показано, что Сабир боролся за интересы всех слоев нации. А так же автор исследовал отношение азербайджанского литературоведения к творчеству Сабира в начале XX века.

Y.B. Dadashli

M.A. Sabir in the literary-theoretical opinion of the period of independence (Based on the research of Professor Tayyar Salamoglu)

Summary

Professor Tayyar Salamoglu is one of the best researchers of the work of M.A. Sabir, a prominent poet in Azerbaijani literary studies of the period of independence. He conducted research on Sabir for many years, wrote interesting and meaningful works, analyzed Sabir's work from the point of view of modernity. The article analyzes the articles written by the scientist about Sabir's work.The article shows that both romantic and realist artists, including Abbas Sahhat, Abdullah Shaiq, and

Firudin Bey Kocherli, in their articles about Sabir, highly appreciated the services of the poet in the history of our literature.It is said in the article that he put forward new scientific ideas about Sabir's creativity. He analyzed Sabir's satires in the light of new thinking and evaluated them with the scientific thinking of the independence period. T. Salamoglu stated that during the Soviet era, Sabir's creativity was sometimes not properly appreciated. At the same time, Sabir said that he is trying to awaken the consciousness of all sections of the society, and that he is fighting to make the nation a minority. It is shown in the article that T. Salamoglu clarified for the first time the literary relations between Alibey Huseynzade and M. A. Sabir and the compatibility of their views on art. He also provided information about the dialogical content of Sabir's lines. At the same time, it clarified the attitude of emigration literary studies to Sabir's work. It showed that Sabir fought for the interests of all sections of the nation. At the beginning of the 20th century, he also investigated the attitude of Azerbaijani literary criticism to Sabir's work and gave his scientific assessment.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Razim Məmmədov Filologiya üzrə fəlsəfə doktoru,dosent tərəfindən çapa tövsiyə olunmuşdur

İÇİNDƏKİLƏR:

QULİYEVA ESMİRA ALLAHVERDİ QIZI
QƏDİM İNAMLAR, ETNİK ANLAYIŞLAR VƏ MƏİŞƏTLƏ BAĞLI TOPONİMLƏRDƏ PARALELLİK 3

D.Ə.NAĞIYEVA
SİNTAKTİK VASİTƏLƏR 9

ШАФИГА МУТАЛЛИМ КЫЗЫ МАГЕРРАМОВА
ТЕРМИНЫ В САТИРИЧЕСКИХ СТИХОТВОРЕНИЯХ М.А.САБИРА 16

NATƏVAN CAHANGIR HÜSEYNOVA
TERMİNOLOGİYADA NORMATİVLİYİN TƏNZİMLƏNMƏSİ..... 25

НАИЛЯ ГАДЖИЕВА ГАБИБ ГЫЗЫ
САЛИМОВА МЕХРИБАН САЛМАН ГЫЗЫ
КЛАССИФИКАЦИЯ РЕЧЕВЫХ АКТОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ 34

HƏQİQƏT MEHDİYEVA
TÜRK XALQLARI EPOSUNUN JANR NÖVLƏRİNİN TİPOLOGİYASI..... 41

МАХИРА МУСАЕВА
СЕДАГЕТ НУРИЕВА
ВЕДУЩИЕ КОМПОНЕНТЫ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ В ВОЕННЫХ ВУЗАХ 46

SALMAN SÜLEYMANOV
"DASTANİ-ƏHMƏD HƏRAMİ" VƏ ƏLİNİN "QİSSEYİ-YUSİF" ABİDƏLƏRİNİN DİLİNDƏ ƏRƏB MƏNŞƏLİ SÖZLƏR 54

ХАДИДЖА ЧЕЛЕБИЕВА ТОФИК КЫЗЫ
МОРФОЛОГИЧЕСКИЙ СПОСОБ ОБРАЗОВАНИЯ СЛОВ В СОВРЕМЕННОМ РУССКОМ ЯЗЫКЕ..... 64

AĞAYEVA RƏŞİDƏ RƏŞİD QIZI
İNGİLİS DİLİNDƏ NƏZAKƏT KATEQORİYASINDA GENDER ASPEKTİ..... 71

LALƏ ƏSƏDOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ LEKSİK BACARIQLARIN FORMALAŞDIRILMASINDA DİL MATERİALLARINDAN İSTİFADƏ METODİKASI 78

VƏFA MƏLİKOVA
LAYİHƏ ƏSASLI DİL TƏLİMİNİN XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ TƏTBİQİ YOLLARI 85

SƏİDƏ ABBASOVA
ÜNSIYYƏT MƏDƏNIYYƏTININ FORMALAŞDIRILMASI 92

MİRİYEVA AYNUR FÜZULI QIZI
ORTA MƏKTƏBLƏRİN İBTİDAİ MƏRHƏLƏSİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ OYUNLARDAN İSTİFADƏYƏ YÖNƏLMİŞ ÇALIŞMALAR. 103

NAĞIYEVA GÜNEL İZZƏDDIN QIZI
ŞİFAHİ VƏ YAZILI NİTQDƏ ATALAR SÖZLƏRİNİN STRUKTURU 111

TƏRANƏ NƏCƏFOVA
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI SOSİAL ŞƏBƏKƏLƏRDƏN İSTİFADƏ METODİKASI 119

GÜLNARƏ RƏHIMOVA
İŞGÜZAR SÖHBƏT 126

ABIYEVA VALİDƏ
AFƏT SƏFİXANOVA
MÜASİR İNGİLİS DİLİNDƏ İNKARLIĞIN SEMANTİK-SİNTAKTİK VASİTƏLƏRLƏ İFADƏSİ 132

ALLAHVERDİYEVA AYŞƏN BƏYLƏR QIZI
GRAMMATIK UND SPRACHTHEORIE BEI DEN STOIKERN 140

X.Ə.RƏFİYEVA
L'INTONATION EN FRANÇAIS 146

ГАСАНОВА СЕВДА,
АЛИЕВА ХАТЫН
СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ В ИНОЯЗЫЧНОЙ ПОДГОТОВКЕ ВОЕННОСЛУЖАЩИХ 152

АКБАРОВА НУРИЯЯ ЭЛЬМАН КЫЗЫ
МАММАДОВА ШАЛАЛА ЭЛИМДАР КЫЗЫ
СОВРЕМЕННЫЕ МЕТОДЫ ПРЕПОДАВАНИЯ РУССКОГО ЯЗЫКА И ЛИТЕРАТУРЫ 159

BƏNÖVŞƏ MƏMMƏDOVA
QAVRAYIŞ TƏRZİNİN DİL KİMLİYİ FORMATINI YÖNLƏNDİRMƏSINƏ DAİR 166

MƏTANƏT PAŞAYEVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU 175

NİGAR RƏHMANOVA
CANLI DANIŞIQ DİLİNİN BALACA ÜNSİYYƏT SFERALARI (MƏQALƏ) 182

AYGÜL EYYUBOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI KOMMUNİKATİV FƏALİYYƏTLƏRDƏN İSTİFADƏNİN YOLLARI 191

TEYBƏ CƏLİLOVA
PHRASES AFFECTIVES DANS LE FRANÇAIS 198

FATMA ƏLİYEVA YADULLA QIZI
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KEYS METODUNUN FƏRQLİ VƏ ÇATIŞMAYA XÜSUSİYYƏTLƏRİ 209

XURAMAN AĞASALAM QIZI ƏLİYEVA
MÜRƏKKƏB SİNTAKTİK BÜTÖV MƏTN VAHİDİ KİMİ 215

SƏBİNƏ İSGƏNDƏROVA
MƏTN VƏ DİSKURS 223

ƏDƏBİYYATŞÜNASLIQ

AQŞİN DADAŞ-ZADƏ
KLASSİK AZƏRBAYCAN MÜƏLLİFLƏRİNİN
PYESLƏRİNDƏ DRAM ÜNSÜRLƏRİ 230

RADƏ Mərdan qızı ABBASOVA
Ə.HAMİD VƏ H.CAVİD YARADICILIĞINDA YALANÇI
NİŞANLI MOTİVİ.....239

MƏMMƏDOVA HƏLİMƏ ELMAR QIZI
CREATING A FAVOURABLE AND HEALTHY MORAL AND
PSYCHOLOGICAL ENVIRONMENT IN A COMPREHENSIVE
SCHOOL 248

YUSIBOVA AYGÜN AZADIL QIZI
MƏMMƏD ƏMİN RƏSULZADƏNİN YARADICILIĞINDA
SOSİAL-FƏLSƏFİ PROBLEMLƏR.....257

SEVDA AGHAYEVA AYDIN KIZI
THE CRADLE OF AZERBAIJANI MUSIC – SHUSHA.....264

ŞƏRİFZADƏ FİDAN SAMİQ
İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ŞƏXSİYYƏT KİMİ
FORMALAŞMASINDA HUMANIZM TƏRBİYƏSİNİN ƏSAS
İSTİQAMƏTLƏRİ.....270

RƏNA RZAYEVA
"MUNİSNAMƏ"
MÖMİNLƏRİN ƏMİRİ ƏLİ İBN ƏBU TALIBIN İMAM HÜSEYNƏ - ONLARA
SALAM OLSUN! - VƏSİYYƏTİ VƏ ONUN ŞEİRLƏ TƏRCÜMƏSİ.....277

SEYİDOVA ŞAHNAZ İSMAYIL QIZI
A.P. ÇEXOV AZƏRBAYCAN ƏDƏBİYYATINDA.....286

TƏHMİNƏ ƏSGƏROVA
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ DÜNYA ƏDƏBİYYATINDAN
NÜMUNƏLƏRİN ÖYRƏDİLMƏSİNİN ƏHƏMİYYƏTİ.....292

MƏSMƏ MAHMUDOVA
KATİB ÇƏLƏBİ VƏ ONUN "KƏŞF ƏZ-ZUNUN AN ƏSAMİL-KUTUB
VƏL-FUNUN" ƏSƏRİ.....300

GÜNEL ƏSGƏROVA
"MOLLA NƏSRƏDDİN"İN "POÇT QUTUSU"NUN
TÖVQİF MƏKTUBLARI 309

MASUMA RAJABOVA
DIFFERENCE BETWEEN BRITISH ENGLISH
AND AMERICAN ENGLISH.....315

TƏRANƏ CAVADOVA
BÖYÜK ŞAİRİMİZ MOLLA PƏNAH VAQ İF
YARADICILIĞINA BİR BAXIŞ.....321

YƏDULLA DADAŞLI
MÜSTƏQİLLİK DÖVRÜNÜN ƏDƏBİ-NƏZƏRİ FİKRİNDƏ M.Ə.SABİR 328

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 24.10.2022
Şərti çap vərəqi 21,5. Sifariş №389
Kağız formatı 60x84 1/16. Tiraj 500

JURNAL "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4